
ӘЗИЗӘ
ЧӘФӘРЗАДӘ
САБИР

ƏZİZƏ CƏFƏRZADƏ

SABİR
(roman)

Bakı - 2016

Əzizə Cəfərzadə
Sabir. — Bakı: Azərnəşr, 1989, s. 232

Dahi şairimiz Mirzə Ələkbər Sabirin güldürə-güldüra ağladan, ağlatdıqca qeyrətə çağıran döyüşkən satirası ilə oxucular yaxşı tanışdır.

Bu kitabda müəllif həmin qüdrətli poeziyanı meydana gətirən əndişələrlə dolu zəmanədən, şairin ağır güzəranından, hücumlara, təqiblərə məruz qalmasından və bütün bunlara «qocaman bir dağ» kimi necə duruş gətirməsindən sənədlərin dili ilə ətraflı söhbət açır.

«TUTDUM ORUCU İRƏMAZANDA...»

Məhərrəmlik bu il bahara düşmüşdü. Novruz bayramı barədə heç söz də ola bilməzdi: «Orda ağalarımız qırılıb, biz burda bayram eləyəcəyik? Dəliyə gündə bayram — Həftədə Novruz». Şıdırğı hazırlıq gedirdi. Şiə məhəllədəri İmamlı, Şahpirli, Sarıtorpaq... dəstələr hazırlayır, xeymələr bəzəyir, lopalar düzəldir, ələmlər yaraşdırır, «Qasim otağı» üçün evlərdən yaraşıqlı xalça, ipək pərdə, tirmə pərdəbaşlığı, əlvan döşəkçə, dirsəkaltı... «Cənab Qasimin gəlini üçün» ən gözəl paltarlar: zərdur tuman, «qaz-qaz» duvaq, qırçınyaxa qofta, ətəklik... Məhəllələr arasında rəqabət gedirdi: kimin dəstəsi daha «şurlu» sinə vuracaq, kimin mərsiyaxanı daha gözəl səslə sinəzən oxuyacaq, kimin zəncirvuranı, baş yaranı...

Ömründə baş yarıb, zəncir vurmayan bəzi bəy, ağa, pullu hampa yazıb Qarabağdan, Təbrizdən, gözəl səsli xanəndə, rövzəxan gətirtdirirdi ki, təsirli mərsiyə oxusun. Şairlərə çuvalla buğda verib bu gün üçün xüsusi mərsiyələr, sinəzənlər, payminbərlər yazdıranlar da var idi. Bu hay-küy içində uşaqlar əvvəlcə yaddan çıxmışdı. Onlar da xeyli bikefləmişdilər. Axı, keçən il Novruz bayramı Məhərrəm ayına düşməyəndə onlar nə keyf çəkmişdilər. Bayrama neçə gün qalmış yumurta döyüşdürməyə başlamışdılar, dörd çərşənbə qalmış, xüsusilə ilaxır çərşənbədə oğlanlar da əllərinə xına yaxmış, küçələrdə tonqallar qalayıb üstündən atılmış, lopalar düzəldib fırlatmış, «Piləmbəri, baxtıbəri, baxtım açılsın» deyib tonqal üstündən atılan cavanlara qoşulmuş, sonra da xırdaca heybəciklərini, ya da qurşaqlarını götürüb qohum-qonşu, yaxın dost evlərinə «qurşaqatdıya» ketmiş, xeyli şirni, quru meyvə və başqa şey-şüy yığıb qayıtmış, anaların, nənələrin qulplu mis qazanlarda bişirdiyi zəfəran ətirli toyuqplov, zirincplov, mütəncimplov paxlaplov... yemiş və gecəyarıyacan dostları ilə məhəllədə toplaşıb axşam yığdıqları qoz, fındıqdan, şirniyyatdan ağızlarına ata-ata gün ərzində başlarına gələn gülməli hadisələri danışıb gülmüşdülər. Bütün bunlar keçən il olmuşdu, bu il isə..»

Bayram Məhərrəm ayına düşürdü. Gülmək, oynamaq yasaq idi: «Cənab Əliəkbər, cənab Qasim, Həzrət Səkinə kimi cavan ağalarımız, xanımlarımız Kərbəla çölündə Şümür, Yezid məlunun əlində əsir-yesir, al qanlarına qaltan olmuşdular». Nənələr, analar uşaqların qulağını bu kimi sözlərlə doldurur, oynayıb-güldüklərini görən kimi onları utandırırdılar. Odur ki, uşaqlar çox pərt idi. Amma birdən-birə məlum oldu ki, məhərrəmlikdə dəstələrin başını elə oğlan uşaqları açacaq. Onlara kürəyi, sinəsi, açıq köynəklər tikildi, xırdaca zəncirlər alındı. Bir dəstə balaca zəncirvuran, bir dəstə balaca sinəvuran oğlan uşağı hazırlandı. Mollaxana şagirdlərini molla onun xəlfəsi özləri hazırlayır dərs əvəzinə uşaqlara mərsiyə oxuyub sinə vurmaq öyrədirdilər.

Bu, balaca Ələkbərin demək olar ki, birinci müstəqil çıxışı olacaqdı. Məşədi Zeynalabdın ona xırda yaşından «baladərviş» paltarı tikdirmişdi. Atasının dükanı qabağında, bazarda gördüyü dərvişləri yamsılayaraq Nəsiminin Əli şəninə dediyi qəsidələrindən oxuyur, atasını fərəhləndirirdi: «Əlidir, Əlidir, Əlidir, Əli!» deyəndə anası Saltənət xanım onu quçaqlayıb bağrına basır. «Adın köməyin olsun, sənə qurban olum, Ələkbər» — deyirdi.

Ələkbər sakit təbiətli, dinc uşaq idi. Həyatın ağrı-acıları ilə çox tez üz-üzə gəlmiş, xırdaca olsa da böyük həssaslığa malik ürəyi ilə bu ağrı-acılı həyatdakı haqsızlıqları çox tez dərk edə bilməsə də ürəkciyiylə duya bilmişdi. İlk dəfə mollaxanada çərəkəyə qane olmayıb özündən böyük şagirdlər kimi yazı yazmaq istəyəndə molla onun «günahkar» balaca əlciyəzini falaqqaya salıb bir neçə çubuq vurmuşdu. Birinci dəfə oruc tutanda da bu əzabı, haqsızlığı duymuşdu İftardan əvvəl acdığını, çörək yemək istədiyini deyəndə ona: «Vaxtından əvvəl orucunu sındırsan atananan ölər» demişdilər. Elə bu iki haqsızlıq Ələkbərin romantik, xəyalpərvər uşaq qəlbini sarsıtmışdı. O xırdaca uşaq, bütün islam dünyasındakı nənə-babalar kimi haqsız tələbə kor-koranə boyun əyməmişdi. Üsyan etmişdi, gələcək inqilabın odlu-atəşli şairi, mollaların, seyidlərin, xalqı cəhalətdə saxlayan xurafatla camaatın başını

«piyləyənlərin» qanlı düşməni kəsilən Sabir Hophop — Ağlar Güləyən ilk üsyan səsini o zaman yeddicə yaşındaykən 1869-cu ildə ucaltmışdı, 1903-cü ilə kimi yazdığı şeirlərin nə vaxt qələmə alındığını söyləmək mümkün deyildisə də, məhz bu şeirin, bu ürəklər parçalayan üsyanın tarixi bəlliydi: 1869-cu il.

Tutdum orucu İrəmazanda,
Qaldı iki gözzərim qazanda,
Mollam da döyür yazı yazanda.

Ətrafındakı heç bir kişi, qadın, cavan-qoca bu üsyana, bu etiraza qadir deyildi. Bu elə ilk gündən, ilk nəzmindən Sabir idi.

Məhərrəmliyin Novruz bayramına düşməyi Ələkbərin də kefini pozmuşdu. Amma qaradinməz, həmişə düşüncəli, həlim uşaq bunu büruzə vermirdi.

Məşədi Zeynalabdın molla ilə danışmışdı, imamların öldürüldüyü aşura günü şəbeh dəstələrinin lap qabağında gedən mollaxana uşaqları üçün sinəzəni balaca Ələkbər oxuyacaqdı. Özü də onun sevimli balası təzəcə «baladərviş» paltarı geyəcək, əlinə xırdaca təbərzin və kəşkül götürəcək, sinə vuran həmyaşları üçün mərsiyəni əzbərdən oxuyacatdı. Uşaqlar da mərsiyənin təqtinə həmahənk kiçik əllərini kəvrək sinələrinə çırpacaqdılar. Ələtsbər cinkiltili səsn ilə «Yandım atəşdən mənə bir damla su!» deyə oxuduqca, körpələrin yanğılı sinəzəni damlarda, eyvanlarda durub baxan anaları, bacıları elə kövrəldəcək ki, «caan... qurbanın olum» deyə başlarına döyəcək, təpələrinə kül səpəcək, uzlərini cıracaq, dizlərinə, sinələrinə çırpa-çırpa hönkürəcəkdilər. Məşədi Zeynalabdın kişilər arasında, Səltənət xanım da arvadlar arasında sakit bir təşəxxüslə özünü çəkib bala uğuruna öyünəcəkdilər. «Qətil sındırılandan» sonra evə gələn kimi Səltənət xanım bir sıxma üzərrik və duz götürüb balaca Ələkbərin başına dolandıracaq və ocağa atıb «xayın gözü, dəyintili gözü, bəd nəzəri, yamai niyyəti, pis baxışı alışdırıb-yandıracaqdı»

* * *

Məhərrəmlik qurtardı. Tanış-biliş, dost-aşna, qohum-əqraba arasında hələ də balaca Ələkbərin aşura günü söylədiyi mərsiyədən söhbət gedirdi. Səltənət xanım uşağın azarlamasından yerində qorxurmuş. Bir neçə gün sarışın, zərif Ələkbərin çəlimsiz vücudu, xüsusilə boğazı ağrıdı.

Səltənət xanım oğlanı aparıb Kürəbənddə boğazına «su» vurmağa da qorxurdu. Müqəddəs sözlər oxuyan ağızı murdarlamağa ürəyi gəlmədi. «Allah, uğrunda can qoyduğu imamlar özü köməy olar» deyə düşündü. Neçə gün Ələkbər boğazı tənziflə sarıqlı gəzdi. Gözlərinin işığı sönmüşdü. Açıq havada səsi gəldikca, gücü çatdıqca hündürdən oxumaqdanmı, yoxsa mərsiyəni küçəbəküçə gəzdikcə sinə vuran uşaqlar üçün dönə-dönə oxumaqdanmı yorulmuşdu. Nəydisə yorğun, xəstə görünürdü. Mollaxanaya dərsə getmədiyindən ürəyində sevinirdi. Amma ayaq üstündəydi, gəzirdi. Bu gün də atasının dükanına gəlmişdi. Qapıya çatanda, piştaxtanın bəri üzündə Ağanı gördü. Mixəyi çuxa üstündən eyni rənkli əba geymiş, başına ucu şiş, dəri papaq qoymuş Ağanı kim tanımırdı? Nazik xətt qoyulmuş üzündən, qara gözlərindən nur yağan bu adam Şirvan əhlinin hamısı üçün «Ağa» idi, şair idi, Hacı idi, müəllim idi. Mollaxanada uşaqlar danışırdı ki, onun təzə açdığı məktəbdə çirkli həsir üstündə, yerdə oturmurlar. Lap «Malağan məktəbində»ki kimi kətil üstündə əyləşirlər. Özü də dərsə gələn gündən «Molla—müəllim» şagirdə qələm-dəftər verir, yazmaq öyrədir. O məktəbdə heç falaqqa da yoxdur. «Urusuycan»da öyrədirlər. Dərsi bir neçə müəllim verir. Day nə bilim... Ələkbər bütün bunları eşitmişdi. Hələ bir neçə dəfə «Ağanın məktəbi»nə yaxın gedib, aralıdan o xoşbəxt uşaqlara, ağanın özünə baxmışdı. Ələkbər o uşaqları bəxtəvər sanırdı. Həsəd aparırdı onlara; yazmaq öyrənənlərə. O öz kiçik ürəkciyinə toplanan sözləri, dolan hissləri yazmaq... yazmaq... kağız üzərində

görmək istəyirdi. Haradan idi bu arzu? Bilmirdi. Nədən doğur 6u istək? İzah edə bilməzdi. Amma qələm güclü bir həvəslə onu ezünə çəkirdi. Kağız və qələm onu məftun etmişdi. Əgər ilk məhəbbət deyilən şey vardısa — onda bu kağız-qələm onun ilk məhəbbəti idi. İlk uşaq məhəbbəti.

Dükanda Ağanı görəndə bircə anlıq, tək bircə anlıq üzünə təbəssüm yayıldı... Və... o saatdaca ciddiləşdi. Böyüyün yanında irişmək, gülmək ədəbsizlik sayılırdı. O artıq ikinci il idi ki, Mollaxanaya gedirdi; Belə-belə şeyləri — ədəb qaydalarını bilirdi. Kandardaca salam verdi, tez də geri qayıtmaq üçün dönmək istədi. İki böyüyün söhbətinə qarışmaq, çağırılmadan sallanıb onların yanını kəsdirmək də ədəb qaydalarına zidd idi. Amma ürəyi elə istəyirdi ki, Ağanın danışdıqlarını eşitsin, o xoşbəxt, yazı yazmaq bacaran şagirdlərin müəlliminin səsinə qulaq assın. Amma hayıf ki, atası ilə söhbətə gəlmiş Ağanın yanında durmaq olmazdı.

— Ələkbər...

İlahi! Bu səsdə nə qədər böyük, dərin, səmimi nəvaziş var idi! Bu səs onun kövrək ürəyinin hələ zərif, hələ incə, gələ nazik tellərini titrətdi, dilə gətirdi, həzin-həzin inlətdi. Gələcək müəllim və ustad arasında o beyük, o əsd, o sədaqətli məhəbbətin ezülü qoyuldu.

O bir də çağırdı:

— Ələkbər, bəri gəl.

Səksəkəylə yaxınlaşanda Ağa onun başını sığalladı:

— Bizim məktəbdə oxumaq istərsən, Ələkbər?

Məşədi Zeynalabdın mehribanlıqla gülümsəyirdi:

— Ağa belə məsləhət görür. Gəlib...

Dalını demədi. Uşağa izahat verməyi artıq saydı. Təkcə bunu bildirdi:

— Sabahdan Ağanın məktəbinə gedəcəksən.

Sevincindən yıxılmamaq üçün piştaxtaya söykəndi.

Yanırdı, atəşdən yanırdı. Və bilmirdi ki, Ağa onu elə «Yandım ətəşdən mənə bir damla su» deyib oxuyanda görüb. Vaxtilə onunla

birlikdə Mahmud ağa məclislərinə ayaq açmış gənclik dostu Zeynalabdının oğlu olduğunu bilincə, məhərrəmlik qurtarandan, matəm tətilləri bitib dərslər başlananda, köhnə dostunun yanına gəlib Ələkbəri yeni qaydada açdığı «üsuli-cədid» məktəbinə verməyi xahiş eləyib.

* * *

Mübahisə şəklini almışdı, dərs kimi getmirdi bugünkü dərs. Uşaqlardan biri hələ dərs başlamazdan əvvəl ustaddan soruşmuşdu:

— Baba, babilik nə deməkdir?

Doğrudan da o günlərdə Şamaxıda hər ağızdan babi sözünu eşitmək olurdu. Hardan çıxmışdı, necə düşmüşdü ağızlara bu söz? Əlbəttə, uşaqlar bunu bilmək istəyirdilər. Müəllim şagirdinin başını sığallayıb cavab vermişdi:

— Onsuz da bir saat dərsimiz əqaiddir[1]. Orada izah edərəm.

İndi budur, müəllim izah etdikcə şagirdlər diqqətlə qulaq asır, dərk etməyə çalışırdılar. Müəllim deyirdi:

— Məzhəb — təriqət, yol deməkdir. Dində hansı yolu tutmaq deməkdir. İslam dini yaranan gündən bəri ondan bir neçə məzhəb, yol ayrılıb. Sünnülük, şiəlik kimi. Babilik də onlardan biridir. Onu bir neçə müddət bundan əvvəl İranda Seyid Əliməhəmməd Bab təxəllüslü bir şəxs yaradıb. Bab — yəni qapı, dərgah. Məzhəblərin hər birindən məqsəd kuya haqqa gedən yolu tutmaqdır. Amma bilməlisiniz ki, haqq yolunda haçalanma, ayrıc ola bilməz. Yoxdur! hər bir şəxs düz yolla getsə — Haqqa çatar.

Müəllim xeyli müddət haqq yolundan və ona can atanlardan bəhs etdi. Sonra dərin sükut çökmüş otaqda, donub əyləşmiş uşaqları şənləndirib, qüssədən qurtarmaq üçün şagirdləri içərisində xüsusi qiymətləndirdiyi balaca Ələkbərə yaxınlaşdı, başı üzərində

---

[1] Dini əqidələr.

da yyndı, zarafatla dedi:

— Məzhəb məsələsində ən çətin Ələkbərin vəziyyətidir. Onun babası Hacı Tahir sünnü, nənəsi Məşədi Cəfər qızı şiədir[1]. Haqqa tez və doğru çatmaq yolunda Ələkbər bilməyəcək ki, onlardan hansının ətəyindən yapışsın. Mənə qalsa, o da, elə siz hamınız da heç bir məzhəbə meyl eləməyin. Həqqaniyyət yolunu tuqun ki, haqq ondadır. Yalnız düz yolla haqqa çatarsınız. Heç mənim də yolumla gedin demirəm sizə:

Demirəm mən gedən təriq ilə get!
Əqli tut, ol gözəl rəfiq ilə get.

Uşaqların üstünə sanki su ələnmişdi. Onlar evlərində belə asi sözlər eşitməmişdilər. Ata-ana onlara daima «atan yoluynan get!» deyirdilər. Burada isə istəkli müəllim onları ağlın qəbul etdiyi haqq yolu ilə getməyə çağırırdı. Deyirdi:

Bir baxın! Balaca, zəlzələlər, müharibələr görmüş xırdaca şəhərimiz nə gündədi?

Ələkbər, o zəif, o sarışın, ağ bənizli, zərif, mehriban, istiqanlı uşaq bütün varlırı, balaca qəlbindəki bütün duyğuları, dərrakəli başı ilə dərk edir, duyurdu ki, müəllimi haqlıdır. Bu haqqa çağırış onun ürəyində özünə əbədi və möhkəm yer eləmişdi... «Babam sünni, nənəm şiə... dürəngəm. Nə farsam mən, nə hindəm mən... Firəngəm? Muğanda — muğbeçə, məsciddə — Əkbər. Əzan verrəm... nə naqusəm, nə zəngəm». Sonra da o bu yazını qatlayıb cibinə qoydu. Bir azdan, tənəffüsdə uşaqlar onun üstünə düşüb gülüşəcəkdilər:

− Bu nədi? Sən ki, həmişə məhərrəmlikdə təkyələrdə mərsiyə oxuyursan. On gün məhərrəmlikdə o qədər sinəzən deyirsən ki, boğazın tutulur, bağlı gəzirsən. Şəbehgərdanlıqda həmişə Ələkbər

[1] Məlumat şair sinif yoldaşı Sultanməcid Qənizadənin xatirəsindən alınmışdır.

şəbihi olursan. Bəs sənin sünnü baban bu işə necə razı olur?

Bax, elə o zaman Ələkbər cibindən həmin kağızı çıxarıb dostlarına oxuyacaqdı. Müəllimi bu şeiri bəyənsə də, yenidən onu işlədəcək, daha dəqiq, daha dürüst alınmasına çalışacaqdı. Bütün bunlar gələcək Sabirin oyanmasında, dini həqiqətləri dərk etməsində, şeirə, insanın ən nəcib, ən kizli hisslərinin tərcümanı olan şeirə həvəsinin artmasında az rol oynamamışdı!

Bundan əvvəl də, sonra da Ələkbər Sabir əlinə hansı bir sələfinin, həmvətəni şairin əsərini alırdısa, fərqi yoxdur, onu doğru yola — Haqq yola dəvət edir və bu doğru yolu tutduqda riyakar ruhanilərdən, zahidlərdən, vaizlərdən uzaqlaşmağı, ehtiyatlı olmağı təlqin edirdi. Sələflərinin hər biri ayrı-ayrılıqda sanki əsrlərin məzarından qalxır, dilə gəlib deyirdi: haqqa çatmaq yolunda «əqli tut, ol gözəl rəfiq ilə get!» Bu, sələflərinin birinci, bəlkə də elə ən əsas vəsiyyətləri, tapşırıqları, əmanətləri idi.

Bir az sonra Seyid Əzim səyahətlər etmək, bilik qazanmaq, dünyanı görüb-götürmək eşqilə səfərə çıxan və atası tərəfindən geri qaytarılan sabiq şagirdini özünə yaxınlaşdırmışdı. Elm, ədəb, musiqi məclislərilə, şəhərə qonaq gələn ziyalıların görüşünə onu da özü ilə bərabər aparırdı, gözünü açır, biliyini artırır, dünyagörüşünü genişləndirir, ona oxumaq üçün kitablar verir, yazdıqı tutarlı şeirə müqabil kitab bağışlayır, yeni-yeni əsərlər yazmağa təşviq edir... Bir ata, bir ustad, bir müəllim kimi onun təhsili, təlim-tərbiyəsi, mənəvi inkişafı ilə məşğul olurdu.

Şamaxı mühiti darlıq edirdi Sabirə. Bunu ustadı da hiss edir, duyurdu. Axı bir neçə ildən sonra əsr dəyişəcək, dünyanı lərzəyə salan inqilab baş verəcək, «Molla Nəsrəddin» dünyaya gələcək, poeziya aləmi üçün böyük bir möcüzə — Hophop doğulacaqdı, Hophop bütün İslam şərqi üçün tipik olan hadisələri, adamları öz dili ilə dilləndirəcəkdi. Harda görəcəkdi Sabir bu böyük, ölçüyəgəlməz tiplər dünyasını? Təkcə Şamaxıdamı? Bir çox ölkələrdən ticarətə gələn tacirlərin yığıldığı Şamaxı bazarındamı? Hophop yarananacan çox az bələd olduğu «Neft və milyonçular

səltənəti» Bakıdamı?

Sabirin Hophopa çevirmək bünövrəsini, o zaman bütün İslam şərqini səyahət edib görmüş, müqəddəs yerlərdə təhsil almış ustadı qoymuşdu. O aləmə nifrətinin bünövrəsi ilk şeir dəftəri cırılıb, səyahət həvəsi ürəyində boğulanda qoyulmuşdu... Türküstanı gəzəndə, xüsusilə Xorasanda... Müqəddəs Məşhəd şəhərində... Məşhədi-müqəddəsdə yaşayanda... Şiəliyin ikinci Kəbəsində... Mirhaşımlar, mirhəsənağalar, zillisultanlar, məmdəlilər dünyasını şiələrin Kərbəla bərabərinə qaldırdığı Məşhəddə görmüşdü, tanımışdı.

Seyid Əzimin başladığını Abbas Səhhət davam etdirmişdi. Fransız, rus, fars və ərəb dillərini gözəl bilən, bu dillərdə onlarla qəzet və məcmuə oxuyan Abbas Səhhət hələ əsrin əvvəlində Tehranda fransızca Mədrəseyi-Nizamiyyeyi-Nasiriyyəni bitirib Şamaxıya qayıdandan sonra Sabir və başqa həmfikirlərini toplayıb ədəbi məclislər təşkil edəndə, bütün o çoxrəngli mətbuatdan oxuduqlarını dostlarına, xüsusilə hər yeni ictimai-siyasi hadisəyə yetiklik edib öyrənmək istəyən Sabirə danışar, onu fransız, alman, ingilis, daha çox isə rus ədəbiyyatı ilə tanış edərdi. Elə buna görəydi ki, Sabir «Sənmi böyüksən, Səhhətmi?» — sualına, özünəməxsus baməzə cavab vermişdi: «Yaşda mən, başda o!» Bununla da ikinci, bir növ «ictimaiyyət müəllimini» nişan vermişdi.

İndi isə... İndi isə hələlik bütün bunlar gələcəkdə olacaqdı, hələlik Sabir ilk müəllimi və ustadı böyük maarifpərvər şair Hacı Seyid Əzim Şirvaninin yanından ayrılmır, onun bildiklərini, bilib danışdıqlarını sünkər kimi özünə çəkib öyrənirdi. Bu, Sabirin ilk həyat darülfünunu idi. Bu həyat darülfünunun bircə müəllimi olsa da, bu bircə müəllim həyatın bütün keşməkeşlərini dadmış, həyatın bütün acılıqlarını dərindən bilən, aclar və toxlar, «şişboyunlar və barmağının kirini soranlar» dünyasını yaxşı tanıyırdı, gözəl bələd idi bu ağalar—qullar dünyasına. Biliyini də istəkli şagirdindən əsirgəmirdi. Çünki ona əyan idi:

Ey məh, bilirəm, fitneyi-dövran olacaqsan,
Ey qaşı hilalım, məhi-taban olacaqsan.

Ustad da, şagird də bircə şeyi bilmirdilər. Bilmirdilər ki, Seyid cəmisi əlli üç yaşında bu dünyanı tərk edəcək. İndi heç əlli yaşı tamam olmasa da, saçı-sarqalı çoxdan ağarıb. Möhnət ağardıb. Zillət ağardıb. «Budu gəldi səfahətin kanı» deyənlər dağıdağ üstən çəkiblər qəlbinə. Ölümünə çox az qalıb. Əlli yaşı olmasa da, kühənsal — ağsaqqal hesab olunan Ağanın vəfatı zamanı onun sevimlisi, gələcəyinə böyük ümidlər bəslədiyi Sabir Şamaxıda olmayacaq. Seyyidin vəfatına Şamaxının cavan şairlərindən Ağaəli bəy Naseh Maddeyi-Tarix — «vəfat tarixi» yazacaq...

Hər halda bütün bunlar da sonra olacaq. İndi isə Sabir ilk təhsilimi ustad müəlliminin rəhbərliyi ilə davam etdirir, ustadından barışmazlıq, həqiqət-pərəstlik dərsi alırdı.

Bu səadət heç üç il çəkmədi. Dükanda ticarəti o qədər də yaxşı getməyən, qocalmağa başlayan Məşədi Zeynalabdının köməkçiyə ehtiyacı var idi. Gözü sonbeşiyi, yeniyetmə Ələkbərə dikilmişdi. Ümidi Ələkbər idi. Bir gün axşam şam süfrəsi başında əyləşmişdilər. Arvad-uşaqla məsləhətləşmək adəti deyildi. Süfrə yığılanda qərarını Səltənət xanıma bildirdi ki, Ələkbər də, o biriləri də eşitsin, dedi:

— Səhərdən Ələkbəri hazırla! Məniynən dükana gedəcək.

Səltənət xanım bir söz demədi, təəccüb də eləmədi. Ərin hökmü allahın hökmü idi onun üçün.

— Baş üstə, — deyib yır-yığışına davam etdi.

Bəs Ələkbər? Ələkbərin ürəyi qopdu. Gözləri böyüdü, Bir anda bət-bənizi ağardı. Axı, o indi-indi əsl şeir hesab elədiyi qəzəllərini bütün qanunlara uyğun yazmağa başlamışdı. Əruzun qaydalarını öyrənirdi ustadından. Ustad təkəmbir nəzərinə çarpan bu qəzəllərdən razı qaldığını bildirir, Sabirə sənətə yiyələnmək üçün səbr arzulayır, böyük, işıqlı, şeir, musiqi, gözəlliklər, gözəl əməllər dolu bir tale vəd edirdi. Birdən-birə atasının qərarı onun belini sındırdı. Boynu üstündə durmurdu. Gah atası, gah imdad dolu baxışlarla anası tərəf baxırdı. Lakin anasından heç bir ümid gözləyə bilməzdi. O, ərinin sözsüz-səssiz kölgəsiydi. Bu qərarı, bu amansız, ölümə bərabər sandığı hökmü pozsa-pozsa, bircə elə atası özü poza bilərdi. Ələkbərin atası baqqal olsa da, dükançılıqdan zəndeyi-zəhləsi gedirdi. Ustadının onlara ulu şairlərdən Qasım bəy Zakirin «Mürəbbeatından» oxuduğu heç yadından çıxmırdı: «Baqqal qoyar tərəziyə imanın. Əsəl[1] qiymətinə satar ayranın». Atası Məşədi Zeynalabdın o haramxorlardan deyildi. Amma hər halda baqqal olub ömrünü o dar dükanda, o tərəzi dibində, piştaxta dalında, həmkarları ilə qeybətlə dedi-qodu və bir də ibadətlə keçirmək Ələkbəri cəlb eləmirdi. Gələcəyi haqqında onun öz arzuları, hələ heç kəsə demədiyi xəyalları var idi. Balaca qəlbinin dərinliklərində gizlətdiyi bu böyük əməllər, arzular, şirin xəyallar köksünə sığmır — qabardırdı, nəfəsi daralırdı hərdən. O da öz böyük həmvətənləri Xaqani, Seyid Zülfüqar Qiyasəddin, Şəmsəddin, Nəsimi, Ustadı Seyid Əzim kimi elm, şeiriyyət, gözəllik aşiqi şair, ya alim, ya xalqı içində maarifyayan bir məktəbdar müəllim, ziyalı olmaq fikrindəydi. Bəlkə də, təhsilini davam etdirmək üçün başqa şəhərlərə, ölkələrə kedə biləcəkdi. Düzdür, atası onu «kafiristana» buraxmaz, bir qəpik də yol xərci verməzdi. Amma ruhani olmaq istəməsə də, Şərqin qədim darülfünunlarında oxuya bilərdi. Məgər öz ustadı və müəllimi Seyid Əzim elə həmin darülfünunlardan çıxmayıb? Molla ki olmayıb? O da, Ələkbər də eləcə... Lakin bu

---

[1] Bal

gün... Bu qərar... Bu bütün əməllərini öldürə bilən hökm... Ələkbərin birdən-birə ruhdan düşməsi əbəs deyildi. O, atasının iradəsinə bələd idi. Dedi, — sözündən dönməzdi. Qərar verdi, — dəyişməzdi. «Sözü bir kərə» deyərdi. Bununla beləq titrək səsində duyulan daxili faciəni gizlədə bilmədən iriləşmiş gözlərini atasıia zillədi:

— Dadaş...

Kişi, görünür elə gündüzdən hövsələsiz idi. İndi bir az yeyib-içib yumşalmışdısa da, yenidən çətinlikləri, cəfaları, azalan alver, getdikcə kəsilən qazancı yadına düşdü. Elə bil vücuduna od vurdular. O, oğlundan kömək umur, bu da...

— Hə... Nə var? Nə dadaş? Qara tanıdın — bəsdi. Az-maz yazı-pozu bildin, dükan hesabında karına gələr. Day bizimcün oxuyub molla olmayacaqsan, mirzə olmayacaqsan...

Səltənət xanım hər cəhətdən ərilə razı idi. Baqqallığı çörəkli, halal sənət sayırdı:

— Əyşi bu nə sözdü, hövsələni bas!.. Noolub ki, özünü darıxdırırsan.

Kişi, doğrudan da, səbəbsiz qızışmağına utandı. Axı, çətinliklərində külfət günahkar deyildi ki? Həm də Ələkbər onun ən ağıllı, sevimli, üzüyola balası idi. Bəlkə ayrı söz deyəcəkdi. Niyə uşağın üstünə qışqırdı? Bununla belə, təəssüfünü uşaq-muşağa bildirmək adət deyildi, Bir söz demədi. Dinməzcə durub həyətə çıxdı,

* * *

Hacı Seyid Əzim ağanın nəsihətləri kar eləmədi. Böyük maarifpərvər çox dedi, oğlunun istedadı, elmə, biliyə həvəsindən danışdı. Həm dostunu sevməyi, həm də Hacı, seyid peyğəmbər övladına ədəb gözləyib sərt cavab qaytarmaq istəməməyi Zeynalabdını saxlayırdı. Trəyində düşünürdü: «Ay rəhmətlik oğlu, biri elə sən -özün. Elmlə, biliklə, yazı-pozu ilə nə qazanmısan?

Hanı sənin o bir dünya boyda adına layiq evin, eşiyin? Mal madarın? Beş gün tapanda beş gün də tapmırsan. Dövlətli ağaların yadından çıxsa, keyfinə gəlməsə, köndərməsə nə yeyəcək külfətün? Ay sənin cəddinin qurbanı olum, baqqallıqda, hər nədi genə bir tikə halal çərəyi var. Bu gün yeyəndə sabaha da arxayınsan ki, külfətin ac qalmayacaq... Cızmaqaraçılıqdan nə çıxacaq onunçun?»

Ağanın təkidləri onu yoranda həmyaşı, həmtayı kimi ərklə cavab verdi:

— Sən cəddün ağa! Uşağı boşla getsin. Qoy bir parça minnətsiz çörək qazanmağın yolunu...

Ağanın üzü tutuldu... Və Zeynalabdın anladı ki, «minnətli çörək» kişinin qəlbinə toxundu. Hər ikisi Şamaxılı, hər ikisi sözdən söz seçən, tükcən kəlmədən filcən məna çıxardanlardan idi. O gündən sonra Seyid Əzim bir də «Ələkbər — oxumaq» sözlərinə toxunmadı. Hər rast düşəndə mehribanlıqla görüşdü. Uşaqların özünün keyfini soruşdu. «Ələkbər — məktəb» adı çəkmədi.

Zeynalabdın isə Ələkbərin simasında umduğu köməkçini tapa bilmədi. Oğlanın fikri-zikri yazı-pozuda, dəftər-qələmdə, kitab-mitabda, oxumaqda idi. Nə qədər ki, atası dükanın içindəydi, oğlan gələn müştəriləri yola salır.

— Baaşuva dönüm, Ələkbər, ondan mənə yarım girvənkə — deyənə hörmətlə xidmət edirdi. Müştəri gedəndən sonra da dükanda, piştaxta üstündə qəfəslərdə səliqə-sahman yaradır, asma tərəzini, çəki daşlarını silib təmizləyirdi. Elə ki, atası dükandan çıxırdı, dükan da, tərəzi də, alver də, qazanc da gedirdi işinin dalınca. Zeynalabdın bir-iki dəfə göz qoymuş, görmüşdü ki, o qapıdan uzaqlaşan kimi oğlu haradasa gizlətdiyi dəftər-qələmini üzə çıxardıb başlayır yazmağa, oxumağa. Hirslənirdi kişi, bir istəyirdi ki, geri qayıdıb bu nankor övladın aşının suyunu versin, amma ata məhəbbəti, qonşuların qınağı, döyməyə qoymurdu onuu; ar eləyirdi — əlini böyrünə, dizinə çırpıb: «Aax!.. Fərsiz övlad!» — deyib çıxıb gedirdi. Amma ürəyinin harasındasa ümid edirdi ki? müştəri gələndə Ələkbər dəftər-qələmi atıb əsl işini görəcək.

Ata-oğul arasında səssiz-sözsüz artan, sakit axmağz başlayan sel suyunun əvvəli kimi bulanan münasibət bir gün partlamalı idi. Belə bir gün gəldi. Bir saat olardı ki, Zeynalabdın dükandan getmişdi. Qayıdanda köhnə müştərilərindən Əbdüllə dükan qonşusunun söhbətini eşitdi:

— Aadə... Sən bilərsən aadə, bu Məşədi Zeynalabdın harda olar?

— Bayaq harasa getdi.

— Bəs oğlu yoxdu dükanda?

— Əh... Onu oğul olan yerdə... Görəsən gənə hansı cızmaqaraçıya qoşulub bədyələşir[1]. Ya da harasa təlilib atasının gözündən yayınıb kitab oxuyur Fərəməz.

– İşim vardı meşədiynən.

Əbdül qonşunun dükanına keçdi.

Qan Zeynalabdının başına vurdu. Danışanlar onu görmədilir. Cəld özünü dükana saldı. Doğrudan da, ilk baxışda dükan boş, yiyəsiz görünürdü. Ələkbər dib tərəfdə kətilin üstündə oturub qalın bir «bayaz»a nə isə yazırdı. Nəinki müştəridən, hətta hirslə, guppultuyla dükana cuman atasından da xəbər tutmadı.

Onda ayıldı ki, acı sinc səsi verən bir şapalaq qulağının dibində partladı. Gözlənilməz zərbədən kətilqarışıq səndirləyib dəşəməyə diyirləndi. Dəftərqələm əlindən yerə düşdü.

...Və elə Məşədi Zeynalabdının əsl düşməni kimi, -əsl qəzəbinə də dəftər məruz qaldı. Qələm kişinin ayağı altında şaqqıldayıb sındı, xıncım-xıncım oldu. Əyilib qeyzlə dəftəri qapdı, bütün hirsini üstünə tökdü, az qala hər vərəqi ayrı-ayrılıqda parçaladı, tikələdi, xırdalayıb Ələkbərin başına sovurdu. Qəzəblə qışqırdı:

— Rədd ol, qancıqdan törəmə! Allah səni mənə belə verincən, bir kor qız versəydi... İtil gözümdən nadürüst. Bir də əlində dəftər-qələm görsəm, böyük tikəni qulağıncan eləyəcəyəm. Səni o varaqların tikəsiycən...

---

[1] Burada, şeirləşir.

Ələkbər qalxdı. Üzü yanırdı. Bəyaz, hələ tük gəlməmiş, şaftalı qabığı kimi zərif dərisində Zeynalabdının dörd barmağının izləri qalmışdı. Qəlbi bomboş idi. Kövrək qəlbi zərif çini kimi qəlpə-qəlpə olmuşdu. Heç kəsi görmək, dosta-tanışa, qohuma rast gəlmək istəmirdi. Daldalarla evə yollandı. Darvazadan həyətə girən kimi otağa keçmək fikrindəydi. Lakin anası ila bacısı Nazlı həyətdə paltar yuyurdular. Hər ikisi qapı səsinə başlarını qaldırıb Ələkbərin üzünü görəndə donub qaldılar. Nazlı özünə gəlcək qardaşının üstünə cumdu:

— Ələkbər, sənə nə olub, baaşuva dolanım?

— Əəədə... Savaşmısan yoxsa?

Bu, anasının səsi idi. Ələkbər başını bacısının qolları arasından güclə çıxarıb:

— Dadaşım, — deyə pıçıldadı. Bu isti, bu mehriban qollar arasında ağlaya biləcəyindən qorxdu və evə qaçıb getdi. Küncdə döşəkçə üstünə uzandı, başını divara çevirib qaldı. Otaq yarımqaranlıq — xəyalları kimi tutqun idi. Gözlərinin yaşı içərisinə tökülüb yandırırdı onu. Bu daxili ağlayışdan bütün vücudu silkələnir, lərzəyə gəlirdi.

Atasına acığı tutmurdu. Onun şeir dəftərini atası cırmamışdı, Baqqal Məşədi Zeynalabdın cırmışdı. Onun üzünə xəcalət çəkdiyi silləni ata vurmamışdı. Onu da baqqal Məşədi Zeynalabdın ilişdirmişdi. Onun nifrəti, düşmənçiliyi bu baqqala qarşıydı.

..«Gərçi u dəftəri-əşari məra parə nəmud»... Nədənsə üsyan səsi, etiraz harayı kimi qəlbində ucalan şeirin misraları farsca gəlirdi. Bəlkə, bir daha baqqallara bildirmək istəyirdi ki, o təkcə öz doğma ana dilində deyil, təkcə böyük Füzulinin dilində deyil, böyük Sədinin, Hafizin dilində də şeir yarada bilir. Burada bəlkə də hələ yetkinləşməmiş, uşaqlıqdan gəncliyə qədəm qoyan cavanın qüruru var idi. ...Məhz bu gün o uşaqlıqla vidalaşırdı. Bu gün! Bu yataqda. Xəyalları kimi qaranlıq otaqda üzü divara uzandığı halda. Onu dünyaya gətirən «ata haqqını allah haqqı» bildiyi bir insandan qabalıq gördüyü, sillə yediyi gündə. Mollaxanadakı falaqqadan

sonra aldığı bu zərbə həyatın ikinci acı qamçısı idi. Köksünü deşirdi.

Bu gün o uşaqlıqla vidalaşıb ilk müstəqil qərarını verdi: «Mən getməliyəm, getməliyəm. Mən burada qala bilmərəm. Təkcə onu yox, heç kəsi, heç kəsi görmək istəmirəm. Heç kəsə, heç kəsə görünə bilmərəm».

...Düz bir sutkaydı ki, o azad idi. Bax o quşlar kimi... Üzərində heç kəsin, heç bir baqqalın hökmü, gözü, yumruğu yox idi. Malağanların yaşadığı bu kəndi də yaxşı tanıyırdı. Bir-iki kərə atası, əmisi, dayısı ilə irəlilərdə də buraya gəlmişdi. İndi karvan ləng qalxacağından kəndin qırağında «Diri Baba» türbəsinə yaxın qəbiristanın bəri üzündəki qədim karvansaranın böyründə dayanıb malağan evlərinə, tayalarına, pəyələrinə tamaşa edirdi. Aydın sübh çağı malağan inəkləri yavaş-yavaş kövşək vura-vura naxıra tərəf irəliləyirdi. Naxırçı kəndin qırağında durub çənəsini yerə dayadığı çomağa söykəyib naxırın ardınca baxırdı. Malağan kəndi irəlilərdə olduğu kimi, yenə də onu qibtə qarışıq heyrətə salmışdı. Möhkəm daş evlərin yaraşıqlı pəncərələri var idi.

Hamısı əhənglə ağappaq ağardılmışdı. Üstünə kirəmit, ya dəmir vurulmuşdu. Həyətləri tər-təmiz, səliqəli, gül-çiçək əkilmiş dəmir barmaqlıqlı qəşəng, hasara alınmışdı.

Balaca Ələkbər düşünürdü. Ata-ana, ev-eşik beş ağaclıq yolda — bir günlük karvan yolu qədər aralıda qalmışdı. Hərdən təkcə Nazlı yadına düşəndə, qız gözünün qabağına gələndə bacısı üçün burnunun ucu köynəyirdi. Heç kəslə vidalaşmamışdı. Heç kəsə niyyətini deməmişdi. Dünən səhər doğma evi tərk etmişdi, vəssalam. İndi azad idi. Mavi göylərdə bir-birini qova-qova cövlan edən o quşlar kimi. İstədiyi vaxt yaza, istədiyi vaxt oxuya bilərdi. İşləyəcəkdi. Mirzəlik eləyəcəkdi. Lazım olanda hamballıq da edəcəkdi. Amma bir daha heç kimdən qapaz, sillə yeməyəcəkdi. Yeməyəcəkdi! Birinin «dadı» bəs elərdi...

Karvanın qalxmağına lap az qalmışdı. Birdən Ələkbər atasını gördü. Kişi atla Şamaxıdan gecəyarı çıxıb özünü karvanın

qalxmağına çatdırmışdı. Elə atdan enməmiş Ələkbəri gördü. Ələkbər də gizlənməyi faydasız hesab elədi, çünki onsuz da karvan tərpənəndə kişi onu görəcəkdi.

Zeynalabdın oğluna yaxınlaşdı. Atdan enmədi. Heç nə demədən yanındaca dayandı. Ata ilə oğul ürəyi danışırdı onsuz da.

— Hara gedirdin?

— Xorasana, Məşhədə. Ziyarətə.

— Nəynən dolanacaqdın yollarda?

— Hamballıq eləyəcəkdim.

— Bu çəlimsiz bədənnən?

— Çarəm nədi? Acından ölməyəcəkdim ki...

— Qayıt evə. Bir az böyü. Özüm səni ağanın ziyarətinə göndərərəm.

Ələkbər inad edə bilmədi. Gözaltı atasının sifətini, duruşunu, at üstə oturuşunu görüncə anladı ki, həyatında ilk qələbəsini çalıb. Zeynalabdın iki gün əvvəl ona sillə çəkən baqqal deyil. Qarşısındakı oğul hicranına, övlad itkisinə, istəkli bala ayrılığına tab gətirməyib bu hissə məğlub olmuş atadır.

Ələkbər daha bir söz demədi. Ayağını atasının boşaltdığı üzəngiyə ilişdirib quş kimi yəhərə qalxdı. Zeynalabdının tərkində əyləşdi.

Ürəyi dinclik tapmış ata yüyəni boşaltdı, atın başını Şamaxıya tərəf döndərdi. Karvanda heç kəs ata-oğul münaqişəsindən xəbər tutmadı.

Məşədi Zeynalabdın bu hadisədən sonra öz gəncliyini də yadına salıb Ələkbəri heç bir şeyə məcbur eləmirdi. Ələkbər Şamaxıda toplanan şairlər məclisinə, musiqi məclislərinə gedir, ustadının yanında poeziya qaydaları öyrənir, dövrünün gözüaçıq adamları ilə görüşür, istədiyi vaxt, istədiyi qədər oxuyub yaza bilirdi. Eyni zamanda kövrək, həssas oğul kimi ara-sıra dükana, atasının yanına kəlib ona əlindən gələn köməyi edirdi. Atası Məşədi Zeynalabdın bir qədər sonra Ələkbərə bir miqdar yol xərcliyi verib Məşhəd ziyarətinə getməsinə mane olmadı. Həmin hadisənin tarixini

Ələkbər Sabir Tahirzadə bir şeirində nəzmə çəkmişdir.

Sabiri-şeyda ki, tərki şəhri-Şirvan eylədi
Bülbülə bənzərdi kim meyli-gülüstan eylədi.
Min üç yüz birdə hicrətdən sonra meymun ili
Axiri-şəvvalidə əzmi-Xorasan eylədi.

«GÖRDÜM NEÇƏ DƏSTƏ TAZƏ GÜLLƏR...»

Ələsən Sabirlə təzəcə Seyid Əzim məktəbinə getməyə başlamışdı ki, Kərbəlayı Mürsəl ailəsini çoxdan əlaqədə olduğu Aşqabada köçürmək qərarına gəldi. Köçürtdü də. Kişi Aşqabadda işlərini sahmana salıb, yerliləşəndən bir neçə il sonra həddi-büluğa çatmış oğlunu tələm-tələsik evləndirdi. Şamaxılı tacir dostu Məşədi Qəzənfərin qızını Ələsən üçün aldı. Elə bil ömrünün günlərinin sayıldığını hiss etmişdi. Oğlunun gələcək taleyini etibarlı ələ tapşırıb arxayınlaşdı. Heç ilk nəvəsini də görə bilmədi. Köçdüklərinin onuncu ilində dünyadan getdi. İzzət ananın dediyi kimi, «başını qürbət torpağa qoydu. «Vətən-vətən» deyib canını qara torpağa tapşırdı». Kərbəlayı Mürsəl Aşqabadlılar arasında tanınmış, mərifətli, etibarlı tacirlərdən sayılırdı. Babat dükanı qalmışdı. Bakı, Şamaxı, Səmərqənd, Buxara və Namanqan tacirləri, ipəkçiləri ilə ticarət əlaqəsi var idi.

Sabir karvansaraya gəldiyi gün Ələsənlə rastlaşdı və Ələsən onu görən kimi tanıdı. On il irəli məktəb yoldaşı olmuşdular. İndi böyüyüb bığlı-saqqallı kişilər idilər. Bununla belə, Ələsən uşaqlıq yoldaşını tanıdı və böyük bir səmimiyyətlə bağrına basdı:

— Bay... Ələkbər?! Xoş gördük... Xoş gəlmisən, səfa gətirmisən!

— Sağ ol, Ələsən...

— Tanıdın məni, aadə?

— Sən məni tanımadın?

— Tanıdım...

— Bəs mən neyşə tanımayım? Yanı mən səndən ehtibarsızam deyirsən?

— Elə neyşə deyirsən? Onuyçun demədim ki, aadə.

— Bəs neyşə dedin aadə? — deyə bu dəfə Ələkbər onu zarafatla yamsıladı. İkisi də güldülər. Şamaxılını bu uzun «y» qarışıq «aadə»dən yüz adam içindətanımaq olardı. Uşaqlıq yoldaşları gülə-gülə birbirini bağrına basdı. Ələsən uğuna-uğuna:

— «Babam sünnü, nənəm şiə dü rəg mən». Hələ dəyazırsan, Ələkbər?

Sabirin üzünə qızartrı çökdü, sıxıntı içində dilləndi:

— Hə... hərdən...

— Özüvə təxəllüsdən-zaddan düzəltmisən?

— Hə...

— Nədi təxəllüsün?

— Sabir.

— Sabir? Hə!.. Sabir — səbr edən, dözümlü. Elə onda da səbrliydin. Uşaq olsan da dözümlüydün. Amma bir az kürənsayaq idin onda. İndi tüklərin qapqaradı, — deyə azacıq geri çəkilib Sabiri diqqətlə süzdü, sözünü bitirdi.

Sabir dostunun səmimi təsvirinə ürəkdən güldü.

— Hə... Elə nənəm də deyirdi... Deyirdi: a bala, uşaqlıqda sənin rəngin belə deyildi, indi tüklərin qapqara qaralıb, haçan qaralıb heç bilməmişəm? Deyirdim: «Ay nənə, elə mən özüm də heç bilmirəm nə vaxt tündləşib rəngim də, saçım da, qaşım-kirpiyim də».

Ələsən gülə-gülə müdaxilə etdi:

— Elə bunda da dürəng olmusan. Kişinin sözü bir olar. — Sonra bir az ciddiləşdi. — Yaxşı, haçan gəlmisən? Nə əcəb səndən? Nə işə-gücə gəlmisön? Çoxmu qalacaqsan?

— Qardaş, suallarını cərkəynən, qaydaynan ver. Birdən hamısına necə cavab verim?

— Hə... Səndən soruşmalı o qədər sözüm var ki!.. Şirvandan çoxdan çıxmısan?

— Onda gəl bir çayçının yanında əyləşək, çaydan ötəri ciyərim

təpiyib. Bir-iki piyala çay içə-içə mən deyim sən qulaq ver, sən de — mən.

— Hə... Düz deyirsən. Ayaqüstü söhbəti mən də xoşlamıram. Bir də belə on-on iki ilin söhbətini danışacayıq axı...

— Hara düşmüsən?

— Budey... buracığaza, Şamaxılı Məşədi Teymurun karvansarasına.

— Nə yaxşı, nə yaxşı... Elə mənim dükanım da burdadı.

Onlar çayçıya tərəf yollandılar. Karvansaraçının çayçı şəyirdi alçaq taxt üstündə rahatlanmış dostların qarşısına par-par parıldayan mis məcməidə iki xırda çaydan, bir cüt kiçik, əlvan naxışlı piyalə gətirib qoydu.

Söhbət doğrudan da xeyli çəkdi.

Ələkbərlə Ələsən bu söhbət zamanı yenidən bir-birinə lap o uşaqlıq, məktəb illərində olduğu kimi elə bağlandılar ki, görüşün axırına doğru elə bil aralıqdan on-on iki il keçməmişdi, heç ayrılmamışdılar. Biri digəri haqqında hər şeyi bilirdi. Biri digərinə ancaq səadət arzulayırdı. Ələsəni Sabirin başına gələn qəzavü qədər çox mütəəssir etmişdi. Atası tərəfindən anlaşılmaması, ilk şeir dəftərinin cırılması, evdən didərgin düşməsi, yenidən Şamaxıya qaytarılması, atanın nisbətən yumşalması, Ələkbərin yenidən, bu dəfə daha böyük bir qətiyyətlə şairlər dəstəsinə, xüsusilə ustadı Seyid Əzimlə yaxınlaşması, ədəb məclislərində hörmətli şairlər cərgəsində sayılması... Bununla belə baqqallığın onu cəlb etməməsi, sıxıntısı, Məşhəd ziyarəti adı ilə Şamaxıdan yaxa qurtarması... Gəzib gördüyü yerlər... Nəhayət Aşqabad... Maarifə, oxumağa işığa can atması Ələsənə həddən ziyadə təsir bağışladı. Dostunun əllərinə sarıldı:

— Ələkbər, getmə day! Nə var ey orda? — sonra birdən-birə özü də beləcə yüngül danışmasına sıxıldı: «Necə nə var? Bəs anası-atası? Bacısı-qardaşı? Doğma yurdu, ev-eşikləri? Mənimkilər ellikcə köçüb gəlib, o isə burada təkdi axı!» — deyə düşündü.

Doğrudur, arabir onun da qəlbinə qəriblik çökür, qürbət

xəstəliyinə tutulurdu. Bu, çox vaxt uşaqlıq illərində Şamaxıda keçirdiyi günləri yuxuda görəndə olurdu. Gah özünü Russarçaya qarmaq atanda, gah Nanəlidən su içəndə, gah yoldaşları ilə «qapqara qazan» — gizlənpaç oynayanda görərdi. Sonra səhərisi gün yuxusunu anasına danışardı. Anasının gözləri leysan buludu kimi yaş tökərdi. Sonralar daha yuxularını anasına danışmadı. Yazıq arvadın xiffət çəkməyini istəmirdi. Amma hər halda, o da Şirvan üçün darıxırdı. İndi unutmağa başladığı cocuqluq illəri özü gəlib Şamaxını onun yadına salırdı. Və narahatlıqla dedi:

— İncimə məndən, Ələkbər, baax, canunçun, mən o babətdən dedim ki, yanı hələ ki, evlənməmisən, əl-ayağına oğul-uşaq dolaşmır, gəz! Dünyanı gör! Mənimki başqadı. Rəhmətlik dədəm ayağımı bağladı. Gözümü açmağa macalım olmadı. Bir də gördüm oğul-uşaq basıb məni. Day dad hara çatacaq? Alverim öz yerində, amma heç ustadımızı yadımdan çıxartmıram. Elə hey gözümün qabağına gəlir: «Demirəm mən gedən təriq ilə get, əqli tut, ol gözəl rəfiq ilə get».

İçəriyə qələndər bir dərviş girdi, başındakı şiş gülah, əlindəki ağac, qoluna taxdığı kəşküldən o qədər cürbəcürə rəngli sap, ip, əlvan parça şüləkləri asılmışdı ki, az qala gülahını saçaqlı türkmən palaqlarına çevirib üzünə doğru sallanmışdılar.

Qələndər dərviş İmaməddin Nəsiminin Əli şəninə yazdığı məşhur qəsidəni oxuyurdu. Sabirin gözləri önündə atası Məşədi Zeynalabdın canlandı, kişi şiəlikdə elə bir canfəşanlıq göstərirdi ki, sonbeşik oğlu Ələkbəri «Əli məddahı» dərviş görmək üçün ürəyi tökülürdü.

1934-cü ildə Sabirin «Hophopnamə»sinin üçüncü nəşrinə yazdığı, bədii müqəddimə-oçerkdə Seyid Hüseyn Sabirin həyatının həmin dövrünü belə təsvir edir: «Məşədi Zeynalabdın kiçik oğlu Ələkbəri başqa uşaqlarından artıq sevirdi. O, çox istiqanlı və sevimli bir uşaq idi. Ələkbərin təlim və tərbiyəsinə ayrıca bir əhəmiyyət verir, onu gələcəkdə Əli məddahı bir dərviş görmək istəyirdi. Ona hətta bir-iki beyt qəsidə də əzbərlətmişdi. Əlavə

olaraq onun üçün uzun ətək dərviş paltarı tikdirmiş, əlinə də bir təbərzin qayırtdırıb vermişdi. Hələ məktəb yaşına çatmamış Ələkbər uşaq lisanı ilə atasının dükəni qarşısında: «Mənim aləmdə soltanım Əlidir. Mənim miri-ca hanbanım Əlidir» deyə oxuduqca Zeynalabdına bir fərəh verirdi.»

Çayxanada Səmərqəndin, Buxaranın qələndər dərvişləri oxuyurdular. Bağıra-bağıra qəsidələr söyləyir, çay içənlərdən zor-güc pul yığırdılar. Sabir bu çayxanada, yaşadığı karvansarada elə müxtəlif adamlar görür, müşahidə edirdi ki, bunların hər biri öz səciyyəsi ilə gələcək böyük satiriki mübarizəyə hazırlayır, canlı-qanlı tiplər kimi onun şüuruna daxil olurdular. Sonra bir zaman gələcək bu tacirlər, dərvişlər, qırmızısaqqallar, məşədi-kablayılar, zahidlər, vaizlər hərəsi öz cildində meydana çıxacaq, hərə Sabirin qələmi ilə öz dilində danışacaq, özü öz mahiyyətini açıb meydana qoyacaq.

İndi isə çayxanada qəribə aləm idi. Hərə öz curu, hərə öz müştərisi, alıcı və ya satıcısı ilə üzbəüz oturub «qara çay», «gök çay», «südlü çay», «hil çayı», «zəncəfil çayı», «darçın çayı»... içir, «Şirvan çörəyi», «Şamaxı təndir çörəyi», Təbrizin «gəlin dili», «fəsəli», Aşqabadın «Naxışlı təndir», «lavaş», «sənkək» çörəklərindən yağa, bala, qaymağa batırıb yeyirdilər. İçəridə əməlli-başlı hay-küy var idi.

«...İllər keçdi. Ələkbər məktəb yaşına çatınca, Məşədi Zeynalabdın bəxtiyar bir ata kimi oğlunu yanına salıb məhəllə mollaxanasına (məktəbinə) apardı.

— Molla əmi, bu Ələkbər mənim ən əqilli oğlumdur. Oxumağa gəlib... Sən də gərək onu oxudasan.

Molla gözaltı bu mollaxana mühitindən sıxılıb atasının yanına qısılan zəif vücudlu Ələkbəri nəzərdən keçirirdi.

— Borcumuz xidmət etməkdir, — deyib cavab verdi.

— Bax, molla əmi, əkəm kahıllıq eləsə, ayaqlarını salarsan fələqqəyə.

Molla bu işin mütəxəssisi kimi bir vəziyyət taqınaraq

gülümsədi.

— Əti mənim, sümükü sənin.

— Hə... Rəhmət atana, əti sənin, sümükü mənim.

Atası ilə müəllim arasında başlanan bu söhbət- dən kiçik Ələkbər hələ bir şey başa düşməyirdi. «İlk gündən anlamadığı ərəb sözləri «hüvəl fəttahül əlim»lə dərsə başlayan Ələkbər, ilk yazı yazmaq təşəbbüsünün həmin o fələqqəyə salınmaqla qurtaracağını bilmirdi».

İndi budur, dərviş çayxanada var-gəl eləyə-eləyə Əli mədhinə yazılmış qəsidəni oxuduqca Sabirin gözləri önündə atasının dükanı qarşısında balaca təbərzinini zərif çiyni üstünə qoyaraq şəstlə yeriyən: «Mənim aləmdə soltanım Əlidir» deyə oxuyan və dükana gələnləri, bazardan keçənləri, Zeynalabdının dükan qonşularını heyran qoyan o balaca Ələkbər canlandı.

Dərvişin gözəl səslə oxuduğu qəsidə bitincə xəyal da qırıldı, yox oldu. Keçən uşaqlıq illərinin acılışirinli xatirələri yarımçıq qaldı.

* * *

Aşqabad, «Eşqabad» adlanan bu yerdə evlər, binalar o qədər də təzə deyildi. Birmərtəbəli, saman qatılmış palçıqdan yapma, üstü hamar evlər idi. Həyətlərin uca hasarından içəri görünmürdü. Küçə ilə getdikcə elə bilirdin ki, boz divarlardan yaranmış dalanla gedirsən. İsti günəş başını deşəndə bu divarların kölgəsi də olmurdu. Amma elə ki, həyət qapısı açıldı və həyətə girdin, elə bilirdin ki, İrəm bağına — behiştin içinə düşmüsən. Darvazadan evəcən uzanan xiyabanvari yolun hər iki tərəfi ağaclar, üstü isə ağacların arasında əkilmiş meynələrin qolbudaqları ilə örtülmüş olurdu. Həyətdən kölgəlik, sərinlik, gül-çiçək, meyvə ətri gəlirdi.

Həyətlərdə hökmən quyu olurdu. Quyuların üstündə taxta baqara, mis satıl... mis tayqulp... həyətin axırındakı təkbir ikimərtəbəli, əksəri bir mərtəbə və ya kürsülü evlər ailənin sayına görə iki, üç göz idi. Hamısının da pəncərələri həyətə çıxan eyvana

baxırdı. Küçəyə bircə pəncərəsi olmayan bu evlər qışda isti, Yayda kölgəli, sərindi. Zəlzələlərin müsibətindən buraya köçmüş şirvanlılar Türkmənistanın bu qumlu səhrasına bir oturaqlıq, mülkmaş, torpağa bağlılıq, gül-çiçək əkmək həvəsi gətirmişdilər.

Şirvanlılar seyrsiz dolana bilmirdilər. Burada Fit dağı, Buğurd qalası, Pirdirəki, Qız qalası, Gülüstan, Nəhmət bağı, Mahmudağa bağı, Fatma xanım bağı, Ağalar bağı yox idi. Seyrə getməyə, tapdığı beş yumurta ilə pendir-çörəyi də təbiətin dilbər qoynunda yeyib-içməyə, musiqi, şeir dinləməyə adət etmiş şirvanlılar burada, qürbət xəstəliyinə tutulmamaq üçün elliklə-qəbiləliklə bir məhəllədə tikilirdilər, həyətlərini o Şirvanın, Şamaxının bağlı-bağatlı, gül-çiçəkli, səfalı bağçalarına, bağlarına bənzədirdilər. Bununla da təskinlik tapmaq istəyirdilər. Qızlarını öz qohum və tanışlarına verir, oğlanlarını yaxınlarından qız alıb evləndirirdilər. Öz məhəllə məscidləri, öz mollaları var idi. Mollaxanalarını təşkil eləmişdilər. Yerli əhalinin qəlbinə dəyməmək üçün çalışır, sünnüşiə söz-söhbətini evdən küçəyə çıxartmırdılar. Məhərrəmlik aylarında, əhyalarda öz məscidlərini tərk etmirdilər.

...Sabir düşünə-düşünə dolaşırdı. Axırı gəlib Aşqabadda ilişib qalmışdı. Aşqabadın şirvanlılar məhəlləsi ona doğmaca Şamaxını xatırladırdı. Burada yaşayanların çoxunu ya uşaqlıqdan xatırlayırdı, ya da qohum-əqrəbalarını hələ Şamaxıdan tanıyır, özlərinin burada olduğunu o vaxtdan bilir, indi isə üz-üzə gəlincə şamaxılı əqrəba haqqında sorğu-sual başlayırdı. Cavanlar artıq aşqabadlılaşmışdılar. Qocalar isə doğma vətən, qoyub gəlməyə məcbur olduqları yurd haqqında bir nağıl şirinliyi, bir qürbət həsrətilə danışırdılar. Evləri, həyətləri də Şamaxıdakı kimiydi. Yemək-içmək ləri də. Məişətdə demək olar ki, heç bir şey dəyişməmişdi. Sadəcə zəlzələlər — 1859 və 1872-ci il zəlzələləra onları sapanda qoyub atmışdı diyarbadiyar.

Sabir tanışlarından və uzaq əqrəbalarından heç kimin təklifini qəbul eləyib evində qalmırdı, karvansarada yaşayırdı. Bunun bir neçə səbəbi var idi: Əvvələn karvansara dünyaya pəncərəydi, bir

növ «məktəb həyəti» idi. Burada dünyanın hər yerindən olmasa da, bütün yaxın və orta Şərqdən, Türküstandan, Əfqanıstandan, Hindistandan, hətta Rusiyadan belə gəlmə tacirlər, səyyahlar var idi. Özü də hərəsi bir başqa keyimdə, bir başqa əqidədə, bir başqa surətdə. Kirələdiyi balaca hücrədə Sabir demək olar ki, ancaq gecələyirdi. Bütün günü bu əlvan insan axını içərisində keçirdi.

Hər bir ölkə, onun adamları, yaşayışı haqqında soruşub öyrənməyə can atırdı. Doğma ana dili bu yerlərdə onun üçün ən yaxşı açar idi; özbəklə də, qırğızla da, türkmənlə də, tatarla da... daha kimlərlə istəsə danışa bilirdi. Azacıq diqqət verdikdən sonra dillər arasındakı cüzi fərqi fəhmlə tez tutur və tanış olduğu təzə müsahibi ilə söhbətləşə bilirdi. Mükəmməl öyrəndiyi fars dilində əfqanlarla, taciklərlə, farsların özü ilə, hətta az qala urdularla da danışırdı. Bir də həmin tacirlərin özləri də bu dillərə bələdçilik sahəsində bazarda sərbəst ticarət apara bilirdilər. Ustad Seyid Əzim əbəs deməmişdi ki: «Neçə dil bilsən o qədər də insansan. Ticarətçün bilək gərək dilləri...» İndi Sabir rus tacirlərini görəndə yaxşı — xoroşodan-zaddan deyə bilirdisə də, müəllimi Manvelin yanında — Seyid Əzim məktəbində çox az oxuduğundan bu dilə əməlli aşina ola bilmədiyi üçün «özünü daşqayırdı. «Öyrənəm gərək. Lazım olar: «Ticarətçün bilək, həm dərk edək qanuni-divanı» belə deyib ustad. Tacir olmasam da bilməliyəm».

Günlərlə karvansara həyətində, səkilərin üstündə oturub ticarət edən adamların əxlaqına, davranışına diqqət edir, «türkmən dilənçisi» ifadəsinin ağır səbəbini anlayırdı. Bu dilənçilər... Bu «dərbədər gəzib ürəyi qan olan cocuqlar» ona təkcə burada deyil, dilənçilər diyarına çevrilmiş Məşhəddə, Buxarada, bütün islamca «müqəddəs» sayılan şəhərlərdə küçələri, meydanları, karvansaraların, məscidlərin ətrafını tutmuşdu. Onların halını görən insanın ürəyi qana dönürdü, ağzına bir loğma çörək qoyub uda bilmirdi. Tanış olduğu adamlardan soruşanda, deyirdilər ki, dünyanın çox yerində belədir, aclıq, səfalət, ehtiyac baş alıb gedir. Dünyada bir ovuc varlılar xoş gün keçirir, qalanlar isə zillətdə

yaşayırlar. Bütün İran da belədir, Ərəbistan da, Rusiyyə də. Dünyanın hər yerində varlı varlıdı, kasıb kasıb. Amma elə hər yerdə kasıb varlıdan çoxdu. Varlı kasıbın hesabına piylənir. Allah niyə verir varlıya bu dövləti?

Qərəz ki, dünya qaranlıq dünyadı. Yaratdıqlarını niyə bu günə qoyub allah, bilən yoxdu.

Sabir xeyli müddət idi ki, Aşqabadda ilişib qalmışdı. Bunun səbəbini cavan şair hələ lazımınca dərk edə bilməmişdi. Təkcə ruzi xatirinə karvansaraçı ilə binə qoyduğu şərikli sabun bişirmək məsələsi deyildi. Ayaqları buradan çıxıb getmək, səyahət etmək, yeni-yeni yerlər görmək istəyir, beyni «get!» — əmri verir, amma ürəyi onu getməyə qoymurdu. Son zamanlar sabun tiyanı qırağında qələmdana qoyduğu qələm yenidən işə düşmüşdü. Qəlbini yandırıb-yaxan o «qəribə şeir» əvəzinə, yenidən ürəyində qəzəllər «deyilməyə» başlamışdı. Çox qəribə hal keçirirdi: «Ey dil! Amandı, sirrini biganə bilməsin. Ahəstə zülfiyardə yat, şanə bilməsin...»

* * *

Bağatlı həyətlər arxada qaldı. Şəhərkənarı komalar, alaçıqlar başlandı. Ayaqları onu hara aparırdı? Dünən tanış bir qoca ona «Eşqinən abad olan zülmünən bərbad olar» demişdi. Heç bircə anlıq, xəyalında belə eşqinən abad olmuş bu şəhərə Eşqabada — Aşqabada zülmlə bərbad olmağı nəinki arzulamırdı, heç fikrinə də gətirmirdi. Və qocanın dəhşətli sözlərindən doğrusu ürpərmişdi dünən.

Gün əyilmişdi, bir azdan axşam sərinliyi düşəcəkdi. Bürkü azalacaq, sonra da yerini sərin axşam mehinə verəcəkdi. Hələlik isə uzaqdan gələn şəxs kölgə kimi, sərab kimi nəzərə çarpırdı. Elə bil günəş altında gedən adam özü deyil, onun kölgəsidir. Qeyriadi qara kölgə. Amma buna baxmayaraq, gözəl o qara kölgəni lap uzaqdan tanıdı. Tanımaya bilməzdi də.

Sakit, aram addımlarına uyğun olaraq əlinin birini qabaqdan döş cibinə, birini də arxadan belinə qoymuşdu. Elə bil kölgənin əllərini köksünə sarımışdılar. Çuxası əyninə elə kip oturmuşdu ki, bədəninə yapışmış kimi görünürdü. Gözəl onu bu əlamətdar cizkiləri olmasaydı da tanıyardı. Tək bircə ürəyinin döyüntüsü bəs edərdi.

Gözəl elə bil ki, o cavan şairin ürəyindən keçən bu sətirləri hansısa, anlamadığı bir fəhmlə eşidirdi:

Ey yar! Can fədayi-qüdumi-mübarəkin
Ahistə qıl xuram ki, həmxanə bilməsin.

Qız başını döndərib arxasına baxdı. Sonra da ətrafı nəzərdən keçirdi. Ürəyi döyünə-döyünə bir az da komanın daldasına çəkildi. Şairin gözaltı baxışları qızın hərəkətlərini izlədikcə, yanaqlarına xəfif qızartı çökür, ürəyi hələ də gah gözələ, gah da qəlbinə müraciətlə deyirdi:

Qeyrət həlak edər məni, açma camalını!
Göstərmə şəmə ruyunu, pərvanə bilməsin!

Bir ləhzə bəzmi-yardə dilşadəm, ey könül!
Arac tut bu mətləbi biganə bilməsin!

Məgər ürək sevdiyini, arzuladığını görəndə aram tuta bilər, sakit dayana bnlərdn? Ürəyi elə bnr sürətlə çırpınırdı ki, həkim nəbzini tutsaydı, bəlkə də onu xəstə zənn edərdi. Sinəsinin üstünə qoyduğu əlinin belə tərpəndnyini gözü ilə görürdü.

Bunu görürdü və gördüyünə görə də dərindən, həsrətli, soyuq bir ah çəkdn, qəzəlini tamamlamağa çalışdı:

«Ey ahn-sərd! Urma nəfəs zülfi-yara sən!
Bir dəm qərar tut, didi-divanə bilməsin».

Hansı bir hənirtidənsə diksindi. İlham pərisi qanaddandı, ürküb uçdu. Qəzəli bitirə bilmədi. Sanki ayıldı. İstidənmi, xəcalətdənmi vücudunu tər basdı. «Hara gedirəm? Niyə gedirəm? soruşsalar «nə axtarırsan buralarda?» nə cavab verərəm?» — düşüncələrə dalmışdı. Gəldiyi kimi yavaş-yavaş istidən qızılı çəhrayıya çalan palçıq divarlarla əhatələnmiş küçəylə qayıdıb getdi.

* * *

Bu barədə Ələkbər ona açıq bir söz deməmişdi. Amma Ələsən özü axı, cavan idi. Artıq oğul-uşaq sahibi olmasına baxmayaraq, sevib-seçib evlənməsə də, ataana arzusuna boyun əyməyə məcbur olsa da, cavan idi, hissiyyatı inkişaf etmiş adamlardan idi. İndi də uşaqlıq yoldaşı elə yenidən elə yaxınlaşmış, onu bir dost kimi elə sevmişdi ki, daha onun hər bir işini, əməlini, arzu və istəyini özününkü hesab edirdi. Sabirin dərdi onun dərdi, Sabirin sevinci onun sevinci idi. Odur ki, dostunda baş verən dəyişikliyi tez anladı. Bunun məhəbbət olduğunu biləndə sevindi. Nə yaxşı? Sabir burada evlənsə, burada da qalacaqdı. Dostlar ayrılmayacaqdı.

Yavaş-yavaş dostunun sirrnnn öyrəndikcə araları lap açılır və Sabir də öz təbin utancağlığını yenib Ələsənlə bu barədə danışır, eşqin təlqin etdiyi qəzəlləri gənc dostu üçün oxuyurdu.

Bu gün də söhbətlərn elə beləcə başladı. Ələsən soruşdu:

— Təzə nə yazmısan?

— Təzə deyəndə ki...

— Bütün yazdıqların mənim üçün təzədi, əzizdi... Hamısı da əzbərimdi. Lap o Molla Yunis oxuyan mərsiyələrinəcən.

«Kaş heç yazmayaydım onları. Oxunduqca, fağır həmvətənlərim başına döyüb ağladıqca, öz-özümü qınayıram». Bəli, Sabir belə düşünürdü. O bu sevgili millətin dərdlərini bir cərrah kimi təşrih edib, cümlə gahana açıb göstərməliydi. O bu milləti, bu xalqı cəhalət yuxusundan oyadanların cərgəsində olmalıydı. Ayrı cür ola bilməzdi! O öz tarixi vəzifəsini yerinə yetirməliydi. Bu tarixi vəzifə hələ onun üçün o qədər də aydın, müəyyən deyildi. Hələ 1905-ci il inqilabına xeyli var idi. Hələ «Molla Nəsrəddin»

dünyaya min doqquz yüz altıncı ilin 7 aprelində gələcəkdi. Hələ Mirzə Cəlil Məmmədquluzadə də Sabir kimi xalqı qarşısında öz böyük, tarixi vəzifəsini müəyyənləşdir-məmişdi...

Sabir fikirdən ayılıb dilləndi:

— Anam çağırır, Ələsən! Şirvan çağırır məni...

Bu sözlərdə elə bir qətiyyət var idi ki, Ələsən artıq heç bir söz deyə, etiraz edə, məsləhət verə bilmədi. Ürəyində Sabirin Şamaxıya səfəri üçün hazırlığı haradan, necə başlayacağı haqqında düşünməyə başladı...

Şirvana qayıtmaq haqqında qəti qərar qəbul edəretməz, ürəyi ağır bir sarsıntı keçirmiş kimi çırpınmağa və onu şəhərin kənarına doğru çəkməyə başladı. Orada, o alaçıqda adını belə dürüst bilmədiyi, amma məftunu olduğu o qız yaşayırdı. Şair onu sadəcə gözəlliyinə görə qəlbində «Gözəl» adlandırmışdı. Qızın doğrudan da adının Gözəl olduğunü bilincə, heç də təəccüb etməmişdi. Gülümsəmiş: «Elə belə də olmalıydı. Məgər ona ad qoyanın gözü yox idi? Görmürdü ki, gözəldir?» — düşünmüşdü. Kimin qızıdı, nəçidi, nəkarədi, nişanlı deyil ki? Bütün bunları sonradan sirrini biləndən sonra Ələsən öyrənmişdi. Elçi getməyə hazırlaşırdı. «Ay səni, Ələsən!» Ələsən bilmirdi ki, dünyada ANA məhəbbəti, ANA hökmü var. VƏTƏN məhəbbəti var. VƏTƏN — TORPAQ adamı elə çağıra bilər ki, onu rədd etmək deyil, bu rəddi xəyalına belə gətirə bilməzsən Ələsən! Yaxşı oğlansan! Gözəl dostsan. İstəkli yoldaşsan, fədakar qardaşsan. Amma sən vətən deyəndə uşaqlıq illərinin oyunlarından başqa bir şeyin xiffətini çəkmirsən. Vətən çağırışını qəlbinin qulağı mənimki kimi eşitsəydi, bir an dura bilməzdin...» Gözəlik çağırışı ANA— VƏTƏN sədaları içində itib-batardı... Yox... Deyəsən ürəyini çox ağrıdırdı Gözəlin çağırışı. Durmadan, nə üçün, nədən ötəri getdiyini bilmədən Gözəlin səmtinə gedirdi. Gedib Gözəli görsə nə deyəcəkdi? Nə soruşacaqdı? Danışa biləcəkdimi qızla? Bilmirdi... Amma gedirdi... Gənc qəlbi» ilk eşqi çağırırdı onu. Vida üçün, əbədi ayrılıq anındakı son baxış, son həsrət üçün çağırırdı onu...

«SABİRA!
TORPAĞA SALDI SAYƏ RƏNA DİLBƏRİM»

Gəmidən düşəndə körpüdə xeyli adam var idi. Hamballar milçək kimi vızıldayır, bir-birlərinin səsini batırıb qışqırışır, gələnlərin yükünü götürməyə tələsirdi. Amma onu qarşılayan da yox idi, hamballar üçün yükü də. Anasına hədiyyə aldığı qanavat yorğanüzü, Nazlıdan ötəri seçdiyi Əndican «şahısı»ndan ipək paltarlıq və saçaqlı boğazaltı yaylıq... Qardaşı üçün bir dənə sür papaqlıq dəri... Vəssalam. Bütün bu hədiyyələr balaca bir bağlamaya yerləşirdi. Götürdü. Görüşüb öpüşənlər, salamlaşanlar, qucaqlaşanlar, yüklərini hambalların palanı üstünə yerləşdirib körpüdən enən müsafirlər arasından çətinliklə də olsa keçdi və şəhərə çıxdı. Körpünün ətrafında hambal, dilənçi əlindən tərpənmək mümkün deyildi.

Ələkbər «Hacıhacbaba karvansarası», «Zaxar karvansarası», «Bibeybət», «Keşlə», «İçəri şəhər», «Şamaxı yolu», «Quba meydanı», «Səbzəbazar», «Kömürçübazar» deyib bağıran və müştəri toplayan faytonçu və qazalağçıların əlinə keçdi. Ucuzbəsər qazalağlardan birinə minib «Şamaxı yolu»nun başlanğıcına gəldi. Qərəzi bu idi ki, furqon tuta bilsə elə bu gün, ya da sabah sübh vaxtı Şamaxıya yollansın. Bu gün furqon tapa bilməsə Şamaxı yoluna yaxın olan «Xanım karvansara»sında gecələyə bilərdi. Keçən dəfələrdə vətənə, ata-anasına dəyməyə gələndə də belə eləmişdi.

Bəxti gətirdi. Şamaxıya yollanan furqon hazır dayanmışdı. Özü də köhnə tanış malağan Kostanın furqonu. Üstündən bir neçə il keçsə də, Kosta, onu o saat tanıdı.

Ha... Musurman qardaş, gəldün çıxdun, ha?? Gəldim... Kosta qardaş, gəldim... — deyə Sabir gülümsədi və qəlbində düşündü: «Anam belə oğlu olduğunu eşitsəydi, ürəyi gedərdi. Malağandan oğul? Bay-vay».

— Havaxt çıxırsan?

— Elə indi... Axşama bir mənzil gedərik, o da bir şeydi. Hava yaxşıdı.

— Düzdü. Hava yaxşıdı.

...Üç gündən sonra Sabir ata evinin darvazasıidan içəri girəndə Səltənət xanımın az qala ürəyi getdi. Balasını bağrına basdı, özünə toxtaqlıq verməyə çalışdısa da, bacarmadı. Şirvan xanımları kimi çoxdan idi ki, vəziyyətə münasib bildiyi bir ağını ürəyində uyğunlaşdırmışdı. Həzin, yanıqlı bir səslə dilinə gətirdi; rəhmətə getmiş ata — Zeynalabdının dili ilə deməyə-oxşamağa başladı:

Balam bulağa gəlsin,
Minsin ulağa gəlsin
«Ata, hardasan?» — desin
Səsi qulağa gəlsin, heyyyy...

Gözü yolda, qulağı səsdə, bu dünyadan nigaran gedənə canım qurban heyyy!

Evdəkilərin hamısı, eləcə də qonşuluqda yaşayan qohum-əqrəba oxşama səsinə, hay-küyə toplaşdı. Ağlaşma başlandı. Səltənət xanım ərinin paltarını ortaya gətirib ağlaşmanı lazımi qaydaya salmaq niyyətindəydi ki, məhəllənin ağbirçəyi Güləm arvad özünü içəri saldı. Hökmlə əlini belinə vurdu. Divar dibində yaylığını gözünə basıb dayanmış Ələkbərə yaxınlaşdı:

— Xoş gəlib, səfa gətirmisən, oğul! Atan yurdunda tayım-qədim olasan. Allah səni anana çox görməsin, adın, cənab Əliəkbərə bağışlasın.

Sonra da Güləm qarı ağlaya-ağlaya hüzür boğçasını açıb, miras paltarı ortaya sərməyə hazırlaşan Səltənət xanıma tərəf ucadan səsləndi:

— Səltənət! A bacı, hər şeyin bir yeri var, məqamı var axı. Qoysanam fağır uşaq yol gəlib, yorulub. Bir dincəlsin. Əl-üzünü yusun. Çaydan-çörəkdən yesin. Sonra başlayarsan ağlaşmanı. Nə

xəbərdi? Ağlaşma qaçmır, sən qaçmırsan...

Səltənət xanım elə bil buna bənd idi. Birdən ayıldı: «Düz deyir, niyə kövrəldim? Özümə söz vermişdim axı... Balam yol gəlib. Uzaq yollardan... Mən də ki... Eh! Arvad ki, arvad!» — deyə özünü qınadı, danladı. Boxçanın düyününü bərkitdi. Gözlərinin yaşını silib qalxındı ki, paltarları yerinə qoysun, Nazlı macal vermədi. Cəld anasından boğçanı alıb yükün üstünə yerləşdirdi. Yalnız indi istəkli qardaşına sarıla bildi:

— Xoş gəlmisən, Əli, gəl əlinə su töküm, əl-üzünü yu.

Külfətə yaxın qız-gəlin cəld həyətə enib, samovara od saldılar. Mehdiquluya xəbər vermək üçün bazara uşaq qaçırtdılar.

İndi evdə, həyətdə bayram, qonaqlıq əhval-ruhiyyəsi yaranmışdı. Hamı ayaqüstü Sabirdən Aşqabaddakı qohum-əqrəbasını soruşur, gəlib-gəlməyəcəklərindən xəbər tuturdular.

Sabir bacısının tökdüyü su ilə əllərini, üzünü yudu, üst-başından yolun toz-torpağını təmizlədi. O biri otağa keçib paltarını dəyişdi, qayıdıb anası və Güləm qarı əyləşən otağa gəldi. Onlarla yanaşı əyləşdi. Səltənət xanım əlini balasının əlinin üstünə qoyub elə oturmuşdu ki, sanki indicə balasını çəkib əlindən alacaqdılar və o da bütün vücudu ilə müqavimət göstərib qoymayacaqdı.

Doğma yurd, doğma adamlar, ana nəfəsi, bacı nəvazişi Sabiri elə kövrəltmişdi ki, indi bu uzun illəri, bu əziz nemətlərdən uzaq olan yerlərdə necə yaşadığına özü də təəccüb eləyirdi.

* * *

Ata ocağı doğrudan da gur yanırmış. Ana qucağı ondan da isti. Yaxın Şərqin, Orta Asiyanın bir sıra irili-xırdalı şəhərlərini gəzib gəlmişdi. Məşhur, müqəddəs Məşhəddə, müqəddəs Buxarada, qədim abidələri ilə baxanı heyran qoyan gözəllər gözəli Səmərqənddə, Mərvdə olmuşdu. Hər yerdə tanış-biliş onu mehriban qarşılamışdı. Zəlzələlərdən baş götürüb qaçmış Vətən həsrətli şamaxılıların hansının əlinə keçmişdisə, onu vətənin, bircə

sıxma torpağı, bircə çiçəyi, bircə loğma çörəyi kimi qoxlamış, əzizləmiş, öpüb gözü üstə qoymuşdu. Daş kimi sapanda qoyulub Şərq ölkələrinin harası gəldi atılan şamaxılılar ondan heç nələrini: isti ocaqlarını, sərin sularını, tər-təzə çörəklərini əsirkəməmişdilər. Qarılar yaşıdlarını soruşub gözləri yol çəkə-çəkə ona analıq etməyə, ahıl kişilər işi dara düşəndə qolundan tutmağa, ata əvəzi olmağa çalışmışdılar. Kar- vansaralara düşəndə belə həmişə şamaxılı sorağın da olan qürbət xəstələri, başına yığılıb şeir ocağı o yurdun zümrüd çöllərindən, yamyaşıl meşəli dağlarından, buz bulaqlarından xəbər tutmuş, tay-tuşlarını soruşmuş, şeir demiş, şeir dinləmiş, bir işin tulpundan yapışıb heç kəsə möhtac olmamasına yardım etmiş, bir sözlə Sabirdən — Ələkbərdən heç bir ne məti əsirgəməmişdilər. Amma... Amma heç vaxt, heç kəsin ocağı Zeynalabdın rəhmətliyin ocağı kimi belə gur yanmamışdı. Heç bir ağbirçəyin köksü Səltənət ananın qoynu kimi belə isti, mehriban olmamışdı. Heç bir qız-gəlin Nazlı bacısını onun yadından bircə an da çıxara bilməmişdi. Elə bu günlərdə Ələkbərin böyük qardaşı Əliqulunun oğlu gəldi dünyaya. Hamılıqcan ona babasının adını verdilər. Zeynalabdın. Səltənət ana uşağa mərhumun adı verildiyindən o saat mollaya pul göndərdi, «Kişi rəhmətlik üçün Quran oxusun».

Ev, adamlar, hadisələr... ana, qardaş, bacı, doğulan körpə, çalınan layla onun qəlbinə bir istilik gətirir, sanki «bəsdir, sənin də yurd-yuva qurmaq, ev-eşik sahibi, ata olmaq vaxtın çatıb» deyirdi.

Bu barədə Səltənət xanım xüsusi səy göstərirdi. İki gözü idi iki oğlu. Birindən arxayınlaşmışdı. İkinci gözünün kor olmağını şübhəsiz ki, istəmirdi. Ona görə də fikri-zikri «Ələkbərin ayağını buxovlamaq» idi. Arvad düşünür, hərdən bu düşüncələri qızı və ya qonşu Güləm qarı, yaxud da qohum ağbirçəkləri ilə bölüşürdü: «Evlad, oğul başımdan aşmayıb ki, qaadooyalım. Çıxdı getdi qürbətə, ilişdi o yerlərdə əslini-nəslini tanımadığım hüştüllütün birinə. Neynərəm? Kim əkib? Kim doğub? Hansı yuvada cibbilləyib? Bilmərəm. Qallam sinədağlı. Az çəkmədim ki, kişi

sağlığında səfərlərində. Kişi nigaran getdi Ələkbərdən.[1] İrağ-irağ, bir də getsa uzaq səfərə dözmərəm, bağrım çatlar. Gərək evləndirəm. Bağlayam ayağını. Amma tarı saxlamış inahatdı. Üzdə üzüyoladı, amma hər sözə qol qoyan deyil. Əliqulu qadasın aldığım deyil ki, nə desəm, necə eləsəm «bəli, məmə» desin. Bunun gərək çəmin tapam».

Ələkbər anlamışdı ki, Səltənət ananın da, Nazlının da meyli ən çox qohum qızı Büllurnisəyədi. Qızı evlərində ötəri görmüşdü, xoşuna da gəlmişdi. Ürəyinə yatan, heç olmasa gözucu görüb bəyəndiyi bu qız yaxşıdı. Bəs yaşıdlarım müsəlman dünyasındakı bütün başqa qardaşlarım kimi görməzə-bilməzə evlənməli olsaydım, necə olardı?» fikrindən dəhşətə gəldi. Xəfifcə qımışıb anasına sataşdı:

— Ay məmə, sənin o Büllur dediyin qız:

Firni-tərək — fisincan
Cırbır, qəlyə, mütəncəm
Bişirmək bilir, ya yox?

Səltənət xanımın ürəyi atlandı. Deyəsən süd üz tutmuşdu. Sualdakı zarafatı isə tuta bilmədi. Tələsik, tam ciddiyyətilə cavab verdi:

— Bilməmiş olmaz, baaşuva dönüm. Şamaxılı qızı deyil? Bir də bilməyəndə nə olar? Hamı anasının qarnında öyrənməyib ki. Özüm ölməmişəm, özümə nə gəlib?! Bilmədiyini canımın canı çıxar — öyrədərəm.

Bu dəfə Ələkbər qəlbində baş qaldıran şübhə, nigarançılıqlar tufanına düşüb ciddiyyətlə, amma zahiri bir laqeydliklə soruşdu:

— Məmə, yanı gəlinini belə çox istəyəcəksən? O da səni? Birdən o «Qaynana-qaynana yeyim aşuvu, Mürdəşirə verim kilkə başuvu» deyənlərdən oldu.

Arvad duruxdu.

— İraq olsun, baaşuva dönüm, elə olmaz inşallah, Bir də

deyərlər: gəlin gəlin deyil, düşdüyü yer gəlindi. Yanı mən ona yaxşı olanda, o köpəyin qızı dəli olub, qudurub ki, məni çala?

Ələkbər güldü:

— Məmə, indidən səbəbsiz yerə yazığın dədəsinə söyəndə inciməz səndən?

— Ağzı nədi? Amma sən də indidən anovu qoyub arvaduvun tərəfini tutdun...

Hər ikisi güldü.

— Arvad? Hələ ortada heç nə yox...

— Hə, bala, Xan məni aldı, öpməyi qaldı. Bizimki lap ona döndü...

Arvad bir qədər fikrə getdi. Dərin düşüncələrə dalmış oğluna baxdı... Baxdı... «Yooox... Allah eləməsin. İrağ-irağ olsun. Qulaqlara qurğuşun. Elənçik həyasız gəlin çıxmaz qabağıma inşallah. Nə anası elə arvaddı, nə də qız elə qızdı. Büllurnisə adı büllur kimi tər-təmizdi, dum-durudu. Dindirəndə yüz yerdən qızarır, bir gəlmə kəsə bilmir. Gözümün qabağında böyüyüb. Bir yamanını eşitməmişəm, bir pis xəsyətin görməmişəm.

— Nə dərin dəryalara girdin, oğul? Nə deyirsən? İrazısan — gedim qapılarına?

Ələkbər də qəlbində qərar vermişdi; dedi:

— Nə deyirəm ki, məmə, sən bilən məsləhətdi...

Arvadın sevindiyindən çiçəyi çırtladı. Belə tez qələbə qazanacağına inanmırdı. «İnahatdı Ələkbər, uşaqlıqdan. Atasına çəkib. Çək-çevirə salacaq» deyirdi. Oğlunun razılığını alınca sevincindən necə balasına tərəf sürünüb boynunu qucaqladığını bilmədi. Marçıltı ilə hər iki yanağından öpüb yaşarmış gözlərini göy yelən kəlağayısının ucu ilə sildi:

— Allah hər iki dünyada üzünü ağ eləsin, bala! Südüm sənə halal olsun. Ata ocağında qayım-qədim olasan. Ata yerində ata yerrigi olasan. Ruhu sənə duaçı olsun.

Ana alqışlarından cavan şairin qəlbinə həzin, ilıq bir nəvaziş axırdı.

Ələkbər zarafatı bir tərəfə qoyub ciddiyyətlə anasına baxdı:

— Məmə, külfət xərc istər, çörək istər, ev-eşik istər.

— Quru yerdəsən? Atan evi-eşiyi. Qardaşın, anan...

Ələkbər anasının tündməcazlığına, kəmhövsəliliyinə bələd idi. Gəlinlə yola getmək qabiliyyətinə o qədər də inanmırdı. Bununla belə ana ürəyinə toxunmaq istəmirdi. Günahı öz üstünə aldı:

— Məmə, məsəl var «el-elə sığışıb, ev-evə yox», Bir də, xəsyətimə bələdsən: başım qoltuq götürməz.

— Qoltuq neyçün, oğul? Ana, qardaş köməyi hacandan qoltuq olub? Gözümün qarası, süd kimi üz tutanacan qardaşınla birgə işlərsən dükanda... Aşqabadda yerlimiz Məşədi Teymurun şəriki deyildin? Elə bil Əliqulu da Məşədi Teymurdu.

Bu məntiq qarşısında oğul bir söz tapa bilmirdi. Amma ürəyindəkiləri də dilinə gətirə bilmirdi. O, baqqallıqdan qaçırdı. Həyatının başlanğıcında bu baqqallıq üstündə atası ilə üz-üzə gəlməmişdimi? İllər, aylar zəhləsi gedən baqqallığın ucbatından ata yurdunu, gözəllər gözəli Şirvanı, ana, bacı nəfəsini, yar-yoldaşı tərk edib getməmişdimi? Baqqallığa nifrət qovmurdumu onu ölkə-ölkə, şəhər-şəhər? Baş alıb qürbətdən qürbətə qaçmırdımı? Amma harda əlinə, ürəyinə, həvəsinə münasib bir iş tapdı? Mol- lalıq həvəsi yox idi mollaxana açaydı. Yüksək savadı yox idi təzə məktəblərdən açaydı — millət balalarına təhsil, elm-bilik verəydi. Sənəti yox idi ki, onu işlədəydi: «Kaş uşaqlıqdan məni bir sənətə qoyaydılar: başmaqçılıq, zərgərlik, papaqçılıq, xarratlıq öyrədəydilər. O qədər bir parça çörəkli halal sənətlər var ki! İndi kecdir. Bığlı-saqqallı kişidən usta şagirdi olmaz». Tay-tuşu çoxdan bir-iki uşaq sahibi idi. «İlanın zəhləsi yarpızdan gedər — o da gəlib yuvasının ağzında bitər», — düşündü. — Deyəsən ömrüm uzunu çalışıb, əlləşsəm də bu baqqallıqdan yaxa qurtara bilməyəcəyəm. Boyuma biçilib. Kəfən kimi. Gor evinəcən». Bu fikirlərin birini də Səltənət xanıma deyib onun ürəyini xarab etmək, oğul toyu həvəsilə tellənən keyfini pozmaq istəmədi. Bir də desəydi də nə faydası? Onsuz da başa sala bilməyəcəkdi. Səltənət xanım üçün şeir mərsiyədən ibarət idi ki,

onu hər bir qaradan başı çıxan yaza bilərdi. «İmam Hüseyn eşqinə savadsızlar qoşur mərsiyəni, Ələkbər qadasın aldığım da istəyəndə qoşur».

Odur ki, taleyin amansız hökmünə boyun əyməkdən başqa çarəsi yox idi. Başını arzularının gizli sirlərinin gömüldüyü sinəsinə əyib oturmuşdu. Səltənət xanım onun susmağına dözmədi.

— Bala...

— Nədi məmə?

— Məmə qurban, heç Aşqabadda-zadda işləməyünnən əlində bir şey qalmayıb?

Ələkbər xəcalət içində cavab verdi:

— Elə bir şey deyil, məmə, yad yerdə xərc artıq çıxır. Mənzilə, yeməyə, paltaryuyana...

Səltənət xanım cəld onun sözünü kəsdi:

— Qaadooyalım, baax özün görürsən ki! Özün də deyirsən. Qürbət hara, ata evi hara? Neynək. Şükür allaha yığışmısan evə. Baax... Məndə rəhmətlik kişidən qalma az-maz var. Saxlamışdım, kəfən pulum, ehsanımçün. Allah xeyirə qismət eləyib. Verrəm çax-çux eləyərsən. Soorası allah kərimdi. İşin-gücün yaxşılaşır. Baş-başa verərsən. Ev-eşik də tikdirərsən özünçün.

Anasıyla bacısı toya hazırlıq görürdülər. Büllurnisəni gözaltılamışdılar.

* * *

...Ələkbər Sabir hələ toydan əvvəl dükanda qardaşı ilə birlikdə çalışmağa başladı. Əslində bu «çalışmaq» bir qədər rəmzi məna daşıyırdı. Çünki dükanda əsl işi demək olar ki, Əliqulu aparırdı. Sabir çox vaxt oxuyub-yazmaqla, biliyini artırmaqla məşğul olurdu. Məktəbdə, darülfünunda oxumaq ona qismət olmamışdı. Öz təhsilini özü tamamlamalı idi. Elə bu illərdə də onun gələcək şair Abbas Səhhətlə dostluğunun binası qoyuldu.

Sabir hərdənbir Hacı Ələbbasın qədim Sarıtorpaq

məhəlləsindəki məscidlə üzbəüz evinə, burada məhəllə uşaqlarına dərs dediyi mollaxanaya gedib-gəlir, qismən açıq gözlü molla ilə danışmaqdan xoşlanırdı. Hacı Əlabbas gəncliyində Sabirin ustadı, böyük maarifpərvər şair və məktəbdar, ictimai xadim Seyid Əzim Şirvani ilə dostluq etmiş, «Beytüssəfa» məclisinə gedib-gəlmiş, «Ətşan» təxəllüsüylə yazdığı qəzəllərini, mərsiyələrini yığıncaqlarda oxumuşdu da. Sabiri maraqlandıran Hacı Əlabbasın Ustad haqqında söhbətləri, xatirələri idi. Səhhəti də burada görüb tanımış, əxlaqını, davranışını bəyənmiş, onon iki yaş fərqləri olmasına baxmayaraq, dostluqları tutmuşdu. Xüsusilə, gənc Abbas Səhhət, Şamaxı ziyalıları arasında şair Sabir Ələkbər kimi tanınan, qəzəlləri toylarda xanəndələr, hətta Mirzə Məhəmmədhəsən kimi tanınmış ustad sənətkar tərəfindən belə oxunan, mərsiyələri təəssübkeş şiə rozəxanlarının dilindən düşməyən, bəzi para həcvləri Şamaxı zəriflərinin sinə dəftərinə yazılan bir şəxslə dostluq Səhhəti çox sevindirirdi. Onu nə isə qəribə, gözə görünməz tellər Sabirə tərəf çəkirdi. Cavan oğlan qəlbinin heç kəsə açmadığı sirlərini Sabirə açır, dərdlərini, qayğılarını onunla bölüşür, həvəs və maraq göstərdiyi şeylər haqqında onun məsləhətlərini dinləyir, səyahətləri zamanı gəzib gördüyü yerlər haqqında ona sonsuz suallar verirdi. Bu dəfə də belə oldu. Səhhətlə Sabir Sarıtorpaqdan Şıxminasa tərəf gedən yol boyu bazar-dükan arasında işsiz-peşəsiz, toz-torpaq içində oynayan uşaqlar, qapı-qapı gəzib dilənən balaca dilənçilər haqqında danışırdılar.

— Hamı mollaxanaya gedə bilmir. Pul harda!

— Ustadım kimi pulsuz məktəb açan yox. Millətin böyükləri öz keyfində. Bax gör, şəhərimizdə, ətrafında yaşayan azacıq erməni, malağan millətinin başbilənləri pul toplayıb məktəb açdırır, uşaqları oxudur. Haçandı urus məktəbi açıb hökumət Şamaxıda. Neçə müsəlman uşağı qurtarıb oranı? Füzuli demişkən: «Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun»du. Pulluda kərəm yox, kərəmi olanda pul. Bu yazıq millətin bəs öz müəllimi, öz həkimi hacan olacaq? Dövlətlilərin beş-üçü gedib ursiyətdə, ya

firəngistanda oxuyanı da bir də bu toz-torpaq içinə qayıtmır, qayıtmaq istəmir. Evlənir, bəzisi hətta xaç da taxır, qalır o vilayətlərdə.

Səhhətin iri, xəyalpərvər gözlərində bir qığılcım yandı:

— Onu düz dedin. Amma mən ağamla[1] danışmışam. Mən oxumalıyam. Bu yaxınlarda gedirəm.

Sabirin ürəyi atlandı:

— Gedirsən? Hara? Ursiyətə? — sualda qibtə qarışıq fərəh var idi. Özü gedib oxuya bilmədi. Heç olmasa cavan dostu təhsil alsın.

Səhhət sualdakı ikili ahəngi, mənanı duyacaq halda deyildi. Sevinci böyük idi. Həmişəki sakit görkəminə az uyan bir coşğunluqla izah etdi:

— Hə... Gedirəm. Amma Ursiyətə yox. Heç qoyar? Məşhədə gedirəm. Ağam istəyir ki, mən orda mollalıq oxuyum.

Sabirin keyfi pozuldu. Ölgün səslə soruşdu:

— Nəə! Mollalıq?

— Hə, bəli! Amma mən tüllablardan[2] öyrənmişəm ki, Tehranda firənglər həkimlik darülfununu açıblar. «Mədrəseyi-nizamiyyeyi-nasiriyyə»di adı da. Sivişəcəm yavaşca ora. Ağam xəbər tutub «hə-hə» eləyənəcən həkimlik qurtarıb qayıdacam vətənə. Haçanacan axı, biz bu bədbəxt millətin öz həkimimiz olmayacaq? Türkəçarələr...

Səhhət qəflətən elə bil yuxudan ayıldı. Ətrafına baxındı. Küçədəydilər, lazım olmayan adamlar sözləri eşidib atasına xəbər verə bilərdi. Yavaşca dostunun böyrünə toxunub pıçıltıya keçdi:

— Amma öz aramızdı haa... Yoxsa ağam eşitsə, vay halıma. Qara qəpik də verməz, heç yana da buraxmaz.

Heç kəsin eşitmədiyinə əmin olandan sonra əlavə etdi:

— Elə indidən Gürcubazardakı aptekçidən gizlincə firəng sözlərini öyrənirəm. Rast olduğum təzə müəllim-lərdən, urusdan, ermənidən, malağandan urus dilini də öyrənməyə başlamışam.

---

[1] Şamaxıda dəb olan qaydada Səhhət atasına «ağa» deyirdi.

[2] Tələbə sözünün cəmi — tələbələr.

Ustad Hacı Seyid Əzim ağa buyuran kimi: neçə dil bilirsən o qədər də adamsan. Dəftər düzəltmnşəm, öyrəndiyim sözlərin lüğətini yazıram.

Sabir də yavaş danışığa keçib: cavan dostunu bir az da həvəsləndirməyə səy göstərdi:

— Afərin vallah. Bu niyyət ki, səndə var, arzu elədiyin mənzilə çatacaqsan. Amma çalış ki, özünə söz verib başladığın işi heç vaxt yarıda qoymayasan.

İki dost arzu və xəyallarını bir-birinə açaraq irəliləyirdi.

* * *

Onlar məclisə girəndə toy artıq çoxdan qızışmışdı. Yavaşca, heç kəsi narahat etməmək üçün aşağı tərəfdəki boş yerləri tutdular. Sabir ortada, Mirzə Abbasqulu sağında, Ağaəli bəy solunda əyləşdilər. Üç şair, uç ziyalı, üç müxtəlif təhsilli olsa da, cəmiyyətdə ayrı-ayrı ictimai mövqelərdə dayansalar da, bir əqidəli, bir duyğulu, bir ürək yanğılı, eynilə bir təmiz əxlaqlı insanlar idi. Zəmanəmizin anlayışınca cavan şairlər idilər. Bununla belə, cəmiyyət içərisində hərəsinin öz hörməti, öz şair şöhrəti var idi. Ağaəli bəy Nasehin gizli, Sabirlə Səhhətin açıq... Üstəlik Məşədi Ələkbərin gənclik illərində atasını-anasını razı salmaq üçün yazdığı bir neçə mərsiyəsi mollaların, mərsiyəxanların, rövzəxanların, yerlipərəst sinəzən oxuyanların dilinin əzbəri idi.

Rövzəxanlar tez-tez təklənib, imkan tapanda Məşədi Ələkbər Sabirdən təzə mərsiyə yazmağı xahiş edirdilər. Hər şeydə təzə dəb aşiqi şamaxılılar mərsiyədə də dəb axtarırdılar. Yüzillərdən bəri yazılıb dönə-dönə təkrar olunanlar onları yormuşdu. Odur ki, mollalar Sabirdən əl çəkmirdilər. Beləliklə, onun ruhanilər, fanatik müsəlmanlar arasında da hörmətizzəti öz yerində idi. Təkcə bu təzə oxumuşlara, «babılara», qəzet-məzet oxuyanlara yaxınlığı olmasaydı, Məşədi Ələkbərin yeri behiştdə hazır idi.

...Toy bütün dəstgahı ilə davam edirdi. Toyu artıq gözləri xeyli

zəifləməyə başlamış Mirzə Məhəmmədhəsən aparırdı. Vaxtilə cavanlığında hələ Seyid Əzimin «ləhni-Davud»[1] adlandırdığı səs, öz təravətini itirməmişdi. Muğamın onsuz da ürək oyan xalları «boğazları» elə həzinləşmiş, elə dərinləşmişdi ki, «daş dələr ahım oxu» deyən ustad Füzulinin kədərinə bərabərləşmişdi. Tarzən içəri girən cavan şairləri tanıdı və ustadının üzündə heç bir dəyişiklik əlaməti görmədiyindən qanı qaraldı. Anladı ki, Mirzə Məhəmmədhəsən təzə gələnləri tanımadı. Tanısaydı heç olmasa başı ilə salamlardı. Səhhəti də, Nasehi də, xüsusilə Sabiri qəlbən sevirdi, bir az əvvəl babat çağlarında, vaxtı olanda onların şeir yığıncaqlarına gəlirdi də. Sabirin duzlu, məzəli söhbətlərinin heyranı idi. Ondan tez-tez yeni-yeni qəzəl də istəyirdi ki, toylarda oxuya bilsin. Amma Sabir nədənsə daha qəzəl yazmırdı. Zarafata salıb deyirdi:

— Mirzə Məhəmmədhəsən, qəzəl yazmaq eşq istər. Tiyanın dibində yazılan qəzəldən his, uzaqbaşı sabun qoxusu gələr...

İndi görünür ki, Mirzə Məhəmmədhəsən Sabiri tanımadı. Axır vaxtlar gözü yaman xarablaşır deyəsən. Bu düşüncələrlə də tarzən dodaqaltı, sanki öz-özünə, lakin Mirzə Məhəmmədhəsənə eşitdirmək üçün pıçıldadı:

— Sabir Ələkbər də gəldi... Mirzə Abbasqulu da, Ağaəli bəy də...

Sabir sözünü eşidincə xanəndənin qüssəli üzünə sanki bir nur ələndi. Gülümsədi... Elə bu zaman muğamın şöbəsi dəyişildi və xanəndə yeni qəzələ keçdi:

Qoyma gələ, saqiya, zahidi meyxanəyə!
Dönməyə meyxanəmiz məscidi-viranəyə.
Urma gireh zülfünə, eylə həzər, ey sənəm!
Oxşamasın şəklidə səbheyi-səddanəyə.

---

[1] Davud səsi. Əfsanəvi peyğəmbər Davudun adı ilə bağlı malahətli səs.

Qəzəli Şirvanda bilməyən yox idi. Amma bununla belə, bu cür ağır, böyük məclisdə bu beytlərin oxunması hünər istərdi və bu hünər də Mirzə Məhəmmədhəsəndə var idi. Səhhətin daxilində dostu üçün bir nigaranlıq, bir narahatlıq baş qaldırdı. Birdən cahillərdən biri onu bu tünlük məclisdə təhqir edə bilərdi, ağır bir söz deyərdi. Onda? Xanəndə isə oxuyurdu:

Hirs ilə, əfsun ilə olmaz ilaci-Cünun,
Eşq sözündən siva söz demə divanəyə

Səhhətin qəlbindən keçənləri deyəsən dövrün nüfuzlu şəxslərindən və toy sahibinin yaxın qohumu Cavad bəy Mahmud ağa oğlu da duymuşdu. Sanki onun da ürəyi Səhhətlə həmahəng döyünürdü Sabir üçün. Mirzə Məhəmmədhəsənin apardığı toyda heç vaxt heç bir şuluqluq, narahatlıq ola bilməyəcəyini bilsə də, buna əmin olsa da Cavad bəy, bu beyti eşidincə yerindən, uca səslə dedi:

— Afərin! Eşq sözündən siva söz demə divanəyə!

Mirzə Məhəmmədhəsən daxilən qısıldı və dərhal anladı ki, toyda qaragüruhdan da var. Cavad bəy bu nidası ilə əvvəlki misraların mahiyyətini zəiflətmək, istiqaməti məhz eşqə, toya döndərmək məqsədi güdür. Yoxsa Mirzə Məhəmmədhəsənin xasiyyətinə bələd idilər, tündlüyünü bilirdilər. Oxuyanda dinməzdilər.

Xanəndə oxuyurdu:

Badeyi-təlx içrə bu nəşeyi-şirin nədir?
Yoxsa qoyub dilbərim ləb ləbi-peymanəyə?

Bu qəzəllə qocaman, nüfuzlu xanəndə Sabiri, şairi, gənc dostu və həmfikirini salamlayırdı, alqışlayırdı. Qəzəlin müəllifi isə utancaqlıqla başını aşağı dikib oturmuş, «ləhni-Davud»u dinləyir, nə gizlədim, bir az fərəhlənirdi də. «Eh... Ay Mirzə, indi istə məndən o nəşeyi-şirin verən ləbi! Hardadı? Hardan yada düşür?

Yazıq dilbərdə dilbərlik qalıb bəyəm? Bir yandan uşaq qayğıları, bir yandan da tiyan üçün quyruq doğramaq, isti ocaq qırağında quyruq əritmək qayğıları. İstəsəm də yaza bilmərəm indi o qəzəlləri. Dilbərimin saçı-birçəyi bulaşmış, dodaqları ocaq istisindən bar gətirmiş, təbəssüm çoxdan tərk etmişdir o dodaqları, Mirzə!..»

Xanəndə isə böyük bir həvəs və nəşə ilə son məqtə bəndini oxuyurdu:

Sabir o cənnətrüxün gəndümi-xalın görüb
Az qalıb Adəm kimi aldana bir danəyə.

«VİRANƏ ŞAMAXIDA MƏNƏ GƏNC TAPILMAZ»

Əslində Xorasana, Məşhəd şəhərinə köçüb getmək, orada dükan açmaq, yaşamaq qərarı birdən-birə meydana gəlməmişdi. Bir xeyli əvvəl Şamaxının quberniya mərkəzi kimi mövqeyini itirməsi, on-on iki ilin ərzində iki böyük zəlzələ baş verməsi, dalınca «ovma» azarı şəhəri xeyli yoxsullatmış, əhali azalmış, ölən ölmüş, sağ qalanların əlli-ayaqlısı, pullusu köçüb getmiş, Bakıda, Şəkidə, Aşqabadda, Mərvdə, Məşhəddə və başqa Yaxın Şərq və Orta Asiyanın böyük şəhərlərində «Şirvanlılar» məhəlləsi, «Şirvanlı məscidi» və s. əmələ gəlmişdi. Beləliklə də, o yerlərdəki əqrəba doğma yurdun, qohumun, tanışın qəribliyini çəkdiyi üçünmü, ya o yerlərdə işləri doğrudan da rast gətirdiyindənmi, hər halda məktub yazıb Şamaxıda — zəlzələ, taun, vəba oylağına çevrilmiş «Xərabə Şirvan»da qalmayıb köçüb gəlməyi məsləhət görür, təkid edirdilər. Ələkbər Sabir və qardaşı Əliqulunun da ailəlikcə Məşhədə köçmək qərarı bu axına düşmüşdü.

* * *

Qardaşlar atalarının cavanlıq dostu, şamaxılı tacir Məşədi Məcidə göndərdikləri məktubda xahiş etmişdilər ki, onlar üçün münasib ev tutsun. Xorasana — Məşhədə gəldikləri ilk gün karvanın düşdüyü karvansarada Məşədi Məcid onlara adam qoşdu və bir başa kirayələdiyi binaya göndərdi. Karvansaradan buraya xeyli yol olduğundan şeylərini hamballar vasitəsilə sonradan göndərəcəkdilər. İndilik yüngül əşyalarından bir-iki heybəni kişilər çiyinlərinə salıb, arvadlar və uşaqlarla birlikdə bələdçinin ardınca yola düşdülər. Yol şəhərin tən ortasındakı qəbiristanın böyründən keçirdi.

...Bina ikimərtəbəli nəzərə çarpsa da, əslində, birinci mərtəbə zirzəmiyə bənzər bir şey idi. Küçəyə deyil, heç həyətə belə pəncərəsi yox idi. İç-içə iki otağın birində Əliqulunun, o birində Sabirin ailəsi yerləşəcəkdi. Yarımqaranlıq otaqlara işıq ancaq qapıdan düşürdü. Qışda qapılar örtüləndə içəri yalnız lampa və ya çıraqla işıqlana bilərdi. Hər otaqda iki camaxatan, iki taxça və qapı ilə üzbəüz divar boyu uzunca rəf var idi. Görünür, bütün bunlardan ev sahibləri əvvəllər ərzaq, gec-kec gərək olan ev əşyası saxlamaq üçün istifadə edirdilər. Lakin şəhər böyüyüb kirayənişin çoxalanda zirzəmini boşaldıb, divarlarını ağartmış, torpaq döşəməsinə köhnə, müşəmbəyə çevrilmiş palaz sərməklə «abıra» salmış və müştəri tapmaq üçün dəllala ünvan vermişdilər. Dəllal da tacir Məşədi Məcidin həmvətənləri üçün ev axtardığını bilincə, münasib qiymətə otaqları ona salıq vermişdi. Zeynalabdın oğullarının maddi gücünə bələd olan tacir evin behini vermişdi.

Bülurnisə xudmani, dörd bir tərəfdən qonşu evlərlə əhatə olunmuş, yarımqaranlıq həyətə girəndə ürəyi döyünməyə başladı. Şirvanın axar-baxarlı, gül-çiçəkli, geniş işıq dolu həyətləri yanında bura dustaqxana həyətinə bənzəyirdi; Gənc qadın sinə dolusu bir ah çəkib, otağa girdi və ürəyi guppuldamağa başladı: «İlahi! Qəbirdi... Xalis qəbirdi...» deyə düşündüsə də, qayınxatınınasa bir söz demədi. Bu «qəbirdə» o həmin bu qayınxatını ilə birlikdə qürbət azarına tutulacaqdı, elə indidən tutulmuşdu da. Bu «qəbirdə» o,

həmin bu qayınxatını ilə birlikdə gözünün yaşını çörəyinə yavanlıq eləyib, bala böyütməli olacaqdı.
Hələ allah bilir ev sahibəsi nə cür adamdı!

— Xoş amədid, xoş amədid... Xanumcan, xoş amədid![1]

Qayınxatınılar gözlərini divarlardan, rəf, camaxatan və taxçalardan çəkib geri döndülər. Qapıdan iki qadın girmişdi. Bunlardan biri qoca, o biri cavan idi. Sonra biləcəkdilər ki, biri ev sahibi — qayınana, o biri isə onun gəlinidir. Qocanın adı Əqdəs xanım, gəlinin adı Səfiyəbanu idi. Qayınxatınılar onlara fars dilində «xoşgəldin» eləyən arvada nə dildə, necə cavab verəcəklərini bilmədiklərindən baxışdılar. Yenə də Bülurnisə dil-ağız eləməyi lazım bildi, Şamaxı qaydasınca «İşvərcan» adlandırdığı qayınxatınısından əvvəl dilləndi.

— Aaaz İşvərcan, xoşgəldin eləyir bizə. Sağ ol, ay nənə! Sən də sağ ol, gəlin! — deyə gülər üzlə qarıya və gəlinə cavab verdi. — Aaaz İşvərcan, heç bir fikirləşməmişik ki, biz axı bu farslarnan nə dildə danışacağıq.

Təxminən Bülurnisə yaşda olan ev sahibəsinin gəlini — mavi atlasdan şalvar, tünd mavi «gendədur»dan qısa tuman və al qanovuzdan köynək geymişdi. Başına atdığı xırda «çarqat» yaylığın uclarını boğazının altında yaraşıqlı «süni zümrüd» qaşdan sancaqla bəndləmişdi, — gülə-gülə dedi:

— Mən bir az türki... bilir... Ziyarətçilar... qalır bizdə...

Qadınlar dördü də gülüşdü. Bu gülüş mübadiləsi elə ilk gündən, ilk saatdan gələcək həyatları bir həyətdə keçməli olan qadınları bir-birinə mehribanlaşdırdı...

...Kişilər evə axşamüstü yığışdılar. Gündüzdən yükləri bələd hamballarla göndərmişdilər və Bülurnisə ilə «İşvərcan» marfaşları, xurcunları açıb yorğan-döşəyi camaxatanlara, qabları rəfə, pal-paltar boğçalarını isə taxçalara yerləşdirdilər. Qalan əşya hələ də otağın bir küncündə yer gözləyirdi. Qayınxatınılar işin çoxluğuna

---

[1] Xoş gəlmisiniz.

baxmayaraq göndərilən ətdən ev sahibösinin gəlininin köməyilə, manqalda, onların abgüşt addandırdıqları bozbaş bişirib, çay da qoymuşdular.

Qardaşlar həyətə gülərüzlə girdilər:

— Ay biz hamımız bura xoş gəlib, səfa gətirmişik... Qayım qədim olaq. Xeyirlilərdən olsun... — dedilər. Amma otağa girən kimi hər ikisi demək olar ki, donub qaldılar. Bayaq gələndə arvad-uşağı həyətdə qoyub cəld karvansaraya Məşədi Məcidin və əşyaların yanına qayıtdıqlarından, otaqlara lazımınca diqqət yetirməmişdilər. İndi mənzilə arxayın baxandan sonra Sabir ürəyində tacir Məşədi Məcidin qarasınca deyindi də: «Allah sənə insaf versin. Adam bəyəm dəllal tərifləyəndə mənzilə bir gedib özü baxmaz? Ay rəhmətliyin oğlu, bundan başqa qəbir tapa bilmirdin Məşhəd şəhərində? Uşaqlarçın çətin keçəcək» — deyə dizlərinə sarmaşmış qızların başını sığalladı. Anası Səltənət xanım demişkən hər «ramazanda bir qız doğsa da, Büllurnisə hələlik Əzrayıldan bu iki qızı saldırmışdı: Səkinə ilə Səriyyəni. Atalarına sarmaşıb qərib yerdə hələ əmiləri uşaqları ilə belə oynamağa cürət eləməyən qızların görkəmi Sabirin ürəyini yandırdı. «İndidən qürbət üzlərinə zəfəran sarısı çəkib» — deyə düşündü... Qardaşların ailəsi yerdə salınmış süfrənin başına birlikdə əyləşdi. İlk günləri belə başlandı. ...Xorasan... Məşhəd şəhəri yad «baqqalları» çox da mehriban qarşılamadı. Sabirlə qardaşı Əliqulu Məşədi Məcidin məsləhətilə işləri o qədər də yaxşı getməyən Şamaxıda dükanlarını satmış, əllərində olan mayanı şam və qəndə verib Məşhədi-müqəddəsə gəlmişdilər. Gələn kimi də Məşədi Məcidin onlar üçün «Örtülü bazarada girələdiyi xırdaca dükanda baqqallıq eləməyə, gətirdikləri qənddən, şamdan satmağa başlamışdılar...

* * *

Dükan deyəndə ki, iki xırdaca otaq idi. Alış-veriş üçün olan birinci otağın qapısı məşhur «Örtülü bazar»a açılırdı.

Dükan xırdalığına baxmayaraq, «Örtülü bazar»ın gur yerindəydi. Yanları, önü başabaş irili-xırdalı dükanlardan ibarət uzun yarım kölgəli bir tunelə bənzəyirdi. Dükanların içi kimi qənşəri də satlıq mal tayları, ağzı dürülmüş ləbləbi, kişmiş, xurma, düyü kisələri, qoz, fındıq, alma çuvalları, mövsümünə görə müxtəlif meyvə-tərəvəz zənbilləri, xəlbir və səbətləri ilə malamal idi. «Şirvanilərin» dükanının sağında kəlləpəz, solunda dəllək dükanı yerləşirdi.

Məcid zarafatla atası Əliqulunun yanında dayanıb lövhəyə, lövhədən çox, az ömründə görmədiyi qəribə örtülü bazara tamaşa edən Zeynalabdının burnundan tutmuşdu:

— Belə də burun olar? Ehtiyatlı ol ha, Məşhəd bazarında, hər yerə soxma.

Sonra da Məşədi Ələkbər və qardaşı Əliquluya baxıb əlavə etmişdi:

— Maşalla, hamısı da bir çarxdan çıxıb.

Sabir gülərək dedi:

— Hamısı da deyilənə görə rəhmətlik Hacı Tahirindi...

Məşədi Məcid dedi:

— Balam, bəs mənimki olmayacaq ki, Hacı Tahirin olmayanda. Nəvələridi daa...

«Yüz il də qürbətdə qalsan Şamaxı şivəsini bu «daa»ları unutmayacaqsan» — deyə düşünmüşdü şair.

Kəlləpəz iri gövdəli nəhəng adam idi. Ağ ərəbi köynəyi topuqlarınacan uzanırdı. Bu onu bir az da iri, bir az da uca və azman göstərirdi. Kəlləpəzlə tez dostlaşdılar. Arabir Əliqulunun oğlu Zeynalabdın onlara nahar gətirməli olmayanda keçib qonşu Kəlləpəzin dükanında adama bir qab baş-ayaq yeyərdilər. Sirkə-sarımsağı, hər növrağıynan.

Sol qonşuları dəlləklə də müştəri olmuşdular.

Başlarını ona qırxdırır, bığ-saqqallarını onun ülküc-qayçısına etibar edib düzəltdirirdilər.

Dəllək dükanı az qala üst mərtəbənin yarımzirzəmisi idi. İki

pillə aşağı düşüb içəri girəndə gözün yarımqaranlığa alışınca təəccüblənərdin ki, Usta Rza burada necə işləyir? Başı, üzü necə qırxır, bığın qabağını necə vurur ki, müştərinin üzünə ziyan vermir, sifətini kəsib tökmür, başqa dəlləklər kimi «başında pambıq əkmir». Elə usta Rzanın məharəti də bundaydı.

Sabir ilk dəfə bu yarımqaranlıqda başını qırxdıranda yerində qurcalanmağa cürət etməsə də ürəyində qurcalanır, durub getmək istəyirdi. Amma dəllək hələ onun başını, boynunun ardını qırxıb qurtarmamışdı. Sabirin səbri tükənmişdi, içindəki bir-birilə çarpışan duyğular səbrinin olub-qalanını da tükəndirmişdi. Dəllək usta Rza əlinin yüngül hərəkətiylə müştərisinin başını aşağı əyib iki siyirmədə boynunun ardını «ağappaq ağartdı». Sabir qəlbi ilə məşğuldu. Usta Rza isə ondan «Məzəli bir şeir» gözləyirdi.

— Bəradər, bu gündən sənin nökərinəm, qardaşınam, dostunam. Öyrənmişəm, bilmişəm. Özcə şamaxılıla-rınızdan.

Sonra da məzəliliklə əlini yuxarı qaldırıb oxumağa başlamışdı: «Xuda pulu hər yerdə bir ürəyi səxtə verir. Mərifət müftədi çün kasibi-bədbəxtə verir». Vallah, gül vurmusan. Kasıb qaragünlünün mərifətdən başqa heç nəyi yoxdu. Elə götür məni: ömrüm boyu əlləşirəm. Sənətimin leylacıyam. O nağılda dovşanı qaçaraqda qırxan usta da əlimə su tökməyə yaramaz. Özün görəcəksən, inşallah. Amma nəyim var? Bir ülküc-bülövdən başqa? Bircə mərifətim. Vəssəlam, şüttamam.

Sabir gülümsəyərək ürəyində düşündü: «Elə başqa nağıllarda da deyilir ki, dəlləklər uzunçu, gəvəzə, özündəndeyən olur. Deyəsən bunlar da səndə var qardaş. Əgər bunlar doğrusa — batdım. Uzunçu qonşu uzun işdi...»

Amma Usta Rzanın boş vaxtı çox az idi. Müştərilər yarımqaranlıq dəllək dükanını boş qoymurdular. Bununla belə Usta Rza çox kasıb idi. Qazancı özü demişkən «səkkiz ağıza» çatmırdı.

— Hamısı da qız uşağı. Mən bədbəxt oğluna millətəkən deyənin dili ülgücümün ağzına düşsün. Bu səkkiz qız oğul olsaydı! Neynəmək olar, qız da allah payıdı, hara qaytararsan? — deyərdi.

...Hər gün səhər namazından sonra iki qardaş evdən çıxıb «Örtülü bazar»a tərəf yollanırdı.

İlk günlər-aylar onun üçün xüsusilə ağır keçirdi. Darıxırdı. Başını işə-gücə qatmağa çalışsa da, Məşhəd şəhərinin ortasındakı qəbiristan, səhər minarələrdən qalxan azan, nağaraxanada döyülən sübh təbilinin səsi ürəyinə qüssə doldurur. Şamaxının büllur kimi saf, şəffaf havası üçün ciyərləri zoqquldayırdı. Belə günlərində şəhər kənarına qaçır, Vətəndən gələn karvanları qarşılayır, bir tanışa rast olmaq ümidi ilə üzlərə baxır, doğma dilin, doğma şivənin səsinə, ahənginə qulaq verir, xəbərləşir, qohum-əqraba, dost-aşna haqqında soraq tutur, bir az ürəyi sakitləşəndən sonra dükana tərəf yol alırdı. Bilirdi ki, belə günlərində istəkli qardaşı Əliqulu və atalarının adını daşıyan qardaşoğlu Zeynalabdın çoxdan dükanı açıb, müştəriləri yola verirlər.

Qəlbində iş başına gec gəldiyindən «onsuz da zəhmətin çoxu Əliquluya düşür» deyə düşünə-düşünə şəhər darvazasından «Örtülü bazar»dakı dükanına tələsirdi. Bu gün də belə günlərdən biri idi.

...Şəhərə təzəcə daxil olmuş karvan əhli görünür ki, son mənzili dan ulduzundan da qabaq tərk etmişdi ki, dükanlar açılana yaxın şəhər bazarına yetişə bilsin, yükləri açsın, malları sahiblərinə, topdansatış alıcılarına erkəndən çatdırsın. İlk açılan yemək dükanlarında qəlyanaltı eləyib işlərinə başlaya bilsinlər.

Sabir səssizcə karvanın arasından keçib qənnadıçı Məşədi Məlik ağanın dükanına gəldi. Usta Məlik müxtəlif üstü badamlı qurabiyyələr, şəkərləmələr, halvalar, miyanpurlar, nabat və noğullar düzəldib satardı. Sabir həmişə uşaqlar üçün şirniyyatı təmizkarlığına bələd olduğu usta Məlikdən alırdı. Gəldiyi ilk günlərdən onunla dostlaşmış, daimi müştərisi olmuşdu.

Sabir dükanın kandarına girəndə usta Məlik müxtəlif qənnadı məmulatını vitrinə və piştaxtanın üstünə yığırdı. Dükanın dərinliyində onun şagirdi, ağ önlüklü Sülü irili-xırdalı qazan, tava, küpə və bardaqları yuyub silir, səliqəylə qəfəsələrə yığırdı. Sabiri

görən kimi usta səsləndi:

— Sabahın xeyir, Məşədi.

— Aqibətin xeyir.

— Xeyirdir inşallah?

— Gəldim, uşaqlar bir az badamlı qurabiyyə istəmişdi. Dünən fikrimdən çıxıb. Dedim işi başlamamış alım ki, sonra genə unudaram...

— Əcəb eləmisən. Sənin süftən xeyir gətirəcək, inşallah. Çünki halal zəhmətdən, alın tərindən qazanılıb. Şair süftəsidi...

«Şairin özünə də xeyir gətirəydi kaş!» — düşündüsə də ustanın qəlbinə dəyməmək üçün dilinə gətirmədi.

— Bir girvənkə...

— Baş üstə, can üstə... Gədə Sülü, o qotazları bura qoy...

Sülü hazır qotazları tərəzinin böyrünə qoyanda gülümsər dodaqları, hörmət duyulan gözləri ilə Sabiri salamladı:

— Sabahınız xeyir, Məşədi!

— Aqibətin xeyir, bala!

Usta Məlik qotaza ortasına badam yapışdırılmış dəyirmi, naxışlı, yaraşıqlı dan yeri kimi qızartılı qurabiyyələrdən yığıb çəkdi.

Sabir qotazı alıb usta Məlikin dükanından çıxdı. Artıq «Örtülü bazar»ın ortasındaydı. Öz dükanına az qalırdı.

«Şirvanilər»ə az qalmış bazarda tez-tez rast gəldiyi bir mənzərənin şahidi oldu. Təzə gəldiyi günlərdən tanıdığı hambal Məhiş görünür ki, az irəli döyülmüşdü.

Hambal Məhiş 14—15 yaşlarında bir oğlan idi. Üzü çiçəkdən didik-didik olmuş, sağ gözünü də itirmişdi. Çiçəyin pis günə qoyduğu bu çirkin sifətdə eybəcərliklə yanaşı bədbəxtlikdən gələn bir yazıqlıq var idi. Bəzi taygözlər kimi tək gözü ədəbsizlik, həyasızlıqla parıldamırdı. Qırmızı sifətini ağsaqqal həşyələmiş yoğun bir tacirin qarşısında əl-əl üstündə dayanıb boynunu çiyninə qoymuş, söyüşləri çarəsiz bir mütiliklə dinləyirdi: «Bədbəxt uşaq! Dərbədər... Yetim... Tay-tuşların maarif ocağı məmləkətlərdə elm

öyrənirkən, sən...» Boğazı qovuşdu, gənzi göynədi, «ağlamaq kişiyə yaraşmaz, qeyrətsiz edər onu, Sabir, səbr elə» dedi öz-özünə.

Yaxınlaşdı. Tacirin qoluna toxundu:

— Ağa, yetimin günahı nədi?

Tacirə elə bil od vurdular:

— Ay yetimin... və ədəbsiz, yeddimərtəbəli söyüşlər bazarı başına götürdü. Təkcə yolkeçənlər, alıcılar, bazar avaraları deyil, hətta ajan və möhtəsiblər belə tacirin alabəzək söyüşlərinə qulaq vermək üçün ayaq saxladılar. Hamını davadan çox söyüşlərin rəngi, yöndəmi maraqlandırmışdı. Qəflətən yanıqlı, zil bir səs sükuta dalıb söyüşləri dinləyən bazar əsnafını diksindirdi. O zil, o yanıqlı, o nalə dolu səs «hicaz» üstündə oxuyurdu:

— Ya huu... Ya həqq... Ya Əliyyəl Mürtəza... Ya Seyyidi-şəhəda... Ya qəriblər ağası, qərib imam Riza! Köməyə gəl, imdada gəl...

Seyid tünlük yer, çoxlu adam yığnağı görüb meydan tapdığına sevinmiş, ortalıqda ölüb-itən olmadığını görüb meydana soxulmuşdu. Yaşıl sərgülahından, yaşıl çalma və qurşağından görünürdü ki, seyiddir.

Seyidin səsi camaatı cəlb eləyəndə bala hambal Məhiş ortadan çıxmağa fürsət tapdı, uzaq yerli zəvvarlardan kim isə salavat çevirib tacirə müraciətlə dedi:

— Baba, qoy allahın peyğəmbərinin nəvəsinə qulaq asaq. Gör nə gözəl oxuyur. Səsinə maşallah.

Belə şeyləri çox görmüş, adət etmiş tacir «Əh» eləyib dəstədən aralandı, gözləri ilə Məhişi axtarırdı. O, ticarətdən başqa ayrı bir müqəddəs şey tanımırdı. Nə din qorxusu, nə səs gözəlliyi.

Sabir dəstənin ortasında seyidə yaxın yerdə qalmışdı. Seyidin səsi zəvvar demişkən, doğrudan da, gözəl idi. Oxuduğunun məzmun və mənasından asılı olmayaraq, səsinin təsiri güclü idi və bu gözəllik də şairin diqqətini oxuyan seyidə cəlb etmişdi.

Sabir diqqətlə onu seyr etdikcə bu səsin belə cılız bədəndən necə çıxdığına heyrət edir, eyni zamanda özünə məxsus bir

baməzəliliklə düşünürdü:

— Yəni allahın elçisi peyğəmbər özünə bundan babat nəvə tapa bilmirdi? Amma səsinə söz yoxdur. Lap ustadım, mərhum müəllimim Hacı Seyid Əzim Şirvani demişkən, xalis «ləhni-Davuddur». Doğrudur, o bu sözləri Məhəmmədhəsən Fələkizadə kimi ustad sənətkar haqqında deyib, amma bu bədbəxt oğlu da özünü küçə-bazar dərvişi yerinə qoymasaydı, dindən-dondan, «yahu, ya həqdən» danışmasaydı, Hafizdən oxusaydı, şübhəm yoxdur ki, gözəl xanəndə olardı... Hayıf. Əsl sənət nə gözəl bir səs itirir.

Bazar macəraları hər gün dəyişir, Sabir hər gün yeni-yeni hadisələr, insanlar, talelərlə üzləşirdi.

Artıq bir neçə ay idi ki, dükanda işləyirdilər. Əslində alverin ağırlığı daha çox Əliqulunun üzərinə düşürdü. Piştaxta dalında durub qənd çəkmək, şam bükmək kimi işlərdə Əliqulunun səbri, səriştəsi daha çox idi. Sabirin «du sir»[1] yarım girvənkə... qənd çəkməyə, müştəri yola salmağa hövsələsi çatmırdı. Xüsusilə dükanda tək olanda... «hə-hö» eləyib əlindəki kitabı rəfə qoyub durana, kağız qotaz götürüb qənd qoyana, çəkənəcən müştərilər dözmür, daha cəld işləyən qonşu barqala, dükançıya üz tuturdular. Sabirin tərəziyə qoyduğu «qotaz» əlində qalır, tərəzinin gözündə yellənirdi. Şair Sabir isə yerinə qayıdıb kətilin üstündə əyləşir, kitabını, qədim bir əlyazmanı götürüb oxumağa davam edirdi.

Qonşu baqqal cəld müştərinin istədiyini yerinə yetirə-yetirə təzə rəqibi «Şirvani»ni pisləməkdən, ələ dolayıb gözdən salmaqdan da qalmırdı:

— Baba, u tecarət nə mikonəd...

— Bəs çe mikonəd?

— Şeir minəvisəd.

— Çe? Çe? Çe miquyi? Dorost nəşənəvəm.

— Beraye şöbədəbaziyan, motreban şeir münəvəsid.. Dekər

---

[1] Təqribən 200 qr.

vəxt nə dərəd bəraye tecarət, xedmətə-möştəriyan.[1]

— Ha... Ha... Ha...

Sabir burada qəribə bir aləmə düşmüşdü. İrəlidəki ziyarət-səyahət gəlişlərindən fərqli olaraq indi yerli ziyalılar; alimlərlə görüşüb söhbət etməyə vaxtı var idi. Kimin evində yaxşı zəngin kitabxana olduğunu öyrənir, həmin ziyalı ilə tanış olmaq, kitabxanasından istifadə etmək yolları axtarıb tapırdı. Sabir bu yolla da özünün yarımçıq qalmış, natamam təhsilini təkmilləşdirir, «ali təhsil» alırdı. Əlinə keçən qədim sərf-nəhv kitablarından farsərəb dillərindən biliyini, savadını, söz ehtiyatını artırırdı. Şərq şairlərinin, Hafiz, Firdovsi, Xəyyam, Sədi, Übeyd Zakani kimi tanınmış sənətkarların əlyazma əsərlərini əldə etdikcə gecə yatağında, gündüz dükanda mütaliə eləyir, hey... oxuyurdu. Evdə Büllurnisə, dükanda Əliqulu artıq bu sönməz atəşə — bu sonsuz oxuyub öyrənmək həvəsinə adət etmişdilər. Qəribə bir daxili narahatlıq və zahiri sükunətlə baxırdılar bu sonsuz, nəhayətsiz marağa, həvəsə, eşqə. Bax elə həmin bu böyük məhəbbət onu gətirib imam Rza məqbərəsinin yaxın, tanınmış ruhanilərindən hamının «ağa» adlandırdığı Seyid Bədrəddin yanına çıxarmışdı. Təzə tanış olduğu ziyalılardan biri ona demişdi:

— Əsl xəzinə ordadı. Heyf ki, əl çatmır, ün yetmir. Əgər bacarıb imamın qulluğundakı tanınmış xuddamlardan — din xadimlərindən birinə yaxınlaşa bilsən — işin düzəlib. İmamın məqbərəsinə vəqf[2] olunan əlyazmaları həmincə yeraltı imarətdə — xəzinədə başqa qiymətli ləl-cavahiratla birlikdə saxlanılır. Onların qiyməti yoxdur. Hayıf ki, nə üzünü görən, nə də oxuya bilən var... Elmin, ədəbiyyatın ən gözəl nümunələri orada ağzıbağlı sandıqlarda dustaqdır.

---

1 Atam, o alver eləmir. — Bəs neynir? — Şeir yazır. — Nə? — Nə? Nə deyirsən? Düz eşitmədim. — Hırhırçılar, mütriblər üçün şeir yazır, alverə vaxtı yoxdur.

2 Din ocaqlarına bağışlanan hədiyyə: torpaq, mülk, qiymətli əlyazması, qaş-daş və s.

Ona dedilər ki, tanınmış ruhanilərdən ağa seyid Bədrəddin qafqazlılara mayildir. Cavanlıqda Arazdan Şimala tərəf çox gedib-gəlib, rövzəxanlıq eləyib. İndi də zəvvarlardan o taydan gələnləri görəndə meyl göstərir. Onlarla əhvallaşır, qədim dostlarından xəbər tutur. İndi də o taydan bəzi-para tacirlər ona «rus stəkanı», «rus qəndi», «papo çayı» kimi hədiyyələr gətirir və ya karvançılarla göndərirlər.

Qərəz ki, o gündən Sabir dinclik tapmadı, «Ağa» ilə tanış olmaq üçün çarə, adam axtardı və bu vasitə ilə də gün işığı görməyən o «elm və şeiriyyət» dünyasına «açar» tapmağa girişdi. Tapdı da. Doğrudan da Seyid Bədrəddin qafqazlılara meylliymiş. İlk dəfə onu «Gövhərşad» məscidinə gələndə gördü. Qəribə aləm idi. Ağ ipək donlu, qara əbalı, ağ «əldaşı-kirkirə» böyüklüyündə ipək əmmamə qoymuş «ağa» kəcavə kimi bir «qurğunun» üstündə əyləşmişdi. Kəcavənin mafəsayaq dörd qolunun hər birini bir mürid çiyninə götürmüşdü, onlardan başqa sağ, sol, ön və arxa tərəflərdən də «qurğu-mafə»nin altına müridlər, «qapıqulları» soxulub çiynini kömək vermişdilər. Ağanın ləndəhör vücudunu heç bir qatır götürə bilməzdi, beli qırılardı, odur ki, cümə günləri «Göygümbəz — Gövhərşad» məscidinə bu növ ilə çiyinlərdə gəlirdi. Məscidin darvazasına çatanda möminlər ağanı əlləri üstünə götürüb gətirdilər, dümdüz minbərin qarşısında yerə qoydular. Ağa əyilə bildiyi qədər əyilib minbərin «qolundan — şəbəkə məhəccərindən» öpdü və qara misri əbasının ətəklərini toplayıb geniş, ağ ipək şalvarı ayağına dolaşmasın deyə ehtiyatla minbərin pillələrini qalxdı. Hamını yaxşı görə bilməsi və səsinin aydın çatması üçün minbərin ən uca pilləsinə qalxa bilmədiyindən münasib pillədə əyləşdi. Onsuz da məscidin tikilişi eləydi ki, ağanın minbərdəki sakit səsi o böyük binanın hər guşəsində, hətta «arvadlara məxsus» üst qatda belə aydın eşidilir, başa düşülürdü. Bununla belə, mötəbər Şamaxı tacirləri bu gün Sabir Ələkbəri ağaya tanıda bilmək üçün minbərin yaxınında yerləşmişdilər. Sabir buradan ağanın bütün hərəkətlərini aydın görür və səsi yaxşı eşidirdi.

Ağanın moizəsi uzun çəkmədi. Ət basmış sinə, piy bağlamış qarın onu tövşüdürdü. Oturduğu yerdə iki yumru şara bənzəyirdi: tirmə-qurşaqlı qarın, ağ ipək əmmaməli baş. Amma danışdıqları dür-gövhər, ləlcavahirat idi. Ağa bu gün İslam dininin əsaslarından olan «Əmr be məruf nəhy əz münkər» — yəni yaxşıya çağırmaq, pisdən saqındırmaq məsələsindən danışırdı. Elə gözəl sözlərin bu iki qovuqdan necə «doğulduğu» Sabirin yadından çıxmışdı. Sözlərdəki həqiqət, xeyrxahlıq almışdı onu. Qəlbində iki müxtəlif şəxs var idi. Həmişə bir-birini inkar edən, bir-birinin xatasını yada salan, səhvini deyən bu «şəxs»lər bu gün dilbir olmuşdu. Biri diqqətlə, valehliklə ağaya qulaq asır, onu səmimiyyətlə təsdiq edir, o birisi də deyirdi: «Nə olar?! Bəzən çirkin sifətli insanın yaxşı əməlləri onu gözəlləşdirir. Əgər onun əməli də sözlərilə düz gəlirsə — çox gözəl». Sabir bu gün bu ağadan yalnız yaxşı əməllər, yaxşı niyyətlər gözləyir və eşidirdi də. Ola bilməzdi ki, bu qədər adam səhv eləsin. Axı, hamı onun pak niyyətlərindən, gözəl moizə və nəsihətlərindən danışır, ona inanırdı. Bədəməl adam olsa, hər halda bir yerdə üzə çıxmalıydı bu əməl... Bu niyyətlərlə də Sabir moizəni axıra qədər dinlədi. Ağa sözünü qurtarıb salavat çevirtdirdi və minbərdən endi. Həmin anda Məşədi Məcid ağaya yaxınlaşıb salamlaşdı. Ağa onu mehriban, gülərüzlə salamladı. Məşədi Məcid Sabiri göstərib dedi:

— Ağa, qurbanın olum, bax, bu cənab mənim həmvətənlərimdəndi. Məşhədi Müqəddəsə təzəlikdə varid olub. Dükan açıb...

Ağa dəyirmi, iti gözlərindəki nəvazişlə müsahibinin sözünü kəsib sağ əlini Sabirə uzatdı; Sabir pambıq kimi yumşaq, qadın əli kimi xırda ələ toxundu. Ağa barmağını öpüb gözünün üstünə qoyaraq təbəssümlə dedi:

— Elədə bəndənin də həmvətənidi demək... Axı, cavanlıqda o diyarlarda çox illər səlamət ovqat keçirmişik... Xoş gəlib səfa gətirmisən, ticarətin rəvac tapsın inşallah!

Məşədi Məcid Sabirin «çox sağ olun»undan qabaq müdaxilə

etdi:

— Ticarət deyəndə ki, hələlik xırda bir qəndfüruş[1]luqdu. Gələsinə allah rəhmlidi...

— Əlbəttə, əlbəttə... Bəndə öz müridlərimə sənin dükanını nişan verərəm... Arabir evə də təşrif gətirin, buralarda da görüşüb keçmişləri yad edək.

Sabirə də elə bu lazım idi. Amma ehtiyat üçün nə o, nə də Məşədi Məcid Sabirin elmə, şeirə marağından danışmadı. Həm yer münasib deyildi, həm də ağanın bunu necə qarşılayacağı naməlum idi. Ətraflarını ağaya xidmətə can atan müridlər sarmışdı.

Tanışlıqlarının bünövrəsi belə qoyuldu. Bir neçə dəfə yenə də məsciddə, imam rövzəsində görüşdülər. Bu gün ağanın dəvətilə onun evinə gedirdi Sabir. Əgər ağanın moizələrini, nəsihətlərini nəzərə alsa, Sabirin ürəyi sakit idi. Lakin çiyinlərdə gəzməsi... Sabir düşünürdü: «Görək... Yaxından tanıyaq. Nə adamdı? Bəlkə də elə özünün günahı deyil. Cənnəti bu yolla satın almaq istəyən cahil adamlar özləri könüllü döşəniblər ayağına? Bəlkə moizələrindəki dürüstlük, yaxşılığa dəvət məftun eləyib adamları? Bəlkə paklığı... Doğrudanmı əməli ilə sözü bir adamdır. Elə olsa, gərək evi də bu bədbəxt binəsiblərinki kimi bir həsir ola, bir də Məmmədnəsir. Amma ağanın ona nişan verilən mülkünə yaxınlaşdıqca, həyətə girib əl-əl üstə duran nökərləri, qapıqulu müridləri, ağanın kəcavəsini çiynində daşımağa hazır şəkildə darvazadan o üzdə dayanmış, ayağının birini götürüb, o birini qoyan başı xurafat dolu cahilləri görəndə öz sadəlövhlüyünə gülməyə başladı, qəlbində. «Yox... Yox... Deyəsən əməlli-başlı səhv etmişəm. Gərək elə əvvəldən də biləydim ki... Hardan biləydim? Bu həyətdəki xan-bəy gəlhagəlini ki, görməmişdim. İnanmaq istəmişdim ki, dediyi kimi müsəlman üçün hər bir nemət o dünyada — behiştdədir. Bəs özü? Özü müsəlman deyilmi ki, behişti bu dünyada yaradıb özü üçün? Bu bağat, çarhovuzlu,

---

[1] Qəndsatan.

fəvvarəli, külafirəngili həyət? Bu birun (çöl otaqlar), bu bir neçə arvadın mənzili əndərun (iç otaqlar) — Hərəmxana. Ağa özü də həyətində qırx toyuğu başına yığıb çuqquldayan o qırmızı xoruz kimi saqqalını rəng ilə, əllərini həna ilə boyayıb camaatın başını piyləyir. Hər şeyi onlara o dünyada vəd eləyir, özü üçün bu dünyada sahmanlayır. Nədən biləydim? Yox!.. Gərək biləydim. Bəyəm belələrini Şirvanda, Şamaxıda, Bakıda, Aşqabadda, Səmərqənddə, Mərvdə... az görmüşəm? Hələ bir dalısına baxaq görək. Hər bir xəzinənin üstündə bir əjdaha yatar. Bəlkə mənim də əl aparmaq istədiyim o kitablar xəzinəsinin üstündə yatan bu əjdaha ilə görüşmək vacibdir? Heç bir qızılgül tikansız olmayıb. Oxumaq istədiyim o şairlərin, alimlərin əsərlərinin tikanı da budur? Qəlbimə batır... Batsa da... Xatirlər xatirinə...»

Müridlərdən biri içəri girib qonağın gəlməyini xəbər verdi və onu ağanın otağına dəvət elədi.

Ağanın otağı birunda idi. Sabir içəri girəndə ağa otağın baş tərəfində ikiqat yumşaq döşək üstündə oturmuşdu. Sağında və solunda iri dirsəkaltı — mütəkkələr, arxasında püştü-kürək altı döşək vardı. Yorğan-döşəkdən əmələ gətirilmiş şahtaxtına bənzəyirdi ağanın oturacaq yeri. Sabiri görüncə, yerində qurcalandı, əlindəki yelpici oxuduğu kitabın arasına qoydu, qalxınmaq istədi, amma bu, zor məsələ idi. Qalxmaq onun üçün çətin idi. Bacarmadı, kim isə qolundan yapışmalıydı — yaxında «qapıquluları»ndan kimsə yox idi. Gülümsəyərək yenidən yerində rahatlandı. Kürəyini «arxa döşə»yinə, dirsəyini mütəkkəyə dayayıb bardaş qurduğu ayaqlarının yerini dəyişdi, rahatlandı. Özündən razı, «şahanə», «alimanə» görkəmlə Sabirə baxdı:

— Görürsən də, baba, Qafqazdan qayıdandan sonra yediyimiz ətə dönüb. Bu da allahın bir növ vergisi, baxşayişidi. Buyur, buyur, çox şadam, gəlməyinə. Bax, burada əyləş!

Bu sözlərlə də o yanındakı döşəkçəni barmağı ilə göstərdi və «zəhmətdən» yorulmuş qolu yenidən mütəkkənin üstünə düşdü.

— Lap yerində, sən deyən, sizin o ellərdə də bişirilən dadlı

fisincan...

Ağa deyirdi:

— Mütəncəm.

«Cəm... cəm... cəm» əks-sədası şairin qəlbini dəlirdi. Bir az əvvəl bazarda canına sovxaşan dilənçilər, bir tay yük üçün bütün günü qızmar günəş altında ruzu gözləyən binəsiblər, «İmam aşpazxanasında» bir löqmə nan üçün» (bir tikə çörək üçün) növbədə duran aclar... gəlib gözlərinin önündən keçirdi: «Danış, danış, ağa! Göstər əsl sifətini. Əgər sənin minbərdə dediklərinə mən aludə olub inanmışdımsa, gör o cəhalət pəncəsində qıvrılan bədbəxtlər, gündə cənnətdə vəd elədiklərinin xülyası ilə sənə qul olanlar gözləriii açıb bir şey görməyə qabil deyillər. Gör nə haldadırlar. Evində uşağına bir parça bayramlıq tədarük etmək deyil, bir günlük ruzi tapa bilməyənlər sənin qatırının dırnağını, quyruğunu öpür, bu dünyada tapa bilmədiyini o dünyada görə biləcəyi ümidi ilə yaşayır, ac qarnını ovuşdurur. Gözlərini xurafatla sən və sənin kimilər elə bağlamısınız ki, göz açıb soruşa bilmirlər: Ağa hacanacan? Ağa, bəs sən özün niyə nemətlərə o dünyada yox, bu dünyada sahiblənirsən?»

Ağa isə getdikcə xumarlanır, yediyi yağlı fisincan və mütəncəmlər, arabir şərbətqarışıq nuş etdiyi badələr onu elə yumşaltmışdı ki, açılışırdı, deyirdi:

— Qafqazda olanda çox görmüşəm. Sizin əyalətlərdə elə müsəlmanlar var ki, şərab nuş eləyib ağzını yaxalayır, sonra da ibadətə məşğul olur.

Sabir sükunətlə, sanki xəyal içində dilləndi:

— Bəli, ağa, var elələri...

Ağa bunu daha artıq yaxınlıq əlaməti hesab etdi, tək içmək onu təmin etmirdi. Badəpərəst, həmdərd, həmpiyalə axtarırdı Sabirin simasında.

— Belələrini də görmüşəm ki, bir piyalə nuş etməmiş ağızlarına yemək ala bilmirlər.

Sabir yenə də bir şey başa düşmədi, söz olsun deyə cavab verdi:

— Bəli, ağa, var elələri... Adət də mərəz kimi şeydi... Adət eləyiblər...

— Bəli, bəli — deyə ağa cəld onun sözünü kəsdi. — Adət yaman şeydi. Xəstəlikdi.

Ağa sözünə davam edirdi, Sabir isə buradan tez çıxıb getmək barədə fikirləşirdi.

Sabir artıq bu riya, bu ikiüzlülük, bu yalan yuvasında əlini çaya belə vuracaq halda deyildi. Az sonra qalxdı, «Məqbərə xəzinəsindəki əlyazmalar, kitablar» haqqında söz açmadan, məqsədini bildirmədən vidalaşdı. Ağa onsuz da yediyi xörəklərin və içdiyi badələrin təsirilə «şahanə» taxtında mürgü vurmağa başlamışdı. Sabirmn vidalaşıb çıxdığını hiss etdimi, etmədimi — aydın deyildi.

Sabir, sanki zülmət dünyasından işıqlı aləmə çıxdı. Yox... Əslində bu aləm də heç işıq-zad deyildi. Əhli-suallar, dilənçilər, payyığanlar ordusuna gündə neçə kəndli, neçə fağır şəhərli külfəti əlavə edən, təbəələri əzib-xırpalayan cəhalət dünyası, müstəbid şahlar, qaniçən xanlar, ərbablar, müftəxor seyidlər, mollalar, cindarlar, rəmmallar... dünyası idi. «İlahi! Mən hardan hara düşmüşəm? Orada heç olmasa yalan-gerçək qanun var, məhkəmə var... Orada heç olmasa azdan-çoxdan məktəb var, ziyalı var, məktəbə-elmə beşüç hörmət qoyan var. Biz nəyə, kimə, nəyçün etibar edib buraya düşdük? Bülurnisə haqlıdı. Qayıtmalıyıq. Amma qayıtmazdan əvvəl bu şah bəndələrinin hamısının iç üzünü açıb o bədbəxt xalqa göstərə bilməsəm də, heç olmasa bu riyakar məlunun, bu fağır-füqəra qanını sormaqla piylənmiş heyvərənin əsl simasını o yazıq millətə başa salmalıyam, göstərməliyəm. Həcv etsəm — öz anam dilini burada başa düşən çoxdusa da kafi deyil. Görək başımıza nə gəlir.

* * *

İki gün keçdi. Bir səhər yuxudan duran məşhədlilərin diqqətini

divarlardakı qəribə «Şəbnamə»lər[1] gəlb elədi. Onu ilk dəfə İmam Rza məqbərəsinə namaz qılmağa gedənlərdən biri «Qızıllı qapı»ya yapışıq görmüşdü. Farsca və türkcə yazılmış vərəqədə gözü- nə dəyən ilk sözlər müridin nəzərini cəlb etdi. Oxumağa başladı. Arxasınca gəlib ona qoşulanlar artmışdı. Kağızı görən qapı qullarından biri cəld məqbərəyə soxulub məsələni baş xuddama[2] xəbər verdi. Baş xuddam məsələni anlayanda daxilən sevincindən titrədi. Məşhəddə «üç seyid» qardaşlar, Qütbəddin, Sədrəddin və Bədrəddin onun gizli düşmənləri, həsəd mənbələri idi. Baş xuddam ürəyinin dərinliyində bu üç hampazor seyiddən qorxurdu da. Qardaşlar Bədrəddin üçün elə bir şərait yaratmışdılar ki, hamı ona inanır, az qala səcdə edirdi. Hörməti ucaltmaq və sonra bu hörmətdən gərəyincə istifadə etmək üçün qardaşlar Seyid Bədrəddini özləri də yalnız «ağa» çağırır, onu hər yerə olduğu kimi «Gövhərşad» məscidinə də əl üstündə apartdırırdılar. Baş xuddam getdikcə artan bu nüfuzu daxili bir qorxu və nifrətlə izləyirdi. İndi deyəsən əlinə fürsət düşmüşdü. Belə fürsəti, düşmənini rüsvay etmək üçün belə imkanı əlindən versəydi axmaq olaydı gərək. Bütün bu xəyallar bir anda, ildırım sürətilə qoca xuddamın beynindən keçdi. Cəld məqbərənin geniş, nəhəng sal daşlar döşənmiş həyətinə, oradan da qızıllı darvazaya çıxdı. Burada artıq xeyli adam toplanmışdı. «Örtülü bazar» tərəfindən də başda möhtəsib Mir Yəhya olmaqla bir dəstə adam əllərini ölçə-ölçə və deyinə-deyinə, çığır-bağırla məqbərəyə tərəf gəlirdi. Baş xuddam köməkçilərindən birini işarə ilə yanına çağırdı:

— Sükut olan kimi hündürdən oxu! — dedi və əlini yuxarı qaldırdı. Hamı sükuta qərq oldu:

— Ey əhli-Məşhəd! Ey uzaq ellərdən Qəriblər ağası Qərib imam Rzanın bargahına ziyarətə gələn zəvvarlar! Sakit olun, qoyun o divardakı mənfur yazı oxunsun, sonra yoxlarıq. Bəlkəm elə

---

[1] Bir növ, intibahnamə, gizli vərəqə.

[2] Məqbərənin ruhani xidmətçisi.

yalandır, dinimizin sütunlarından birinə atılmış böhtandır. Böhtançını tapıb cəzalandıraq. Biz tapmasaq — qəbrinə fəda olduğum ağam imam Rza özü qənim olar ona.

Tam sükut bərpa olundu. Hər iki dili gözəl bilən xuddam köməkçisi irəli keçib qapının adam boyu səviyyəsinə yapışdırılmış kağızdakı yazını oxumağa başladı:

«Ey müsəlman qardaşlar! Ey bir parça çörək üçün səhərdən-axşamacan palan altında can verənlər! Ey zi- yarətə gəlib günahlarını bağışladıb, savab qazanan zəvvarlar! Mollaların minbərdən söylədikləri sözlərə inanmayın. Çünki onların yüzdən doxsan beşi yalandır. Minbərdən sizə axirət tövsiyə edən bu şəxslər, minbərdən aşağı enincə az qalır ki, beş quruş pul və ya bir şapalaq plov üçün canlarını oda-atəşə atsınlar. Sizə nisyə cənnət vəd edib özü üçün cənnəti bu dünyada yaradanlardan biri əl-əl üstə bargaha gətirdiyiniz Seyid Bədrəddindir. Sizin əlinizin əməyi bahasına varlanıb, piylənib, dövlət başından aşıb. Elə azğınlaşıb ki, müqəddəs Məşhəd şəhərində, imamın qulluğunda şərab düzəldir və içir. Anbarlarındakı şərab küpünü görmək istəyirsinizsə şah sarayından fərqi olmayan imarətinə buyurun! Görün sizi necə aldadırlar. Görün cənnət vədilə başınızı necə piyləyib əlinizdəki pulları qoparır, sizi quru yurdda qoyurlar». «Şəbnamə»nin əvvəli baş xuddamın xoşuna gəlməsə də, Seyid Bədrəddinə və ümumən «o napak üç seyid» ailəsinə zərbə vuran yerlər döşünə düşürdü. Oxu sona çata-çatmaya əvvəlcə narın bir uğultu keçdi kütlədən, sonra başsız kütlə dalğalandı. Tufan küləklərinin qovduğu nəhəng dalğalar kimi uğuldadı, uğuldadı... Qəzəb zirvəyə çatanda baş xuddam yenə də əlini yuxarı qaldırdı. Bütün gözlər, hətta qəlbində inamsızlıqla «Bu iti vurma sinsidi, bu da onun cinsidi», yaxud «it-itin ayağını basmaz» deyə düşünənlərin də nəzərləri ona dikilmişdi. Ani sükut içində baş xuddam var səsilə hayqırdı:

— Bizim, peyğəmbər nəsli seyidlərdən birinə böhtan deyilib, yoxlamaq lazımdır. Sözümüzü yalnız ondan sonra deyərik, — dedi və ət hasar içindən ötüb dəstənin başına keçdi. Möhtəsiblər, qeyri

xuddamlar onun sağ-solunu əhatə etdilər. Qalan qəzəbli müsəlman kütləsi, bazar avaraları, iş-kücsüz bekarlar, öz binəsib həyatının acılarını çıxmağa yol, imkan tapmış dilənçilər onların ardınca dalğalana-dalğalana irəlilədi.

Kütlə, başsız, idarəedilməz qaragüruh, dəli dağ seli kimi küçələrdən axıb Seyid Bədrəddinin mülkü yerləşən küçədə dayandı... Dayanmadı... qarşısına nəhəng daş çıxmış bulanıq sel suyu durulmağa başladı. Qapının önündə dayanıb özünü itirmiş müridlər baş xuddamı görüncə nisbətən sakitləşdilər. Baş xuddam töyşüyürdü. Selin qabağında yüyürmək, daxili həyəcan, rəqibinin sonunun çatdığından duyduğu fərəh qocanın çökük sinəsini qabardıb endirir, quru öskürək boğazını tıxayırdı. Bir-iki saniyəlik sükunət nəfəsini sakitləşdirirdi və baş xuddam özünə gəldi, əlilə qapını kəsdirmiş, «qapı qulları»ndan birinə çəkilmək işarəsi verdi. Kütlənin, qaragüruhun qan çilənmiş gözlərində coşan qəzəb qapını sınmaqdan saxladı. Mürid darvazanın hər iki layını geniş-geniş açdı. Ağanın yüksək, yapma-palçıq divar arxasındakı behişt həyəti gələnlərin üzünə güldü, sədd oldu, gözəlliyi ilə qəzəblərin önünə çəpər çəkdi. Adamlar heyrət içində içlərini çəkib durmuşdu. Baş xuddam bu sükutdan istifadə edib səsləndi:

— Beş nəfər... Mənimlə beş nəfər girəcək həyətə. Müsəlman, seyid peyğəmbər övladının həyətinə, zənən içinə, bu qədər naməhrəmin girməsi cayiz deyil. Beş nəfər dedim: Xuddam Mir Yəhya (o adları saydıqca adamlar kütlə içərisindən çıxıb baş xuddamın ətrafında toplanırdı), tacirbaşı Hacı Mənaf, Möhtəsib Seyid Abutalıb, bəzirganbaşı Kərbəlayı Qədir.

Arxadan gələnlər basırıq salmağı dayandırıb açıq darvazadan boylanırdı. Adı çəkilənlər baş xuddam ilə içəri həyətə girdi. İntizar içində güllükləri, fəvvarələri, meyvə ağaclarını, köşkü, külafirəngini, əndərun və biruna bölünmüş daxildə yaraşıqlı imarəti seyr edən, bağçada dolaşan adamlardan ürkməyən cüyür, əlvan quyruğunu yelpazə kimi açmış tovuz, müxtəlif biçimli, ağ, göy, boz göyərçin, qumru, xoruztoyuq və s. tamaşa etdikcə qəzəbi coşan

adamların atmacaları eşidilirdi:

— Bəh-bəh, ağa, elə behişti yaradib özüyçün bu dünyada.

— Həyət deyil, bağı-irəmdi.

— Gədə bi o quşlara, o cüyürə bax.

— Biz yeməyə quru əppəy tapmırıq, baba, bunnarın qabağına qızıl kimi sarıbuğda səpilib.

— Hələ ağanın kəndlərdəki, yaylaqlardakı mülklərini görəsən.

— Gədə bunnar dindar müsəlman döyü, dinsizdi, dinsiz.

Həyətdə gurultu qopdu. Baş xuddamın, görünür ki, içəri gedəndə tapşırıq verdiyi beş-altı zorba, əli çomaqlı kişi «qapı qullarını» itələyib həyətə girdilər. Bir neçə başqa qəzəbli fanatik də onların ardınca qoşdu. Az sonra içəri dolanlar geri qayıtdı. Öndə baş xuddam gəlirdi. Bir əli ilə «ağa»nın top qara saqqalından tutmuşdu. Ağanın qara misri, ipəkdən yumşaq yun əbası əynindən çıxarılmış, ağ ipəkdən tikilmiş uzun köynək-donda qalmışdı. Əmmaməsi də düşmüşdü. Qırmızı sifətinin cırmaqlanmış yerlərindən qan sızırdı. Geniş ağ şalvarı çılpaq ayaqlarına dolaşırdı. Hər iki tərəfindən və boynunun arxasından çomaqlı zorba kişilər tutub qapıya tərəf dartırdı. Darvazaya çatanda çoxlarının qibləsinə çevrilmiş ağa olduqca pərişan, pis görkəmdəydi. Əvəzində, baş xuddam elə bil ki, cavanlaşmış, rəqibini yenib həyətdən — dən üstündən qovalayan beçə kimi xoruzlanırdı; üzünü camaata tutub, qara saqqalı dartmaqda davam edərək ucadan bağırdı:

— Camaat! Bu məlun, cəddi peyğəmbər üzünə tüpürmüşün zirzəmisindəki çaxır küpünü öz gözlərimizlə gördük. Şahidlərin yanında. Sizlərdən də görmək istəyən varsa, buyurub zirzəmiyə enib baxa bilər. Bu məlun xəsərəddünya vəl-axirənin cəzası böyükdür.

Haradansa, deyəsən tövlədən qatırı çəkib gətirdilər. Ağanın bu ağ qatırı hamıya tanış idi. Qara saqqala uzanan, yolan əllər dayandı, etiraz səsləri yüksəldi:

— Gədə, qatıra yox, mındar eləməyin allahın heyvanını...

— Çaxır içəni...

— Eşşək gətirin, eşşək...

Çadraya bürünmüş arvadlar, əl-ayaq altında qalmaqdan qorxub analarının böyrünə qısılmış uşaqlar yastı damların üstündə, damların lap qırağında çöməlib oturmuş, bir-birinə sığınmış, dəhşətli bir daxili qorxu içində ağlayan, ağanın bədəncərə sifətinə vurulan sillələrin, söyüşlərin səsinə gülən, yolunan saqqalından havaya sovrulan zil qara basmadan rəng almış tüklərə hayıfsılanan da var idi.

Haradansa meydana qara bir eşşək çəkdilər, belindən navarı götürdülər.

— Adə navarı neynir, baba, öz yumşaq yeri bəs elər.

— Müqəddəs Məşhəd torpağına peyğəmbər Salavatul-lanın haram buyurduğu ümmulxəbais[1] — şərab qayırmaqla, içib müqəddəs minbərə çıxmaqla murdarlayan əyyaşın cəzası budur, ey camaat, ey müsəlmanlar siz də lənət deyin qəlbinə şeytan girmiş bu məluna.

— Min lənət!

Üç gün ağanın qardaşları Seyid Qütbəddin və Seyid Sədrəddin, eləcə də qohum-əqrabaları, dostları, ən yaxın müridləri və «qapı qulları» bazar-dükanda, küçədə-bayırda görünmədilər. Evlərinə çəkilib matəmli sükut içində əyləşdilər, qəzəb dalğasının keçməsini gözlədilər ki, yığışıb ağanın özlərinin belə bilmədiyi bu sirrini kimin açıb-ağarda biləcəyini müzakirə edib öyrənsinlər. Hər halda qardaşlar bu fikirdə idi ki, sirri baş xuddamın qulaqçıları, gözətçiləri öyrənib büruzə verib. Hələlik, ağa dirçəlib özünə gələnəcən heç kəsin «şirvanlılara» gümanı gəlmirdi.

* * *

Məşədi Məcid onlara gələndə axşam əzanından xeyli keçmişdi.

---

[1] Xəbislik, pislik anası, yəni şərab.

Uşaqlar şam eləyib yerlərinə girmiş, nağıla başlamışdılar. Deyəsən növbə Səriyyənin idi. Vaxtilə nənəsi Səltənət xanımdan eşitdiklərini indi kiçik bacılarına danışır, onları yuxuya verməyə çalışırdı. Bülurnisə mətbəxdə qab-qacaq yumaqla məşğul idi. Qurtarıb gələcək, çırağın dibində Xaqaninin «Həbsiyyə»sini vərəqləməkdə olan ərinin yanında əyləşib yırtıq-yamaqla məşğul olacaqdı. Nağıl deməyə vaxtı hardaydı. Gərək böyük qızın qısalmış donunu ondan kiçiyə tarazlaya, birisinin cırıq corabının yamağa gəlməyən pəncə-dabanını kəsib o birisi balaca üçün yamayıb düzəldəydi. Vətəndə də beləydi. Gündüz ev işləriylə, xörək-çörəklə bərabər ərinin sabun bişirməsi üçün quyruq doğramağa, əritməyə yardım edər, gecələr çıraq işığına yırtıq-sökük tikməklə məşğul olardı: «fağırın günü-ruzgarı...» Sabir fikrini bitirə bilmədi. Çöl qapının döyülməyini eşidib, əlfəcini daşbasma kitabın arasına qoydu və qalxıb həyətə çıxdı. Qaydaydı: evdə kişi xeylağı, oğlan uşağı olanda arvad, gəlin-qız qapıya getməzdi.

Sabir qapıya çıxanacan əmisi kimi nazik, zərif uşaq olan Zeynalabdın «Bəli, gəldim» deyə qapıya getmişdi. Məşədi Məcidin səsini eşidib tanıdı və qapını açdı:

— Buyur əmi, xoş gəlmisən, axşamın xeyir.

Məşədi Məcid oğlanın dil-tavazasını bəyənir, mehribanlığı xoşuna gəlir və həmişə ona sataşırdı:

— Hə... Axşamın xeyir, özündən qabaq Hacı əmimin burnu göründü, keyfi necədir?

Oğlan gülümsədi, Məşədiyə həmahəng cavab verdi:

— Canuva dua eləyir, əmi!

Məşədi Məcid qəhqəhəylə gülə-gülə qarşısına çıxan Sabir və Əliqulu ilə görüşdü.

— Pay atonnan aaadə... Ömrümdə kimin desən eşitmişdim, amma burunun adamın canına dua eləməyini eşitməmişdim. Düz deyiblər ki, gündə bir təzə söz eşitməsən, qulaqların bir barmaq uzanar.

Sabir gülərək dedi:

— Neynəsin, Məşədi, olanı odu. Varını deyib.

Zeynalabdın anasıgil olan otağa, yad kişi səsi eşidən Bülurnisə uşaqlarının yanına, kişilər isə bir az əvvəl Sabirin kitab oxumaqda olduğu otağa keçdilər. Gülüş, zarafat səsləri kəsildi. Otağa girib əyləşən kimi Məşədi Məcidin üzünə diqqət edən Sabir anladı ki, kişi bu bivaxt saatda elə boş-boşuna, səbəbsiz gəlməyib. Ciddi iş var. Doğrudan da Məşədi Məcid Əliqulunun süzdüyü çaya əl vurmadan sözə başladı:

— Qardaşoğlu! Ürəyinizi hax-nahax qopbacaya salmaq fikrim yoxdu. Amma yəqin bildiyim bir məsələni sizə deməliyəm. Baaax... Seyid Bədrəddinin başına gələni sizdən — lap dəqiqi Məşədi Ələkbər, səndən görürlər. Deyirlər guya o şəbnamələri sən yazıb yapışdırmısan duvarlara. Deyirlər ağanın qardaşları da bilməyən sirrinə sən əl aparmısan. Nə yolla — iman yandıra bilmillər. Amma ağa... tfu... Day ağa deməyədə dilim gəlmir, hə... guya özünə gəlib, dili söz tutan kimi qardaşlarına qandırıb ki, düşmanı sənsən. Səndən görür. Nökər-nayıbı da duyuq düşüb, orda-burda pıçıldaşıblar ki, Seyid Qütbəddinlə Seyid Sədrəddin fürsət axtarır, bu hayıfı o şirvanlı cızmaqaraçıda qoymayacaq. İndi, qardaş oğlanları, bir bölük külfətsiz, babanız Hacı Tahirə «əmi» demişəm, atanız mərhum Məşədi Zeynalabdınla dostluğum olub, çörək kəsmişəm, duz dadmışam. Sizin külfətin qeyrəti mənə düşür. Bir də o yandan ki, mən sizə məsləhət görmüşəm buraya gəlməyi. Mən bilirəm ki, sən yazdın-yazmadın o şəbnamələri, heç tafovutu yoxdu, səndən ki, xayın düşüblər, şübhələniblər, sizi dinc qoymayacaqlar. Onlar seyid deyil, əsl qoluçomaqlı zorbalardı. Sənin o şəbnamən bəlkə də bir iş görməzdi, əgəmlərn Xuddambaşı ilə Seyid Bədrəddinin arası saz olsaydı. Qoca tülkü Bədrəddini qutarmaq istəsəydi deyərdi ki, «bunu dinə, ağaya sataşan böhtançılar yazıb, yığın, cırın, aparın tökün rahatxanaya, uşaqları da üstünə tos tutun». Amma aranı qızışdırıb «gedək evini axtaraq» deyən o oldu, fitva verməsəydi — Heç kəs bu qələti eləyib Bədrəddin kimi zorbanın müridlərinin, qohum-qardaşının

qorxusundan o qapıya yovuq düşməz di. İndi, bala, işin əslini bildiz. Məsləhət görürəm ki, hələlik ara sakitləşənəcən köçəsiz mənim bu civardakı kənd-lərdən birində olan evimə, bir neçə ay köçlü-külfətli qalasız orda. Sonra genə allah kərimdi, xata sovuşandan soora qayıdıb gələrsiz.

Qardaşlar baxışdılar. Yaşda kiçik olsa da, son sözü Sabir deməli, son qərarı Sabir verməliydi. Onsuz da Əliqulu ilə bu haqda xeyli vaxt idi ki, söhbətləri olurdu ara-sıra. Bu il yarıma yaxın müddətdə Xorasan — Məşhəd şəhəri onlar üçün doğmalaşa bilməmişdi. Ev adamlarının da, qadınların da fikrini, uşaqların da arzusunu, həsrətini bilirdi. Vətən üçün özünün də burnunun ucu göynəyirdi. Bülurnisə demişkən «azacıq aşım, ağrımaz başım» orda.

«Yox! Üzüsulu qayıtmaq məsləhətdi. Hamısı orada, vətəndə yerbəyer ola gərək. Bəsdi calayvətənlik, bəsdi. Məsəl var ki, it də öz həyətində padşahdı. Hər halda özgə yurdunda xan oluncan öz yurdunda qul ol, nökər ol. Bunu da el deyib, babalar deyib, əcəb də deyib.

Əliqulu da darıxıb. O gün deyir: «Qardaş, bir əlinə uşaqları al, birinə allahı! Çıxaq, qayıdaq gedək yurdumuza. Day bilmir ki, o büzmədodaq şamaxılıların qınağı olacağıq... Nəysə... Hər şeydə səbrlə iş görən Sabir... Bura səbr yeri deyil. Vətən üçün elə hamımızın içi göynəyir. Getmək lazımdı...»

«SABİRA!
BEYNƏLMİLƏL TƏDBİRİ-ÜLFƏT ETMƏLİ»

Bülurnisə səhər hamıdan tez oyandı. Hələ gün çırtmamış həyətə endi, dəstəmaz aldı, kişi üçün aftafaya su doldurdu. Namazını qılandan sonra cəld həyəti sulayıb süpürdü, tiyanın altındakı ocağı qaladı, amma od vurmadı. Manqalı alışdırıb çay qoydu. Şirə dəhmərdəsinə su töküb şirəni təzələdi. Hər gün olduğu kimi bu gün

də kişinin yatdığı səmtdə divarı şirələməli idi. Adət etmişdi buna. Kişi gecələr uşaqları oyatmasın deyə çırağın piltəsini qaldırmazdı. Əvvəllərdəki kimi «yandırıb lampanı çılpaq otur»mazdı. Uşaqlar oyanıb analarına əziyyət verməsin deyə, elə ölgün işıqda, sağ böyrü üstə çevrilir, əlindəki nazik uclu mismarla, ya da qələmlə ilhamın bu gecə vaxtı onun şair könlünə doldurduğu şeir misralarını yuxulu-yuxulu divara qeyd edirdi. Səhər yuxudan duran, divar işıqlanan kimi qeydlərini kağıza köçürür, mehriban, iri qara gözlərinin dərinliyində ki, nəvaziş və peşmanlıqla, günahkarcasına arvadına baxırdı. Bilirdi ki, uşaqlarının zəhmətkeş anasına «iş açıb». Divarı hər gün şirələmək, kağız korluğu çəkən kişisinə «qaralama kağızı» hazırlamaq özü də vaxt istəyirdi. Vaxt isə... Eh... Vaxt isə Bülurnisənin ən çox ehtiyacı olan, həsrət qaldığı, tapa bilmədiyi nemət idi. Vaxt hardaydı? Xorasandan tayıdandan bəri qızların sayı çoxaldıqca ananın vaxtı azalır, işi artırdı. Amma neyləmək, təki burada doğma torpaqda olsun. Əlindən tutan, imdadına çatan var idi. Gah Nazlı baldızı... Gah yaşıdı qonşu qızlarından biri... Eh... Ən çox isə həyətə çıxanda başı üstündəki aydın səma, ciyərləri dolusu almağa belə macalı olmayan tərtəmiz büllur hava... Tanış üzlər, doğmalar, qohum-əqraba... «Yox... Sənə heç nə çatmaz vətən... Heç nə çatmaz vətən torpağı... Allah sənə rəhmət eləsin, a bu bayatını deyən adam: «Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı».

Öskürək səsi eşidən kimi başını manqal tərəfdən otağın qapısına döndərdi. Ələkbər kandarda dayanıb, həyətə, arvadına baxır, düşünürdü: «Bədbəxtin qızı, haçan oyanıb? Bir gör həyət-bacanı necə silib-süpürüb, «Yağ tök yala» deyərlər, nənələr, ha çalışıram, ondan irəli dura bilmirəm ki, bir əl verəm fağıra. Nə vaxt durmağını duymuram da».

— Dəstəmaz suyunu qoymuşam, kişi! Odey. Qara haftafadadı. Genə öskürürsən ha... Çay da qaynamayıb ki, bir qurtum içəsən... kəsə... İncitməyə səni.

Sabirin qəlbinə bu adi, amma adi olduğu qədər də güclü

mehribanlıq, nəvaziş, məhəbbət dolu sözlərdən sıcaqlıq yayıldı.

Neynək, neynək!... Sağ ol, qaynar, qaynar... Darıxma sən. Bülurnisə manqalı piləmədən qızarıb yaşarmış gözlərinin acısını silə-silə gülümsəməyə çalışdı:

— Darıxmayım neynim, kişi? İndi durub gedəcəksən dükənə, çaysız...

Nəhayət ki, manqaldakı kömürlər qığılcım saçdı, gözərdi. Çaydan dızıldayanda Bülurnisə ayağa qalxdı. Zifqo çitindən tikilmiş tumanının ətəyini sağ əlinə toplayıb suaxana yaxınlaşdı və ilıq su dolu aftafanı götürdü. Dəstəmazdan əvvəl əl-üzünü yaxşıca yumağı adət etmiş ərinin əlinə su tökməyə başladı.

Sabir əl-üzünü yuya-yuya düşünürdü: «Evləndiyimiz bu on il müddətində gör bir neçə uşaq dünyaya gətirib... Bir-birinin dalınca. Ətəcərə-südəcərə... Xəcalət çəkir mənim üzümə baxanda, deyir: «Kişi, qızları düzdüm yan-yana... Sənə oğul verə bilmədim, böyüyə, köməyin ola...» Deyirəm: «Sən neynəyəsən? Allah verir.

Hacı Rüstəm əmiyə yeddi oğul, cümlə qəni. Leyk baqqal Cəbiyə yeddi qızı süftə verir». İstəyirəm azacıq üzünü güldürəm, hardan? Bir-birinin ardınca dünyaya gələn körpələr elə bir-birinin ardınca da dünyadan gedirlər... Analıq zəhməti, doğum əziyyəti hədər gedir. Hardan üzü gülsün fağırın?»

Əllərini sildi. Nədənsə birdən-birə düşüncələrinə qarşı qəlbində üsyan qalxdı. Fikirlər seli alıb apardı onu; bu, ata qəlbinin təəssübü idi: «Mən qızlarımın kəsinti dırnağını çox avara, qoçuluq eşqinə düşən, əlindənsə bir iş gəlməyən, ata-ana varı ilə gumbuldayan oğullara dəyişmərəm. İllah da ki, Səriyyə kimi — anaşım kimi qızları... min oğula vermərəm. Nə bilsin fağır? Elə bilir ki, mən də qız doğmağına görə kablayılar təki onun üzünü danlayacam. Üzünə baxmayacam, ya da üstünə evlənəcəm? Day demir ki, elə şeyləri eləyənlərin qanına susayıram mən. Arvadlarımızın halı onsuz da yamandı... Balaca qızların zorla babası yaşında qoca kişiyə ərə verilməyi... Çoxarvadlılıq... Kəbin və talaq mərasimlərində bir tikə də razılıqlarının nəzərə alınmaması... İslam aləmində qadının dərdi

çoxdu, böyükdü... Bircə o səyyar dustaqxana — çadra hər şeydən ağır təhqirdi... Cəhalət, nadanlıq, xurafat baş alıb gedir. Qadınlar cadı-pitikçilərin, əfsunçuların, nadan cici-bacıların əlində oyuncağa çevrilib. Ata evində ata, qardaş, ər evində ər, qayın-qayınata çomağı başından əskik olmur. Biçarə analarımız, bacılarımız, qızlarımız»... Sabir fikirli-fikirli içəri otağa keçib geyindi. Səhər tezdən qəssab Alının dükanına getməliydi. Yoxsa hava istiləşər, quyruq da, himə bənddi... «Bir azca hava isti oldu, iyiyəcək. Sonra da gəl, eşşək gətir, mərəkə yüklə! Gedim görüm kişi neçə qoyun kəsib? Bəs eləyəcəkmi bugünkü tiyana?» Bu fi kirlə də yenidən həyətə endi. Bülurnisə hələ də manqalın böyründə əlləşirdi.

— Diyəsən yandıra bilmirsən əməlli, hə? — deyə yumşaqlıqla soruşdu.

Bülurnisə üçün ərinin qayğısı xoş idi. Tüstüdən qızarmış gözlərini ərinə tərəf çevirdi:

— Bilmirəm nə çər dəyib, əməlli-başlı yanmaq bilmir...

— Bəlkə kömür nəm çəkib?

— Nə bilim, vallah! Heç oxşamırdı axı... — Qızların dili ilə kişisinə müraciət elədi: — Əli dadaş, yolun bazardandı?

— Hə!.. Qəssab bazarına gedirəm. Neynirdün ki?

— Qayıdan baş böyükməməgildə çörək tabağımıznan dəstərxanımız qalıb, əlin boş olsa, onları da gətirəydin, ya da deyəydin uşaqlardan biri gətirsin. Xəmir eləyəcəyəm, tabağsızam.

— Lap gedən baş yolumu salıb uşaqlardan biriynən göndərrəm tabağı.

— Allah razı olsun səndən. Yaxşı olar. Tez yoğurram. Quyruq gəlincən.

Sabir darvazadan çıxdı. Bülurnisə həyətdə qaldı. Xeyli keçdi. Birdən qapı döyülmədən açıldı. Həyətə ala gözlərindən səma kimi işıqlar süzülən bir gəlin girdi.

Əlyağa bəyin arvadı Məşədi Bikə xanım idi. Hə-

yətdə çapacağı yumaqla məşğul olan rəfiqəsi Bülurnisəni

görüncə gülümsədi, evə deyil, ona doğru irəlilədi. Bülurnisə ayağa qalxdı, çapacağı tut ağacının budağına keçirib Bikə xanımı qarşıladı. Bikə xanım gülər üzlə dedi:

— Salaməleyk!

Bülurnisə də rəfiqəsini gördüyünə şad idi:

— Bay, əleyküməssalam! Xoş gəlmisən. Nə təhərsən, aazz?

— Xoş günün olsun, Bülurnisə, sən nə təhərsən?

— Yaxşıyam, baaşuva dönüm, yaxşıyam. Allah sənə cansağlığı versin.

Səniynən belə, qadoyalım səniynən belə. Əli dadaş evdədi? Hindicə gələr... Neynirdün?

Bikə xanım əlində tutduğu qazançaya işarə ilə dedi:

— Əli dadaşçın fisincan gətimişəm, xoşlayır axır.

— Çox sağ ol, baaşuva dönüm, çox sağ ol. Bizə xəcalət verirsən.

— Bay, xəcalət düşmənin olsun. O nə sözdü deyirsən, Bülurnisə? Sən bilirsən ki, Əli dadaş fisincan xoşlayır.

— Çox sağ ol...

— Sağol-mağol gərək deyil. Bəs onda biz nə günün bacılığıyıq, Bülül? Sən mənim canım məni xəcalətə vermə. Nə şeydi ki bu?

Bülurnisə bunun nə şey olduğunu yaxşı bilirdi. Fisincan üçün yağlı qoyun əti, əla, seçmə Qəbələ qozu, ədviyyat, yağ-soğan... lazım idi. Fisincan varlılar, Əli dadaş demişkən «şişqarınlar, milyanlılar» xörəyi idi. O gün necəsə pıçıldayırdı: «Ah eylədiyim dadlı fisincanın üçündür?» Belə idi? Yox, deyəsən nəyisə qarışdırıram. Amma orda bir fisincan var idi. Əli dadaş haçan dövlətlilərin məclisindən danışırsa, süfrəsindəki yeməkləri sayırsa, fisincanın adını çəkməmiş olmur. Özü də bu kasıb xörəyi olmayan neməti çox bəyənir».

— Nə təhər keçinirsiz, Bülurnisə? — deyə Bikə xanım yetiklik elədi.

— Çox sağ ol, yaxşıyıq. Şükür.

— Şükür allaha, həmişə yaxşı olasız.

— Şükür içində olasan. Bircə iş-gücünə ikiəlli yapışsaydı, ayrı dərdim olmazdı, Bikə!

Bikə xanımın gözləri yol çəkdi:

— Nə danışırsan, Bülül? Onun hər qəzəli...

— Qəzəldən çörək çıxmır, ay bacı, çörək. Uşaqlar çoxaldıqcan fağırın xərci artır. Mən neynim...

— Danlama Əli dadaşı, Bülül. Səni söyüb döymür ki, başqa kişilər kimi.

— Bıy... Allah iraq eləsin. Öləcəyəm, bir qarış torpağa qoyulacam. Hələm ondan güldən ağır bir söz eşitməmişəm. Bir kərəm o qonum-qonşu, qohum-əqraba kişiləri kimi, kəmhövsələ vaxtında da üstümə əl qalxızmayıb, atamı-anamı pis söznən, söyüşnən dilinə gətirməyib. Adam öləcək. Düzün deyəm gərək. Budey dalbadal, allah verən qızları düzüb cərgəyə. Qayınanam abırımı ətəyimə bükəndə də gülə-gülə deyir: «Neynəsin o fağır, ay ana, allah verən paydı».

Bikə xanım rəfiqəsinin əlindən tutdu:

— Bu özü elə dünya malına dəyər. Şairdi. Əsl şair ürəyi var onda. Hayıf ki, oxumamısan, Bülül... Bilirsən nə yaxşı, nə gözəl sözlər qoşur... Allah vergisidi, vallah...

Bikə xanımın bir gözündə həsrət, bir gözündə həsəd hissi oxunurdu. Amma qayğıların yorduğu Bülurnisə bu hisslərdən bixəbər idi. Tale ona bir millətin fəxri, bir millətin deyən dili, görən gözü, yanan ürəyi, gələcəyi düşünən beyni bir şair, bir inqilab oğlu, mütəfəkkir sənətkar bəxş etmişdi. Onun istedadı günəş kimi əsrlər uzunu xalqın qəlbini isidəcəkdi, bütün məzlum xalqlara pərəstar olacaqdı.

İndi həmin bu şair adicə insan idi, səkkiz qız atası idi. Evdə qadınların fisincan qazanı yanında əyləşib nədən danışdıqlarından bixəbər halda atalıq vəzifəsini yerinə yetirmək, balaları üçün gün ruzusu qazanmaq üçün bazara tərəf gedirdi.

Sabir hələ «Hophop» olmamış onunla əlaqədar anası Səltənət

xanım və ömür yoldaşı Bülurnisə haqqında deyilmiş bir neçə fikirlə bağlı hadisələrə buradaca toxunmaq istəyirəm.

Sabir Aşqabaddan qayıdıb lazımınca özünə gəlməmiş, özünü evli gördü. Vətənə dönəndə fikri bir qədər Şamaxıda qalıb qardaşına kömək etmək, anasını ovundurandan sonra yenidən Aşqabada qayıtmaq idi. El deyib: «Sən saydığın qoy dursun, gör fələk nə sayır». Ana öz sonbeşiyini, sevimli Ələkbərini, Şamaxı arvadları içində mərsiyələri ilə, şəbehiylə onun başını uca eləyən oğlunu evində, yanında, gözünün qabağında, evli-eşikli görmək istəyirdi. Onun Təkə-Türkmanla nə işi var idi? İslam dünyasının dərdləri ilə nə ürcahı var idi? Əzənlərlə əzilənlər, toxlarla aclar, ipək geyənlərlə cın-cındır tapmayanlar aləmi ilə nə alış-verişi var idi? Onunku balası idi. Əziz, mehriban, gülərüz, duzlu, şirin sözlü, qara, iti gözlü, bəstəboy, bir qədər zəif bədənli olsa da, kişi, ər tinətli, qara ətlas köynək üstündən qara arxalıq geyən, qışda qara mixəyi çuxa ilə qara Buxara papaq, yayda əmiri drap papaq qoyan Ələkbər... «Boyuna sadağa gedim, bala! Sevib seçdiyimə büllur kimi Bülurnisəyə «yox» demədin. Məni sinədağlı eləmədin. Üzümə ağ olmadın, pey- ğəmbər qulluğunda üzün ağ olsun. Fatimeyi-Zəhra şəfaətçin olsun, oğul! Hər hüzürdə, yasda, təziyə məclisin də görünəndə, sənin mərsiyələrin xətrinə ağbirçəklər də ayağıma durur. Allah adın cənab Ələkbərə bağışlasın, şahzadə Ələkbərə səni.

Arvadın gözü gərdək qurulan evə sarı düşdükcə oğluna qurban-sadağa gedir: «Yarıyanlardan olasız, balalarım!» deyə təzəbəy oğluna, təzəgəlin Bülurnisəyə alqış eləyirdi. «Atası bədbəxt, nigaran getdi. Elə hey deyirdi: «Səltənət! Ələkbər ağıllı baladı, zehinlidi, xoşxasiyyətdi... Təki bircə əl-ayağı evə yığışaydı... Ev-eşik olaydı... Əl götürəydi bu gəzəntəlikdən... Bir işin qulpundan yapışaydı». Deyirdim: «Ay rəhmətliyin nəvəsi! Sən özün bəyəm peyğəmbər övladı olmusan? Az incitmisən fağır ata-ananı? Sənə çəkib daa... Sonradakı dərviş xasiyyətliyi də özün öyrətmisən ona». Deyirdi: «Düz deyirsən, arvad, düz deyirsən. Cavanlığımda mən

özüm də elə az pəstahlar açmamışam. Amma soora axıla da gəlmişəm axı». «O da gələr inşallah» — deyirdim. «Allah ağzından eşitsin» — deyirdi.

«Şükür xudanın kərəminə! İndi kişinin də arzısı yerini aldı, mənim də. Ruhu duaçı olsun, balama. Oğul var bazara gedər, dəyirmandan xəbər verər; oğul var — dəyirmana gedər, bazardan xəbər verər. Təki əli işə yovuşsun. Dükana bərk yapışsın. Yoxsa fərasətlidi. İşinin çəmini tapsa hər şey düzələr inşallah! İki qardaş əl-ələ, dal-dala verib hər şeyi yoluna qoyarlar. Gərək üzərrik yandıram, ocağa duz atam, yaman gözlərə şiş batsın. Nə bilmək olar? Kimin gözündə nə var, ürəyində nə var? Kim balalarıma nə göznən baxır? Şükür kərəminə, xudaya! Gəlinlə ulduzları barışsın oğullu-qızlı olsun, uruğlu-turuğlu olsun. Nəzir eləyirəm. Birinci oğlu olan kimi Kərbəlaya gedim, nəzir verim. Ağam Hüseynin qəbrinə, başı kəsilən torpağa üzümü sürtüm. Duamı allah eşitsin. Amin, ya rəbbilaləmin».

Arvad dediyini də eləyirdi. Sonralar Sabir Tiflisdə xəstə ikən Həmidə xanım Məmmədquluzadə ilə etdiyi söhbətlər zamanı anası haqqında da danışırdı. Sabirə böyük yardımlar edən Həmidə xanım barəsində ömrünün sonlarına doğru yazırdı və deyirdi ki, ömrü olsa Həmidə xanımın xəcalətindən çıxmağa can atacaq. «Nəgərdəd kəs əcəl poştəm xəmidə, Kəşəm dər du şe — xod rənci-Həmidə». Həmin Həmidə xanım «Sabir haqqında xatirələrim»də yazırdı: «Sabir anasını çox sevərdi. Onun ibadət etməsindən, namaz qılmasından, bir neçə dəfə Məşhədə, Kərbəlaya getməsindən və buna görə də avam Şamaxı qadınları içərisində böyük bir hörmət qazanmış olmasından danışardı. O, toya, vaya gedəndə hamı ona «Həzrət Fatimə kimi» hörmət göstərərdi.

Sabir özünün məzəli sözlərilə anasının Kərbəlaya getməsinin səbəblərindən danışanda deyirdi ki, anamın əvvəllər böyük bir dərdi var idi. Demək olar ki, hər il ramazan ayında bizim arvad bir qız doğardı. Səkkiz qızımız olduğu halda, oğlumuz heç yox idi. Odur ki, anam hər dəfə qız doğulanda qara geyər, yasa batardı.

Qonşu arvadları gəlib ona başsağlığı verərdilər:

— Neynək, ürəyüvü sıxma, canın sağ olsun, allah qoysa gələn səfər oğlan olar...

Buna görə də anam nəzir edib tez-tez Kərbəlaya gedərdi ki, mənim oğlum olsun. Axır ki, inişil (1909-cu ildə) yenə ramazan ayında, bizim bir oğlumuz oldu. Anam sevincindən yerə-göyə sığmırdı. Yetim-yesirləri sevindirdi. Çox fikirdən sonra onun da adını Məmmədsəlim qoydu. Sabirin öz danışıqlarından görünürdü ki, o da öz oğlunu çox istəyir».

Sabirin şəxsi həyatında, tərcümeyi-halında kəskin faciələr, ziddiyyətlər, məhəbbət macəraları və dramatik hadisələr axtarmaq nahaq olardı. Onsuz da onun bütün həyat və yaradıcılığı cəmiyyətlə qarşı-qarşıya durmuş ictimai-siyasi ziddiyyətlərlə qarşılaşmış, mövcud ictimai quruluşa qarşı sinə gərmiş, bütün islam dünyasına, islami anlayışlara, islam mübəlliğlərinə meydan oxuyan, bəy-xan, tacir, baqqal, molla, şah, çar, kral tanımayan, cüssədə zərif, ruhca olduqca böyük, azman bir insanın həyat və yaradıcılığıdır.

Bununla belə, bəzən onun haqqında yazılan xatirələrdə bir sıra təzadlara, ziddiyyətlərə də rast gəlirik. Birinci belə ziddiyyətin yaranmasına Sabirin ən yaçın dostu, ilk bioqrafı Abbas Səhhət səbəb olub. O, Sabirin maddi və mə*nəvi əziyyətlərindən bəhs edərkən yazırdı ki: «Firdovsi, əş*arını nəzm etdikdə Sultav torəfindən maaşı təmin olduqda yazmış ikən, Sabir ofəndi həmin əşarı sabun tiyanının kənarında, odlar, qorlar içində tər tökdüyü halda, yainki əyalının tənə və təərrüzü qorxusundan gecə yarısı şirin yuxunu özünə haram etdiyi halda yazmışdır. Necə ki, özünün bu halını «Molla Nəsrəddin» məcmuəsinin 4-cü ilinin 17-ci nömrəsində əyalının bir qoca arvada şikayət surətində danışdığını yazır:

Gahda bir yatsa da vaxtında əgər,
Çəkməyir yuxladığı bir o qədər.
Qəflətən bir də görürsən ki, durur
Yandırıb lampanı çıplaq oturur.

Başlayır yatdığı yerdə təzədən,
Oxuyub-yazmağa bir də təzədən.
Belə od olmaz atam, böylə alo,
Od deyil, yanğı deyil, lovdur, lo!

Bu məsələ S. Hüseynin də Sabir haqqında yazısında təkrarlanır.

Digər tərəfdən Sabirin doğmaca qızı, «anaşım» adlandırıb bütün sirlərinə, dərdlərinə vaqif etdiyi qızı Səriyyə atası haqqında «Xatiratımdan» adlı yazısında söyləyir: «Əli dadaş (o zaman atama belə xitab edərdik) işinin çoxluğuna baxmayaraq, anama və mənə savadlanmağı təklif etdi. Anam isə «qocalıqda iməķləmək» deyə bu təklifi qəbul etmədi. O zamankı vəziyyətimizdə anam bir növ buna haqlı idi. Bir tərəfdən ağır maddi vəziyyət üzündən uşaqlarının ölməsi, digər tərəfdən sabun bişirməkdə atama yardım etməsi onu üzür və bütün vaxtını alırdı. Odur ki, Əli dadaş mənimlə təkcə məşğul oldu.

Lakin məşğələmiz çox davam etmədi. Atam üçün Şamaxıda dolanmaq çətinləşdi, hər tərəfdən ona qarşı yapılan hücum və təqiblər get-gedə artırdı. Odur ki, Bakıya gəlməyə məcbur oldu.

Bu zaman onbir uşaqdan ancaq üçümüz (bu günə kimi sağ qalmış böyük bacım, mən və qardaşım) qalmışdıq. Bu arada Əli dadaş Bakıda ikən hər kəsin hücumundan ziyadə bizi incidən, əqrabamızın təzyiqi idi. Bir gün nənəm (atamın doğma anası) anamın yanına gəlib: «Niyə oturmuşsan, sən şərən azadsan, o babıdır, get boşan, mən də südümü ona halal etməyəcəyəm» dedi. Belə sözlərə anam öyrəşmiş olduğu üçün əhəmiyyət verməmisə də, mən əhvalatı atama yazdım (o vaxt atamla yazışdığımız məktublarda hərfləri bir-birinin yanına düzərdik), cavabında isə atam, belə şeylərdən narahat olmamağımızı məsləhət edərdi».

Səltənət xanım üçün oğlundan imtina etmək, «südümü ona halal» etməmək nə qədər çətin, ağır olmalı idi. Oğlunun oğul övladı üçün az qala qabıqdan çıxan dindar arvad üçün, güclə qürbətdən qaytarıb qohum qızı ilə ev-eşik elədiyi dindar ana üçün bu oğula

qarşı çıxmaq nə qədər dəhşətli faciə olmalı idi? Və o Şamaxı qaragüruhu, gəlin qohumları tərəfindən nə qədər danlanmalı idi ki, gəlib öz gəlininə «o babıdır, sən ondan boşan» deyə bilsin?!

Bütün bu ziddiyyətli vəziyyəti dərk etməkdən başqa bir şeyi də nəzərə almaq vacibdir: Onun üçün on bir uşaq doğmuş, bir-birinin ardınca bunun doqquzunu qara torpaqlara tapşırmış, gün ruzusunu qazanmaqda ona tiyanın qor sacan dibində kömək göstərən, uşaqların pal-paltarını, yırtıq-yamağını eləyən, xörək-çörəyini bişirən baş yoldaşına qarşı, Sabir, bütün xatirə söyləyənlərin bir səslə ədalətpərəst, haqq sevən insan kimi tanıdıqları böyük Sabir amansız, ədalətsiz ola bilməzdi. Onu ələ salıb jurnala-qəzetə yazıb rüsvay eləməzdi. Məncə şairin «Nədamət və şikayət» əsəri incə, nəzakətli şair və insan Abbas Səhhətə olan bütün hörmətimizə rəğmən, Bülurnisə əleyhinə yazılmayıb. «Nədamət və şikayət»dəki qadın ziyalı, şair evinə düşmüş cahil, nadan qadının ümumiləşdirilmiş surətidir. Sabirin «Uşaqdır uşağım», «Qoyma gəldi», «Qarı nənənin nəsihəti» və başqa satiralarında olduğu kimi, cəhalət dünyasında elmsiz, tərbiyəsiz, nadan, ər-ata-islam dini və cəmiyyətin üçqat zülmü altında bütün insani hüquqlardan məhrum edilmiş qadının tipikləşdirilmiş surətidir. Ümumiyyətlə, Sabir şeirində fərd axtarmaq doğru olmadığı kimi, «Nədamət və şikayət»də də bir Bülurnisə surəti axtarmaq düz deyildir.

Elə buradaca Həmidə xanım və Səriyyə xanımın xatirələrindəki Səltənət surətinin barəsində də bir neçə söz demək lazımdır. Səriyyə xanımın təsvirindəki Səltənət irəlidə dediyimiz kimi ictimai mühitin cəbri, zoru altında gəlininə, «bəlkə də «boşan, o babıdır» sözlərini demiş, oğluna qarşı çıxmaq məcburiyyətində qalmışdır (Səriyyəyə inanmamağa haqqımız yoxdur). Lakin Sabirin böyük ana məhəbbəti Həmidə xanımın xatirəsindən başqa, şairin analar haqqındakı bütün ciddi şeirlərində özünü göstərir. Əgər Bülurnisə doğrudan da, Sabirdən bir ər kimi narazı olsaydı, qohumlarının, qayınanasının öz dini anlayışınca onsuz da «babi» ərindən «boş» idi, cəmi üç uşağı qalmışdı, qoyub atası evinə çıxıb

gedə bilərdi. Şəriətmədarlar da ona «afərin» deyərdi. Bu da düşmənlər tərəfindən Sabirə vurulan ən ağır zərbələrdən biri olardı. Lakin nə Sabir, nə də Bülurnisə belə bir addım atmağı bəlkə heç ağıllarına da gətirməmişdilər. İsmayıl haqqının və başqa xatirə yazanların söylədiklərindən də aydın olur ki, o öz «əyalı» haqqında həmişə «ilıq bir mehribanlıqla» danışmışdır.

Sabirin öz uşaqlarının anasına məhəbbəti, boyunduruq yoldaşına məhəbbəti, zəhmət yoldaşına məhəbbəti keşməkeşli dünyanın əzabları içində bərkimiş əsl insani hörmət və məhəbbət idi. Burada aşiqanə, Məcnuni, «Eşqabad» sevgisi axtarmaq, Sabirin ən kəskin ictimai satiraları içərisində lirik misralar — Füzuli eşqinin tərcümanı olan beytlər axtarmağa bənzər. O fəqir, o keşməkeşli, o qor saçan tiyan dibində böyük, bəşəri şairə bunların heç biri qismət deyildi…

...Özü nə qədər dözümlüydüsə, Səhhət bir o qədər kövrək idi. Və ən qəribəsi də bundaydı ki, Səhhət Sabirin cismini afətlərdən, xəstəliklərin afətindən qorumağa çalışır, ona dərman gətirir, onu sağaltmağa səy göstərirdi. Sabir isə kövrək qəlbli dostunun zəmanənin, cəmiyyətin, nadan insanların afətindən qorumağa, qəlbinin yara almamağına can atardı. Həmişə fikri-zikri buydu ki, bəd, yaman, amansız bir xəbəri Səhhət eşitməsin, eşitməli olsa da, yumşaq söylənsin ona. Kim isə, hacansa, haradasa ona demişdi ki, çəkilən hər bir ah, bir yalan ürəkdə bir qara nöqtə — bir xal salır. Əgər belədirsə, ömründə yalan bilməyən Səhhətin qəlbi təkcə bəlalar, əziyyətlər içində qıvrılan milləti — «sevgili milləti» üçün çəkdiyi ahlardan qapqara qaralmışdır.

Hərdən-hərdən dostunun ah və əninlərdən köksü parçalanan, körpə ceyran gözləri kimi yaşla dolmuş gözlərinə baxanda deyirdi:

— Bu qədər kövrək olma, dostum, Səhhətim, rəfiqibibədəlim mənim.

— Bilirsənmi, məndən asılı deyil. Təəssüf ki, xalqı, milləti sağmal qoyuna, inəyə çevirib sağanlar, at yerinə minənlər çoxdur... Onları görəndə könlüm bulanır. Xalqı heyvan yerinə qoyanlar,

bütün İslam məmləkətlərini, şükür xaliqə ki, gəzib xeylisini görmüsən, bütün islam aləmini heyvan yerinə qoyub cilovlayanlar, inkişaf üçün yer qoymayıblar. Cilov namərd, yağı, qanlı düşmən əlindədi. Tamah qoymur ki, bu bədbəxt millətə bir dəm nəfəs çəkmək imkanı versinlər. Bir bax, bir gör..., bütün islam dünyası nə gündədi? Hansı islam məmləkətində inkişaf, hansı islam aləmində bir işıq ucu görünür? Sən ki, gəzib görmüsən... Sabir qəmli-qəmli gülümsədi. İri qara, dərin kədər çökmüş mehriban gözləri sanki bir az da dərdləndi, dilləndi:

— Düz deyirsən. Amma çarə nədi? Nə sən bilirsən nə mən.

Diidirir əsr bizi, dinməyiriz,
Atılan toplara diksinməyiriz,
Əcnəbi seyrə balonlarla çıxır
Biz hələ avtomobil minməyiriz.
Quş kimi göydə uçur yerdəkilər
Yerə gömdu bizi minbərdəkilər...

Sonralar Sabir həmişə Səhhətin təmizliyinə və səliqəsinə heyranlıqla baxardı. Uzunsov dırnaqları şirmayı, sədəf kimi hamar, parlaq və tərtəmiz! Bığlarının qabağı səliqə ilə vurulmuş, al dodaqlarını bir az da al göstərən bəyaz çənəsi də nur saçardı. Yağışda elə yeriyərdi ki, üstünə bir damcı palçıq sıçradığını görməzdin. Bütün bunlar, qəribədir ki, zahirində həmkarı baqtallardan seçilməyən, qara sətin arxalığı, qara çuxası tərtəmiz olan Sabirdə həsəd oyatmırdı. Bununla da, dostunun elmi, biliyi ilə olduğu kimi bu səliqə-sahmanı, təmizkarlığı ilə öyünür dü. Dükanda sabun iyi verən əllərinə, sabun tilişkələri ilişmiş dırnaqlarına baxanda Səhhəti xatırlayıb mehribanlıqla gülümsəyirdi. «Haradadı bizdə o aadə?» deyə mərhum və həmişə oxşamağa çalışdığı müəllimi Seyyid kimi şamaxılı sayağı saitləri uzada-uzada, yastılaya-yastılaya düşünür, gülüm-səyirdi. Bu təbəssümdə narın bir istehza var idi: öz çətin, il hamına, ilham

pərisinə yaraşmayan fəqirliyi, «baqqal-lığı» ilə uyğun gəlməyən bir təzad görür, istehza ilə gülümsəyirdi.

Bu gün də Səhhət darıxan «ürəyini əlinə alıb» Sabirin «sabun dükanı»na söhbətə gəlmişdi...

Uşaq tərbiyəsindən danışırdılar. Səhhət ilk doğuldu-ğu gündən körpəni zabitəli böyütmək tərəfdarı olanlardan, gözünü açan gündən başına qapaz vurub körpənn gözüqıpıq, böyüyəndə qorxacaq, ikiüzlü eləyənlərdən narazılıqla söylənirdi.

Qonşudur, ailə işinə qarışa bilmərəm. Amma hər düşəndə deyirəm: «Kərbəlayı! Uşağa bir az mehribançılıq göstər, qoy o səni ata kimi, valideyn kimi sevsin. Yoxsa sənə nifrət elər, böyüyəndə sözündən çıxar». Deyir: «Allah döymüşdü onu». Deyirəm: «Uşağını gözüqıpıq eləmə! Qorxaq eləmə! Qoy bir az tərxam böyüsün. Yoxsa hər yerdə başı üstünə qalxan əlin ona qapaz ilişdirəcəyini sanıb, sarısını udar. Deyir: «Ölsün, canı çıxsın. Versin cavabını. Soxsun xəncəri qarnına anası vayına oturmuşun. Döyülüb gəlsə iki gözünü bir deşikdən çıxardaram, məlunun». Bilirsən qardaş, bu yovuqlarda mənə bir əhvalat danışıblar, uşaq tərbiyəsi barədə. Gərək əvvəlcə ana özü tərbiyəli ola, savadlı, qanacaqlı, bilikli ola ki, balasını da o cür tərbiyə eləyə. Sən bunu lap düz demisən:

Gər olsa nisada elmü ürfan,
Evlada edər bu yolda iman.
Əksi olaraq bu müddəanın,
Olmaz isə elmi bir ananın,
Evlada çatar haman cəhalət;
Nə əql olur onda, nə fərasət...

Sabir həmişəki kimi yenə də dostunun şeir söyləmək bacarığına heyranlıqla qulaq asır, xoş, mehriban surətini seyr etdikcə öz şeirini onun dilindən dinləcəklə həm fərəhlənir, həm də utanırdı. Səhhət isə sözünə davamla deyirdi:

— Yazıq analarımız neynəsin axı. Məlum məsələdir. Elm yox, savad yox, hə... onu deyirdim axı. Bu yovuqlarda rus rəfiqələrimdən biri mənə bir əhvalat nağıl eləyib. Deyir rusların məşhur şairi Puşkinin anası bir gün qarpız kəsib uşaqlarına paylayırmış. Evdə nə münasibətləsə xeyli əqrəba cocuqları da var imiş. Ana qarpızı dilimləyir, hər dilimini balacalardan birinə verir, bir dilim artıq qalır. Ana uşaqları xoş, gözəl bir işə sövq etmək üçün deyir: «Kim yaxşı bir söz desə — bu dilim də ona çatacaq». Uşaqlar susub baxır, maraqlı söz tapmaqda çətinlik çəkirlər. Bu zaman Rusiyanın gələcək böyük şairinin 4—5 yaşı var imiş. Qaraca bir oğlan imiş, ulu babası afrikalı Hannibala çəkibmiş. Uşaq hamıdan qabaq deynr: «Saşina puza — xoçet arbuza». Yəni Saşanın qarınciyəzi qarpız istəyir.

Sabir isə xəyala dalmışdı. Gözlərinin önündə öz uşaqlığı canlandı. Bir gün ona oruc tutdurdular. Obaşdan atası Zeynalabdın, anası Səltənət xanım, böyük qardaşı Əliqulu ilə birlikdə durdu. Səltənət xanımın bişirdiyi susuzluq gətirməyən dadlı qəlyəni yedi, çay içdi, yıxılıb yatdı. O günü bəxti gətirməmişdi: Mollaxanada Quranı bitirməyən uşaqlara yazı yazmağa izn verilmirdi. Ələkbər isə könlündən gecənləri, ya da eləcə xoşuna gələnləri yazmağa həvəsliydi. Molla onlara nahar icazəsi verəndə həyətə çıxdı. Orucluq ona hələ çox əziyyət vermirdi, tez idi. Uşaqlardan xəlvət həyətin bir güncünə qısılıb heybə sindən kağız parçası və qələm qırığını çıxardı. Nə isə yazmaq istədi. Elə bu anda yoldaşlarından biri bunu görüb mollaya xəbərə qaçdı. Molla onu yanına çağırdı. Kağız-qələmini aldı, sonra əmr etdi:

— Aç əlini! — Bu əmr üç dəfə təkrar olundu. Ələkbərin balaca zərif əli açılmaq bilmirdi.

Molla qənşərindəki qutunun yanından çubuğu alıb onun xırdaca əlinə üç çubuq vurdu. Bu onun həyatda ruhanilərdən aldığı birinci acı zərbə idi. Evə qayıtdı, qəlbi qırıq idi, acmışdı, yorulmuşdu. Anası Səltənət xanım mətbəxdə axşam iftarı üçün hərəsi bir fındıq boyda bükülən Şamaxı dolması, üstünə darçınla müxtəlif xətlər

salınmış firni, üzəri narın qoz səpilmiş, kəhrəba kimi sucuq, sapsarı, şipşirin noğul-tərək bişirirdi. Uşaq anasına qısıldı

— Məmə, acmışam!

Allahına ibadət edə-edə, zikr deyə-deyə xörək hazırlamaqda olan ana, mömin müsəlman bəndə, balaca Ələkbərin əzablarını ibadətin qanuni nəticəsi, orucun zövqü sayırdı. Qəlbində öz ilahisi ilə söhbət edirdi. Nənəsindən, anasından da belə eşitmişdi:

— Orucsan axı! Orucunu sındırsan atan-anan ölər. İftara az qalıb, darıxma!

Doğrudan da yaxşı idi ki, payızın axırı — günlərin qısa vaxtıydı. Əzana az qalırdı. Ələkbər ruhu incik halda mətbəxdən çıxdı. Bu gün o İslam dinindən ikinci zərbəni alırdı. Hər bir uşaq bunu bəlkə də başqa cür qəbul edərdi. Amma bu balaca Ələkbər gələcəyin böyük Sabiri, Hophopu, Ağlar güləyəni, Əbunəsr Şeybanisi idi, Nizədar idi. Otağa keçdi, yarımqaranlıq küncə qısıldı. Heybəsində gizlətdiyi ikinci qələm qırığını və kağız parçasını çıxartdı. Qadağalara balaca qəlbilə meydan oxudu, ilk etirazını, ilk üsyan səsini uşaq dili, ifadəsi ilə kağıza köçürdü:

Tutdum orucu irəmazanda
Qaldı iki gözlərim qazanda
Mollam da döyür yazı yazanda.

Bu gün az danışan, söz uzatmağı sevməyən, həmişə danışanda da, duzlu, lətifəli, məzəli danışan, dinləyənlərin qəlbinə bir fərəh, bir sevinc gətirən, öz qəlbi ağlasa da, başqalarını güldürən Sabir, bu həzin uşaqlıq xatirəsini dərin bir kədərlə xatırlayıb dostuna danışdıqca, təəssüf dolu hadisəni dinləyən Səhhət də, onu danışan şairin özü də qəlbində ağlayırdı.

— Hə... Qəribə hekayətdir... O ana... Bu ana... Onun təşviqi, bunun təşviqi, müqayisəyə sığmaz.

— Ana yazıq neynəsin? Dünya gör-götür dünyasıdı. Məgər Səltənət arvada dünyadan xəbər verirdilər ki? Gözünü açıb oruc görüb, namaz görüb, o biri dünya qorxusu ilə bağrı yarılıb. Bütün

dərdi-səri bu olub ki, o biri dünyası üçün gün ağlasın. Bu dünya beş günlükdü, «çalış, o dünya üçün əlində əməl apar». Bunu eşidib. Bunu görüb, bunu da övladına tərbiyə eləyib.

Səhhət, Sabirin ilk bioqrafı, bu gün onun öz dilindən böyük dostunun ilk «şeirini» — ilk üsyanını eşidirdi. Bir neçə ildən sonra bunlar Səhhətin qələmilə Sabirin «Hophopnamə»sindəki ilk tərcümeyi-halına yazılacaqdı. Məgər o Sabir haqqında az şey bilirdi? Çox şey bilirdi. Sabirin həyatı onun gözləri önündə keçirdi. Bəzən hətta Sabirin özü haqqında bilmədiklərini də Səhhət bilirdi. Ardınca, arxasınca danışılanları eşidirdi. Təkfirləri, təqibləri, lənətləri, hədələri Sabirdən əvvəl Səhhət bilir, Səhhət eşidirdi. Dostunu, böyük vətəndaşını bəlalardan qoruyur, bu xəbərlərin çoxunun ona çatmamasına səy göstərirdi.

— Mən analarda təqsir görmürəm. Bünövrə belə qoyulub. Məgər kişilərimiz, tacirlərimiz, müəllimlərimiz, eləcə də kənd və şəhərlərimiz arasında birlik var, tərbiyə də olsun?

— Yooxx! Hardadı o birlik? Hərə öz tərəfinə çəkir...

— Bəli, bir də görürsən iki nəfər bir-birinə rast gəlib, tanış olmaq istəyirlər. Birincinin sualı bu olur:

— Haralısan?

— Filan qəzadan.

— Hansı kəndindən?

— Filan kənddən.

— Hansı tayfadan?

— Bəli, filan...

Vətən bölünüb şəhər-şəhər, qəza-qəza, məhlə-məhlə, tayfa-tayfa... Din ikiyə bölüb sünnü-şiə eləmişdi... Sonra da Babi, Bəhayi, nə bilim Şeyxi, Ağaxani... İndi də firqə-firqə bölünüb: Musavat, Ədalət, Üxüvvət, İctimaiyyun, Mehdiyyun... Di gəl birlik axtar bu bədbəxt millətdə, bu yazıq xalqda... Dil də ki... Ölülərimizlə ərəbcə danışırıq, dirilərimizlə fars dilində... Kimin gücü çatır, çalışır öz dilini soxsun bu yazıq xalqın boğazına...

Onun dərdi böyük idi... Xalqın, millətin dərdiydi bu dərd. Bu

elə böyük bir bəla idi ki... Adi düşüncələr, adi etirazlarla bunun içindən çıxmaq, əlac eləmək mümkün deyildi. Ciddi təbib, ciddi dərman, ciddi əlac lazım idi. Və Sabir bunu yaxşı başa düşürdü. Elə buna görə də, həmin indi gözə görünməyən, «istol iplərini» boğa biləcəyi üçün dərinlərə çəkilmiş təbibə — gizli inqilabi qüvvətə əlindən gələn yardımı əsərləri ilə eləyirdi. Düşmənləri ifşa etdiyi kimi, Səttarxan kimi inqilab oğullarını da tərənnümdən çəkinmirdi, qorxmurdu. Hardan idi o zahirən zərif vücudda bu təpər? Bu qüvvət, bu cəsarət hardan idi Sabirdə?

Bu sabun dükanında o bircə arzu, əlirişməz bir eşqlə yaşayırdı. Ustadı Seyid Əzim kimi bir məktəb zçmaq, vətən balalarına orada tərbiyə vermək, onlara milli mənliklərini, milli tarix və ədəbiyyatı təlim verə bilmək. Bu idi onun ocaq tüstüsündən kor olan gözlərini daha da işıqlı edən. Amma zahiri aciz, Yoxsul, fəqir vəziyyəti hətta bu zəngin, uca xəyalları da» dostu qarşısında belə dilinə gətirməyə qoymurdu. Gözəl, təmiz xəyalları ilə çirkin dükanı arasındakı təzadın nəzərə çarpmağından gülünc görünməyindən orxurdu. Qorxurdu ki, desinlər: «Ha-ha-ha. Buna bax Ha Evində yoxdu urvalıq — könlündən keçir kovxalıq». Yaxud daha betər, daha pisi: «İtin əbləhi qaysavadan pay umar», «Ac toyut yuxusunda darı görər». «Çığırma, Yat, ay ac toyuq, yuxunda çoxca darı gör...» Bəli... Mən də aç toyuq kimi darı görürəm yuxumda... Bəs ustadım? Bayəm onun maddi vəsaiti mənimkindən çox idi?» O qəlbində istehza ilə gülümsəyib kasıb dükanını ilk dəfə görürmüş kimi gözdən keçirdi. «Onun deyəsən axı, heç bu da yoxu idi... Ona baxanda mən baqqal Qarunam[1] ki... Amma onun xalq arasında, xalq yox dindarlar, dövlətlilər arasında Seyid peyğəmbər evladı kimi etibarı var idi. Hacı kişi idi. Həcvlərindən qorxanlar da çox idi... Mən isə... Sabir Ələkbərəm vəssalam,.. Pul yığıb məktəb açmağı, müəllimlik hüququ almağı... boynumun ardını, qulağımın dibini görəndə görərəm... — düşüncələrinə kədərlə gülümsədi.

---

[1] Şərqdə dövlətli adam rəmzi.

Burada mən Sabirlə əlaqədar iki tarixi hadisədən xüsusilə danışmağı vacib sayıram. Bunların hər ikisinin Sabir Ələkbərin inkişafında, onun «Hophopnamə» müəllifi kimi dünya şöhrətli Mirzə Ələkbər Sabir Tahirzadə kimi ün qazanmasında müəyyən rolu olub. Bunlardan biri 1902-ci ildə yanvar ayının 30-da Şamaxıda baş verən dəhşətli zəlzələdir ki, minlərlə şamaxılının həlakına səbəb olmuşdu. Yeddi yüz il Şirvanşahlar sülaləsinin paytaxtı olmuş qədim şəhərin altı üstünə çevrilmiş, şöhrətli dövlət, sonra isə qubernatorun əyləşdiyi quberniya mərkəzi, Hindistana gedən «İpək yolu»nun üstündə ən böyük ticarət bazarlarından biri dönüb xırdaca qəza yaşayış məntəqəsinə çevrildi. Vaxtilə burada ipək karxanalarından Türkiyəyə, İrana, Hindistana xam ipək aparılır, «Şamaxı kəlağayısı», darayısı barmaqla göstərilir, ingilis kralının daimi nümayəndəsi, daim burada əyləşib saray ərkanının xüsusilə sevə-sevə geydiyi ipəyi buradan alıb Londona göndərir, multani tacirləri burada həmişəlik yurd salırdı. İndi isə bir anda, saat 10—11 radələrində, necə deyərlər gündüzün günorta çağı irəliki 1859 və 1872-ci il zəlzələlərin dən salamat qalan binalar da yerlə yeksan oldu. Bu zaman Sabir dükandaydı. Zəlzələni yetmiş üçdə 10—11 yaşlarındaykən görmüşdü. Amma bunun yanında o nəydi ki? Onda uşaq idi, qayğısına qalan ata-anası, nənəbabası, bacı-qardaşı var idi. İndi... İndi isə evdə altı nəfər, el içində «başı kəsik» qoymuşdu. Beş qız, bir də bu beş qızın anası, zəhmətkeş Bülurnisə. Evə cən necə qaçıb gəldiyini, hansı yollardan, necə keçdiyini sonralar ha çalışırdısa yadına sala bilmirdi. Evdə isə... Sabirin «anaşım» adlandırdığı, sirdaşı, böyük qızı Səriyyə Tahirzadənin xatirələrindən:

«Məşhur Şamaxı zəlzələsində 10—11 yaşlarında idim. O gün beş bacı «harada qalacağıq, nə olacaq?» — deyə anamızı narahat edirdik. Atamın səbirli, işsevən, qıvraq və bacarıqlı olduğunu o gün gördüm. Təkbaşına olaraq, uçmuş evin taxtalarından, palaz və həsirlərdən istifadə edib, qonşu həyətində axşamlamaq üçün daxma tikdi, bizi və kişisi şəhərdə olmayan qonşu qadınları cocuqları ilə

birlikdə bu daxmada yerləşdirib daldalandırdı».

Sabir hələ xalq şairi olmadan xalqın oğlu, xalqın övladı idi. Onu təkcə öz külfətinin, öz balalarının deyil, yetim, sahibsiz arvad-uşağın taleyi düşündürürdü. «Bivə övrətlərin», «dərbədər gəzib ürəyi qan olan cocuq»ların bu günü və gələcəyi narahat edirdi. Hələ böyük Sabir — Hophop olmadan böyük və əsl vətəndaş idi. Və bu mövzu: millətin gələcəyi olan uşaqların təlim, tərbiyə, təhsil məsələsi ilə, millətin anası olan, islamiyyətin səyyar məhbəsdə — qara çadranın dustağında, hakimi-sərvət ərin dörd qıfıl altında saxladığı qadınlırın qara bəxti, çıxılmaz görünən taleyi Sabirin — Hophopun gələcək yaradıcılığında əsas yerlərdən birini, aparıcı, istiqamətləndirici mətləblərdən birini təşkil edirdi. «Qoyma gəldi», «Üsuli-cədid», «Analar bəzəyi», «Əl çəkin» və sairə və ilaxır... Onlarla ciddi, onlarla satirik, yumoristik əsər. Həm də bu satiraları oxuyanda nifrətin hədəfi əslində qadın deyil, oiu bu günə salan səbəblər: din və ictimai quruluşdur. Sabir də, Mirzə Fətəli kimi, Mirzə Cəlil kimi heç bir əsərində başdanayağa mənfi qadın surəti yaratmır. Taleyi öz əlində olmayan, öz taleyini özü həll etməyən qadına mərhəmət hissi duyulur. Sanki qadının bu cahil vəziyyətinə gülsə də, ondan əl üzmür, onun başını xurafat ilə doldurub alçaldanlara qarşı amansızdır. «Ölülər»də Cəlala — «Gəlmişik şeyxə ərə gedək» deyən arvadlara Mirzə Cəlilin yazığı gəlir, onları ələ salmır, onun hədəfi Mirbağır ağalardır ki, bu əməli «savab» hesab edirlər. Sabir qadına münasibətində məhz bu nöqtədən çıxış edir. Bu — Həmin illərdə — əsrin başlanğıcında baş vermiş zəlzələnin tərpətdiyi millət, zəlzələnin darmadağın edib əhalisini diyarbadiyar dağıtdığı el qarşısında Sabirin vətəndaşlıq borcu idi ki, həmin 30 yanvar 1902-ci ildə həsir, palaz taxta qırıqlarıpdan qurduğu kasıb komasında yiyəsiz, sahibsiz uşaqları» anaları öz beş qızı və Bülurnisəsi ilə bir damın altına topladığı vaxtdan ödənməyə başlamışdı. Bəlkə daha öncə? Təəssüf ki, əlimizdə onun gənclik illəri haqqında başqa sənəd yoxdur.

Yüzilliyimizin əvvəlində Sabir Ələkbərin inkişafında, onun

«Hophopnamə» müəllifi kimi dünya şöhrətli Mirzə Ələkbər Sabir Tahirzadə kimi ad qazanmasında həlledici rol oynayan hadisələrdən biri də 1904—1905-ci illərdə bütün çar Rusiyasını, eləcə də müstəmləkə Azərbaycanı lərzəyə gətirən birinci Rus inqilabının əks-sədası idi. Bu illərdə artıq «Şərqi-Rus» qəzeti çap olunmuşdu və burada Sabirin ilk mətbu şeiri geniş oxucu kütləsinə çatdırılmışdı. Bu illərdə Səhhət zəlzələ vaxtı çadırlar qurub yaralıları sağaldanda, Sabirin yardımından istifadə etmiş və xeyli yaxınlaşmışdılar. Səhhət gözəl bildiyi rus və fransız dillərində abunə ilə alıb oxuduğu (farscanı Sabir özü oxuyub bəhrələnirdi) qəzet və məcmuələrdən öyrəndiyi dünya xəbərlərini dostu Sabirə danışır və saatlarla birlikdə baş-başa və ya müasirləri olan Şamaxı şairlərindən Sabit, Naseh, Hadi, Cəmo və başqaları ilə yığışdıqları ədəbi məclislərdə müzakirə edir, fikirlərini, bu və ya başqa hadisə, şəxsiyyət haqqında rəylərini bölüşdürürdülər. Səhhətlə Sabir bütün birgə ömürləri boyu həmin növ müzakirə və fikir mübadiləsindən bəhrələnmişlər. Həmin illərdə Azərbaycan, rus, fars və fransız mətbuatında Rus-yapon müharibəsi, Lenada fəhlələrin gülləbaran edilməsi, zavod və fabriklərdə fəhlələrin üsyanı, İran hadisələri, Türkiyə çevrilişləri bir-birini əvəz edən xarici və daxili xəbərlər şəklində oxunurdu. Havadan inqilab, havadan dünyanın böyük cahangir dövlətlər arasında bölünməsi təhlükəsinin qoxusu gəlirdi. Çarizm bu qarışıq dünyada axırıncı yerlərdə getmirdi. Rus fəhləsi bütün Rusiyada marksizm ideyaları ilə silahlanıb ayağa qalxır özü ilə ucqarların da fəhlə sinfini oyadıb apararıdı. Bakı o zamankı inqilabi fəhlə həyatında özünü neft sənaye fəhlələri — əsl qabaqcıl proletariatı ilə inqilabi mübarizəyə, silahlı üsyanlara başlamaq siqnalı verən fəhlə hərəkatını gücləndirirdi. Rusiya miqyasında belə qabaqcıllardan olan Bakı fəhləsinin mübarizə sorağı Şamaxıya da gəlib çıxırdı Öz tərkibi etibarilə ən müxtəlif millətlərdən təşəkkül tapmış Bakı inqilabi hərəkatında azərbaycanlı, rus, iranlı, erməni, gürcü, Dağıstan, hətta Ukrayna və Pribaltikanın da nümayəndələri var idi və onlar beynəlmiləl inqilab bayrağı altında, sinfi qardaşlıq

bayrağı altında siniflər mübarizəsinə qalxmışdılar. Milli qırğınlar siyasəti çarizmə məhz inqilabın qarşısını almaq üçün lazım idi, zəruri idi. Rusiyada yəhudi talanları, Azərbaycanda qardaş qırğınları və s. bunun nəticəsi idi. Bütün qabaqcıl fikirli ziyalılar marksistlərlə yanaşı bu məsələdə milli qırğınların mahiyyətini yaxşı başa düşürdülər. Ölməz ədib Cəlil Məmmədquluzadə, elə birinci nömrədən bütün mollanəsrəddinçilər, onlardan bir il qabaq məhz qırğın dövründə artıq dolmuş sinəsi qabaran Sabir Tahirzadə bu məsələyə böyük humanist, vətənpərvər bir beynəlmiləlçi kimi yanaşıb «Beynəlmiləl» şeirini yazmış, «Həyat» qəzetinə göndərmişdi.

Bu günlərdə Bakıdan Şamaxıya istirahətə gəlmiş ziyalı Əlicabbar Orucovla cavan şair Abdulla Şaiq, Səhhətin sorağını Sabirin dükanında alıb, birbaşa buraya yollandılar. Onlarla yanaşı bir dəstə uşaq da gedirdi. Qabaqda gedən uşağın başında xonça vardı. Görünür o bu gün Quran «çıxmışdı», üzü Şıxminasa getməyindən məlum idi ki, Şıxminasda Əbdülxalıq əfəndinin mədrəsəsində Quranı tamam eləyib. İndi bu gün mollası ona «ustad silləsi» vuracaq, uşaqlar dərsdən azad ediləcək, xonçadan şagirdlərə şirni paylanacaq və onlar «Quranı qurtarmış bəxtəvər» hesab etdikləri dostları ilə birlikdə oğlanın evlərinə gedib, axşamacan sevincək ananın hazırladığı bişmişlərdən yeyib, oynayacaq, dincələcəkdilər. Adət belə idi» Əlicabbar müəllim bu qədim adəti yaxşı bilirdi. Xonça aparan dəstəyə təəssüf hissi iləbaxır və düşündüklərini gənc dostu şair və müəllim Abdulla Şaiqə də söyləyirdi:

— Görürsən də, Şaiq əfəndi! Mədrəsələrin yoluna hələ nə qədər vətən övladı ayaq döyür. Çərəkə qurtardın gətir, Quranın filan surəsinə çatdın — gətir. Yasin çıxdın» — gətir, Quran «çıxdın» — Həmçinin... Heç olmasa bir elm verələr, bir şey öyrədələr. Özlərinin anlamadıqları, uşaqların da anlamadan təkrar etdiyi ərəbcə ayələrdən başqa... Hələ başlanğıcıdı, qardaşım! Görməli işlərimiz çoxdu. Bir dəryadı...

— Doğru buyurursunuz, qəzalarda bir-iki məktəb açmaqla iş aşmaz! Amma mənə elə gəlir ki, təzəcə açılan bu məktəblər, orada vətən balalarına doğma dilində dərs deyən müəllimlər, hətta hicabın ağır zülmətini belə qırıb, müəllimə kimi, böyük tərbiyəçi vəzifəsini daşımağa başlayan bacılarımız, doğmaqda olan hürriyyət günəşinin birər ziyalarıdır.

Gənc bir şair qəlbi və dili ilə danışan cavan müəllimin sözləri, bu sözlərdəki dərin inam, Əlicabbar müəllimin qəlbini titrətdi. Yan-yana gedirdilər, hərarətlə gəncin əlini tutub sıxdı:

— Elədir! Sənin kimi qeyrətli cavanlarımızın da sayı artdıqca, bu çətin məsələ xalqımız üçün getdikcə daha da asanlaşacaq. Mən də buna inanıram.

...Dükandan sabun qoxusu gəlirdi, başqa cür də ola bilməzdi, qəfəsələrə yığılmış sabun qəlibləri bu iyi hər tərəfə yayırdı. Əlicabbarla Şaiq içəri girəndə Səhhət və Sabir xırda kətillərin üstündə oturub söhbət edirdilər. Dostlar, həmvətənləri olan Əlicabbar müəllimi çoxdan tanıyırdılar. Zəlzələdən sonra bir çox başqaları kimi o da Bakıya köçmüşdü. Lakin hər il yay aylarında ailəsini də götürüb istirahət üçün doğma yurda gəlir, məzuniyyətini başqa ziyalılar kimi burada, təbiətin gözəl abü-həva bəxş etdiyi vətənin behiştimisallı guşələrində keçirirdi. Bu il, hətta qonşusu və gənc dostu Abdulla Şaiqi də ailəsi ilə birlikdə Şamaxıya istirahətə dəvət edib özü ilə gətirmişdi. İki gün irəli dostlar Səhhətgildə görüşmüşdülər. Bu gün isə Sabirin dükanına söhbətə gəlmişdilər. Xoş-beşdən sonra Əlicabbar Səhhətə müraciətlə gülə-gülə dedi:

— Mirzə Abbasqulu, kimdən sizi soruşdum, dedilər: «Evində tapmasan, Məşədi Ələkbərin dükanında olar. Dostluğunuzu bilirdim, amma bu qədər yox...»

Səhhətdən əvvəl Sabir cavab verdi:

— Mirzə Abbasqulu indi mənim «xərabə Şirvanda» yeganə həmzəbanımdı. O da olmasaydı, bəs mən bu baqqalların, mollanümaların içində necə ömür elərdim?!

Kürsüdən, qutudan tapıb yerləşdilər. Sabir dükanın önünə çıxıb

çayçı Qafur əminin şagirdinə çay sifariş elədi. Az sonra bir oğlan uşağı əlindəki məcməyiyə qoyulmuş çaydan və stəkanlarla içəri daxil oldu. Hörmətlə salam verdi, məcməyini piştaxtanın üstündə yerləşdirdi. Çaydanlardan stəkanlara çay süzüb «nuşican» — dedi, çıxmaq istəyəndə, Əlicabbar soruşdu:

— Bala, adın nədi?

— Həbib.

— Kimin oğlusan?

Uşaq dayandı, elə bil doluxsundu, onun əvəzinə Sabir cavab verdi:

— Qəssab Əlirzanın. Zəlzələdə vəfat edib, tanıyardın. Mənimlə qonşuluqda balaca qəssab dükanı var idi. Köhnə Sadığın nəvəsi deyərdilər...

— Bəli, bəli, tanıdım, yadımdadı. Allah rəhmət eləsin.

Həbib dayanıb baxır, böyüklərin danışıb qurtarmasını və ona getmək üçün icazə verməsini gözləyirdi. Bu dəfə Şaiq uşağa müraciətlə soruşdu:

— Məktəbdə oxumaq istəyirsənmi, bala?

Yenə də Sabir dilləndi:

— Hardan oxusun? Əvvələn məktəb hanı ki, oxusun saniyən, külfətin də gözü onun çayçı Qafur əminin yanında qazandığı qəpik-quruşa baxır. Məktəb haqqını kim verəcək?

Şaiq mehribanlıqla uşağa nəzər salıb dedi:

— Əgər anan izin versə, özün də oxumaq istəsən, səni Bakıya aparıb məktəbə qoyaram. Haqqını da düzəldərik. Bir anana de, özün də fikirləş...

Uşaq:

— Baş üstə, — deyə cavab verdi və çayçının ucadan «Həbi-i-ib» — səsini eşidincə, «sağ olun» deyib getdi

Bayaqdan bəri söhbətə müdaxilə etmədən oturub baxan Səhhət, Şaiqin sözlərini, uşağa müraciətindəki nəvazişi seyr edir, düşünürdü: «İlahi, qardaş deməkdən çox oğul deməyim gəlir. Bu sarışın, nazik sifətli balaca boylu, nazik vücudlu adam cavandan

çox, uşağa bənzəyir. Nə incə xasiyyəti, nə həlim təbiəti var! İnsan onunla söhbət etdikdə qeyri ixtiyari özü də incələşir».

Söhbət məktəb və mətbuat məsələlərinə keçdi. Əlicabbar deyirdi:

Şükür allaha, Bakıda məktəblərin sayı çoxalır. İndi hökumət məktəblərindən başqa, müəllimlərin köməyi ilə, imkanı olan ziyalılar xüsusi məktəblər də açır. Get-gedə bunun qəza mərkəzlərinə də təsiri olacaq. Güman etmək olar ki, kənar şəhərlərdə də məktəblər çoxalsın. Ziyalıların da sayı artır: Peterburqda, Moskvada, xüsusən Qoridə oxuyub gələn cavanlar Bakıda bir aləm iş görür. Bu saat Bakıda neçə-neçə cavan ziyalılar, dövlətməndlərdən yardım istəyib, qəzet və məcmuələr nəşrinə icazə almaq üçün hökumətə ərizələr veriblər.

Sabir deyilənləri diqqətlə dinləyirdi. Eyni zamanda, çox vacib bir şey düşünürdü. Desinmi, deməsinmi? Desə yaxşıdır:

— Bilirsən, Əlicabbar, gözəl sözlərdi. Çox gözəl işlərdi ki, başlanır. Amma bir şeyə təəssüflənirəm: bu zəruri işlər dövlətlilərin pulu ilə görülür. Qardaş, axı pul verən — iş istəyəcək. Məsəl var: bal tutan barmaq yalar. Dövlətli qəzet çıxardana pul verəndə, deyəcək ki, mən nə çalıramsa, gərək ona da oynayasan. Onda da füqəraya xidmət məsələsi çətin olacaq.

— Bəs neyləsinlər? Ziyalılardan kim milyonçudu? Az-çox varı olanlar onsuz da varını da, canını da xalqın yolunda fəda eləyir, nəyi var xərcləyir. Qəzet, məcmuə nəşr elətdirmək bir aləm məsarif istəyir. Buna kimin gücü çatar?

— Elə məsələ də bundadı da... İş də orasındadı ki, dövlətlinin pulu ilə çıxan qəzetdən kasıba çətin ki, fayda ola.

Səhhət dilləndi:

— Mirzə, mən biləni lap o qədər də bədgüman olmaq lazım deyil. Ziyalılarımızın bir qismi məhz dövlətməndlərin, ruhanilərin balalarıdır ki, gedib Rusiyyədə, Avropada təhsil alıblar, xalqa necə, nə yolla xidmət etmək qaydalarını öyrəniblər. Görüblər ki, cavan qızlardan belə hökumət əleyhinə çalışanlar, padşaha bomba atanlar

var. Görüblər ki, nəinki cavan oğlanlar, hətta cavan qızlar belə, isti ev-eşiklərini atıb Sibirin ən hücra guşələrinə gedirlər. Müəllimlər buralarda nə kimi təhqirlərə, qorxulara düçar olurlar. Amma millətin gözünü açmaq əzmindən ayaq geri qoymurlar. Rus mujikini də oxudurlar. Pulu olmayan canından keçir, pulu olan pulundan. Üç yüz illik romanovlar sülaləsinin gözünün odunu elə alıblar ki... İndi Rusiyyədə gedən çarpışmaların sədası qəzetlərdə də eşidilir. Bu qəzetləri Rusiyyədə də yoxsul fəhlə-mujik nəşr eləyə bilmir. Elə orada da bu işə əvvəlcə mütərəqqi, açıq fikirli ziyalılar başlayıb.

Şaiq Səhhətin nəfəs dərməsindən istifadə ilə sözə qarışdı:

— Doğrudu! Axı, onlar da millətin sağlamlaşma-sı-nı, əməkçi rus xalqının azadlıq nuru ilə ziyalanmasını istəyirlər.

Sabir kinayə, təəssüf qarışıq, lakin açıq bir zarafat duyulan səslə dedi:

— Təki siz deyən olsun. Təkcə bir mənim razılığım lazımdırsa, mən də razı. Amma, hər halda, mən bu fikirdəyəm:

Görüncə şəxs bir ərbabi-sərvətin üzünü,
Görür mücəssəm olan bir ləamətin üzünü.
Gözüm ağarsın əgər yüzdə, mində, milyonda
Görürsə ölkədə bir əhli-himmətin üzünü.

Şaiq, Səhhət və Əlicabbar sehrlənmiş kimi dinləyirdilər. Şeirin özündə və onu oxuyan şairin qəlbində, daxilində elə bir qəzəb, nifrət hissi var idi ki!.. Elə bil ki, cəmiyyət siniflərə bölünən gündən bəri bütün əzilənlərin gördüyü zülm, çəkdiyi əzab, zalımlara qarşı üsyan və qəzəb şairin bu şeirinə toplanmışdı. Taziyanə bitdi, sehr bitmədi. Heyranlıqla dinləyən müsahiblər bir neçə dəqiqə bu ecazın təsirilə susub qaldılar.

Səhhət üsulluca yanında oturan dostunun əlini sıxdı, onu təbrik etdi.

«Bədahətənmi, indimi dedi? Ya da sabun tiyanının dibində,

cəhənnəm atəşlərdən yandıqca, tiyanı qarışdırdıqcamı dedi? Yoxsa bütüi zalımlara qarşı nifrətini ərsinlə birlikdə fırlatdıqca qəlbindənmi qopdu bu şeir parçası?!» — bilmirdi Səhhət.

Əlicabbar yerindən qalxıb şairə yaxınlaşdı və gülə-gülə onu təbrik edib dedi:

— Ürəkdən mübarək, Sabir, əzizim, əliyyül-əladı! — Sonra da Şaiqə döndü:

— Dostum, indi əhdimizə vəfa elə, qəzeti Sabir əfəndiyə təqdim et! — Yenə gülə-gülə əlavə etdi: — Qəzeti bu sabah gətiriblər. Sabir əfəndinin şeiri çıxıb orada. Sözləşmişdik ki, bir şeir oxuyandan sonra verərik. İndi bundan gözəl mövqe ola bilməz.

Şaiq də şeirin təsiri altında susub oturmuşdu. İndiyəcən Seyid Əzimin davamçısı bir şair kimi tanıdığı Sabir, bu sabah qəzetdəki şeirini oxuduqdan və indicə özünü dinlədikdən sonra onun gözlərində xeyli böyümüşdü. Ehmalca əlini pencəyinin cibinə aparıb, bükülü bir qəzet çıxardı. Bu, «həyat» qəzetinin 1905-ci ildə, iyul ayının 1-də çıxan 19 cu nömrəsi idi. Burada «M. Əli Əkbər Sabir» imzası ilə şairin «Beynəlmiləl» şeiri çap olunmuşdu. Sabirdən əvvəl qəzeti Səhhət aldı. Baxdı. O bu şeiri hələ qəzetə göndərilməzdən əvvəl oxumuşdu, əzbər bilirdi. Sabir bu şeiri yazıb ona oxumuş və məhz Səhhətin məsləhəti nlə üzünü köçürüb «həyat» qəzetinə göndərmişdi. O, qəzeti Sabirə verdi, özü isə şeiri əzbərdən oxumağa başladı:

Əsrimiz xahiş edərkən ittifaqü ittihad,
Cümləmiz əmniyyət içrə almaq istərkən murad,
Beynimizdə yox ikən bir gunə əsbabi-təzad,
Bu vətən övladına ariz olub büğzü inad,
Müslümanla ermənilər beyninə düşdü fəsad,
Yoxmu bir sahib-hidayət, yoxmu bir əhli-rəşad?
Ey süxəndanan, bu günlər bir hidayət vəqtidir!
Ülfətü ünsiyyətə dair xitabət vəqtidir!

Gözlərini qəzetə zilləmiş Sabir daxili bir həyəcanla Səhhətin həlim səsində eşidilən coşğun çağırışı dinləyirdi. Elə bil ki, bu sözləri o özü yazmamışdı. Əməl dostu, əqidə qardaşı, həmsöhbəti Səhhət, onu da başqa süxəndanlar — söz ustadları kimi, milli ədavətləri yox etmək uğrunda mübarizəyə çağırırdı, Səhhət oxuyurdu:

İki yoldaş, iki qonşu bir vətəndə həmdiyar,
Əsrlərlə ömr edib sülh içrə bulmuşkən qərar,
Fitieyi-iblisi-məlun nagah oldu aşikar...

Əlicabbar və Şaiq də Səhhəti getdikcə artan bir maraqla dinləyirdilər. Onlar da şeiri bu gün səhər qəzetdə oxumuşdular. Lakin təkcə özünün deyil, başqa şairlərin də əsərlərini əzbərdən bilən və bəlağətlə oxuyan Səhhətin ifasında qəribə bir ecaz var idi. Ən zəif şeir belə onun ağzında xüsusi məna kəsb edir gözəl səslənirdi. Şamaxı ziyalıları onun bu xüsusiyyətini Şirvan şairlərindən Bahar Şirvaiiyə oxşadır, bəyənirdilər.

Abdulla Şaiq gənc şair vurğunluğu ilə ustad saydığı şairləri dinləyirdi. Səhhət yenilməyən, getdikcə çoxalan bir inamla oxuyurdu:

Haqqı xalqa bildirib dəfi-zəlalət etməli,
Gün kimi taban edib pamali-zülmət etməli...
Sabira, beynəlmiləl tədbiri-ülfət etməli...
Ey süxəndan...

Bu süxəndanlardan — söz ustadlarından biri da Şaiq idi. Bu gün qəlbinin dərinliklərində özünə söz verirdi ki, o da gün kimi çıxacaq, zülmətləri parçalamaq, hürriyyət günəşinin şəfəq saçması, aləmi işıqlandırması uğrunda ömrünü qurban verənlər sırasında çarpışacaqdır.

Söhbət bir az əvvəl oxunmuş şeirlə əlaqədar olaraq Sabirin

yazdığı həcvlərə keçdi. Sabir mövhumatçı dükan qonşusu haqqında yazdığı həcvləri dostlarına oxudu, gülüşdülər. Yenidən xalqın vəziyyəti haqqında danışdılar. Şaiq bütün söhbət zamanı bir şeyi müşahidə edir və dükana sabun almaq üçün kimsənin girmədiyini görüb heyrət eləyirdi. O, Sabirə müraciətlə soruşdu:

— Sabir əfəndi, bizim ayağımız nə uğursuz imiş. Bir saatdan bəri söhbət edirik, dükana bir nəfər də müştəri gəlməyib. Bəs belə olan surətdə siz nə alveri eləyirsiniz?

Sabir gülə-gülə cavab verdi:

— O sizin ayağınızın şükümündən deyil. Bu avam camaatın, heç olmasa, zahirini təmizləyim deyə, gördüyünüz bu sabun dükanını açmışam. Neyləyim ki, bu zalım uşaqları təmizlikdən də qaçırlar.

Dostlar müsahibədən doymur, ayrılıb getmək istəmirdilər. Beləcə yay istirahəti zamanı Sabir və Səhhət dostluğuna Şaiq və Əlicabbar dostluğu da qarışdı...

* * *

Bir ay sonra Səhhət, Bakıya köçmüş Şaiqdən məktub almışdı. Bu məktubu Sabirlə birlikdə oxumuş, yazdığı cavabı da dostuna göstərmişdi. Şaiqin:

Ey çeşmim önündə mücəssəm, vətən, vətən!
Qəlbim kimi ələmlərə həmdəm vətən, vətən!

— misraları ilə başlanan həmin şeirini Səhhət artıq əzbər bilirdi. Bu şeir və müəllifin qayəsi Səhhətin də, Sabirin də arzu və əməlləri ilə həmahəng səslənirdi. Səhhət həmin gecə yatmamış və Şaiqə şeirlə cavab yazıb, yollamağa hazırlamışdı. Lakin hələ göndərə bilməmişdi. Poçt işçiləri tətil etdiyindən poçtxana da bağlı idi. Rus qəzetləri hələlikdə buraya az-az gəlib çıxırdı, Çoxları Moskva və Peterburqda cərəyan edən hadisələrdəı xəbərsiz olsalar da, yolları

Bakıya düşən tacirlər, ziyalılar işin nə yerdə olduğunu bilirdilər. Hökumət adamlarının, məmurların həqiqəti gizləməyə səy etmələrinə baxmayaraq, arabir xəbərlər bazar və meydanlara da çıxır, çox vaxt belə xəbərlər evlərdəki məclislərdə, dükanlarda müzakirə olunurdu.

— Deyirlər, Bakıda da qarışıqlıqdır...

— Elədi... Fəhlələr yaman tuğyan eləyir...

— Elərlər də, balam! heç mədənlərdə olmusuz? Yolunuz nöyüt çıxarılan yerə heç düşüb? Allah göstərməsin, yazıq fəhlələr bir gündə, bir ruzgarda əlləşirlər ki... Gecələri yox, gündüzləri yox, boğazacan nöyüt içində... Cəhənnəmin dərəsidir. Adamın nəfəs alanda boğazı tutulur... neyləsinlər fağırlar?.. Xozeyinlər onlara allahın təmiz, içməli suyunu da qıymırlar,

Sabir də dinləyir, həmişəkinin əksinə olaraq zarafat eləmir, ciddiyyətlə qulaq asırdı. Burada nəyi isə kinayə ilə başa salmaq lazım deyildi; hər şey özü özünə gün kimi aydın idi...

— Bəs bizim poştçuların tətil nəyinə gərəkmiş?.. Onlar ki, nöyütdə işləmirlər?..

— Belə deyirlər, onlar da nöyüt mədənlərində işləyənlərlə həmrəydirlər, onların tətilinə şərikdirlər...

* * *

Payız idi. Camaat poçtxananın qabağına yığılıb, intizar içinda nə isə gözləyirdi. Zəlzələdən gecən bir neçə il ərzində şəhər təzə-təzə özünə gəlməyə başlamış, hələ yaralarını lazımınca sağalda bilməmişdisə də, bir az halı durulmuşdu. Xəbərin necə, kimdən çıxdığını da bilən yox idi, hər ağızda bir söz gəzirdi. Biri deyirdi:

— Padşah hürriyyət verib...

— A balam, hürriyyət nədi?

Poçtçu Həsən deyirdi:

— Deyirlər indi day hər kəs nə istəsə danışa biləcək, yaza biləcək,,.

— Bəyəm indiyəcən camaatın ağzını bağlamışdılar? Elə kim nə istəyirdi, ağzını allaha tutub deyirdi daa...

— Deyirlər azadlıq verilib...

— Dayı, deyirlər torpaq verəcəklər kəntçilərə?..

— Hə, sən dağarunun ağzını gen aç!..

Yenə poçtçu Həsən sözə qarışdı:

— Vallah, eşitdiyimi deməyə də qorxuram. Bura Şirvandı, milçəkdən dəvə qayıranlar məkanıdı...

— Əyşi sən sözüvü de!..

— Hə! Deyirlər hökm padşahın özündən çıxıb, torpaq da verəcəklər, yer də...

— İnanmıram, heç padşahdan da elə iş?

— Əyşi, Həsənə nə düşüb yalan desin axı?

— Belə Həsəni demirəm ey, Həsənə inanıram. Amma mən padşah deyilən tayfadan xeyir əməl gözləmirəm.

— Sən elə köhnənin inanmayanısan. Hər şeyə bir qulp qoymaq köhnə adətindi.

Yavaş-yavaş yığılanlar içərisində ziyalılardan, müəllimlərdən də görünməyə başladı. Bir neçə məktəb şagirdi, sonra da Səhhət buraya gəldi. Az sonra dilmanc Mehdi bəy, Mirzə Ələkbər Sabir, Ağaəli bəy Naseh göründü. Rus müəllimləri, məhkəmə işçiləri də nəzərə çarpırdı. Mərəkə böyüyürdü. Hamı bir-biri ilə fərəhlə görüşürdü. Hamı maraq və heyrət içində idi.

Səhhətlə Ağaəli bəy müəllimlərlə söhbət edirdilər.

— Siz bilən nə xəbərdi?

— Deyirlər, qəza naçalnikinə tel gəlib... Amma gizlədir camaatdan, demək istəmir.

— Gözləyək. Poçtanın gəlməyinə az qalıb, qəzetlərdən bir şey öyrənərik. Bir doğru söz varsa, qəzetlərdə mütləq olar.

— Son illər Peterburqda, Moskvada, elə Bakı, Tiflis kimi şəhərlərin özündə də yaman həyəcan var. Bunun axırı bir yerə çıxmalıdı...

...Poçt arabası axırıncı çaparxanadan səhər çıxmışdı, Şamaxı

poçt idarəsinin qabağına çatanda gün günorta olmuşdu. Poçt gətirən çaparın da, arabaçının da döşündə qırmızı lent var idi. Hər ikisi həyəcanlı və sevincək idilər.

Poçtçu Həsən tələsik qəzet və məcmuə bağlılarını, barat və məktublar yığılmış boz brezent kisələri arabadan alıb içəriyə, poçtxanaya daşıdı. Tələsirdi. Bütün gözlər ona dikilmişdi. Bu qədər adamın diqqət mərkəzində olduğundan özünü itirmişdi. Axı, indicə qəzet bağlılarını açacaq, padşahın «azadlıq», «hürriyyət» fərmanını hamıya xəbər verəcək və inanmayanlara sübut edəcəkdi ki, yalan deməyib.

İçəridə Vasili Petroviç və Avanes tələsə-tələsə jurnal və qəzetləri ayırırdılar. Həsən əvvəlcə Mirzə Abbasqulu və Ağaəli bəyə çatan qəzetləri bağlıların içindən ayırdı və tez qapıya çıxıb verdi.

Mirzə Abbasqulu və Ağaəli bəy hər ikisi tələsə-tələsə qəzetləri açdılar. Əvvəlcə «Kaspi» qəzeti açıldı. Rusca bilənlərdən bir neçəsi başını həmin qəzetlərin üzərinə əydi.

— Bəli, çar manifest elan eləyib...

— Söz azadlığı, mətbuat azadlığı verib...

— Yaşasın çar!.. — deyib qışqıranlar da var idi.

İlk doğru xəbəri tələm-tələsik qəzetdən öyrənən ziyalılar, bir-birinin əlini sıxır, deyirdilər:

— İndi daha nə qədər istəsən məktəb açmaq olar...

— Qəzet nəşr etmək olar...

— İstədiyini, ürəyinə yığılanı deyə bilərsən...

Sabir, Səhhət və Naseh yanaşı durmuşdular.

— Bəli, gözlədiyimiz azadlıq günləri gəldi. Gözünüz aydın, qardaşlar!

Kim isə ikibaşlı danışdı:

— İstəyimiz idi yar, yetirdi pərvərdigar...

— İndi biz də vətənimizin inkişafı üçün, cəhalətdən xilası naminə çalışa bilərik. Məktəb də, digər maarif ocaqları da inşallah açılar, çoxalar...

Sabirin səbirli səsi eşidildi:

— Vallah, Mirzə Abbasqulu, nə deyirsən de, mən padşah deyilən məxluqdan xalqa xeyir gözləmirəm.

Səhhət, qəlbini çulğamış dərin sevinc qarışıq həyəcan içində bu sözlərin fərqinə varacaq halda deyildi; o dostlarına deyirdi:

— Hər halda, bacardıqca bundan istifadə etmək lazımdır.

Səhhət Sabirə müraciətlə deyirdi:

— Görürsünüzmü, Mirzə, mən sizə yığıncaqlarımızda deyirdim. Deyirdim ki, belə gedə bilməz. Oxuduğum qəzetlərdən də sizə məlumat verirdim, görürdünüz ki, oralarda zülm ərşə dayanıb, belə davam edə bilməz. Allah bu istibdadı bir dəfə yer üzündən götürməlidir, ya yox? Puşkinləri, Lermontovları, Çexovları, Qoqolları, Turgenevləri, Dostoyevski və Tolstoyları yetirən bir xalq, əsarətə dözə bilməzdi. Bax, dözmədi, çarın özünü öz əli ilə azadlıq yazmağa vadar etdi.

Ağaəli bəy də fərəh içində onun sözlərini təsdiq edirdi:

— Bəli, doğru buyurursuz, doktor! Axı, çar özü də oxumuş, ziyalı adamdı. Yəqin bütün şəhər və kəndlərdəki istibdaddan xəbəri yox imiş, indi xəbər tutub və fərman verib...

Sabir diqqətlə dinləyirdi, hələ bu fərmanların nə ilə nəticələnəcəyini bilmirdi. Hələ o da bu yolla zülmün yox olacağına, həyatda dəyişiklik ola biləcəyinə inanırdısa da, «padşahdan pay», özü də yaxşı pay gələ biləcəyindən şübhələnirdi:

— Nə deyirəm, təki siz deyən olsun.

Düşünürdü: «Amma mən biləni hələ tarixdə azadlığı adama verən olmayıb; onu döyüşə-döyüşə, didişə-didişə alıblar. Bəyəm heç tarix kitablarına baxmamısız? Kül o azadlığın başına ki, onu adama bəxşiş kimi, sədəqə kimi verələr».

O, ürəyindən keçənləri söyləyib cavan dostlarının qəlbini qırmaq, nəşələrinə soğan doğramaq istəmirdi: «Qoy sevinsinlər, bu da bir keyfdi! Qoy şadlansınlar, nə olar ki! Cana xeyri var nəşənin. Hələ dünyanın isti-soyuğunu görməyiblər. Dünyadan nə Seyid Əzim yola salıblar, nə Mahmud ağa. Hələ bir o yazıq tərəkəməyə bax!

Elə bilir ki, kəndə qayıdıb «padşahdan fərman çıxıb, mənə də torpaq ver» — deyən kimi bəy, öz yerlərini dədə malı kimi bölüşəcək, onuynan. Fağır...»

Xəbər şəhəri titrətmişdi. Amma zəlzələ kimi yox, hərənin öz dərdi, öz qayğısı var idi. Bir qədər keçdi, adamlar qəzetdən başqa heç bir şey paylanmadığını, qəza naçalniki, bələdiyyə rəisi və ya başqa böyüklərdən heç birinin meydana çıxmadığını görüb dağılışdılar.

Ciblərə bir şey girmədi, boş evlərə heç nə verilmədi, neftsiz qalmış lampaların işığı artmadı. Şirvanda yalnız zəlzələdən sonra bu qədər artmış dilənçilərə bir parça çörək belə vermədi bu «fərmani-humayun!» Gözlər yenə də əvvəlki kimi zəhmətkeş əllərə dikildi...

Amma bu manifest, onun doğurduğu həyəcan, Sabirlə Səhhətin qəlbində yanan mübarizə çırağını alovlandırmışdı. Əslində bu çıraq çoxdan yanırdı, sadəcə, işığı bir qədər də artmış, mübarizə əzmi çoxalmışdı Onlara elə gəlirdi ki, indi artıq bütün ürək sözlərini deyə biləcəklər...

Təzəliklə Bakıda çoxalmağa başlayan qəzet və məcmuələrə şeirlər göndərməyə başladılar. İndi daha tez-tez görüşürdülər. Yazdıqlarını bir-birinə oxuyur, oxuduqlarını, eşitdiklərini bir-birinə nəql edirdilər. Bu, daha çox Səhhətə aid idi. İndi o, rus və fransız ədəbiyyatından tərcümələr etməyə başlamışdı. Tərcümələrini də məhz Sabirlə birlikdə oxuyub təshih edirdi. Sabir hər dəfə odlu nəfəsilə ona bir aləm, özü demişkən, bir «qucaq sual» gətirirdi. Səhhət bu sualların cavabını verməli idi. Verirdi də... Həm də tez-tez rus mətbuatı ilə birlikdə aldığı fransız və digər mətbuatdan öyrəndiyi xəbərləri də Sabirə söyləyirdi. Sabirin ağlına, qavrama qabiliyyətinə heyran idi: «Gör bir nə tez alır? Necə də dərin düşünülmüş suallar vernr. Görəsən, başqa bir şəraitdə, başqa bir aləmdə yetişsəydi, necə böyük bir düha meydana gələrdi bu zəki insandan! Əsl zəkadır, zəka... Sabir zəkası!»

Tələsmə, Səhhətim, az qalıb, bu Novruz bayramını gözlə, «Molla Nəsrəddin» artıq meydana gəlmək üzrədir. Xalqının ikinci

bir zəkalı oğlu Tiflisdə artıq izin alıb, o da istifadə edib bu qovuğa bənzər manifestdən. Sənin heyran olduğun Sabirə milyonların heyran olması gününə az qalıb, tələsmə Səhhətim!

«MOLLA DAYI, ETMƏ ŞƏRARƏT BELƏ!»

Sabirin «Molla Nəsrəddin»ə necə gəldiyini təsvir etmək istərkən, hörmətli oxucum, gözümün qarşısında Mirzə Cəlil canlandı. Sabir, onun bu məcmuədəki ilk addımları haqqında «Molla Nəsrəddin»in əvəzsiz naşiri və redaktorundan yaxşı kim danışa bilərdi? Odur ki, cürət edirik, ruhundan üzr və icazə istəyirik, Sabirə həsr olunmuş səhifəsini eynilə buraya daxil eləyirik:

«...Sabiri biz qabaqlarda tanımazdıq və haman söylədiyimiz birinci əsəri Tiflisdə mətbəəmizə gətirən bir naməlum cavan oğlan oldu. Bu adam paket içində məktubu verir yoldaşım Ömər Faiqə və qaçıb gedir. Faiq bir tərəfdən təəccüb edir və bəlkə o bu məktubu bədxahlar tərəfindən bizə təhdid və söyüş zənn edir.
Demə o söyüş əvəzinə haman dəyərli mənzumə imiş

Ol gün ki, sənə xaliq edər lütf bir övlad
Olsun ürəyin şad...

Bəli, çap elədik, ancaq bəs bunu yazan kim?

— Ay yoldaş Faiq, niyə qaçdı o zalım oğlu? Kimdir onu göndərən? (çünki əsər imzasız idi, «Hophop» imzasını idarəmiz qoydu).

Aha! Bir-iki həftə keçməmişdi. Haman naməlum oğlan yenə mətbəəmizə bir paket gətirir və Faiqə verir. Yenə qaçır gedir. Bu dəfə də paketin içindəki sovqat — atanın dərs oxuyan oğlundan gilayıdır: «Bilməm nə görübdür bizim oğlan oxumaqdan?» ki, məcmuəmizin 11ci nömrəsində dərc olunubdur.

— Aman günüdür, Faiq yoldaş, tap o zalım oğlunu!

— Taparam, taparam, səbr et, yoldaş! Bir də gəlsə buraxmaram.

Elə ki, bir həftə də ondan sonra haman oğlan yenə o minval ilə əlində paket gəlir mətbəəyə və paketi qoyur, istəyir qayıda, yoldaşım Faiq bu dəfə düşür onun dalınca və aparır çıxardır erməni bazarında şamaxılı Şeyxovların xəlçə mağazasına.

Şeyxovlar qabaqca mətləbi açmaq istəmirlərmiş, ancaq Ömər Faiqin təkidi ilə məsələni açırlar, — ancaq bu şərtlə ki, söhbət buradaca qalsın.

Demək, biçarə Sabir mühitin şəraitini mülahizə etmək babətindən «Molla Nəsrəddin»də öz iştirakını nəhayət dərəcədə gizli tutmaq istəyirdi və xeyli bir zaman elə də olur və bu səbəbdən də biz ona verdiyimiz «Hophop» təxəllüsünü sonralar özü dəyişib müxtəlif imzalar qoyurdu».

Bu, Cəlil Məmmədquluzadə və mollanəsrəddinçilər baxımından. Bəs Sabir? Bəs Şamaxı? «Molla Nəsrəddin» oraya gəlib çıxanda hadisələr necə cərəyan edirdi? Bəs Sabir bu yeni «Molla»nın dünyaya gəlməyini necə qarşıladı?

Əziz oxucum! Gəlin Şamaxıya gedək. Bu dövrdə Şamaxıda nələr baş verdiyinə baxaq. Əslində 1905-ci ildən sonra Şamaxıda zahirən elə bir dəyişiklik olmamışdı. İnqilab oğulları gizlin çalışırdılar Zahirdə görünmürdülər. Bakı kimi sənaye mərkəzi ilə qarşılaşdıranda Şamaxıda demək olar ki, sakitlik idi. Əgər Sabir «Hophopa» çevrilib təzə ilə köhnəni indi qarşılaşdırmaq istəsəydi, elə indi də ondakı kimi cavab verərdi:

Təzə — Şəhri məlumunuzun vəzi-qərarı necədir?
Köhnə — Həmdlüllah necə görmüşdüsə Nuh... eyləcədir!
Təzə — Oxuyurmu qəzetə şəhrinizin əhli tamam?
Köhnə — Bəzi sarsaq oxumuşlar oxuyur, mən oxumam.

Doğrudan da, burada indi bazarda bəzən cin kimi qaça-qaça

əlindəki qəzet və jurnalların adını bağıran uşaqların səsi bazarı başına göturürdü:

— Hacı əmi, qəzet... «həyat»...

— İtil cəhənnəmə... Qoduq... Mən qəzet alamam?

Qəzet, jurnal sədası köhnə Şamaxıya gəlib çatır, üsyan, mədənlərdə tətil və başqa xəbərləri gətirirdi. Amma bunlar elə ümumi oyanmaya səbəb olmurdu.

Və bir gün qəzet satan yetim Səmədin səsində ayrı bir ahəng, ayrı bir sez eşidildi:

— «Həyat», «Fyüzat», «Molla Nəsrəddin...in», «Molla Nəsrəddi...iin». Rotmistr Orlovskinin elanını... Ticarət donanmasında tətil... Fəhlə tətiliii... «Molla Nəsrəddiiiin»....

Doğrusu baqqalbazar əvvəlcə məsinmədi. Molladan onlara nə ziyan gələ bilərdi? Bu neçə mollaydı? Maraq edənlərin bir neçəsi aldı da... Molladan qorxan kim idi ki?

Amma birdən elə bil alanların da, oxuyanların da, oxudub qulaq asanların da kürkünə birə düşdü. Bu «molla» o mollalardan deyildi.

Səməd həmişə qəzet satdığı Məşədi Ələkbər əmiyə də bir dənə «Molla Nəsrəddin» vermişdi.

Jurnalın ilk səhifəsinə baxanda, yuxulu İslam aləmini görəndə özündən xəbərsiz ürəyi titrədi. Neyçün? Bəlkə elə ilk anda hiss etdi ki, gələcək taleyi, yaradıcılığı, qazanacağı dünya şöhrəti bu altı vərəqdən ibarət, şəkilli jurnalla bağlı olacaq. Daha doğrusu, elə indidən bağlanır bu mollanəsrəddinçilər dünyasına və bunu dərunu ilə duyur, dərk edirdi. Birinci vərəqi çevirdi, ilk sözləri, ilk sərlövhəni oxudu: «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki...» Əlləri ürəyindən də sürətlə titrəməyə başladı. İndi oxunu davam etdirdikcə bütün vücudu əsirdi: «Bay səni... pah-pah...» deməkdən özünü ala bilmirdi: «Belə də yazmaq olarmış? Belə də demək olarmış... Nəinki yazmaq, hələ çap eləyib aləmə yaymaq da olarmış. Vallah, afərin bu Mirzə Cəlil Məmmədquluzadəyə! Heç belə şey islam aləmində görünməyib hələ». Jurnalı vərəqləyir, şəkillərinə baxır,

mətnləri oxuyur, gözləri yaşarıncaya qədər gülürdü. Güldükcə gözlərindən yaş axırdı. Həm ağlayır, həm gülürdü... Həm sevinir, həm kədərlənirdi. Ağlayırdı: çünki həmin «müsəlman qardaşlar» dünyasında yaşayırdı. Gülürdü; çünki heç vaxt bu bədbəxtlərin, həmçinin eləcə də bu canavarların nöqsanını bu yekəlikdə, bu aşkarlıqda üzünə çırpan olmamışdı. Sevinirdi, çünki millətinin oyanması üçün, «xabi-qəflətdən» ayılması üçün belə bir məcmuə meydana gəlmişdi. Kədərlənirdi, çünki, bu yolda özünün də bir şeyə qadir ola biləcəyini bilmir, ümid etmirdi. Həm də bu Tiflisdə xalqın, millətin dərdinə yananların halını düşünür, onlara ola biləcək hücumları, nifrət, küfr və lənətləri indidən görür, eşidir kimi idi.

Yerindən qalxmadı, başını qaldırmadı. Gözünü məcmuənin ecazkar səhifələrindən çəkə bilmədi. Adəti həlim səsilə dilləndi:

— Qızım, qələmdanımı bəri gəti! Qapıları bağlayın, soruşan olsa, dükana gedib deyin...

Ürəyində qeyri-adi misralar, beytlər səslənirdi:

«Millət necə tarac olur olsun, nə işim var? Düşmənlərə möhtac olur olsun, nə işim var!» Sən bunlarımı oyatmağa gəlmisən, ey Şərqin qoca Molla Nəsrəddini? Zamanına görə şahlara — xaqanlara teymurlara meydan oxuyan cürətli Molla Nəsrəddin? «Təki mən tox olum, özgələr ilə nədi karım? Dünyavü cahan ac olur, olsun, nə işim var?» Sən elə bilirsən ki, bu əqidədə olanlar razı olacaq ki, millət oyansın? Onlar sənə deməyəcəklərmi ki: «Səs salma, yatanlar ayılar, qoy hələ yatsın! Yatmışları razı deyiləm kimsə oyatsın!» Axı, bu ağalarda, bu cənablarda millət qanı deyilən şey yoxdur. Onlar yalnız və yalnız öz cibişdanlarını güdən ünsürlərdir: «Mən salim olum, cümlə cahan batsa da batsın» deyənlərdir. Sən elə bilirsən ki, Molla dayı, onlar imkan verəcək ki, sən oxumağın nə olduğunu bilməyənlərə bu şəkillər vasitəsilə bir şey, bir söz deyib, bir mətləb qandırasan? Onlar deyir ki: «Evladi-vətən qoy hələ avarə dolansın. Çirkabi-səfalətdə əli-başı bulansın», Yox, Molla əmi, yox! Bu rəzalət dünyasında sən tək qala

bilməzsən. Tez boğarlar bu qənilər, bu zahidlər, əhli-təqvalar səni! Onlar yuxuda da millətin tərəqqisini eşidəndə dik atılıb, cin tutmuşlar kimi qalxarlar. Millətin tərəqqisini istəməzlər. Deyərlər: «Hər millət edir səfheyi-dünyada tərəqqi, Eylər hərə bir mənzili-məvada tərəqqi. Yorğan-döşəyimdə düşə gər yada tərəqqi...» Boğarlar... boğarlar... boğarlar o tərəqqini! Deyərlər: «Millət neçə tarac olur olsun, nə işim var? Düşmənlərə möhtac olur, olsun, Nə işim var?»

Qəribə nəzm alınırdı. Ömründə beləsini nə qədim kitablarda oxumuş, nə başqa şairdən eşitmiş, nə də özü yazmışdı. Bu nə idisə, ayrı bir aləm, ayrı bir macəra idi. Ayrı dil, ayrı səpki idi. Eləcə həmin «Molla əmi»nin ruhunda idi. Elə bil haradasa, çiyninin üstündə qoca «Molla əmi» dayanıb, ürək yanğısı ilə bu sözləri, bu misraları, bu beytləri ona təlqin edir, diktə eləyir, yazdırırdı. İlham idi.

Əsl Sabir, əsl Hophop bu gün yaranırdı. Bu misralarla, bu beytlə. Özü də bunu anlayırdı. Bu qeyri-adiliyin, elə məcmuənin özü kimi qəribəliyin, təzəliyin oxucular tərəfindən necə qarşılanacağını hələ bilirdi. Heç oxucusu olacaqdımı? Onu da bilmirdi. Amma anlayırdı, duyurdu, bütün varlığı ilə inanırdı ki, dürüst, düzgün, aydın bir yola düşür şair. Düzgün, aydın bir yolda yaranır Hophop, Əbunəsr-şeybani, Ağlar güləyən... Hələ bu təxəllüslərdən, ləqəblərdən ona yalnız Sabir tanış idi. Sabir hələ bu qeyri-adi əşara görə başının nə çəkəcəyini, nə kimi bəlalara düçar olacağını bilmirdi. Düşünmürdü. Qorxmurdu da. Bu qorxaqlıq, təbiətində yox idi. Ona xas deyildi. Cüssəsiz, zəif vücudunda xilqətin yarandığı gündən bəri heç bir canlıya qismət olmayan qüdrət, qüvvət, cəsarət, hünər, mübarizlik var idi. «Molla Nəsrəddinain ilk nömrəsi gözünün önündə bir örnək, bir yol göstərən rəhbər, bir istiqamətverici, bir işıq kimi durur, par-par parlayırdı. Sanki məcmuənin ilk səhifəsində yatan, tək-tək oyanmaq istəyirkən, əsnəyib yenidən yuxulamağa başlayan milləti oyatmaq üçün üzündəki mehriban, nəvazişkar təbəssümlə əlini

uzadıb «oyan, oyan bu qəflət yuxusundan, atam, qardaşım, evladım!..» deyən Molla Nəsrəddin idi həmin o yol göstərən, həmin o işıq saçan, nur saçan mayaq.

Sabir bu ilk şeirinin şeiriyyətinə də inanmaq istəmirdi, inana bilmirdi. Yazdığını bir od kimi əlini yandıra-yandıra büküb qoltuq cibinin dərinliyində gizlətdi. Qabına sığmırdı, otağa yerləşmirdi, köks qəfəsi ürəyinə darlıq edirdi. Qalxdı. Divardakı kiçik taxçaya yaxınlaşdı. Pərdəbaşlığına asılmış pərdəni qaldırdı, qələmdapını xırdaca mücrünün üstünə yığılmış kitabların yanına qoydu. Elədiyi işləri yuxulu adamlar kimi əl havasına görürdü. Eləcə qəlbnni çulğamış qəribə hisslərlə də evdən çıxdı. Sağollaşdımı evdən çıxanda? Adəti idi axı; «anaşıma» sağ ol deyib kalağay üstündən başını sığallamasa «dini dürüst olmazdı» evdən gedəndə. Bunu da bilmirdi. Bəlkə də etmişdi. Hər halda bu gün bu şeirini «anaşıma» — qızı, həmsöhbəti Səriyyəyə oxuya bilməyəcəkdi, Bu şeir ona oxunmalı deyildi. Kim bilir necə qanar, necə dərk edərdi, qız uşağı? İndilik yalnız bircə adama cürət edib bu yazını oxuya bilərdi. Yalnız onun sözü, fikri qanun ola bilərdi Sabir üçün. Bu adam onun könül dostu, həmdəmi şair Abbas Səhhət idi.

Sabir sonralar ha çalışırdısa da, o ilk şeiri Səhhət üçün oxumağa gedəndə Minaxordan Sarıtorpağacan dikdiri necə çıxdığını, yolda kimə rast gəlib, kiminlə salamlaşdığını yadına sala bilmirdi. Bircə onu bilirdi ki, qapını onun üçün Səhhət özü açdı və Mirzə Abbasqulu Sabirin simasında necə bir dəyişiklik gördüsə, dərhal əlini onun nəbzinə apardı. Və elə bu yerdə Sabir qismən özünə gəlib gülümsədi:

— Səhhətim yerindədi, qardaş!

Onlar bərabər içəri keçdilər. Şirvanın baharı özgə aləmdir. Şamaxının baharı bu özgə aləmdə də belə gül qoxuyur. Şamaxı həyətləri behiştin bir guşəsinə çevrilir. «Ətri-peyğəmbər» hesab etdikləri qızıl güllərin, reyhanların neçə növünü əkirlər həyətlərində şamaxılılar. Onu bir özləri, bir də allahları bilir. Amma hər halda bu həyətlərdə ağdan tutmuş zoğalıyacan ağın, çəhrayının,

qırmızının bütün çalarlarında qızıl güllər olur. Qızıl güllər acanda, reyhan və susənbərlər də yam-yaşıl, boylu-boyuna ucalır, aşığın yanındakı dəmçi kimi qızıl güllərin ətrinə reyhanlar və susənbərlər ahəng verir, rövnəqləndirir. Səhhətgilin də həyətində qızıl güllər var idi. Reyhanlar, susənbərlər var idi. Amma həyətin, necə deyərlər, bir pillə aşağısında, Ziyada xalanın həyətində bu güllərin, çiçəklərin həm rəngi, həm də ətrinin çalarları daha əlvan idi. Və indi Sabir həyətə daxil olanda Ziyada xala deyəsən güllərini sulayırdı. Tənəklərin kölgə saldığı həyətə yaz günəşi yarpaqlar arasından qızılı-naxışlı fərş sərmişdi. Ətir aləmi başına götürmüşdü. Sabirin qəlbini çulğalayan hisslərə köks qəfəsi dar gəldiyi kimi, bu güllərin, çiçəklərin ətrinə də Ziyada xalanıi həyəti darlıq eləyirdi. Aşıbdaşırdı ətir. Buraya Səhhətgiləcən qalxırdı ətir. Sabir bir an pillədə dayandı, ətir onu bihuş eləmişdi:

— Mirzə Abbasqulu, vallah behiştin orta göbəyində yaşayırsan.

Səhhət gülümsədi, bir anlığa o da dayandı:

— Elədi, — dedi, — başqa cür ola da bilməz, möhtərəm dost! Şairin yeri elə behişt ola gərək...

«Şairin yeri... behişt... ola gərək... Elədimi? Tiyan dibi deyil ki? Quyruq, cızdaq iyi vurmur ki, sabahdan axşamacan burnuna? Onu ət xörəklərindən də çiyrindirmir ki o iy?»

Eyvana qalxdılar. Səhhətin anası Seyid Ruqiyyə yır-yığış eləyirdi. Yaşmağını qaldırıb, örpəyini alnına tərəf çəkdi:

— Xoş gəlmisən, Mirzə! — deyə Sabiri salamladı, əlindəki boğça ilə pillələri aşağı endi.

Sabirlə Səhhət eyvandakı kürsülərin üstündə əyləşdilər. Hal-əhvaldan sonra Səhhət bir də üsulluca əlini Sabirin nəbzinə qoyub, müsahibi duymasın deyə qəlbində saydıqca onu dinləyirdi. Yenidən dostunun nəbzində qeyri-adi çırpıntı duydu. Amma bu, xəstəlik əlaməti deyildi. Elə bil ki, Sabirə böyük, daxili həyəcan gətirən bir şadlıq üz vermişdi. Sözü bunun üzərinə gətirməzdən, nə baş verdiyini eoruşmazdan əvvəl Səhhət, Sabirin bazarda aldağını

bilmədi bu sabah dostuna göndərdiyi qəzet və jurnallar, xüsusilə təzəcə Tiflisdən Şeyxovların məxsusi ona göndərdiyi «Molla Nəsrəddin» jurnalı haqqında soruşdu:

— Hə, dadaş, necə gördün «Mollanı?»

Sabir yalnız indi başa düşdü ki, Səhhət yenidən onun nəbzini yoxlayır. Gülümsədi, Sabir təbəssümü ilə... zərif üzü həlim, mehriban bir ifadə aldı. Narın səsi ilə dilləndi:

— Qardaş, özün canıma od salanı göndərmisən, oxumuşam, indi də nəbzimi yoxlayırsan? Buna nəbz neynəsin? «Molla»dan soruş... Molladan! Adamın dili də gəlmir ona «molla» deməyə... «Molla əmi»... Dünyamı dəyişdi... Qardaş! Belə də yazmaq olarmış?! Belə də nəşr etmək olarmış...

Səhhət də fərəhlə, bəxtiyarlıqla gülümsədi:

— Hə... belə de! Belə!!! Doğrudan da bizim dilimizdə belə də yazmaq olarmış... Amma allah saxlasın Bakı quberniya jandarm idarəsinin rəisi, general-mayor Kozinsevin bəlasından...

Hər ikisinə bəxtiyarlıq üz vermişdi. Hər ikisi üçün bayram idi, istəyirdilər ki, yerlərindən qalxıb bir-birinin boynuna sarılsınlar, öpüşsünlər, bir-birinə «bayramın mübarək» desinlər. Amma Sabir qoynunu od təki, alov təki qızışdıran, o «təzə şeir»in haqqında dostunun rəyini hələ bilmirdi. Ehmallıca əlini cibinə apardı, bayazını çıxartdı, baharın bu sərin havasında bütün vücudunu həya təri basdığı halda, yavaş səslə dostuna dedi:

— Səhhətim, izin ver, cənabına bir şey oxuyum... — bitirə bilmədi. Səhhət onu təşviq üçün cəld səsləndi:

— Bu nə sözdü? Nə izinbazlıqdı? Buyur, qardaş, buyur!

Sabir bir addımlığında dayananın belə eşitməyəcəyi yavaş səslə: «Millət necə tarac olur olsun, nə işim var?!» deyə oxumağa başladı. Bir az əvvəl Sabiri çulğamış fərəh, heyrət indi Səhhətə ariz olmuşdu. «İstedad... İstedad! Sabir istedadı nə qəribə büruzə verdi?! Mən həmişə onun zərifanə həcvlərini «tanrı pulu hər yerdə bir ürəyi səxtə verir»ini eşidəndə ümid edirdim ki, o öz yolunu tapacaq. Nədəsə, necəsə müvəffəq olacaq. Afərin, «Mollaya»,

deyəsən Sabir günəşini o parladacaq. Əcəbdir, əcəbdir... Mən də... belə yaza bilsəydim... Mollaya layıq. Təcrübə etmək lazımdır. Nə bilmək olur? Bir də gördün çıxdı... Yoooxx! Sabir istedadı özgədir. Elə, zərifanə həcvlərindən də bəlliydi. Mərhum Hacı Seyid Əzim duyub bu istedadın gücünü. Hələ o vaxt duyub. Əbəs deməyib ki: «Ey məh! Bilirəm, fitieyi-dövran olacaqsan. Ey qaşı hilalım, məhitaban olacaqsan!» Deyəsən ustadın peyğəmbərcəsinə söylədiyi yerini alır və Sabir ay kimi işıq saçmağa başlayır...»

Sabir oxumasını bitirib dayandı, çırpınan ürəklə, qiymətini gözləyən şagird kimi «yaşca özündən kiçik» qələm dostunun rəyini gözləməyə başladı. Səhhət danışmağa, tərif etməyə söz tapmırdı. Həyəcanla yerindən qalxdı. Sabiri — dostunu bağrına basdı. Yaşarmış iri, qara gözlərini onun qara xət qoyulmuş üzünə sürtdü:

— Afərin! Əhsən, qardaşım! Sən mənim ürə-yimdən xəbər verdin. O ağaların əsl simasını açdıi; əsl diləyini, bütün bəd əməllərini üzlərinə çırpdın; lap Molla əmi» kimi!

Və Səhhət öz kəskin, dillər əzbəri olmuş hafizəsi ilə birinci dəfə eşitdiyi bu satiranı təkrarən oxumağa başladı, ayaq üstündə durmuşdu, bəlağətlə oxuyurdu, gözləri parlayır, əlləri hərəkət edir, üzü işıq saçırdı. Elə bil: «Millət necə tarac olur olsun nə işim var?! — sözlərində Səhhətin, Sabirin, bütün Azərbaycan ziyalılarının nifrəti, qəzəbi toplanmışdı. Hər vurğu, hər ifadə xalqın, dilsiz-ağızsız füqəranın başına min bir əngəl gətirənlərə qarşı qəzəbi indi Səhhətin simasında, səsində toplanmışdı. Bu dəfə Sabir hələ də əyləşdiyi kürsünün üstündə dostunun xüsusi nifrət dolu ahənglə oxuduğu satiranı dinləyir, «maşallah, hafizəyə bax ha!» deyə düşündükcə, sanki bu sözləri, bu sətirləri, bu beytləri özü yazmayıb, kiminsə başqasının yaratdığı möcüzə kimi dinləyirdi.

* * *

«Molla Nəsrəddin»in dördüncü nömrəsini oxucular böyük bir həvəslə gözləyirdilər. Dördüncü nömrə çıxdı. Elə həmin gün də

birinci nömrədə olduğu kimi elə bil Bakıda, Şəkidə, Salyanda, Naxçıvanda, Ordubadda, Şamaxıda, Göyçayda... sanki bomba — ikinci bomba partladı: Baş məqalədə «Niyə məndən qorxursunuz?» sualı verilirdi, ardınca «Millət necə tarac olur-olsun, nə işim var?!» nidası ilə bütün millət düşmənlərinə meydan oxunurdu. Bu ikinci «bombanın partlayışı» iki cür əks-səda verdi. Birincilər təkfir torbasının ağzını açdılar, əgər «Mollanın» ilk nömrələrindən hələ heyrətə düşüb özünə gəlməyənlər var idisə, bu nömrə birdən-birə bütün köhnəpərəstlərin yuvasına su buraxdı, komasına od vurdu; Axı, bir «qorxunc düşmənə» ikincisi də qoşulmuşdu. Özü də bu şair ən küclü silahla — asan yadda qalan şeirlərlə, qələmə aldığı adamın bütün eybəcərliklərini aça-aça onun daxili aləmindəki mənfur «kitabı vərəqləyə-vərəqləyə», bir cərrah kimi qəlbinin qatlarını, laylarını araşdıra-araşdıra bu eybəcərlikləri meydana çıxardırdı. O göstərirdi ki, millətin bədəninə elə yaralar düşmüşdür ki, hər şeylə sağalması asan deyil. Onlar hələ çox bağıracaqlar: «Səs ucalaşdı, qoymayın! Millət oyaşdı, qoymayın!», «Kafir olub, vurun vurun! Yazdığı şeirini cırın!..» Onlar millətin tək bircə oyana bilmək ehtimalından lərzəyə düşənlərdir. Bunlar, bu «şəbpərələr», «qırmızısaqqal əmilər, dayılar» çoxdur, lap çoxdur.

Xalqın gözüaçıqları bu bomba səsini eşitcək sevinc və fərəhlə bir-birinə gözaydınlığı verirdilər. Onlar Moskvada, Peterburqda, Qoridə, Berlində təhsil almışdılar. Yeni-yeni arzularla, yeni-yeni əməllərlə qayıtmışdılar. Açdıqları məktəbə «Oğul mənimdir əgər, oxutmuram əl çəkin» deyə uşaq vermirdilər. «Üsuli-cədid»lərinn bəyənmir, maarif ocaqlarını «şeytan yuvası», yeni-yeni yaranan texniki möcüzələri «kafir əməli» adlandırırdılar. Bu qabaqcıl ziyalılara babi damğası vurulurdu. Təkfir və təqib olunurdular. Amma bu bir ovuc qabaqcıl ziyalı, hücum və hədələrdən qorxmadan öz işlərinə davam edir, «biçarə milləti» oyatmaq, azacıq da olsa, bir neçə nəfərini də olsa maarifləndirə, ziyalandıra bilmək üçün əllərindən gələni edirdilər. Bəzən gəlməyəni də. Bax, elə buna görə də «Molla Nəsrəddin»in ilk nömrəsi əllərinə geçən gündən

maarif, ziya dostları az qala bir cəbhədə birləşdi. Dost, arxa-kömək qazandıqları üçün bir-birini təbrik etməyə başladı. Lakin Hophopun satiralarını oxumağa başlayan gündən qabaqcıl ziyalıların ürəyinə bir qüvvət, bir ümid gəldi. Onların çətinliklə gördükləri, edə bilmədikləri işi «Molla» və «Hophop» görməyə başladı. Millətin gözünü açmaq, savadsızlara belə öz düşmənlərini tanıtmaq! «Aç gözünü, bax, gör, canına, qanına daraşan mikroblar səni nə günə qoyub» — demək hər adamın işi deyildi. Bu mollalar, xanlar, bəylər, çinovniklərin ağalığı dünyasında, onların özünü öz dili ilə ifşa edib, yarasaları qaranlıqlardan gün işığıma çıxartmaq, «bax, qanını soran budur» demək zor məsələ idi. Bütün bir eli, bütün bir dünyanı üsyana çağırmaq, «qalx gözünü aç və haqqını tələb elə!» deyən inqilabçıların səsinə səs vermək, inqilaba əvəzsiz xidmət idi. Hələ bu xidmətdən qabaq... Hələ bu xidmətdən əvvəl ziyalılar arasında nə baş verdi? Hophopun göy gurultusuna bənzər səsini eşidən kimi dünyaya yeni bir şairin, millətə yeni bir güclü, qüdrətli müdafiəçinin gəldiyini anladılar. Gözaydınlığına başlayan kimi bu Hophopun kim olduğunu, bu mübarizədə gözlənilmədən qollarına qüvvət verən dayaqın kimliyiii bilməyə çalışdılar. Axı, aralarındakı tanıdıqları ziyalılar, şairlər, nasirlər arasında belə ifadə gücünə, bu dağ şələləsi kimi gurlayan ilhama malik bir şair tanımırdılar. Bəs kimdir bu Hophop? O aylarda bütün ziyalıları məşğul eləyən bu bircə sual idi. Rastlaşınca, səslərini bir az da qısıb (onsuz da mollalar, zahidlər aləmində bərkdən danışmağa ziyalıların cürəti yox idi) bir-birindən ehmalca, məhrəmanə bir surətdə soruşurdular:

— Hophop kimdi?

— Qardaş, Hophopu tanımırsan?

— Sən biləsən bəlkə, Hophop harda yaşayır?

— Amma nə gözəl yazır?!

— Allah özü onu bəlalardan, yerin-göyün afətlərindən qorusun — deyənlər də var idi. Ürəklərində hər biri onun dostu, həmfikri, qoruyucusu, xeyirxahı idilər. Ürəklərində hər biri onu sevir, görmək, tanımaq, müsahibi olmaq istəyirdi. Amma

tanınmasını, «düşmənə xəbər olmasını» istəmirdilər. Bilirdilər ki, qarşılarındakı ölməkdə olan, çürüməyə başlamış olsa da əjdahadır, güclü, qüvvətlidir, son həmləsində, son nəfəsində hələ nəinki Hophopu, bəlkə çoxlarını məhv eləməyə qadirdir. Odur ki: «Hophop kimdir?» sualı, «Hophopu tanıyırsan?» sualı yavaşdan verilirdi. Ehtiyatla verilirdi və bu sualı verən adam sevincini qəlbinin dərinliklərində gizləyib, üzündəki fərəhin oxunmasından, səsinin eşidilməsindən, şairin tanınıb dillərə düşməsindən, məhv edilməsindən qorxurdu.

Amma hər halda bu bomba partladı. «Molla Nəsrəddin» meydana çıxdı, üzünü tutub gəldiyi «bitli-sirkəli müsəlman qardaşları» üçün Hophopu da meydana çıxartdı. O Hophopu ki, vulkan qüdrəti yerin dərinliklərində gizləndiyi kimi gizli qalırdı, üzə çıxması üçün vəsilə lazım idi. Bu vəsilə də Molla Nəsrəddin oldu. Dəhşətli qüvvənin üzərini örtən torpağı eşələdi və vulkan indiyəcən görülməmiş bir qüvvətlə vurmağa başladı. «Səbrin atası», mülayim qəzəlləri ilə sələflərindən seçilməyən, hətta mərsiyə belə deyən Sabir — Hophopa, Ağlar güləyənə, Şeybaniyə... çevrildi. «Molla Nəsrəddin» — Mirzə Cəlil özü belə, üzərindəki əsrlik külü sovurub, meydana çıxmasına şərait yaratdığı, «İsrafilin suruna» çevrilib ayağa qaldırdığı bu gözlənilməz qüvvət qarşısında heyran qalmışdı. Bir də niyə «gözlənilməz» deyib dururuq? Məgər bu yurdun gözüaçıq oğulları bilmirdi ki, «heyvan iplə bağlanır, insan sözlə?» İnsanı sözlə oyatmaq olar əsrlik yuxudan. Şeirin sözüylə, təsiriylə — bilmirdilər? Məgər zaman çatmamışdı? Məgər bu torpaq yüzlərlə şair yetirməmişdi? Məgər hələ XII əsrdə:

Əgər şair deyil, peyğəmbər olsaydı mənim adım,
Mənə beyət edib aləm deyərdi: «Kəbə Şirvandır».

— Deyən Əfzələddin Xaqani bu torpağın oğlu deyildi?
Məgər XIX əsrdə:

Xəlqə bizdən qalıbdı şairlik,
Bizik aləmdə nəsli-Xaqani.

— deyən ustadı Seyyid — Seyid Əzim Şirvani bu torpağın yetirməsi deyildi? Bəlkə onların da zamanında inqilablar baş versəydi, «Molla Nəsrəddin» dünyaya gəlib başları üzərində dursaydı: «Oyan, qalx bu xabi-qəflətdən», «Sizi deyib gəlmişəm» — desəydi, bəlkə onların da hərəsindən bir Hophop, bir Əbunəsr Şeybani çıxardı. Kim bilir? Amma bu bəxtiyarlıq dəqiqələrində Hophopun dünyaya gəlməsinə sevinən ziyalılar unudurdu ki, irtica hücuma keçib, Stolıpin irticası... Bakıda hümmətçilərin evlərində bircə-bircə axtarışlar gedir. «Molla Nəsrəddin» «həyat»ın bağlanmasına, «İrşad»ın xəstələnməsinə karikaturalar hazırlayır, irticaya cavab verir, Duma dağıdılır.

Baron Traube ticarət donanmasında üsyan qaldıran dənizçiləri «yumşaltmaq» üçün qoşun göndərir.

Bakı naçalniki general-mayor Yermolov qəzetlərin bağlanmasına əmr verir. Sabir buna cavab olaraq yazır: «Əlminnətü lillah ki, «dəbistan» da qapandı».

Qabaqcıl fikirli ziyalılar bütün bunlara baxmayaraq, müəllimlərin birinci qurultayını hazırlayır, Bakıda Həsən bəy Zərdabi, Mahmud əmi, Fərhad Ağazadə, Həbib bəy Mahmudbəyov, Üzeyir Hacıbəyov, Süleyman Sani, Qafur Rəşad Mirzəzadə, Abdulla Şaiq... bu qurultaya hazırlaşır, əlifba məsələsi, yeni dərsliklər yaratmaq məsələsi, məktəblərin sayını çoxaltmaq, qızları məktəblərə cəlb etmək, Şəfiqə xanım, Hənifə xanım kimi müəllimlərin sırasını azərbaycanlı qızlarla zənginləşdirmək... o qədər məsələlər vardı ki...

«EYLƏ BİLİRDİM Kİ, DƏXİ SÜBH OLUB»

Bugünkü seyr adi seyrlərə bənzəməzdi. Hər yayda olduğu kimi müəllimlər, ziyalılar Şamaxıya toplaşmışdı. Zəlzələnin təsirilə getdikcə nüfuzunu itirib, süquta gedən şəhər, hər yay ziyalılarla dolurdu. Onları buraya Aşqabaddan, Mərvdən, Şəkidən, Gəncədən, Bakıdan və digər şəhərlərdən, uzaq ölkələrdən vətən həsrəti çəkib gətirirdi. Şirvan ziyalıları, mütləq yayı Şirvanda, onun səfalı yerlərində: Çuxuryurdda, Dədəgünəşdə, Qızmeyda-nında keçirirdilər. Yayda Şamaxı behiştə çevrilirdi. Şəhərin küçə və bazarlarında sürtuqlu, kostyumlu, şlyapalı, pensneli adamların sayı artırdı.

Bu yay da belə idi. Bu yay Mahmud bəy də, Əlicabbar da, Cəmo Cəbrayılbəyli də Şamaxıda dincəlirdi. Bugünkü yığıncaq gündəlik ədəbi-bədii toplanışlardan biri, bəlkə daha dəbdəbəlisi idi. Seyr üçün seçdikləri Çuxuryurd yaxınlığındakı meşəlikdə toplanmaları baş tutmamışdı. Çuxuryurd polisi «Burada toplanmaq olmaz» — deyib qəti etiraz etmiş, bir gün əvvəl seyr üçün hazırlıq görməyə gedənləri qovub dağıtmışdı. Ona görə də Cəmo və başqa cavanlar, xeyli bikef olmuşdular. Məsələyə belə işlərdə xüsusi səriştəsi olan Hacı İsmayıl Veysov qarışmışdi. Onun göstərişi ilə dostlar arasında «irahat-farağat» adlandırdıqları Hüseynəli, «Gəvəy» bağında seyr dəstgahı hazırlamışdı. Hacı İsmayıl, eyni zamanda, Küsəyən Səməd ağanı da buraya dəvət etmiş, onu dostları ilə barışdırmaq istəyirdi. Bu küsüşmədən əvvəl baş vermiş hadisənin qəribə bir tarixçəsi vardı. Bir ay əvvəl Şahpirli məhəlləsinin sözü ötənlərindən olan Səməd ağa müstəqil məhərrəmlik keçirmək xəyalına düşmüş, lakin ziyalı çox olan Şahpirlidə məhərrəmlik büsatı onun istəyincə keçməmiş, zəncir vuran, sinə vuran tapılmamışdı. Halbuki həmişə təziyəni birlikdə keçirdikləri qonşu Qurdlar məhəlləsi bu il fəğan eləmiş, onlara yanıq vermişdi: «belə olar ha!.. Ayrıldız, heç nə eləyə bilmədiz...»

Dostlar isə onu məzəmmət edib, «Zəlzələdən qırılanlar qalıb, min il əvvəl ölən ərəb rəyasətpərəstlərinə təziyə saxlamaq sənə yaraşmaz» — demişdilər. O da incimişdi. Qonaqpərvərliyi,

ziyalılarla dostluğu, mehriban və baməzə xasiyyəti ilə Səhhət və Sabirin rəğbətini qazanmış Səməd ağanın bir müddət dostlarından iraq düşməsi onları xeyli kədərləndirmişdi. Odur ki, Hacı İsmayıl Veysov bugünkü seyrdə Səməd ağa ilə dostlarını barışdırmağı və aradakı incikliyi götürməyi qərarlaşdırmışdı. Şair bu barədə hətta bir nəzm də yazmış, dostların bu küsüşmədən üzüldüklərini bildirmişdi:

Getdi əldən seyrlər, həsrətdə qaldı könlümüz,
Dad-bidad etməli, çünki əziz mehman küsüb.

Axı Səməd ağa seyrlərin canı, duzu idi. Halbuki o, hələ də məclisdə pərt əyləşmişdi, ümumi söhbətə qoşulmdurdu. Naseh nəzmi xüsusi bir təmtəraq və vurğu ilə oxuyurdu. Birdən bayaqdan bəri guya heç bir şeydən xəbəri yoxmuş, nəzmdən də xəbərdar deyilmiş kimi sakitcə ağac dibində əyləşən Sabir, diz üstə qalxdı:

— Ağa Əli bəy, — dedi, — zəhmət olmasa o vərəqi bəri elə, qoy yadımdan çıxan bir şeyi əlavə eləyim.

Ağa Əli bəy kağızı Sabirə uzatdı. Sabir ətrafında söylənən söhbətlərə, lətifələrə əhəmiyyət vermədən, kağızı dizi üstünə qoydu, dostlarından kimin isə ona hədiyyə etdiyi qurşun qələmlə nə isə yazıb Nasehə qaytardı. Naseh həmişə üsul danışmasına, yumşaq, həlim təbiətinə yaraşan təbəssüm əvəzinə, əlavəyə baxan kimi adətinə rəğmən, ucadan qəhqəhə çəkdi. Hamı nə isə qəribə bir şey yazıldığını duydu. Ağa Əli bəy kağızı heç kimə vermədi, sağ əlini sükut tələbi ilə yuxarı qaldırdı və ucadan oxudu:

Düşmədi Şahpirliyə bu il də matəm saxlamaq,
Şümr ölüb, ləşkər sınıb, Əzrəq qaçıb, Mərvan küsüb!

Qəhqəhə səsi yaxın ağaclardakı quşları da ürkütdü. Hamıdan çox Səməd ağa özü gülürdü, Sabir onun baş tutmayan «təziyədarlığına» işarə vurmuşdu.

Dostlar söhbətdə ikən «İrahat-farağat» ləqəbli Hüseynəli samovar qoyur. Nasehlə Əbdülxalıq əfəndi nərd atır, Səhhət isə bir kətilin üstündə əyləşib indicə ona çatan türk qəzet və məcmuələrinə baxır, arabir oradakı yazıların məzmunu ilə yoldaşlarını da tanış edirdi. Bu tanış etməkdə də qəribə bir məzə, kinayə vardı. Səhhət məcmuədən oxuduqlarına, əsasən öz-özünə sual verir və özü də cavabını qaytarır, bununla da məcmuədə nədən söhbət getdiyini aydınlaşdırırdı:

Sual — türk ədəbiyyatında yeniliyi kim yaradıb?

Cavab — Əbdülhəq Hamid.

Sual — Avropa ədəbiyyatı nümayəndələrinin müqabilinə çıxan istedadlı şair kim olub?

Cavab — Əbdülhəq Hamid...

Səhhət sualları verər-verməz Sabir, yerindən diz üstə qalxıb cavab verirdi: «Hamid, Hamid». Axırda Səhhət ona xeyli təəccüblə baxdı və Sabir daxili bir incikliyin təsiri ilə dedi:

— Həkimbaşı, sənin təlimin və tələbinlə ot otlamağıma baxma (o, kahı yeməsinə işarə edirdi), biz də bir şey qanırıq. Amma görəsən, bu möhtərəm, istedadlı, cahanşümul şairi bir türk kəndlisi və ya fəhləsi də başa düşürmü?

Bu dəfə pərt olan Məhəmməd Hadi idi. O, Hamidi müdafiəyə qalxmışdı. Hadi öz əsərlərinin də xalqa anlaşılan olmadığını duyur və bu ona daxili bir əzab verirdi. Özünü müdafiə edə bilmirdi. Amma həmin dövrdə Hamid o qədər geniş yayılmış və məşhurlaşmışdı ki, Hadi, bu mübahisənin üstündən sükutla ötüb keçə bilməzdi.

— Sizə məlum olsun ki, şair, hələ bütün millət üçün yazmaqdan əvvəl onun ziyalısı üçün yazır. Ziyalı da Hamidə səcdə edir, çünki onu anlayır, dərk eləyir.

Sabir qələm dostunun könlünü qırmaq istəmirdi, amma fikrindən dönmək xəyalında da deyildi. Yumşaqlıqla cavab verdi:

— Təkcə ziyalılar üçün yazılan ədəbiyyat, incimə qardaşım, mən biləni ən azı ölümə məhkumdur. Bu gün onu ziyalılar oxuyur — güc-bəla başa düşür. Sabah bütün xalq öz dilində oxumaq öyrənəndə, bu ərəb və əcəm[1] dillərindən mürəkkəb olan əşarı başa düşməyəcək. Bir xalqın iki ədəbiyyatı yaranacaq. Biri ən yüksək təbəqəli ziyalılar üçün, o biri də millətçün.

— Mən elə demirəm. Mən qulluğunuza ərz etmək istəyirəm ki, hər bir şair öz istedadı dairəsincə yazır... Dili də kasıblatmaq olmaz.

— Heç kəsdən eyni dərəcədə istedad tələb olunmur. Tələb olunan dilin aydınlığı məsələsidir. Axı, millət üçün yana-yana yazan şairi millət başa düşməliydi, ya yox? Qardaşım sən yazırsan:

Göründü mətləi-ümidimizdən bari-hürriyyət,
Təbəssümrizi—istiğa, dır rüxsari-hürriyyət.
Əsarət zülməti məstur edərkən vəchi-afaqi,
Üfüqdən doğdu nagah şəmsi-pərtövbari-hürriyyət.

Sənin oyatmaq istədiyin millətin fəhləsi, kəndçisi buradakı yüksək mətləbi başa düşmür. Burada «göründü, edərkən, doğdu» sözlərindən başqa hansı gəlməni el-camaat başa düşər? 21 sözdən təkcə üçün, hansı ərəb şairi yüzillərlə türk əsarətində qalsa belə, dilini bu kökə salar?

Hadi pərt olmuşdu. Özlüyündə səhərisi günü Bakıya qayıtmağı qərara aldı.

İndi isə toplanışın lap əvvəlində yaranan bu ziddiyyət yığılanların arzusuna uyğun deyildi. Pərtliyi aradan götürmək lazım idi. Odur ki, araya Səməd ağa girdi:

— Dostlar, — dedi, — Heç bilirsiz cənab Naseh Ağaəli bəy, şair Sədriyə rus dilində nə gözəl bir mənzum məktub yazıb?

Cəmo Bakıdan təzə gəlmişdi, şeirdən xəbərdar olsa da, maraq

---

[1] Fars dili nəzərdə tutulur.

göstərdi. Axı, heç birisi şair dostların arasındakı mübahisənin kəskinləşməsini istəmirdi. Odur ki, Cəmo tələsik soruşdu:

— Hansı nəzmdi o?

Səhhət gülə-gülə əvvəlcə Sabirin yazdığı zarafatyana parçanı oxuyub, sonra Ağaəli bəy Nasehin şeirinə keçdi:

Buduçi mərsiyəxanom, tı dral bezbojno,
Polojil tı sebe denejki v karman, Sədri!
Vsem izvestio u nas, çto tı bıl mərsiyəxan,
Qovori luçşe pravdu, bros obman, Sədri!

Hamı güldü. Yenə də Səhhətin hafizəsinə təəccüb etdilər. Adətincə bir mənzuməni tək bircə dəfə oxuyardı, dərhal da hafizəsində həkk olunardı. Səhhət əlavə olaraq dedi:

— Dostlar, rus dilində əruz vəznində oxuduğum, mənə məlum olan yeganə nəzm məhz budur ki, onu da yazmaq şərəfi Ağaəli bəyə nəsib olub.

Səməd ağa özünü saxlaya bilmədi, dilləndi:

— Yox a, mən birini də bilirəm.

Hamı maraqlandı. Səməd ağa hamının diqqətini cəlb eləyə bildiyinə əmin olduqdan sonra söhbətinə davam etdi:

— Hə, deyirlər İranın Tiflis konsulu Hüseynəli xan, rus dili öyrənmək istəyib. Müəllim dəvət eləyib. Dərs vaxtı müəllim ona məlum bir uşaq şeirin əzbərləməyi tapşırıb. Orada belə bir misra varmış: «Sobaka, sobaka, zaçem tı layeş?» Cənab konsul misranı oxuyub, şeiri öz məzaqınca əruza salıb və səhəri gün dərsdə belə oxuyub: «Səbakə, səbakə, zaçem tı ləmayeş?»

Söz Səməd ağanın ağzında qaldı, qəhqəhə səsinə indicə cəmiyyətə yaxınlaşan Mahmud bəyin sualı qarışdı:

— Səməd ağa, nə vaqe olub, niyə gülürsünüz belə?

Mahmud bəyi görüncə hamı ayağa qalxdı, yaşlı da, cavan da. Kim isə hadisəni Mahmud bəyə izaha başladı. Naseh üzünü Cəmoya tutdu:

— Cəmo, o tarı götür: bizimçün bir rast çal, feyz alaq...

Mahmud bəydən, Sabirdən və digər yaşlılardan utansa da, Cəmo, yeznəsinin sözünü yerə sala bilməzdi.

Rastın sədaları aləmə yayılmağa başlayanda, hamı oturduğu yerdə mütəkkə, döşəkcə və ya sadəcə yamyaşıl otlara dirsəklənib, sükut içində dinləməyə başladı.

Musiqi davam etdikcə, arabir ziyafətə gecikən ziyalılar da gəlir, səssizcə dostlarla salamlaşıb, yer tapıb oturur və qulaq asmağa başlayırdılar. Bəzən Ağaəli bəy, ya bir başqası, muğamın bir sıra yerlərində dodaqaltı zümzümə edirdi.

Muğam qurtardı. Hüseynəli çayın hazır olduğunu xəbər verdi. Çay dəstgahı ortaya gələndə toplaşmalı olanların hamısı artıq məclisdə dövrə vurub oturmuşdu. Söhbətə birinci Səhhət başladı:

— Məqsədimizi ayrı-ayrılıqda hər biriniz bilirsiniz, ağalar! Kitabxana ilə qiraətxana açmaq niyyətindəyik. Bu məqsədlə cənab Ağaəli bəy öz şəxsi kitablarından 150-sini gələcək kitabxananın bünövrəsini qoymaq üçün verir. Başlanğıc üçün hamımız ona minnətdarıq. Amma özünüz bilirsiniz ki, bu azdı. Bina tutmalıyıq, kirayə haqqı lazımdı. Qəzet və məcmuələr yazdırmalıyıq. Sonra qiraətxana və kitabxananı idarə edən, orada səliqə-sahman, təmizlik yaradan adamlar, məsləhət verən ziyalılar lazımdı. Bu da bəlli. Mən belə bilirəm ki, bu cür xeyir iş üçün, əl açıb ianə toplamaqla bir şey əldə edə bilmərik. Buyurun, indi məsləhət sizindir.

Mahmud bəy özünəməxsus bir təmkin və sakitliklə .dedi;

— Deyir, günlərin birində mərhum Hacı Seyid Əzim bir məclisdə imiş. Məktəbdən, maarifdən danışırmışlar. Elə hər gün danışırlarmış, bir şey eləmirlərmiş. Bir gün şairdən sual eləyirlər:

— Hə, Hacı, necə gedir məktəb işləri, neyləyirlər?

Cavab verir:

— Oturdular, danışdılar, durdular. — Yəni müsəlmançılıq oldu. İş görmədilər. Sabir əfəndi də yaxşı deyib:

—

Çırmanırıq keçməyə çay gəlməmiş,
Başlayırıq qızmağa yay gəlməmiş,
Söz veririk indi, bir ay gəlməmiş,
Asta qaçıb dürtülürük xəlvətə,
Kim nə deyər bizdə olan qeyrətə?

Elə edək ki, bizim də başladığımız iş belə olmasın. Söz verdik, iş öhdəyə götürdük, — onu da yerinə yetirək.

Oturanlar Sabir şeirindəki istehzanı gözəl anlayır, qamçının kimə vurulduğunu dərk edir və zərbələrin sərrastlığına heyranlıqla gülümsəyirdilər. Hərə öz ibrət payını götürürdü. Mahmud bəy isə sözünə davamla deyirdi:

— Mən də, Ağaəli bəy cənabları kimi, öz şəxsi kitabxanamdan bir miqdar kitab verə bilərəm. Kitab toplamaq işi asandı. Qaldı pul. Hərəmiz bir miqdar verəcəyik, buna da söz ola bilməz. Amma mən biləni ianədən də tamamilə üz çevirmək düz deyil. Çünki elə tərəqqipərvər, maarifdost tacirlərimiz, əsnafımız var ki, onlar da gücləri yetən qədər kömək göstərərlər. Rusiyadakı və Bakıdakı xeyriyyə cəmiyyətlərinin işindən öyrənmək də məsləhətdir. Məsələn: onlar Şərq konsertləri, teatr tamaşaları təşkil eləyirlər. Yığılan məbləğ verilir cəmiyyət tərəfindən seçilən komissiyanın ixtiyarına; qoyulur banka və gərək olanda ondan istifadə olunur. Rusiyanın mərkəz şəhərlərində — Peterburqda, Moskva, elə bizim Bakıda belə xeyriyyə cəmiyyətlərinin olduğunu bilməmiş deyilsiniz.

Yığılanlar Mahmud bəyi diqqətlə dinləyirdi. Hamısı da onunla razılaşırdı. Amma teatr vermək üçün burada qüvvə tapılacaqdımı? Hacı İsmayıl Veysov sözə başladı:

— Çox gözəl fikirdi. İanə də toplayaq, nə olar. İstəyənin bir üzü qaradı, verməyənin iki üzü. Qaldı tamaşa vermək məsələsi. Mən biləni burada, Şamaxıda seyrlər dəb olduğundan, konsert o qədər də tamaşaçı toplamaz. Şirvanlılar təzəlik aludəsidi. Gəlin elə kitabxana-qiraətxana kimi yeni işi, başqa bir yeni işlə — teatr

tamaşası vermək işilə başlayaq. O da elə bir növ tərəfimizdən bünövrə olsun. Mən Bakıda olanda hörmətli ədibimiz Nəcəf bəyin «Yağışdan çıxdıq, yağmura düşdük» — komediyasını görmüşəm. Çox maraqlı, çox da baməzədi. Bizim tüccarın, əsnafın da məzağına uyğun gələr. Məsləhət bilsəniz, onu tamaşaya qoyaq. Teatr üçün bina kirayə etmək mənim öhdəmə. Cümə məscidindən yuxarıda, Hacı karvansarasının üstündəki bina yaxşıdı. Onu kirayə elərəm.

Səməd ağa sevinclə dilləndi:

— Nə yaxşı oldu. Mən də ömrümdə bir dəfə artistlik elərəm. Yaxşı, bəs bu tamaşanı kim hazırlayacaq?

Cəmo ilə yanaşı oturmuş Əşrəf söz istədi. Burada oturanlardan heç kəs onun peşəkar inqilabçı olduğunu, «hümmət» təşkilatının tapşırığı ilə bura gəlib Əliheydər Qarayev, gənc Nəcəfqulu və başqa bolşeviklərlə birlikdə gizli iş apardığını bilmirdi. Zahirdə o da digər Şirvan ziyalıları kimi yayı Şamaxıda istirahət etməyə gəlmişdi. Əşrəf Yüzbaşovun bir zaman Tiflis teatrları ilə əlaqədar olduğunu bilənlər var idisə də, indi bu fikir heç kimin yadına düşmürdü: «Çox gözəl oldu, zahirdə nə iləsə başımız qarışar, əlavə göz-qulaqdan da uzaq olarıq» — deyə düşündü və icazə alıb sözə başladı:

— Ağalar, icazənizlə teatr məsələsini mən öz öhdəmə götürürəm. Mənim bu sahədə bir qədər təcrübəm var. Tiflis həvəskarları ilə tamaşalarda iştirak etmişəm. «Yağışdan çıxdıq, yağmura düşdük» komediyasına da bələdəm. Amma təkcə bina azdı. Burada pal-paltar lazım olacaq. Əlbəttə, ev əşyası və kişi paltarlarını nəzərdə tutmuram. Bunları yığılan əşxas öz evindən müvəqqəti istifadə üçün verər. Amma orada iştirak edən arvadlar üçün də libas lazımdı. Dilbər xanım, qızı Cəvahir, qulluqçu Yetər üçün üç dəst zənən paltarı lazım olacaq. Bu bir çətinlik. İkinci də arvad rollarında çıxış etmək üçün üç nəfər cavan kərəkdir. Mən sözümü bitirdim.

Sabir söz aldı:

— Qardaşlar, məsəl var: «Meşəyə girən ayıdan qorxmaz».

Neynək, hərəmiz bir növlə bir pal-paltarı öz ev əhlimizdən bir gecəliyə çırpışdırarıq.

Hamı güldüsə də, məsələnin çətinliyini anlayırdılar. «Arvadlardan hansı razı olacaq ki, onun libasını bir gecəliyə də olsa, yad kişi xeylağı geyib oyun çıxartsın, özgə kişilərin qabağında nümayiş etdirsin? Kim razı olacaq ki, Şamaxı kimi bir yerdə ələ salınmaqdan qorxmayıb, arvad paltarı geysin və sabah bazar avaralarının onun ardınca düşüb ələ salmaqlarından qorxmasın?» Hacı İsmayıl dedi:

— Sabir əfəndi haqlıdı, bu paltarı birtəhər ötüşdürərik. Cənab Əşrəf bəy, indi ki, belə oldu, onda elə nəqd yaxşıdı. Kim kimin rolunu oynayacaq, burdaca böl, hər kişi öz işini indidən bilsin. Özünə pal-paltar da tədarük eləsin. Deyəcəyi sözləri də yazıb özü üçün əzbərləsin. İndi sizə kitab lazımdı?

Əşrəf Yüzbaşov cavab verdi:

— Yox, bu saat kitab lazım deyil. Mən hafizəmdən oradakı rolları bilirəm. Əzbərdən sayaram. Hacı Qənbər rolunu özüm ifa edərəm. Onun dostu Hacı Salman...

Səməd ağa sevincək dilşəndi:

— O mən! Ömrümdə heç olmasa Hacı olaram.

Vəziyyətin ciddiliyinə baxmayaraq hamı gülümsədi.

Əşrəf davam etdi:

— Olsun. Gücünüz çatsa, iştirakçı da az olsa, axır pərdədə Molla Səfi rolunu da götürə bilərsiniz.

— Yox, aşna! Mollalarla aram yoxdu; onsuz da bunu bilirlər. İndi hələ bir təqlidlərini də çıxartsam, onda lap sapand davasına çıxarıq.

— Neynək, o Molla Səfi də mən, — deyə müəllimlərdən biri dilləndi.

— Qulluqçu Yetəri mənim dostum Əlheydər oynar. Onun dostu Nəcəfqulunu da cəlb eləyərik. Amma əsas məsələ budu ki, Hacının arvadı Dilbəri kim götürür?

Məclisə sükut çökdü. Fədakar lazım idi, əsl fədakar... Nəhayət,

belə bir fədakar tapıldı, Cəmo bəy qızara qızara dedi:
Bilmirəm öhdəsindən gələ bilərəmmi?

Əşrəf rahat nəfəs aldı:

Arxayın olun, gələrsiz. Söz verirəm ki, qadın rollarında çıxış edən cənabları elə qrimləyim, kəlağayı ilə üz-gözlərini elə sarıyım ki, qaragüruhdan biri də tanıya bilməsin. Öz aramızdan söz çıxmasa kimsə bilməz.

— Onda arxayın olun.

Buz əriyirdi. Sonrakı rollar asanlıqla bölündü Qərarlaşdılar ki, günü sabah Əşrəfin düşdüyü mən zildə toplaşıb, kitab üzündən rollarını köçürsünlər

Bilet çap etmək, afişa yazdırmaq və biletləri satmaq, ianə toplamaq işi də cavan müəllimlər arasında bölünüb paylaşdırıldı. Vəzifə bölküsü qurtardıqdan sonra Mahmud bəy Mahmudbəyov dedi:

— Cənablar, təklif edirəm, üç nəfərdən ibarət bir komissiya təşkil edək. İrəlidə dediyim kimi, vüsul olan pulları onlara tapşıraq. Məsələn, mən məsləhət görürəm bu komissiyanın sədri Mirzə Abbasqulu Səhhət, üzvləri də Ağaəli Naseh və Hacı İsmayıl Veysov olsunlar. Necə bilirsiz?

Mahmud bəyin təklifi bir səslə qəbul olundu.

Müəllimlərdən biri dedi:

— Pərdə açılmamışdan əvvəl yaxşı olardı elmə, maarifə dair bir şeir xornan oxunaydı.

— Özü də bunu uşaqlar oxuyaydı...

— Bunu kimə həvalə eləyək?

Bayaqdan bəri susub oturmuş Sabir dilləndi:

— Məsləhət görsəniz bu işi mənə tapşırın. Bir şeir hazırlaram. Şagirdlərim həmin nəzmi xornan oxuyarlar. Bu da başladığımız işə qüvvəm çatan köməyim olar...

— Deməli, Sabir əfəndinin təklifi də qəbul olundu. Onun «Məktəbi-ümmid»inin şagirdləri tamaşadan əvvəl, pərdənin arxasından xorla oxuyacaqlar. Uşaqları hazırlamaq, şeiri

əzbərlətmək zəhmətini Sabir əfəndi özü çəkər.

— Baş üstə.

Söhbət yeni dərsliklər barəsində, Mahmud bəyin Səhhətlə birlikdə tərtibə başladığı «Yeni məktəb» kitabından gedirdi. Təhsilcə həkim olan Səhhət dərsliyə anatomiya, təbiət, coğrafiya kimi elmlər haqqında məlumat daxil etməyi məsləhət görür, rus ədəbiyyatından Krılov, Puşkin, Lermontov, Turkenev, Tolstoyla yanaşı Azərbaycan şairlərinə geniş yer verməyi lazım bilir və Mahmud bəy də Sabirdən həmin kitaba daxil etmək üçün şeir, uşaq mənzumələri yazmağı xahiş edirdi.

Səhhət deyirdi:

— Mahmud bəy də, cənab Ağaəli bəy də, məktubları ilə bizə doğru yol göstərən Köçərli cənabları da haqlıdı. Biz rus ədəbiyyatından çox şey öyrənməliyik. Ürfan günəşidir bizim üçün. Bacardıqca bu ədəbiyyatın gözəl nümunələrini tərcümə edirəm. Qoy uşaqlarımız öz doğma ana dillərində Puşkinin, Lermontovun, Krılovun əsərlərini oxuya bilsinlər. Böyüyüb rus dilinə aşina olandan sonra, qalanını da özləri oxuyurlar. Biz o dəryanın bir az miqdarı ilə onları tanış eləyə bilərik. Seyid Əzim Şirvanini unutmayaq. Bu barədə o çox gözəl deyib və bizə rəhbər olub.

Mahmud bəy Səhhətin sözlərini xüsusi bir fərəhlə dinləyirdi, o dedi:

— Ağalar, Səhhət cənabları düz buyurur. Onun özü bu sahədə artıq xeyli iş görüb. Ürfan günəşi adlandırdığı şairlərin əsərlərindən xeyli gözəl tərcümələr edib. Çox xoşuma gəldi. Gəlin xahiş edək Mirzə Abbasqulu Puşkindən tərcümə etdiyi bir şeiri bizə oxusun.

...Səhhət şeiri bitirdi. Dərhal alqış səsləri ətrafa yayıldı. Hamı tərcüməni bəyənmişdi...

Qərar qoyuldu ki, ianə toplamaq və bilet satmaq yolu ilə pul yığıldıqdan eonra, hansı qəzet və məcmuələrə abunə yazılmaq, qiraətxana üçün bina kirayə etmək və digər məsələlərin müzakirəsindən ötrü, bir də yığılsınlar. Bununla da məclis başa çatdı. Hamıda böyük bir ruh yüksəkliyi vardı. Elə bil arzusunda

olduqdarı azadlıq günəşinin üzünü bircə an, tək bircə anlığa görmüş, «hürriyyət pərisi» ilə tək bircə dəfə salamlaşmışdılar.

* * *

...Qiraətxananın binası hələ bir neçə gün bundan əvvəl səliqə-sahmana salınmış, ağardılmış, döşəməsi yuyulub silinmiş, içərisinə uzunsov mizlər, kürsülər qoyulmuşdu. Mizlərin üstünə örtüklər salınmış, abunə ilə alınan ilk qəzet və məcmuələr düzülmüşdü. Otağın baş tərəfində məsləhətçi və nəzarətçi üçün xüsusi miz, mürəkkəb və qələm qoyulmuşdu. İkinci otaq kitabxana üçün ayrılmışdı. Buradakı qəfəsələrə səliqə ilə Naseh, Mahmud bəy və başqa ziyalıların hədiyyə etdikləri Azərbaycan, rus, fars, türk və ərəb dillərində müxtəlif kitablar yığılmışdı.

Qiraətxananın açılışı günortaya qərarlaşdırıl-mışdı. Hələ indidən binanın önü xeyli qalabalıq idi. Açılışı xüsusi bayram şənliyinə, mədəniyyət və maarifin təntənəsinə çevirmək istəyən ziyalılar, məktəb şagirdlərini də gətirməyi müdir və müəllimlərdən xahiş etmişdilər. Vaxta az qalmış, şəhər məktəbinin müəllimlərindən Mir Cəfər Seyid Əzim oğlu, Avtandil Qriqoryeviç Mamaladze, Tumanyan, şəriət müəllimi Molla Səlman və başqaları indidən şagirdləri ilə birlikdə gəlib, müəyyənləşmiş yerdə durmuşdular. Müəllim Şeyxzadənin xüsusi geyimli şakirdləri də gəlmişdi. Başqa məktəb və mədrəsələrdən də gələn var idi. Müəyyən edilmiş vaxt çatanda Sabir, Səhhət, Naseh, Cəmo Cəbrayılbəyli, bələdiyyə idarəsi rəisi Teymur ağa Xudaverdiyev, qəza naçalniki Kolomiytsev, gizli inqilabi işdə çalışanlardan Əşrəf Yüzbaşov, Ə. Qarayev, Nəcəfqulu, müəllim Mahmud bəy və başqa ziyalılar gəlib çıxdılar. Ən əvvəl Teymur ağa Xudaverdiyev yığışanlara müraciətlə qiraətxananın şəhər həyatında edə biləcəyi dəyişiklikdən, elmin, maarifin inkişafından bəhs açdı. Sonra sözü qiraətxananın yaranması uğrunda xüsusi fəaliyyət göstərmiş Mirzə Abbasqulu Səhhətə verdi. Səhhətin vücudunu xoş bir həyəcan

qaplamışdı:

— Bu gün Şirvanın tarixində çox şərəfli bir gündür, — Hamı eşitsin deyə səsini ucadadı. — Şayani-diqqət bir gündür. Qədim bir tarixə, küclü bir ədəbiyyata, böyük üdəba silsiləsinə malik olan diyarımızın adı, ən qədim dövrlərdən mədəniyyət, elm və ədəb mənbəyi kimi tanınıb. Amma təəssüflər olsun, biz öz sələflərimizə layiq elm, ədəb sahibi ola bilməmişik. Cəhalət gözlərimizi, qulaqlarımızı elə bağlayıb ki, uşaqlarımızı məktəb əvəzinə cəhalətdə saxlamağı üstün tuturuq. İndi dövləti-əliyyənin, xalqımızın mənafeyini düşünən qeyrətmənd maarif dostlarının köməyi sayəsində, bir qiraətxana və kitabxana təsis edə bilmişik. İnsan üçün mərifət, ibrət mənbəyi olan kitabları hörmətli ziyalılarımız gətirib bu kitabxanaya yığıblar ki, gəlib oxuyasız. Buradakı gündəlik, təzə qəzetə və məcmuələrdən istifadə edəsiniz. Bu ziyalılar, millətin həqiqi aşiqləridir; onlar bu əməyi sizin yolunuzda çəkirlər. Təkfirdən, hədələrdən qorxmadan millətin inkişafı yolunda canüdildən çalışırlar. Onlar qapı-qapı gəzib balalarınızı məktəbə dəvət edirlər. Səbirlə əlləşib-vuruşurlar ki, sevgili millətin qabağa getməyinə nail olsunlar. Onlar öz qiymətli vaxtlarını burada keçirəcək, sizə xidmət edəcəklər. «Gəlin, oxuyun, bilmədiklərinizi soruşun, öyrənin» — deyəcəklər. İndi qeyrət və növbət sizindi...

Səhhət xeyli danışdı. Elmin, mədəniyyətin, qiraətxana və kitabxananın mənfəətindən bəhs açdı. Arabir səsi tutulur, riqqətə gəlirdi. Onun ürəkdən gələn sözlərini dinləyən ziyalıların hamısı kimi ən yaxın dostu Sabirin də gözləri yaşarmışdı. Məktəb şagirdləri sevimli müəllimləri Səhhətin sözlərini diqqətlə dinləyirdilər.

Səhhət sözünü qurtaranda ilk əvvəl Kolomiytsevlə Teymur ağa, onun ardınca da ziyalılar, müəllimlər, məktəb şagirdləri əl çalmağa başladılar. Səhhətin də, Sabirin də, Mahmud bəyin də, Ağaəli bəyin də qəlbi fərəhdən dağa dönmüşdü. Bu, başlanğıc idi və onların hər biri bu başlanğıca inanır, sevinirdilər.

«Söz Sabir əfəndiyə verilir» — deyiləndə böyük şairi alqışla qarşıladılar. Sabir məclisin ortasına çıxdı. Əyninə qara sətin arxalığın üstündən qara çuxa keymişdi. Başında qara buxara papaq, ayaqlarında hündürdaban başmaqlar var idi. Zəif cüssəsi ilə Səhhətə bənzəsə də, üzünün rəngi Səhhətin çəhrayı çöhrəsindən xeyli seçilirdi. Şair xəstə idi və bu təzə başlamış xəstəlik onu üzürdü.

Sabir yavaş danışsa da, hamı onu eşidirdi.

— Möhtərəm müəllimlərimizdən, həkim Səhhət cənabları sözün sağını sizə söylədi. Bu gün bizim hər birimizin bayramıdı. Elm bayramı, maarif bayramıdı, Mən də sizə «Elm» adlı bir nəzm oxuyacağam.

Bu sözlərlə də şair əlini çuxasının cibinə salıb, cib dəftərçəsini çıxardı və sakit səslə oxumağa başladı. şeirdə elmin fəzilətindən bəhs edilirdi. Yığılanlar şeiri hərarətlə alqışladılar. «Molla Nəsrəddin»də iki ildən bəri «Hophop» və digər imzalarla, bir çoxu da imzasız çap olunmuş məzəli, öldürücü satiralarla tanınmış Sabir şeir oxuyurdu. İndi bu əziz insan onları elm öyrənməyə çağırırdı. Hər bir ziyalı, sanki böyük şairə söz verirdi: «Sənə söz veririk, əziz Hophop, sənin sözlərini yerinə yetirəcəyik. Vətən balalarını elmli görmək arzunu həyata keçirmək üçün canımızı da əsirgəməyəcəyik».

Camaatdan aralı bir neçə mədrəsə şagirdi də var idi Bunlar bu gün əzazil Molla Qulunun gözündən, məscid hücrəsindən əkilib buraya gəlmişdilər. Onlar da başqaları kimi Sabir Ələkbərin «Elm» şeirini dinləyirdi...

Bu gün Şirvan ziyalılarının bayramı idi. Üzlərdə sevinc, gözlərdə fərəh parlayırdı. Onlar elə zənn edirdilər ki, üzlərinə maarif günəşi doğmağa başlayır...

* * *

Səhhət məktəbə çatanda Sabiri qəmli gördü. Səbəbini soruşdu.

Sabir ona Hacı Qulunun evindəki iftar süfrəsindən danışdı. Millətin acları bir yana qalıb, zənginlər, mollalar iftara çağırılıb. Deyirdi:

— Bəli, Hacı Qulukildə aləm idi, ehsan qonaqlığı! Bəli, qonaqlığa çevrilmiş ehsan!.. Şahanə bir məclis açılmışdı:

Məcmuədə düzülmüş eyzən xuruş sərasər,
Həsrətkəşani-mətbəx, kürkani-bətnpərvər,
Cari boğaza şərbət, sari məzağa şəkkər,
Əksi-buxari-dolma, zilli-əmmameyi-zər.
Dəryayi-iştəhayə olmaqda behcətavər,
Hüzzar içində əsla yox bir fəqirü müztər,
İftar vəqtidir ha, ey vaizi-süxənvər!
İş başbilənsiz olmaz,
Sərsüfrə sənsiz olmaz!

Sabir misranı misra dalınca düzürdü. O indi əsl Hophop idi. Səhhət dinləyir, qəlbinə göz yaşları axa-axa, lakin gülümsər dodaqlarla xalqının düşmənlərini ifşa edən bu zahiri çəlimsiz, batini dağ kimi uca insana pərəstiş edirdi: «Sənə qibtə edirəm, sənə pərəstiş edirəm. Hürufi olsaydım, pərvərdigar əvəzinə sənə tapınardım. Nə bədbəxt, nə xoşbəxtsən?! Xalqın səadəti yolunda əsl fədai sənsən! İndi dodaqlarından qopan bu misraların bircəciyini bilsələr, istehza etdiyin o vaizlər qətlinə fərman verərlər. Bədbəxtsən, — səni anlamırlar. Xoşbəxtsən, — sənə öcəşənlər özünü qayaya çırpan sərçə timsallıdırlar. Bir zaman gələcək, mən buna əminəm, adınla xalqını tanıyacaqlar. «Xoşbəxt xalqdırlar ki, belə bir şair ləri var» — deyəcəklər. Mən də bəxtiyaram ki, sənlə bir hava ilə tənəffüs edirəm, yan-yana gedirəm, müsahibələrini dinləyirəm, şeirinin ilk oxucusuyam. Dostun, qardaşın sanırsan məni!»

Əşkim olur gözümdən xuni-ciyərlə cari...
Bimürvət əğniyadan olmaz rəva sualın,

Tək ruyi-zərdin üzrə daim sirişki-alın...
Sail mühənsiz olmaz!
Möhnət də sənsiz olmaz!

— Möhnət tək bir sailin — pay yığanın yükü deyil. Möhnət sənin də, səndən qeyri süxəndanın da ağır yüküdür.

— Əlbəttə əğniyanın, dövlətlilərin başı orucluq qonaqlıqlarına qızışanda, dilənçi haradan yada düşsün? Şair kimin nəyinə lazımdır?

— Qərəz «Nə rəvadır əğniyalar baxa ac qalana, ya rəb?» bunu da sən demisən...

Sözləri yarımçıq qaldı. Sabirin məktəbi ilə üzbəüzdəki baqqal dükanı önündə baş vermiş bir hadisə nəzərlərini cəlb elədi.

Burada iki «yarımziyalı» qarşılaşmışdı. Hər ikisi də dükana girmək istəyirdi. İkisinin əynində uzun, qara sürtuk, əlində əsa, başlarında qotazı sağ qulaqlarının üstünə düşmüş qırmızı fəs var idi. Hər ikisi də özünü osmanlı ziyalılarına bənzətmək, mədəniyyət və təarüfdə-lüzumsuz hörmətlə bir-birini etmək istəyirdi:

— Buyurun, bəy əfəndi!

— Yox, siz buyuracaqsınız, bəy əfəndi...

— Rica edirəm, bəy əfəndi...

— Təvəqqədə bulunurum, bəy əfəndi...

Səhhətlə Sabir söhbətlərini unudub bunlara baxırdılar. Səhhət açıq bir kinayə və təəssüflə, qımışan dodaqlarındakı gülüşlə! Sabir istehza qarışıq ciddiyyətlə, belə hadisələri ilk dəfə görürmüş kimi müşahidə edirdi. Birdən tam ciddiyyətlə dedi:

— Mirzə Abbasqulu, deyirəm bir «təarüfçülər» partiyası təşkil eləsələr pis olmaz...

Səhhət qəhqəhəylə güldü. Sabirin kinayəsində elə dərin və zəmanə ilə səsləşən eyham var idi ki!..

— Doğru deyirsən, qardaş! Bu həftələrdə elə gündə bir partiyadı ki, yağışdan sonrakı göbələk kimi yerdən çıxır.. Ədalət, üxüvvət, musavat...

* * *

Onlar evə axşam əzanına bir az qalmış gəldilər. İki dost, iki həmsöhbət, iki həmfikir idi Səhhət və Sabir... Artıq Şamaxı əhli çoxdan onları ikilikdə görməyə adət etmişdi. Bu gün də Sabirin məktəbxanasından çıxıb, birbaşa Səhhətgilə yollanmışdılar.

— Mirzə, bu axşam mənə qonaqsan. Məşədi Əlinin qızı (Səhhət, arvadı Soltannisəni nəzərdə tuturdu) yaxşı bir qara ciyər qovurması vəd eləyib, sənə xeyri var, həm də bir az oturub söhbətləşərik.

Sabir evə gec qayıdacağını əvvəlcədən xəbər vermişdi. Şıxminasdan Sarıtorpağacan yol dikdir idi, Gürcübazarın içindən keçirdi. Yay da bu il isti idi. Həm isti, həm də dik yol onları yormuşdu. Həyətə daxil oldular. Axşam düşməsinə baxmayaraq bürkü idi. Amma həyətdə xoş bir sərinlik vardı. Şəbbü ətri ilə dolmuş balaca bağçanın kölgələri ətrafa, gözəgörünməz bir meh yayırdı. Səhhət dostunun avazımış, tərləmiş simasına baxanda, pillələri qalxıb, ikinci mərtəbədəki bürkülü otağa girməsinə qıymadı.

— Necə bilirsən, Mirzə, gəlsənə şamı həyətdə eləyək?

— Ay necə yaxşı olar!..

Səhhət alt otaqlardan həyətdəki tut ağacının dibinə kiçik kürsü və iki kətil çıxartdı. Oturdular. Az sonra iç otaqdan iki əl uzandı. Səhhət qalxıb Soltannisənin uzatdığı süfrəni aldı, kürsünün üstünə çəkdi; sonra da çay, yemək gəldi. Dostlar sakitcə yeməklərini yedilər. Bu gün axşam evdə onlardan başqa kimsə yoxdu. Atası, anası və qardaşı əqrəbalarından birinin xeyir işinə getmiş-dilər. Dostların söhbəti bir gün əvvəl Şirvanda baş vermiş hadisə ətrafında cərəyan edirdi. Şamaxıya tarixdə birinci dəfə olaraq avtomobil gəlmişdi. Bazar əhli, şəhərin böyüklü-kiçikli bütün əhalisi tamaşaya çıxmış-dı. Evlərin hamısında söhbət bu əcaib «məxluqdan» gedirdi. Tabaqçı şagirdləri bu gün təzə qoşulmuş bir

«avtomobil» havasını oxuyurdular. Deyirdilər ki, toylar yaraşığı çalğıçı-xanəndə Vayıd qızı qoşub:

Haftamabeldə bir can gördüm ellər gözəli,
Ağzı qaymaq, dodağı bal, sözü məzəli.
Ona minən qocanın da ömrü təzəli.

Bu axşam hər iki şairi də dərhal şəhərə, bazara yayılmış bu mahnı məşğul etmişdi:

— Qəribə arvaddı bu Vayıd qızı... Bir hadisəni ötürməz. Bazarda, şəhərdə, el-obada hələ bir elə əhvalat baş verməyib ki, ona söz qoşmasın. Yadındadırmı, Mirzə, bir il heç olmayıb, drijabl uçmağının xəbəri yayıldı. Səhərisi də Vayıd qızı, şirvanlıları təzə bir mahnı ilə xoş-xəbər elədi...

Sabir gülümsədi:

— Hadisə yadımdadı. Amma sözləri bir az unutmuşam.

Səhhət özünəməxsus bir hazırlıqla dedi:

Pəlvan çıxıbdı göyə,
And içib əlif-beyə.
Qırmızı paltar geyə,
Ay dili, pəlvan dili.

Təəccüb eləyirəm ondakı qabiliyyətə, hazırca arvad qəzetidi.

— Təəccüb eləmə, qardaş! Bizim Şirvan xanımlarının hamısı sinədəftərdi. İstər savaşmaqda, istər toyda, istər vayda. Sözü bir-birinin ucuna elə qəşəng düzürlər, ki, yüz il axtarsan ha, elə qafiyə, təşbih, mübaliğə tapa bilmzsən.

Elə bu zaman alçaq hasarın o biri üzündə çarpışma səsi göyə ucaldı. Səhhətgilin qonşusu Ziyada arvad uşağa acıqlanan ərinin üstünə qışqırırdı:

— Sənə söydükləri başı batmış atama getsin.

Sabir diqqətlə qulaq asmağa başladı:

— Mirzə Abbasqulu! Ziyada xalanın danışmağına vurğunam. Bir fikir ver, sən allah! Bax, gör: xalis nəzmlə danışır. Bircə sözünün yerini dəyiş, oldu nəzm:

«Sənə söydükləri getsin başı batmış atama!»

Ziyada arvad hasarın o üzündən:

— Göyərib coşma, utan, qonşuları dama yığma, əyşi!

Sabir Səhhətə gülə-gülə:

— Bax-bax, bu sənə ikinci misra. Diqqətlə qulaq as, qardaş, gör nə asandır. Yenə bircə sözün yerini dəyişməliyik:

«Göyərib coşma, utan, qonşuları yığma dama».

Səhhət də Sabirlə birlikdə dalaşmanın səsini eşidir, amma Sabir görəni, Sabir eşidəni nə görə, nə eşidə bilirdi. Odur ki, Sabirə cavab olaraq «Bunun üçün xüsusi istedad lazımdır», — deyə düşündü və xoş bir qibtə ilə dilləndi:

— Onu sən eşidə bilərsən, qardaş!.. Mən uşaqlıqdan Ziyada xalanı tanıyıram, amma danışığında bir nəzm eşidə bilməmişəm. Bunun üçün Sabir təbi, Sabir qələmi lazımdı.

Səhhətin sözlərini dinləyincə Sabirin simasına qızartı çökdü, utancaqlıqla başını aşağı dikdi. Sanki indi o, Səhhətdən yaş və istedadı ilə qat-qaq böyük sənətkar deyil, Səhhətin şagirdi idi. Dost tərifi xoş olduğu qədər də utandırıcı idi.

— Bəsdi, qardaş, məni xəcalət təri basdı...

— Nahaq! Ziyada, Vayıd qızı kimi danışanların dilini, məşədilərin, kəblayıların mükaliməsini məhz sən o cürə eşidə, elə duya bilirsən. Bizdən heç birimiz buna qadir deyilik. Şeiri hamımız yazırıq. Hadi də, Naseh də, digərləri də... Amma Sabir təkdir.

Sabirin hazır misraları cibindən çıxardığı bayaza qeyd etdiyini görüncə, Səhhət zarafata keçdi:

— Çarə yoxdu, gərək ya Ziyada xalanı sizə köçürək, ya da səni bura.

— Deyəsən elə olacaq... — deyə Sabir də azacıq qımışdı.

— Amma təəssüf ki, ana və bacılarımızın istedadı üstünü gül basmış göz təki, arabir xəfif istilik verir. Bayatılarımızda,

ağılarımızda, laylalarımızda, bir də təkəmbir savad ala bilər şairlərimizdə özünü göstərir. Xurşudbanu Natəvan kimi. Fatma xanım Kəminə, Gövhər Şirvani kimi.

— Düz deyirsən, əgər qadınlarımız oxuya bilsəydi?!

— Lənət heçə! Genə yaxşıdı ki, Bakıda bir-iki qız məktəbi açılıb. Burda da Şeyxzadə cənabları binagüzarlıq eləyib. Axı, onun qızı Şəfiqə xanım çox savadlı bir xanımdı. Oxuyub gəlib. Şeyxzadə cənabları qızı üçün Şirvanda bir məktəb açdırmaq fikrindədi ki, Şəfiqə xanım da öz müsəlman bacılarına dərs desin, onları savadlandırsın.

— Allah eləsin... Qırmızısaqqal məşədilər qoysa.

— İndi zəmanə xeyli dəyişib. Elə təkcə Şirvanın özündə neçə-neçə müsəlman xanımları meydana çıxıb. Görürsənmi, Şövqiyyə Gövhər bacımız kimi, Böyükxanım kimi, Gülsüm xanım kimi... Mən biləni himmət eləyərlər...

— Bəli... Biz də gərək oxudaq qız uşaqlarımızı. Mən özüm də xeyli çalışdım. Bizim Səriyyə bir az savad öyrəndi. Amma analarını ha çalışdım, yola gətirə bilmədim. Bir də yazıq neyləsin axı? Ev-uşaq, üstəlik hələ mənim işlərimə də nə qədər köməklik eləyir...

— Hə, arvadlarımızın halı doğrudan da yamandı. Bir gül ilə bahar olmaz. Gərək elin ziyalıları hamılıqcan himmət eləsin...

Sabir qələm və bayazını cibinə qoyub qalxdı.

— Gecə düşür, qardaş!.. İndi sizinkilər də qayıdar. Mən də mürəxxəs olum.

Onlar qapıya çatmamış qapı döyüldü.

— Deyəsən gəldilər...

— Yox, bizimkilər deyil. Ağam (Səhhət atasını nəzərdə tuturdu) qapını belə döymür. Bu, yad adamdı, — deyə cavab verdi və qapıya yönəldi. Qapı aralandı, gələn Əliheydərin cavan dostu Nəcəfqulu Nəcəfzadə idi:

— Mirzə dadaş, Əlheydər azarlayıb, dedi zəhmət çəkib bizə gəlsin.

— Nə olub ki?

Nəcəfqulu sözlü idi, amma Səhhətin arxasında dayanmış Sabiri görüncə başqa söz demədi, yalnız:

— Qızdırması var, çox xahiş elədi...

— Yaxşı, bala! Sən get, mən bu saat gəlirəm.

Nəcəfqulu cəld uzaqlaşdı. Səhhət Sabirə döndü:

— Məni bağışlayın, Mirzə, azarlı üstünə çağırırlar.

— İşində ol, mən də gedirəm. Xudahafiz.

— Gecən xeyrə qalsın.

— Sən də xeyrə qarşı gedəsən.

Ayrıldılar. Sabir Şıxminasa tərəf üzüaşağı, Səhhət isə Sarıtorpağa tərəf üzüyuxarı yollandı...

Sabir üzüaşağını töyşümədən, nəfəsi təng olmadan gedirdi, amma tələsmirdi. Bayaqdan bəri qəlbində doğan misralardan çəkinirdi sanki, özünəmi, oxucsunamı bəraət qazandırırdı, yeridikcə düşünürdü: Neyçün anlaşılmasın «bəhri-təvil?» Nədən qorxuram? Axı, xalqda da var. Var. Növü, bənzəri var. Bayaq Ziyada xala necə oxuyurdu? Təndir üstə əlini dizinə dayaq vuranda dedi: «Ya allahın min bir adı, canavar yesin Şahverənlə Muradı. O ki qaldı Nağıynan Tağı — onları da yesin günorta çağı. Bir də ki, Əzimlə Kazım — onların qəbrini günorta qazım....» Arvadın bazar avaralarına qoşduğu bu parça bəhri-təvilin bənzəridi ki, durub. Lap elə nağılbaşılarımız... Bəyəm onlar da bəhri təvil deyil? Niyə qorxuram ki, başa düşməyələr? Təki sözün canı onu eşidənə aydın olsun, söz özü eşidənə yaxın olsun... Yooxxx... Elə bunuca bəhri təvillə yazacam. Yaxşı da gəlir... Ey fələk! Zülmün əyandır bu necə dövrü zamandır ki, bütün əhli-qələmlər, buraxıb canıma qəmlər, ürəyim indi vərəmlər. Amman... Eyvah... Ay allah...» Gəlib evlərinin darvazasına çatdı.

Qapını açıb həyətə girəndə Bülurnisə onun üzünə bir nəzər salmaqla anladı ki, kişi evə «sözlü» gəlib, sinəsi doludu. Kağız-qələmi qabağına qoyub ürəyini deşənləri oraya tökməsə, heç kimi görüb-eşitməyəcək. Bir şey yeyib içməyəcək. Kişi otağına keçdi. Əlini taxçaya atdı, mücrü üstündəki sadə, naxışlı qələmdanı aldı...

Bülurnisə mətbəxə keçdi, hazır çaydan bkr stəkan süzüb səssizcə otağa girdi, çayı «Əli dadaşın» qənşərinə qoyub həyətdəki iş-kücünə qayıtdı.

«ALDANMARAM Kİ, DOĞRUDUR AYİNİN, EY ƏMÜ»

Əlindəki «Qamusül-elam»ın haşiyələrinə kiminsə aydın nəstəliq xəttilə Nəsiminin bir para şeiri yazılmışdı. Vərəqlərin boş haşiyələrinə şeir, nəzm-nəsr, qeyd, maddeyi-tarix yazmaq köhnədə dəb idi. Kağız qıtlığındanmı düşmüşdü bu dəb, ya əziz bir əlyazmasında daha tez-tez xatırlamaq istədiyi, unudulmasın, yaddan: çıxıb itib-batmasın deyə bir yerdə saxlamağı vacib sayanlar salmışdı bu dəbi? Nədəndisə... Xeyirliydi. İndi əlindəki daşbasma kitabın da haşiyələrinə Nəsiminin ana dilində və farsca yazdığı şeirlər qeyd olunmuşdu. Bunlar böyük, cəsur başını qürbətdə torpağa qoymuş İmadəddin Nəsiminin əlyazması əlində olmayan Sabir üçün tapıntı idi. Oxuyurdu:

Dər aləme-tovhid çe pəstiyü çe bala?
Dər rahi-həqiqət çe müsəlmanü çe tərsa?
Dər keşvəri-surət soxən əz mavü məni nə?
Dər molke-məani nə bovəd bəhs mənü ma![1]

— İşə bax! Müsəlman... Seyid peyğəmbər övladı! «Birlik (yeganəlik) aləmində nə aşağı-yuxarıbazlıqdır? Həqiqət yolunda müsəlmanlıq, xristiyanlıqdan söz gedərmi? Surət kişvərində biz və

---

[1] Tovhid aləmində alçaq, uca nədir? Həqiqət yolunda müsəlman tərsanədir? Surət ölkəsində biz, mən nədir? Mənalar mülkündə mən, biz axtarmazlar.

mən nə sözdür? Mənalar mülkündə mənlə biz arasında bəhs ola bilməz». Füzulinin əsərlərində də buna bənzər nə qədər desən beytlər var. Xaqanidən üzü bəri bütün poeziyamız bu acgözlərin, bu qarnı doymaq bilməyənlərin, fisincan havası ilə ehsana cumanların, xalqı gözünü açmağa qoymayanların əlindən dad çəkib. Yadımdadı, birinci əlimə aldığım «Əkinçi» qəzeti. Hələ belə şeyləri o qədər də qanmazdım. Amma «Əkinçi»də ustadımın «Həsənqara hadi təxəllüsə» yazdığı cavabı oxuyanda içərimə elə bil zəlzələ düşdü. Fikirlər elə aydın, ağlabatan idi ki! «Şəridə var isə baş çapmaq biz də qarışaq... Belə fitvanı görək verdi bizə hansı imam? Gərək əvvəl çapa başlarını fövcül-üləma. Çünki onlardı bu işlərdə rəisül-füqəra. Sonradan baş çapalar xan, əmirül-üməra». Doğrudan da məhərrəmlikdə baş yaran, qan tökən, sinə vuran, zəncirlə kürəyini şan-şan eləyən bədbəxt, avam camaatdır. Xan-bəy qıraqda durub baxır. Molla özü ömründə baş çapmaz, sinə döyməz, zəncir vurmaz. Eləcə durub bədbəxt cahilləri qızışdıran mərsiyə, sinəzən oxuyurlar... Nəzir yığırlar... Yox!.. Sabir, ustad düz deyir... Diqqət etmək lazımdır... Elə o vaxt min bir qorxu ilə olsa da, ürəyimdən bu fikirlər keçdi... Onlar — mənim müdrik, unudulmaz, əvəzsiz sələflərim öz ağır zəmanələrində «Qoyma gələ, saqiyə, zahidi meyxanəyə. Dönməyə meyxanəmiz məscidi-viranəyə» deməyə qorxmayıblar. Öz xalqını, öz millətini cəhalət yuxusundan oyatmaq üçün, onların başını xurafatla piyləyənlərin yalançı iç üzünü açıb göstəriblər. Fədakarcasına. Məgər ruhaniliyin əsl simasını ifşa edən ustadımız Məhəmməd Füzuli şiəliyin beşiyi Kərbəlada xuddam deyildi? Məgər ustadım Hacı Seyid Əzim Şirvani illərlə Nəcəfül-əşrəfdə, Kərbəlada təhsil alıb, İslamiyyətcə müqəddəs sayılan Kəbəni, Kərbəlanı, Məşhədi ziyarət etməmişdi? Bəlkə elə buna, bu yaxınlığa, bu bələdliyə görə də qəlbini kəsavət basmış din mübəlliğlərinin, zahidlərin riyakarlığını yaxşıca başa düşmüşdü. Bəs mən? Mənim düşmənim onlardan çox olsa da, məni lənətlə, təkfirlə, ölümlə hədələyənlərə qarşı heç bir arxam-köməyim olmasa da...

Aldanmaram ki, doğrudur ayinin, ey əmu!
Kəssin məni həqiqi isə dinin, ey əmu!
İmanına qəsəmlə çapırsan cəmaəti
Quldurçuluq tüfəngimdir, dinin, ey əmu!

— deməkdən çəkinməyəcəyəm. Mənim bədbəxt vətəndaş larımı dünyanın qabaqcıl millətlərindən geri qoyanları, gözlərini açıb ətrafına nəzər salıb, başqa millətlər elmdən, texnikadan bəhrələndiyi halda, özlərinin nə qədər geri qaldıqlarını görməyə qoymayan ruhanilərlə ömrümün axırınacan varam. Hələ ustadım öz vaxtında bu geriliyi nə qədər dürüst duymuşdu: «Xaçpərəstlər hamısı açdı gözün, düşdü qabaq. Dalda qaldıq, tökülüb, cəhl ilə biz, ay sarsaq!» Odu ki, mən də ustadımın təliminə sadiq qalacam. O biçarə millətin gözünü açmağı, ətrafına huşlu bir nəzər salmağı üçün çarpışmağı özümə şüar eləmişəm. Odur ki, mən də deyirəm:

Zahida! Gəl soyunaq bir kərə paltarımızı,
Çıxaraq zahirə batindəki əfkarımızı,
Pişgahi-nəzəri-xəlqə tutaq varımızı,
Görüb onlar dəxi təhqiq eləsin karımızı.
Hər kimin ağı qara isə utansın, a balam!
Bəlkə illərcə yatanlar bir oyansın, a balam!

Gəl yazaq şərt üçün öz tərcümeyi-halımızı,
Həm də doğru olaraq, şərh edək əhvalımızı,
Xalq tatqiq eləsin halımızı, qalımızı
Anlasınlar da nolur, qayeyi-amalımızı.
Hər kimin qəlbi qara isə utansın, a balam,
Bəlkə illərcə yatanlar bir oyansın, a **balam!**

Əlbəttə bu, zahidlərə sərf deyil.

Gömdülər bizi yerə, ustad, gömdülər bizi yerə! Göz görə-görə gömdülər bizi yerə! Halbuki çox xalqların, çox millətlərin gözü

bizdə olan vaxt olub. Çox xalqların, çox millətlərin bizim babaların cərgəsindən Xaqani, Əbülüla, Nizami, fələklərə meydan oxuyan Fələki Şirvani çıxanda, çoxlarının babası hələ otu ələfdən seçmirdi, şeirin, şeiriyyətin nə olduğunu bilmirdi. Əgər bütün Şərqdə, eləcə də bizim bu bədtale diyarda zövqə, səfaya, yeməklərin qədərinə, rəngarəngliyinə, gündə bir övrət alıb ömrünü zənpərəstliyə və başqa bəd əməllərə qurşanmasaydılar... Xüsusilə də ki, min üç yüz il bundan əqdəm rəyasət üstündə bir-birinin qanını tökən ərəblərin, canımıza, malımıza, dinimizə, dilimizə, milliyyətimizə yağı kəsilən islamın ağalarına ağlamaq, baş yarıb, sinə vurmaq kimi qəbih əməllərə qurşanmaq olmasaydı, indi biz də dünyanın qabaqcıl millətlərindən biri idik, öndə gedənlərin sırasındaydıq. Elmə, maarifə yiyələnərdik. Biçarə Hadi demişkən, «bizim də imzamız millətlərin həyat dəftərinə yazılmış olardı». Bu fikirlərlə də Sabir nə zaman əlini uzadıb qələmdanını aldığını və bayazını açıb yazmağa başladığını bilmədi, duymadı, sanki elə qəlbində yenə də özü ilə danışır, gileylərini, üsyanını, qəzəbini millətin başını qatanların və öz zövqü səfası xatirinə milləti dalda qoyanların sifətinə sillə-sillə çırpırdı:

Bir bölük boşboğazıq, heyvərəlik adətimiz,
Doludur lənət ilə, qeybət ilə söhbətimiz.
Oxumaqda payımız yox, yazıdan qismətimiz.
Bu avamlıqla belə hər sözü təfsir edərik!
Mümkün olduqca müsəlmanları təkfir edərik!

Hər sözə çulğaşarıq, hər bir işi qurdalarıq,
Harda bir nur görərsək, ona qarşı durarıq,
Bəzinə diş qıcıdıb, bəzinə quyruq bularıq,
Bivə hər kəs çörək atsa, onu təqdir edərik,
Mümkün olduqca müsəlmanları təkfir edərik!

Deyilik naşi bu işdə ağarıbdır yalımız,

Bilirik dini-müsəlmanı bu gün öz malımız,
Üzü qırxıq deyilik, bir şələdi saqqalımız,
Tərpədib xeyrə onu aləti-təzvir edərik...

Özü də özündəki amansızlığa heyran idi. Bilirdi əsli, məğzi hardan gəlir, amma yenə də özünü, özününküləri, doğmalı-yadlı, bütün cəhalətpərəstləri, bütün dindarları, xurafat ilə içi-içalatı doldurulmuşları rüsvay edirdi. Heç kəslə, heç nəylə barışmırdı qəlbi, barışmaq istəmirdi! Çünki hər bir güzəşt «sevgili millət», «fağır millət» deyə varlığını fəda etməyə hazır olduğu xalq üçün idi. Düşünürdü:

«Gör bir, hələ rusları demirəm, qonşucuğazımız ermənilər, gürcülər bizə nisbətən nə qədər irəliləyiblər. Hər kəndində, az qala hər bir obasında məktəb açılıb. Uşaqları, oğlan ilə birlikdə qızları da təlim görür. Bizim bir qız məktəbimiz var: Aleksandrin ünas məktəbi. Onun da üstündə, (biz heç, ziyalıları gündə təkfir eləyirlər, bu qəribə də deyil. Düşmən-düşmənə nə deyəcək? Vuruşanda: «can, qurban olum» — deməyəcək ki) o bircə qız məktəbinin üstündə də çörəyini yedikləri milyonçu Hacını da az qala təkfir eləyəcəkdilər. Hacıya nə var. Dalında duranları var. Pulu var. Bəs bu yazıq ziyalılar neyləsin? Ay yazıq millət! Səni bu günə qoyanların evi yıxılsın! Axı, vaxtilə sən dünya ədəbiyyatı xəzinəsinə cahanşümul əsərlər verən bəşəri əhəmiyyətli, ləyaqətli, istedadlı şairlər, alimlər yetişdirmişdin. Ustadım müəllimnm neçəsinin adını çəkərdi dərsdə. Onuncu əsrdən bu yana... Qətran Təbrizi, Xətib Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Əbülüla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani, Seyid Zülfüqar Şirvani, Nəsimi Şirvani, Nəsirəddin Tusinin şagird və davamçıları Qiyasəddin Şirvani, Şəmsəddin Şirvani, Məhəmməd Füzuli, Saib Təbrizi, Şəms Təbrizi... Nə qədərdi ilahi! Saymaqla qurtarmaz, hamısı da didərgin... Çoxu yad ölkələrdə məşhur alim, şair oldu... Saraylar, məmləkətlər bəzəyinə, fəxrinə çevrildi. Ərəbcə, farsca yazmağa məcbur oldu. Vətənində adı belə tanınmayanlar var. Biri

elə İstambulun Fatehi Sultan Məhəmmədin sarayında «təbibi-sultani» ləqəbi qazanmış fatehin şəxsi həkimi Şükrullah Şirvani... O irəli Səhhət qardaşım deyirdi ki, Nəsirəddin Tusinin «Zic-Elxani»sini İtaliyada italyan alimləri haçandı tərcümə və nəşr eləyiblər... Avropanın ən məşhur alimləri arasında adı çəkilir... Şəmsəddin və Qiyasəddin Şirvanilərin ərəbcə riyaziyyata dair əsərləri dünyada məşhurdu, öz vətənindən başqa. Axı, bu ərəblər özlərinə nə gün ağlayıblar ki, bizə nə gün ağlayaydılar? Böyük-böyük alimlərin əsərləri toplanmış kitabxananı yandıranda «Quranda hamısı var» deyiblər. Dünyada islam təsiri altında olan ölkələrin hamısında bir zərrəcə inkişaf nəzərə çarpmır. Qanuna çevrilmiş din, dindən qazanc güdənlər, təkcə bizi deyil, bütün islamı qəbul etmiş xalqları, millətləri inkişafdan qoyublar, öz günlərinə salıblar. Teatr adına — şəbeh, tamaşa adına baş yarıb — sinə, zəncir vurmaq... Musiqi adına — sinəzənlərin, mərsiyələrin ürək oyan havacatı... Tərəqqi heç kimin yadına düşmür. Bütün son əsr ixtirasına «şeytan əməli» adı qoyub damğalayıblar... Məktəb açmaq istəyəndə küfr eşidirsən. Dindar atalar uşağını məktəbə qoymaq istəyəndə — istixarəyə qaçır. Toy eləyəndə, ticarət üçün səfərə çıxanda — molla yanına cumur. Hər şeyi «Quran hökmü» ilə molla «həll eləyir». Özünün düşünən beyni, kəsən ağlı harda qalıb? Ona müstəqil düşünmək, bircə öz məsələsini özü həll etmək ixtiyarı verilmir. Bununla da bitmir. Xalqı, milləti qəflət yuxusuna elə veriblər ki, ayılmaq ümidi yoxdur, ayıla bilmir. Gözünü açmağa qoymurlar ki, ayıla da. «Təvəkkül», «səbr etmək», «bəlalara dözmək», «zülmə tabe olmaq», «təqlid» — «dini rəhbəri təqlid» bütün bunlar müsəlmanlığın birinci və əsas xüsusiyyətləri — bəlalarıdır. Hər bir müsəlman bu şərtlərə əməl etməlidir.

Dərdi böyük idi Sabirin. Bu dərdlər onun zəif vücudunu bir tərəfdən aşılayıb möhkəmlətmiş, dözümlü, eyni zamanda, üsyankar etmişdi. Onu bir millətin deyil, bütün İslam dünyasında yaşayan xalqların dərdinin tərcümanı, ucadan danışan, cürətli dili etmişdisə, digər tərəfdən ürəyini xəstələndirmiş, «üzüqara! ciyərini şişirtmiş»,

cismən əzib xırpalamış, zəif salmışdı. Qəribə təzad idi. Eyni bir dərd bir tərəfdən səsini suri-israfildən də güclü edib dünyaya yayır, füqəranın, əzilənlərin qahmarı, arxa-köməyinə çevirir, digər tərəfdən vücudunu məhv edir, ömrünü gödəldirdi.

* * *

Səhhət məktəbə qaydadı. Dərs bitmək üzrə idi. Sabirin səsi eşidilirdi:

— Hacıbaba, oğud, indi yazdığını üzündən oxu...

Şagird oxuyub qurtaranda müəllim dedi:

— Hə, balalarım, bax, gələn dərsimizə həmin bu şeiri sizdən əzbər istəyəcəyəm. Unutmayın. İndi day gedə bilərsiz.

Uşaqlar yerlərindən qalxdılar. Hər biri ayrılıqda müəllimlə vidalaşırdı. Uşaqlar ön otağa çıxanda, Mirzə Abbasqulunu görüb səslərini xırp kəsdilər. Hamısı onu tanıyırdı. Müəllimləri də bir az bundan əvvəl Səhhəti tərifləmişdi. Uşaqlar ehtiramla salamlaşıb, bir-bir, iki-bir məktəbi tərk etdilər. Ən axırda sinif otağından müəllim özü çıxdı; üzündə fərəh doğan bir rahatlıq var idi. Səhhəti görüncə gülümsədi, əlini qara xəttinə çəkib ona tərəf gəldi:

Bay, xoş gəlmisən, Mirzə!.,

Sağ ol.

Səhhət Sabirin üzündəki razılıq ifadəsini görüb soruşdu:

Hə, deyəsən xoş xəbər var?

Bu gün bir az bəxtiyaram...

Gözəl şeydi. De, mən də sənlə bölüşüm o bəxtiyarlığı...

— Əslində elə bir şey olmayıb. Şagirdrimdən Ələsgər oğlu Hacıbaba…

— Hə, dostumuz Əşrəfin qardaşı?

— Bəli, bu gün yazıb mizin üstunə bir şey qoyub, açıb baxıram görürəm yazıb:

Qorxdu, dönübən oldu,

Şeybani bizim Hophop,
Axır ki, dağıdacaq
Şirvanı bizim Hophop...

Səhhət gülümsədi:

— Gözəl yazıb.

— Bəli, qabiliyyətli uşaqdı. Bu məni bir tərəfdən sevindirir. Deməli, deyəsən əməyimiz faydasız deyil. Əgər uşaqlara da təsir eləyirsə... Digər tərəfdən ehtiyat eləyirəm, bu imzanı da bilsələr, işim bitdi.

— Bəs Hacıbaba hardan bilib?

— Soruşdum, dedi: gecən dəfə mən «Məmdəli» haqqındakı nəzmi sizə və qardaşına oxuyanda eşidib. Bizə çay gətirirmiş. Sonra «Molla Nəsrəddin»də həmin şeirin «Şeybani» imzası ilə çıxdığını görüb, qəsələni başa düşüb. Bu nəzmi də mənim üçün yazıb.

— Qardaşına deyərəm, tapşırsın ağzından qaçır-masın...

— Gərək deyil, özüm tapşırmışam. Sonra uşağı evdə tənbeh-zad eləyərlər, yaxşı düşməz.

— O da düzdü...

Sabir düşünə-düşünə otaqda var-gəl elədi, Bir anlığa Səhhətin qənşərində dayandı, əlini qara sətin arxalığının qoltuq cibinə atıb nə isə çıxarmaq istədi, tərəddüd içərisində dayandı. Qəlbində deyilən başqa fikir buna mane oldu, dilinə gəldi:

— Dünyada iki şəxs uşağın — vətən övladının tikəsiz dostu, inam mənbəyidir. Bunlardan biri anadır, ikincisi müəllim. Ana həyat verib, süd verib, müəllim elm öyrədib, vətəni sevməyi tərbiyət verib. Bu iki şəxsə evladın inamı heç vaxt qırılmamalıdır.

Sonra qətiyyətlə düşüncələrinə xitam verdi:

— Bir də mənimki keçib. Onsuz da heç kəsi inandıra bilmərəm, inandırmaq da istəmirəm. «Molla Nəsrəddin»də Şirvan haqqında şəkil də çıxsa, onu da məndən görürlər.

— Hər şairə qismət olmayan bəxtiyarlıqdı!

— Bir dəli demişkən: «Dəlilik yaxşı şeydi, uşaqlar daş atmasa»...

Sabirin istehza qaynayan gözlərində nadinc bir təbəssüm oynayırdı...

Səhhət cibindən uzununa qatlanmış əlvan məcmuəni çıxartdı:

— Qardaşım, sənə «Molla Nəsrəddin»in ən təzə nüsxəsini gətirmişəm. Bir tacir dostum Tiflisdən bu gün varid olub... Əlində görən kimi aldım və «Əbunəsr Şeybani» adını görən təki cumdum qulluğuna. Afərin, səd afərin!..

Sabir ehtiyatla otağa və sonra da qapıya bir göz gəzdirdi:

— Aman dostum, yerin də qulağı var...

— Göyün də!.. Bilirəm, amma onsuz da qulağı uzunlar da, heç qulağı olmayanlar da, oxuyan kimi sənin qələmini tanıyırlar. Tanımayanlara da başa salan tapılır.

Sabir «Molla Nəsrəddin» məcmuəsini dostundan aldı, vərəqləməyə başladı. Gözlərində parlayan yaşmı idi, nə idi? Bu onun əsəri nəşr olunmuş ilk məcmuə deyildi. İlk şeiri çoxdan çıxıb. Hələ o zaman «Şərqirus» qəvetini əlinə alanda şairə elə gəlmişdi ki, dünyanın ən böyük parçası onundur. Ona elə gəlmişdi ki, artıq böyük bir qüvvət kəsb etmiş, xalqının maariflənməsi uğrunda, cəhalətdən xilası yolunda çarpışanların cərgəsinə düşmüşdü. Bundan belə ona nə var ki! Bundan belə maarif daha tez yayılacaq, insanlar mollanümaların, qırmızısaqqalların fırıldaqlarından daha tez azad olacaq, xırdaca qızlar qoca ər evinə deyil, dəstə-dəstə məktəbə gedəcəklər. Maarif günəşi doğacaq, ziyası kor gözləri açacaq, kar qulaqları dələcək, tutqun beyinləri işıqlandıracaqdır. Axı, Sabir də öz ilk əsəri ilə bu meydana xidmətə — çarpışmaya girmişdi. Bundan sonrakı illərdə qəlbinin bütün hərarətini qatdığı «Beynəlmiləl»i nəşr etdirmiş, «din ayrı» qardaşları qızışdıranlara meydan oxumuşdu. Sonra da cəhalətin hələ çox dərin kök saldığını anlamış, tək-tək nəsihətamiz şeirlərdən «Fatıya tuman olmayacağını» başa düşmüş, dərindən dərk etmiş və elə o zaman qəlbinə acı bir qaranlıq çökmüşdü... «Neyləməli, bu fırıldaqlar

dünyasına, bu korlar, karlar dünyasına, bu cəhalət dünyasına qarşı nə ilə vuruşmalı?» deyərkən, ilk dəfə, elə bu gün olduğu kimi, Səhhət ona «Molla Nəsrəddin»in birinci nömrəsini gətirmişdi. Bir yerdə oturub oxumuş, gülmüşdülər... Ağlaya-ağlaya gülmüşdülər. Və Sa- bir, bundan sonra çoxdan bəri qəlbində deyilməkdə olan misraların gərəkliyini özü üçün aydınlaşdırmışdı. «Aadə... öz-özünə demişdi, deyəsən onların yeri bu məcmuənin səhifələri olacaq axı! Amma bu qaragüruhun, bu millət sümürən sümüryanların acgöz çəyirtkələrin içində, mənim bu kimi şeir yazdığımı bilsələr, özüm bir yana, uşaqların da günü qara olar. Gərək başqa bir ləqəb imza tapam! Ya da eləcə imzasız yazam». Bundan sonra, bütün aləmə məlum olan Sabir satiraları bir birinin ardınca, müxtəlif imzalarla nəşr olunmuşdu. Bütün bunlar Sabirə də, Səhhətə də məlum idi. Bu gün nəşr olunan şeir də nə birinci idi, nə axırıncı.

Sabir «Molla Nəsrəddin»i vərəqləyirdi. Səhhət onunla qabaq-qənşər kürsüdə əyləşib, yazı mizinə söykənmiş, cibindən çıxardığı rusca, fransızca qəzetlərə baxırdı.

— Hə, Mirzə, qəzetlərdə təzə nə var?

Adətləri belə idi. Səhhət hər gün aldığı rus və fransız mətbuatından oxuduğu məqalələri, son saat xəbərlərini ona tərcümə edərdi.

— Balam, yenə də Avropa dövlətliləri Yunanla Türkiyəni qızışdırır.

Sabir düşünürdü. Qəfil sükutun səbəbi Səhhətə aydın idi; indi o nə isə bir söz deyəcəkdi ki!.. Səhhətin hissi onu aldatmadı. Sabirin naaik dodaqları tərpənirdi:

Kürd çaldıqca boru, cingənə oynar» derlər,
Bir misaldır ki, demiş Türkiyə izanlıları.
Bir tühaf çalğı ilə oynadıyor avropalı
Şimdi yunanlı ilə bir sürü osmanlıları.

Səhhətin heyrət və qibtəsinin həddi yox idi, hər dəfə Sabir istedadının şahidi olurdu:

— Afərin qardaş! Bir rübaidə bütöv bir son saat səhifəsini tez, həm də dürüst əhatə elədin.

Sabir utancaq uşaq kimi qızardı:

— O mənim deyil, sənin müvəffəqiyyətindi. Sənin sayəndədi. Mənə bütün olub gecənləri elə aydın, elə mənalı izah edirsən ki, elə bil gedib öz gözlərimlə görürəm...

— Bəs onda bunları özüm oxuya-oxuya, izah edə-edə, onların haqqında niyə özüm yaza bilmirəm? Yox, qardaş, səninki lütfi-xudadı. Xalqımıza bir bəxşişdir sənin təbin. Deyirəm, görəsən, əgər sən, ömrünün böyük bir qismini dükanda keçirməsəydin, şərait olsaydı, bir sıra rus, Avrona şairləri, ədibləri kimi ömrünü ancaq yazıya, məktəbə, maarifə, mətbuata sərf edə bilsəydin, daha nələr yazardın?! Xalqımız nələr qazanardı və nə qədər tez gözü açılardı.

— Yəni dünyada elə xoşbəxt şairlər var?

— Bəli, dünyada ömrünü yalnız ədəbiyyata həsr edən şairlər, ədiblər var.

— Onda onlara asan keçir...

— Qardaş, zarafat eləmə! Dünyada yaratmaq, yazmaq zəhmətindən ağır, əzablı əmək yoxdu. Dünyanın elə yazıçıları var ki, onların bütün işi cild-cild kitab yazmaqdan ibarətdi.

— Bəs onlar nə yeyib-içir, nəynən dolanırlar?

— Yazdıqlarını çap etdirir, onun gəliri ilə də dolanırlar. Əlbəttə, onların içində də fəqir varlıdan çoxdur, amma sənətləri, peşələri yazmaqdan ibarətdi.

Sabirin sinəsindən acı bir ah qopdu. Gözlərn yol çəkə-çəkə, ağır-ağır dedi:

— O şairlər, lap elə o kasıb olanları nə xoşbəxt adamlardı! Mənim üçün şeir çox vacib işdi, onsuz yaşaya

bilmərəm. Mən həmişə, ocağın qırağında da şeirsiz keçinməmişəm. Macal tapdıqca sözümü demişəm. Şeir mənə yeməkdən də vacibdi. Şeir mənim üçün zəhmət yox, zəhmətdən sonrakı istirahət, ruhumun dincəlməyi üçün vasiltədi. İşləyəndə də canım həmişə şeirin yanında qalır, ürəyim tələsə-tələsə çalışıbçabalayıram ki, bütün işlərimi görüm qurtarım, axırda şeirə vaxt qalsın. Bir növ məşuqunun görüşünə tələsən aşiq kimi... Ağır əl zəhmətindən candan sevdiyim şeirə can atmışam... Çox vaxt iş arası da dinc durmuram. Təkcə bu il ürəkdən vurğunu olduğum bir əməllə də məşğulam, — deyə o, məktəbxananın divarlarına göz gəzdirdi və nə düşündüsə, ürək ağrısı ilə əlavə etdi: onu da axıra vura bilsəm..,

Səhhət dostunun sözlərini dinləyir və düşünürdü. Sabir sözünü qurtaranda dedi:

— Dərd eləmə, dostum, bir sən deyilsən. Bizim şair və ədiblərin çoxunun, bəlkə hamısının taleyi belədi. Onlar nəinki yazdıqlarının bəhrəsi ilə yaşamır, hətta, elələri də var, öz şəxsi varidatını, az-çox gəlirini də xalqının maariflənməsi yolunda sərf eləyir. Mirzə Cəlili yada salsaq bəs elər. Sən haqlısan. Bizimkilərə, bizim şəraitə baxanda şikayətlənməyə ixtiyarım yoxdu. Eşitdiyimə görə, cənab Mirzə Fətəli də belə olub, əlyazmalarını öz pulu ilə köçürtdürüb. Öz xərci ilə kəndlilərə qəzet paylatdıran Həsən boy Zərdabi də belə olub... Burası var ki, mənim şeirdən özgə bir şeyim dəyoxdu...

Bu sözlərdə acı kinayə və ürək ağrısı vardı. Səhhət qeyri-ixtiyari, dərindən ah çəkdi. Daima çəhrayı olan yanaqları və dodaqları avazıdı.

— Fikir eləmə, dostum, dünyanın ən qüdrətli alim və şairləri Firdovsidən başlamış, Xaqani, Nizami, Füzuli, Şekspir, Qoqol, Puşkin, Dostoyevski, Çexov və onlarla başqaları da elə, belə olub... Əzab içində yaradıb. Çəkdiyi zəhmətin mükafatını xalqa xidmətdə görublər.

Qapı açıldı, Ağaəli bəy Naseh içəri girdi.

— Hə, məlum oldu. Birinizi axtaranda, o birinin yanında tapmaq olur. Deyirlər, adil bir hökmdarın zamanında Bəhaəddin Amili və Mirdamad adında iki alim yaşayırmış. Bir gün hər üçü atlanıb ova gedirmiş. Hökmdar əvvəlcə atını Mirdamadla yanaşı sürür, onu sınamaq üçün irəlidə çapan Amilini göstərib deyir:

— Bir gör necə at çapır ha! Elə bil cavan oğlandı...

— Hökmdar, təəccüblü o deyil ki, Bəhaəddin Amili bizdən irəli çapır. Təəccüblü burasıdır ki, at onun elminin ağırlığını necə çəkib aparır?

hökmdar qəlbində bu cavaba «afərin» deyib, bu dəfə Amili ilə dala qalır və qabaqda at sürən Mirdamadı göstərib deyir:

— Gör bir cavan oğlan kimi atını nə çapır?

Bu dəfə Amili cavab verir:

— Hökmdar, atı Mirdamad sürmür. At özü sevindiyindən quş kimi uçur ki, belə bir alim, nəcib insanı arxamda gəzdirmək səadəti mənə nəsib olub.

Hökmdar deyir:

— Xoşbəxtəm ki, mənim zəmanəmdə yaşayan alimlər paxıl deyillər, nəcib dostlardır... İndi əzizlərim, xoşbəxtlərin xoşbəxti mənəm ki, sizin kimi iki dost və dilbir, sözbir şairin dostu sayılıram.

Üçü də güldü. Sabirin eyni açıldı. Səhhətin rəngi duruldu və gülə-gülə dedi:

— Ey xoşbəxtlərin xoşbəxti, mizanüş-şüəra[1], hansımızı axtarırdın?

Ona qalsa elə hər ikinizi. Mirzə Abbasqulu, Hadidən sənə məktub var. Onu mənə Bakıdan gələn bir dostum gətirib, sənə yetirməyimi xahiş eləyib. Buyur.

Səhhət məktubu aldı, zərfin başını açıb özlüyündə gözdən keçirtdi, sonra məktubun hər üçü üçün maraqlı olduğunu

---

[1] Müasirlərin əsərinə obyektiv qiymət qoyan Nasehə verilən ləqəbidir: Şairlərin ölçüsu, tərəzisi mənasına gəlir.

nəzərə alıb, ucadan oxumağa başladı:

«Nuri didəm Mirzə Abbasqulu cənablarının hüzuri alisinə ərz olsun ki, bir müddətdir Kürdəmirin havası məni sıxırdı. Bildiyiniz kimi təhsilə və ədəbi aləmdə çalışmaya əşədd[1] ehtiyac duyurdum. Çoxdan bəri başıma İstambul havası dolmuşdu. Şimdilik bu arzumu həyata keçirmək üçün çalışmaqdayam. Güman edirəm ki, pərvərdigari-aləmin köməyi sayəsində bu il səfər ayının qürrəsində[2] İstambula əzimət edəm. Min təəssüf ki, nə sizi, nə Mirzə Ələkbər cənablarını, nə Ağaəli bəyi, nə də digər rüfəqanı[3] görmək və hamılıqla vidalaşmaq mənə nəsib olmadı. Üzrümü qəbul edərsiniz zənnindəyəm, Əlbəttə, İstambuldan hüzuri-şəriflərinizə məktubat irsal[4] olunacaqdır. Cavabından bəndəni naümid qoymazsınız zənnindəyəm. İndilik Türkiyədə qəribə hadisələr cərəyan etməkdədir. Xeyli müştaqəm gedəm, görəm, Əbdülhəq Hamid, Tofiq Fikrət və digər müqtədir türk şüərasının yazıb-yaratdığı mühitə aşina olam. Bir qədər o zəngin ədəbiyyatın xəzinəsindən bəhrəmənd[5] olam, mümkün olarsa kəndim də mətbuatda iştirak edəm. Ya nəsib, ya qismət, halal eyləyin, əzizlərim! Və səlamət qalın. Baqi: bəradəriniz Məhəmməd Hadi Əbdülsəlimzadə fi 15 zilhiccə. Sənə filan».

İlk əvvəl Sabir dilləndi. O, fikirli-fikirli dedi:

— Təəssüf, çox təəssüf!.. Bu səfərdən dostumuza xeyir gözləmirəm...

Niyə? Dünya gör götür dünyasıdır. Gedər, gəzər, bir qədər kədərdən ayrılar. İndi Türkiyədə böyük, əhəmiyyəti göz qabağında olan hadisələr cərəyan etməkdədir.

---

[1] Şiddətli.
[2] Ortasında.
[3] Rəfiqlər – dostlar.
[4] Məktublar göndərəcəyəm.
[5] Faydalanam.

— O məlum. Amma qorxum budu ki, Hadi dostumuzun diln daha da qəlizləşə, mövzuları bir qədər də mücərrədləşə, millətin onu anlaması bir az da çətinləşə. Halbuki içərimizdə xalqın ağır halına onun kimi ürəkdən, candan yanan ikinci bir şair bilmirəm.

— Bəs özünüz? Bəs Səhhət cənabları?

Sualı Ağaəli bəy vermişdi. Səhhət təvazö ilə başını aşağı dikdi. Sabir məhzun gözlərini qapıdan o tərəfdə görünən dağlara zillədi:

— Söhbət hazirundan[1] getmir.

Naseh qulluğuna tələsirdi, azacıq əyləşib getdi. Sabirlə Səhhət isə günün qalan hissəsini həmişəki kimi ikilikdə danışırdılar. Sabir bir qədər dalğın idi. Səhhət bilirdi ki, dostunun, böyük vətəndaşının dalğınlığı demək olar ki, həmişə şeirlə bitir. Amma indi dalğın olsa da müsahibədə yerli-yerində iştirak edirdi. Hər ikisi bu həftə ərzində əllərinə gələn qəzetləri gözdən keçirmişdilər, xüsusilə son iki gündə qəzetlərdə verilən son saat xəbərləri onları həyəcanlandırmışdı. İndi məktəbxananın qənşərinə kətil qoyub əyləşmiş, axşamın yavaş-yavaş kölgələr salan gəlişini seyrə dalıb söhbət edirdilər. Yanlarından, önlərindən keçib gedənə:

— Qəzet... Qəzet... Təzə xəbərlər... Balkan işləri... Osmanlı, Avstriya, bolqar, ingilis xəbərləriiiiii... — deyə bağıraraq axşama qalmış axırıncı qəzetlərin satılmasına çalışan «Dərbədər gəzməklə ürəyi qan olan cocuqların» çığırtısı da onlara mane olmurdu. Bütün varlıqları ilə siyasi aləmdə cərəyan edən hadisələri müzakirəyə cummuşdular.

— Avropa hamilədir... Görəsən nə doğulacaq... Allah saxlasın şərrindən... Şər doğmasa böyük işdir...

— Bazar davası gedir... Bazar...

---

[1] Hazırda olanlar.

— Bölgü-bölgü başlanıb... Xatası var...

— Xammal mənbəyi üçün cəbhələrə ayrılıblar; ittifaqlar yaradırlar. Dünya da ki, iki zidd, düşmən cəbhəyə ayrıldı müharibə qorxusu artır...

— Elədi. Avropa əməlli-başlı iki cəbhəyə bölünüb.

— Müharibə hazırlığı gedir. Gün kimi aydın məsələdi. Özü də ciddi.

— Almaniya xüsusilə. Artmaqda olan millətdi, yeri darlıq eləyir. Dünyada nüfuz dairəsi bölküsündən əli çıxıb. Vaxtında cənginə müstəmləkə keçməyib. Özünü «hüququ tapdanmış» hesab eləyir. Deyir: «niyə axı İngiltərənin, Fransanın, hətta Portəgizin belə müstəmləkəsi olsun, müstəmləkə hesabına ağa kimi dolansın camaatı, mənimki olmasın? Odur ki, müharibə yolu ilə yeni-yeni ərazilər — müstəmləkələr ələ keçirmək xəyalındadır. Texnikası inkişaf eləyib, xammala ehtiyacı çoxdur. Ərazisi isə genişlənmək imkanı vermir. İxrac eləyə bildiyini satmağa da yer lazımdır... Bazar...

— Hə... Belə getsə, dünyanın bütün məmləkətləri qana çalxanacaq.

— Qəzetlərdəki gündəlik xəbərlər bir-birindən qorxulu, bir-birindən təhlükəlidi...

— Elə rus-yapon müharibəsində az qalmışdı dünya qarışa bir-birinə.

— İnsanlıq onda yaxasını qurtardı, amma bu dəfə deyəsən qurtara bilməyəcək.

«OSMANLILAR! ALDANMAYIN, ALLAHI SEVƏRSİZ!»

Havadan müharibə qoxusu gəlirdi. Bir neçə il əvvəl rus-yapon müharibəsi qurtarmışdı. Amma elə bil ki, dünyanın

hökmdarları Tsusima faciəsindən ibrət götürməmişdilər. Qəzetlər gündə bir məlumat yazırdı: «Bu gün filan ölkə filan ölkə ilə dostluq müqaviləsi bağlayıb. Sabah bir ölkə o birisindən ez səfir! ni keri çağıracaq. O birisi gün filan ölkə filan zəifin sərhəddinə qoşun yığacaq. Bir ölkə başqasından sitah alır, başqasına borc verir. Özü də bu borc, silahla əvəz edilir, silahla ödənilir. Daha doğrusu bir hökumət o birindən «borca» silah alır. Ölkələrdə işsizlik artır. Ölkələrdə dilənçilik artır. Ölkələrdə aclıqdır. Filan vaxt Almaniya filan yeni silahı sınaqdan keçirdir. Amerikada filan yeni silah kəşf olunib. İngiltərədə filan silah...»

Və dövrün bütün başqa inqilabi, mütərəqqi, mütərəddid məcmuə və qəzetlərində olduğu kimi, Molla Nəsrəddində də siyasi ictimai hadisələrə, Bakıdan, Tiflisdən çox çox uzaqlarda baş verən dünya hadisələrinə geniş yer verilirdi. Jurnal tez-tez dünyanı caynaqlarına keçirən və keçirmək arzusu ilə yanan İngiltərə, Amerika, Fransa, Almaniya, Avstriya, İtaliya, Yaponiya və başqa imperialist dövlətlərin törətdikləri qəsbkarlıqları, cinayətləri öz səhifələrində işıqlandırırdı. Şilinqin, Rotterin, əlbəttə jurnal redaksiyasının sifarişilə çəkdikləri əvəzsiz siyasi karikaturalar olduqca canlı, aktual və yerli-yerindəydi. Jurnal əməkdaşlarını əlbəttə birinci növbədə Yaxın və Orta Şərq, Orta və Kiçik Asiya xalqlarının, bir sözlə desək bütün «müsəlman qardaşların» həyatı, vəziyyəti maraqlandırırdı. Təkcə «Molla Nəsrəddin»in 1908-ci ildə çıxan, tam əlli iki nömrəsini nəzərdən keçirsək, bu «bölhaböl», «papaqaldıqaç» dünyasında Avropanın, birinci növbədə isə İngiltərə, Almaniya və Fransanın rolunu, qəsbkarlıq müharibəsinin hazırlandığını, elə indidən işarə gözlədiyini, güclülərin zəifləri qamarlamağa başladığını aydın görərik. «Avropa və Osmanlı» karikaturasında dörd səhnəcik var: 1-cidə iblis şəklində çəkilmiş avropalı osmanlıya deyir: «gəl

yuxulayaq», 2-cidə yuxulamış osmanlının fəsini avropalı götürür. 3-cüdə osmanlı oyanıb papağının qaçırıldığını anlayır, 4-cüdə o, avropalıya göz ağardırsa da, avropalı heç bir şey olmamış kimi özünü yuxuluğa vurur. Yaxud həmin ilin 45-ci nömrəsində Rotterin çəkdiyi ikilövhəli karikaturanın birincisində kürəyinə «Azərbaycan» yazılmış dovşanı it tutub, ikinci şəkildə ayı və fil də «dovşan cəmdəyinə» şərik çıxıblar.

Ciblərinin boş olduğunu göstərən «Yetim Məmdəli» 29-cu nömrədə rəsm edilib. Adı yazılmasa da, İranın qanlı hökmdarını, «Oğlanları ölmüş anaların matəminə, yasına» səbəb olan «Qeyrət halal olsun sənə» damğasıyla damğalanan Məmmədəli şahı — Məmdəlini ilk baxışdan tanımaq olur. 27-ci nömrədə həmin bu Məmdəli başındakı tabaqda Tehranı satır. «Politika aləmindən» adlanan bu karikaturada adi küçə tabaqçısı cildinə salınmış İran şahı tabaqdakı iri ağ tutu satmaq üçün «Ay Tehrani alan, ay şirin Tehrani alan!..» deyə bağırır. Bundan sonra isə 7 iyun 1909cu ildə «Əbunəsr Şeybani» imzası ilə Sabirin «Satıram» satirası dərc olunacaq. İran şahının ikiüzlü, satqın siması ifşa ediləcək, dillərə düşəcək:

Moldayı, salmadı el dil boğaza,
Eybi yox gərçi qoyulduq loğaza,
Yaz bu elanımı da bpr kağıza
Açmışam Reydə geniş bir mağaza,
Çox ucuz qiymətə hər şey satıram,
Ay alan... Məmləgəti-Rey satıram!

Mağazamda tapılar hər cürə zad,
Cami-Cəm, məsnədi-Key, təxti-Qubad,
Gərçi bazarımı etməkdə kəsad,
Səy edir bir para İrani nəjad,

Leyk mən baxmayıram, hey satıram,
Ay alan... Məmləgəti-Rey satıram!
...İstəməm nuru, qaranlıq sevirəm,
Mülki-İranı dumanlıq sevirəm,
Boşlayıb şəhri, yabanlıq sevirəm,
Bəsdi şahlıq, dəxi xanlıq sevirəm.
Səbzəvar ilə Məyamı satıram
Ay alan!.. Məmləkəti-Rey satıram.

Söa mənim, ev mənim, əsrar mənim
İrzü namus mənim, ar mənim
Mal mənim, məsləhəti-kar mənim,
Satıram dövləti-Qacar mənim,
Kimə nə dəxli ki, mən şey satıram?!
Ay alan!.. Məmləgəti-Rey satıram!..

«Molla Nəsrəddin»in 23-cü nömrəsində «Magedoniya məsələsinə dair» (avropa qəsbkarları dəyənəklərlə quşları qovur, torpaq ələ keçirirlər), 1-ci nömrədəki «İslam hökumətləri» adlş karikatura xüsusilə maraqlıdır. Bütün qoşa səhifəni tutan tələtümlü dəryada islam hökumətlərinin kəmiləri batabatdadır: İranın yarıbatmış qayığında iki molla çomaqla vuruşur, Misrin qayığı parçalanmış, Tunisinki suyum dibinə getmişdir, təğscə bayrağı görünür; Osmanlıın iki paşanın saqqallaşdığı kəmisində dor əyilmiş, Hindistanın körpə yatan beşiyi ağyallı dalğaların qoynuida çalxalanır, Əfqanıstanın balaca qayığını «Kitay» naqqasının ağzı ilə Yaponiya udmaq istəyir, Fasın sandalı parçalanmış, amma ərəblər suya bata-bata bir-birini qırır. Budur İslam dünyasının acınacaqlı mənzərəsi. Yuxarıda Qərbdə inkilis hərb kəmisinin üstündə əzəmətlə qollarını çarpazlayıb duran qəsbkar soyuqqanlıqla bu batabat aləmini seYr edir; heç kəsə yardım əli uzatmır, gözləyir ki, daxili düşmənlər bir birini

döyüb zəif salsınlar və o da asanlıqla istədiyini ələ keçirsin.

Bütün bunların sayını istənilən qədər artırmaq olar Molla Nəsrəddin» nəşrə başladığı gündən hə mişə əzilənlərin tərəfində durduğu kimi, bütün nömrə Yəriidə siYasət aləmindən, — özü demişkən pol tika aləmindən» mütləq bir neçə yazı, xəbər karikatura verirdi. Onları bu qədər dəqiqliklə təsvir etməyimizin səbəbi aydındır: Sabirin əksər şeirləri həmin bu xəbərlər, məqalələr, karikaturalarla səsləşirdi. Onlara mənzum cavab verirdi. Mənzum nəticələr çıxarırdı o şəkillərdən. Şəkil hardasa yaddan çıxa bilərdi, haqqında bir neçə söz deyilərdi. Vəssəlam! Amma əruzun ən oynaq bəhrlərində, sadə danışıq dilində, hisslə, həyəcanla, sabiranə ehtirasla bir millətə, yox... aldanmış, aldadılmış millətlərə müraciətlə ucalan bu səs yaddan çıxmaq bir yana, dillərə düşürdü:

Osmanlılar! Aldanmayın, allahı sevərsiz!
İranlı kimi yatmayın, allahı sevərsiz!

Maraqlıdır ki, xəbər bütün qəzetlərdəki xəbərlər kimi bir dəfə oxunurdu, şəkil-karikatura bir dəfə, iki dəfə baxılırdı — sonra da unudulurdu... Amma «Satıram», «Özümündür» kimi kəskin ictimai satiralar dillər əzbərinə çevrilir, yaddan çıxmırdı. Bu baxımdan həmin dövrdə jurnalın 26-cı nömrəsində «Molla Nəsrəddin» imzası ilə Cəlil Məmmədquluzadə tərəfindən yazılmış baş məqalə, «Hərdəmxəyal» imzası ilə «Haman adam» sərlövhəli İran hadisələrindən bəhs edən, İran məsələlərindən digər məqalə maraq doğurur. «Haman adam» adlı məqalədə İran şahı Məmmədəlinin dililə Təbrizlilərə müraciət edilir: «Ay Təbriz camaatı! Ay məndən narazı olan Azərbaycan əhalisi! Mən eşidirəm ki, siz məndən rəncidəxatir olmusuz ki, mən Qurana and içib genə dövlətə və millətə xəyanət edirəm və

vətənin düşmənlərini başıma cəm edib, məmləkəti xarab etmək niyyətindəyəm... Siz Təbriz əhalisi məndən nə gözləyirdiz? Qoy özgələri nə deyirlər, desinlər. Axır, balam, siz ki, məni tanıyırsız. Siz ki, yaxşı bilirsiz mən nə quşun yumurtasıyam. Siz ki, mənim əməllərimdən xəbərdarsız.

Ay Təbriz camaatı! Bircə yadınıza salın ki, yəni çoxdan da deyil, ancaq iki il bundan irəli mən Təbrizdə vəliəhd olan zaman nə işlərdən çıxırdım və nə əməllər törədirdim. O vədə siz kənarda durub tamaşa eləyirdiz və heç bir söz deməyirdiniz... Yadınıza salın görək vəliəhdin zamanında neçə-neçə bu cür oğlanlar və qızlar mənim əziz olan vücuduma qurban olublar... Pəs o vədə siz heç bir söz danışmırdız, pəs indi nə deyirsiniz?.. Məni özünüz padşah tikdiniz və nə cəlal ilə Tehrana yola saldınız... Dəxi siz nə deyirsiniz? Siz ki, məni tanıyırsınız. Bir şahzadə bağını salın yadınıza!..»

«Molla Nəsrəddin»in 11 avqust 1908-ci ildə çıxan 32-ci nömrəsində «İran qurdu» imzası ilə Sabirin «Mən şahi-qəvi-şövkətəm, İran özümündür» misrası ilə başlanan satirası çap edilib. Orada həmin məqalədəki motivləri axtarmaq lazım deyil — bunlar demək olar ki, eyni hadisənin iki şəxsiyyət tərəfindən inikasıdır. Lakin mənzum satira daha bədii, daha kəskin, daha uzunömürlü və daha populyar olmuşdur:

Mən şahi-qəvi-şövkətəm İran özümündür,
İran özümün, Rey, Təbəristan özümündür,
Abad ola, ya qalsa da viran özümündür.
Qanuni-əsasi nədi? Fərman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!

...Gördüz ki, necə sizləri tədib elədim mən,
Baqqal balaeın leşkərə sərtib elədim mən,
Atəşlə yaxıb məçyjsı təxrib elədim mən,
Quranı danıb, andı da təkzib elədim mən.

Sövkənd nədir? Əhd nə? Fərman özümündür,
Şövkət özümün, fəkr özümün, şan özümündür.

Təbrizlilərin kor idimi gözləri əvvəl?
Bir yerdə keçirtdik gecə-gündüzləri əvvəl,
Həqqimdə yox idi oların sözləri əvvəl,
Şah etdilər İrana məni özləri əvvəl.
İndi nə deyirlər? Dəxi dövran özümündür,
Qızlar özümündür, gözəl oğlan özümündür.

Beləliklə də, Sabir dövrün bütün qəzet və məcmuələrində dərc olunan «son saat xəbərlərini» izləyir, onların içində ən xarakterik, ümumi aktual məsələlərə vaxtında, yerli-yerində cavab verirdi. Sabirin müxtəlif illərdə, xüsusilə 1910 və 1911-ci illərdə «Həqiqət», «Günəş», «Yəni həqiqət» qəzetlərində və «Zənbur», «Molla Nəsrəddin» jurnallarında çap olunan «Kürd çaldıqca boru, cinganə oynar derlər», «Sinəhdar deyir ki», «Mürtəcelər, sevinin, Kişvəri-İranə yenə», Zilli-Sultanə, amandır, verməyin İranə yol», «Görəsən Məmdəlinin yapdığı əfalı nədir?», «Vyana teleqrafları deyir ki», «Naye Fraye-Press» qəzeti deyir ki və onlarla başqa taziyənələrin hər biri dövrün qəzet və məcmuələrində nəşr olunan hər hansı mühüm, siyasi bir xəbərin bədii cəhətdən əbədiləşdirilmiş mənzum inikasıdır. Sabir bu xəbərləri oxuyub hər birinə öz kəskin qırmanc zərbəsini əlavə etmiş, iki, dörd misrada bütöv bir aləm, bütöv bir səciyyə, bütöv bir dövrün bu və ya başqa cizgisini əks etdirməyə nail olmuşdur.

Lakin Sabirin beynəlxalq irtica əleyhinə yazdığı satiraları həmin illərdə xüsusilə və daha çox İran və Türkiyə hadisələri ilə sıx əlaqədardır. Belə ki, bu illərdə İranda və Türkiyədə bir-birinin ardınca 1905-ci il inqilabının yaxın təsiri ilə milli azadlıq hərəkatı baş verirdi. İranda bu azadlıq hərəkatının

başında Səttarxan, Türkiyədə «gənc türklər» dayanırdı. İran və Türkiyənin mürtəce qüvvələri azadlıq hərəkatını boğmaq, konstitusiya verilməsini dayandırmaq, müstəbid mütləqiyyəti hakimiyyət başında saxlamaq üçün əllərindən gələni edir, üsyançılara qanlı divan tuturdular. Bu xəbərlər hər gün qəzet səhifələrində görünürdü. Yaxın qonşu və həmtale İranda baş verən hadisələri Sabir və bütün mollanəsrəddinçilər xüsusi maraqla izləyir-dilər. Dərbədər, ruzi dalınca qürbət ölkələrə dağılmış İran zəhmətkeşlərinin həyatı «Binəsib-lər», «İranda hürriyyət», «Molla Nəsrəddin»in gündəlik məqalə və felyetonlarında, karikaturalarında öz əksini tapırdı. Belə acı həqiqətlərdən biri İranda baş vermişdi. Məmmədəli şah atası tərəfin-dən elan olunan «Qanuni-əsasi» — konstitusiyanı ləğv etmiş, İran Məclisi-müəssəsanını topa tutdurub dağıtdırmışdı. Bu hadisəni «İran özümündür» əsərində Sabir Məmmədəli şahın öz dili ilə təsvir edirdi:

İranlı deyil, cümlə bilir Məmdəliyəm mən,
Gürgani-cəfavü sitəmin çəngəliyəm mən,
İranlıların başlarının əngəliyəm mən,
Sorram, içərəm qanlarını, çün zəliyəm mən
Laşə özümün, ət özümün, qan özümündür.

Tehranda dəhşətli «Qanlı bazar günü» ilə səsləşən hadisə də baş vermişdi. Sadəlövh camaat şaha inamla şahın o zaman yaşadığı «Baği-şəh»ə getmişdilər. Öndə əllərində açıq Quran tutmuş məktəbli uşaqlar yeriyir, ardlarınca Quran oxuyan böyüklər gəlirdi Məmmədəli şahın əmrilə, eynilə Peterburqda, keşiş Qaponun apardığı Peterburq fəhlələri arvad-uşaqları ilə birlikdə gülləbaran edildiyi kimi, iranlı uşaqları və ataları da şah gülləbaran etdirmişdi. Parçalanmış Quranların vərəqləri körpələrin günahsız qanına bulaşmışdı.

Bu qanlı «işrət məclisini» Sabir «Həlal olsun sənə» rədifli satirasında bəlkə də o vaxta qədər, bəlkə hələ ondan sonra da, dünya ədəbiyyatında misli-bərabəri olmayan bir üsyanla acı fəryadla, dəhşət doğuran nifrətlə təsvir etmişdir. Adətən Məmmədəli şahı «Məndəli», «Məmdəli», «Mədəli» deyə adını belə təhrif edən Sabir, bir çox satiralarını şahın öz dili ilə («Satıram», «Belə düşdü», «İran özümündür» və sairə) rüsvay edirdi. «Həlal olsun sənə» satirasında şair, buna hacət görmür. Burada istehza, kinayə, gülüş doğuran eyham filan yeri deyildi. Burada ciddi, sərrast «afərinlər» lazım idi ki, şair satiranın vəznini də, dilini də, heyrətamiz dərəcədə doğru seçmişdi. Elə seçmişdi ki, «Bağişəh»də qanlı işrət məclisi qurub, qan içəni, «Ümmxaqan oğlunu», vətəni satan, onu qara günlərə qoyan, adlı-sanlı oğul və qızlarını dara çəkdirən, «arslanlar boynuna zəncir salan» müstəbidin bütün əməlləri aydın olsun. Şah haqqında nə desə, onun əməllərini nəylə pisləsə, böyük vətəndaşın, böyük beynəlmiləlçinin, əsl insanpərvərin ürəyi soyumur, hətta həmişə nəcib şair ən qatı söyüş söyür; o, şahın əxlaqca yüngül olan anası Ümmxaqanın adını çəkir və şahı «Ümmxaqan oğlu», «anasının oğlu» adlandırır.

Arslanlar boynuna saldırdığın zəncirlər,
Namvərlər qətlinə çəkdirdiyin şəmşirlər,
Atəşi-qəhrü qəzəblə yaxdığın təmirlər,
Vəsfə şayandır, həqiqət, etdiyin tədbirlər,
Ümmi-Xaqan oğlu, bu qeyrət həlal olsun sənə!
Verdiyin məşruteyi-millət həlal olsun sənə!

Şahın gündə bir hiylə qurub gah «məşrutə» verməsi, gah onu geri götürməsi, gah Qurana and içib əhdpeyman bağlaması, gah üsyançılardan — xalq qəzəbindən qaçıb «konsula sığınması», gah bir «madmazel eşqilə Ədəsdən Avropaya cumması», gah alman imperatoruna, gah ingilis kralına, gah da rus çarına sığınması o zamankı qəzetlərin

səhifələ-rində özünə yer tapırdı. Sabir də özünəməxsus bir həssaslıq və dəqiqliklə İran xalqının bu qanlı düşməninin həyat yolunu izləyir və az qala hər addımını bir satira ilə damğalayırdı. Gah ona tabaq içində «taxt-tac sat»dırır, gah «Rəhm et mənə, can madmazel, könlüm olub qan madmazel», deditdirib, «Rədd ol, a zalım Məmdəli, şahi-məzalım Məmdəli... Get-gedə ki, zülmündən vətən, Dəryayi-xundur gəlmənəm» deyə rədd etdirir, gah onu «Sevgili Sultan baba» Əbdülhəmid ilə «dərdləşdirir», gah iranlı
lara əlinə girəvə düşəndə hücum etdirir, gah yalvartdırır, bir də görürsən ki, bu müstəbidə «qahmar çıxıb» ona «zülm etdikləri, təxtdən qovduqları üçün» iranlıları məzəmmət eləyirdi:

Yansın iranlıların arxası yandı ciyərim,
O yetim Məmdəlidən var yenə bir pis xəbərim,
Belə derlər ki, qoyub təxti, qaçıb taci-sərim,
Sığınıb konsula xaqanları iranlıların,
Dərhəqiqət pis imiş qanları iranlıların!

Üçcə il qoymadılar təxtdə rahət yaşasın,
Bir doyunca çıxarıb, keyf, edib işrət yaşasın,
Ta onun sayeyi-ədlində bu millət yaşasın...

Yaxud başqa bir bəndində...

Şah bilər ölkədə hər nə götürər, hər nə qoyar,
Gah cibin, gah dərisin hər kəsin istərsə soyar,
Baş kəsər, ev dağıdar, can çıxarar, göz də oyar
Min də çıxsa göyə əfqanları iranlıları...
Becəhənnəm ki, yanır canları iranlıları.

Sabirin burada şah haqqında dediklərinin hamısı dırnaq

içinə alınmalıdır. Əslində, alınmasa da, oxucu elə əvvəldən bu «canıyananlığın» həqiqət deyil, istehza olduğunu başa düşür; anlayır ki, şair şahı rüsvayi-cahan eləyir.

O zamankı dövri mətbuatda haqqında çox danışılan ikinci məmləkət Türkiyə idi. Sultan Əbdülhəmid kimi müstəbidin hökmranlığı altında inləyən türk əməkçisinin hesabına sarayda keyf sürülürdü. Ölkənin xarici borcları gündən-günə astronomik dərəcədə artırdı. Saray isə bu hesaba cariyə, kəniz, xanəndə — nəvazəndə, qız-gəlin ilə doldurulmuşdu. «Molla Nəsrəddin» jurnalı nömrələrindən birində bir karikatura var: saraydan qovulan sultan və arxasınca bir dəstə qadın... Mirzə Cəlilin «Dörd yüz qız» pamfletində olduğu kimi... Gənc türklər tərəfindən sultan sarayından azad edilən bu bədbəxtlərin çoxu o zamankı Avropa ölkələrinə yayılmış, rəqqasəlik, xanəndəliklə məşğul olan bayaderalar idi. Türkiyədə sultan zülmü həddini aşmışdı. Bütün azadlıq tərəfdarlarının boğazı üzülür, zəhərləndirilir, boğdurulurdular. «Molla Nəsrəddin»in yazdığına görə «Osmanlı məmləkətində küçədə öskürmək də əhaliyə qədəğən olun muşdu».

Həmişə, bütün yaradıcılığı boyu azadlıq, yoxsul əzilən kütlələr tərəfdarı, beynəlmiləlçi şair olan bu böyük insan türk əməkçilərinin dərdinə də biganə qalmamışdı. Odur ki, Sabir, sultan Əbdülhəmidi də müstəbid Məmdəli şahdan ayırmırdı. Hətta məhz İran məsələlərinə həsr olunan satiralarında belə Türkiyə hadisələrinə də işarə vururdu: «Əhli-İran bu qədər bişərəf olsun nə üçün? Düşməni-tərzi-ümumi-sələf odsun nə üçün? Yeni Osmanlı kimi naxələf olsun nə üçün?» Kim idi bu «Yeni osmanlı?» Əsrin əvvəlində Birinci Rus inqilabı— 1905-ci il inqilabının yaxın təsiri ilə Türkiyədə «Gənc türklər» hərəkatı başlamışdı. Məqsəd çoxəsrlik sultan-xəlifə hökmranlığını devirmək, burjua respublika üsuli-idarəsi yaratmaq, konstitusiya

əsasında özünü idarə təmin etmək, millət məclisi təşkil etmək... Bir sıra mürtəce mahiyyətinə, burjua inqilabı olmasına baxmayaraq «gənc türklər» hərəkat»ı o zamankı Türkiyə üçün irəli addım idi. Sultan taxtdan salınmışdı, konstitusiya, məclis... kimi sövlər mətbuata səs salmışdı. Bax, misal gətirdiyaşiz parçada Sabir analogiya yaradır: İranlılar şahı taxtdan saldığı kimi, «yəni osmanlı - «gənc türklər»də sultanı xəlifeyi-ruyi-zəmini saraydan qovub, Salonik adasına sürgün etmişdilər. Yəni onlar da «naxələf çıxıb, düşməni-tərzi-ümuri-sələf» keçmiş sələflərin qayda-qanunları əleyhinə çıxmışdılar. O zamankı qəzetlərin yazdığına görə gənc türklər sultanı taxtdan endirdikdən sonra, əvvəlcə İstambulda «Yıldız» sarayında saxlayırdılar. Sultan burada təmirat işləri aparan işçilərdən birinin paltarını geyib qaçmaq istərkən tutulmuş və Salonikə sürgün edilmiş, xarratlıqla maraqlanmışdı və sairə. Bütün bu hadisələrin hər biri Sabir satiralarında öz əksini tapmışdı. Məmmədəli şahın o dövrkü tərcümeyi-halının hər hansı parçasını Sabir şeirlərini yan-yana düzməklə izləmək mümkün olduğu kimi, Sultan Əbdülhəmidin də bu dövr macəraları Sabir satiralarında arxa-arxa bir-birini təqib edirdi.

Aldatmadı bu milləti təzvirlərim, heyf!
Yıldızdakı... Yıldızdakı təmirlərim heyf!

«Həp künfəyəkun oldu, mənimki belə düşdü» deyən, sultan «babası» Məmmədəli şaha belə məsləhətlər verir. Sən Məmdəli, bərk dur, torbaları doldur, xırman özünündür». Məmmədəli şaha nəsihətlər verən Əbdülhəmid həm özünü, həm də şahı ifşa edir; o da Məmmədəli kimi «qəsəm etmiş və danmışdır». Baxdım sənə, öz əhdimi, peymanımı dandım» deyən sultan Məmmədəli şaha vəziyyəti belə xəbər verir və

eyni zamanda xəbərdarlıq edir.

Məzlumların tutdu məni ahı axırda,
İncitdi xəyanətlərim allahı axırda,
Oldum Səlanik qələsinə rahı axırda...
Qaç, Məmdəli durma,
Çox sinənə vurma,
Məndən götür ibrət,
Sülh eylə, qudurma!
...Fərman gedər əldən,
Saman gedər əldən
Yalnız nə ki, Tehran,
İran gedər əldən!

Sabir müstəbidləri xalqın qəzəbi ilə qorxudur, onlara bir-birinin aqibətindən ibrət götürməyi məsləhət görür, eyni zamanda azadlığını tələb məqsədilə meydana çıxan zəhmətkeş kütlələrə, xalqın gözüaçıq oğullarına müraciətlə onlara düşmənlərini tanıtdırır, hadisələri bir-bir aydınlaşdırır, ayıq-sayıq olmağa, xalqın qanlı düşmənlərinin vədinə inanmamağa çağırırdı. Bu baxımdan Sabirin:

Osmanlılar, aldanmayın allahı sevərsiz,
İranlı kimi yatmayın allahı sevərsiz,

— misraları ilə başlayan satirası xüsusi əhəmiyyətə malikdir. Sabir günün hadisələrini addım-addım izləyərək, zamanın nəbzini dürüst tutur, sətir-sətir dalınca İranda boğulan inqilab hərəkatının kiçik tarixçəsini bircə-bircə varaqlayır. Göstərir ki, əvvəlcə sizə fikir azadlığı verəcəklər. Siz də bu söz azadlığından istifadə edib danışacaqsınız. Elə ki, vəzirlər sizin məqsədinizi anladı, «mütləq görəcəklər ki, cibişdana zərər var, hər fənn ilə olsa qovacaqlar sizi naçar».

Sabir İranda verilən hürriyyətin, qanuni-əsasinin millətə nəyə başa gəldiyini elə satiranın ilk bəndində aydınlaş-dırır:

Qanuni-əsasi demə! İranlı əzası!
İranlıların başlarının qanlı bəlası!
Oğlanları ölmüş analar matəmi, yası!

Sabir göstərir ki, İranda inqilabı boğanları mirhaşımlar, əliəkbərlər, fəzlullahlar, hacmir-həsənlər fitiələdiyi kimi, Osmanlıda da belələri var, hələlik xalq onları tanımır, lakin tanıyanda gec olacaq, artıq «qana boyanmış olacaqsınız»...

«SEYLİ-TƏN EYLƏ TƏMƏVVÜCLƏ ALIB DÖVRÜ BƏRİM»

...Bu gün əmiqızı, Sabiri evinə, təzə nübar xiyarın dolmasına qonaq çağırmışdı.

Süfrə salındı, əl suyu gəldi... Elə bu zaman küçədə, darvazanın ağzında hay-hüy qalxdı.

Ayrı-ayrı səslər, cümlələr eşidilirdi. Bu səslərin kimə məxsus olduğunu söyləmək mümkün olmasa da, mənası hamı üçün aydın idi:

— Ada, hanı o dinsiz?

— Hanı o sünnü qanından törəmə?

— Hanı o babi?

— Namüsəlman köpəyoğlu, adına bax! Hophop!..

Əmiqızının əri, evin sahibi darvazanı yavaşca açıb çölə çıxdı və cəld qapını arxasınca çəkdi.

— Nə istəyirsiz qardaşlar? — deyə gözü qızmış Kütləyə, qaragüruha müraciət etdi. Həlim təbiətli, mehriban bir insan kimi tanınan, kasıb, evindən gərək olanda ovuc acana həmişə əl tutan kişini görüncə, bir neçə nəfər onu tanıyıb geri

çəkildi. Az tanıyanlar və ya onunla heç bir əlaqəsi olmayanlar döşlərini bir az da irəli verdilər. Səslər yenidən ucaldı:

— Harda gizlənib o babi?

— Babi kimdi?

— Aadəəə... Məni də tanımazsan indi yoxsa, aadə? Sabir Ələkbəri deyir daaa...

— Bir az irəli bura girməyini gözüynən görən var o laməzhəbin.

— Bəyəm mən gizlədirəm ki, Məşədi Ələkbər bizdədi?

— Ay Məşhəd sahibi onun belindən vursun...

— Dilini farağat qoy, qardaş! Məşhəd sahibi biz ağılda deyil. Özü yaxşı bilir: kimin belindən vursun, kiminkindən vurmasın.

— Yoxsa gəlib səni də babi eləsin, həə?

— Yaxşı deyil axı! O kişi mənim qonağımdı Peyğəmbər salavatullahın özü buyurub ki, qonağa hörmət lazımdı. Mənim evimdə qonağa dəysəz, mənim xətrimə dərrsiz.

— Əh, sən də cəhənnəm ol, sənin babı qonağın da. Çıxsın bayıra o nakişi! Əgəmləri kişidi, çıxsın, alsın bu Quranı and içsin ki, babı deyil, müsəlmandı, Əli şiəsidi, biz də səndən əl çəkək, sənnən neyşimiz var?

— Çıxsın, çıxsın...

— And içsin...

Bütün bu sözləri həyətdə dayanmış ev adamları, o gümlədən qadınlardan bircə addım kənarda dayanmış Sabir də aydın eşidirdi. Şamaxının təmiz, səs-küysüz ab-havasında pıçıltı ilə, yavaş danışıq belə xeyli uzaqdan eşidilir. Burada isə bəhsə girənlər boğazlarını yırtırdılar. Səslər, mübahisə az qala şəhərin o biri başına gedib çıxırdı. Sabir tərəddüd içində dayanmışdı. Əvvəl elə güman edirdi ki, əmiqızının

möhtərəm əri dalaşa gələnlərin ağzını boza verə biləcək, hay-küyçülər dağılışıb çıxıb gedəcəklər. Lakin evin basılmaq, arvad-uşağın əziyyət çəkmək təhlükəsi artdıqca, onun da qətiyyəti artırdı. Öz həlim, heç vaxt ucalmayan, heç kəsi təhqir etməyən, hədəsiz səsi ilə əmisi qızını yanına çağırdı:

— Bacı! Zəhmət olmasa Quranı bura gəti...

Bülurnisənin gözlərində qorxu, qüssə artdı. Belə qorxulardan Bülurnisə çox keçirmişdi. Yasda, toyda, şəbbəxeyirlərdə, qonaqlıqlarda, üzəçıxdılarda, xüsusilə zənənəhamam günləri hamamlarda o qədər belə sözlər eşitmişdi ki, əri haqqında sayı, hesabı yox! «Qulağı dolmuşdu» deyə bilməzdi. Amma hər halda sancanlara, söz atıb ürəyini qopbacaya salmaq istəyən arvadlara cavab tapıb verə bilirdi. Ölüvay-zad deyildi. Amma bugünkü gün heç nəyə bənzəməzdi. Bu gün yığılan qaragüruh çox ağzıodluydu. Çox idilər, hücumla gəlmişdilər. Belə bir qorxunu o bir dəfə də ən yaxın, amma çox tündməcaz qohumlarından biri kişinin üstünə tapança çəkəndə keçirmişdi. Ürəyi ağzına gəlmişdi. Amma hər halda o vaxt evdə həmin qohumun əlindən tapançanı alan kişilər, əqraba var idi. Bu gün isə... Bu gün o daha çox qorxdu. Birdən-birə yadına ustad Seyyid—Hacı Seyid Əzim Şirvani düşdü: «İlahi, özün saxla bu kor olmuşların bəlasından. Bunların ciyəri yansın, kişini də, bədbəxt zəif kişini də Ağanın gününə salarlar. Nə canı var? İkicəciyinin əli çatsa — bəsidi. Ağanın adı-sanı, qoluzorlu dostları var idi. Seyidin peyğəmbər övladı olmasından qorxanlar var idi, Hacılığına hörmət eləyənlər var idi. Bəs mənimki bədbaxtın nəyi var? İlahi, özün kömək ol! İlahi, balalarımı yetim, məni dul qoyma! Balalarımın başı kəsilər. Qohumları yiyə duran deyil. Ya rəbbim! Parça-tikə olmuşlar, gör bir nə hay qalxızıblar» — sözlər ildırım sürətilə beynindən keçdikcə,

ürəyi öz halalı üçün əsirdi.

Səriyyə dəhşət içində atasına tərəf atılıb ona sarıldı. Qızcığaz da başa düşmüşdü, anası kimi o da anlamışdı ki, indicə Əli dadaş qapıya çıxacaq və orada allah bilir onun başına nə gətirəcəklər. İndi Bülurnisə dişi pələng idi. Balalarını, ərini afətlərdən qoruya bilmək üçün çölə çıxıb o nankorları dırnaqları ilə didib-parçalamaq istərdi; təki zəif vücudlu, kövrək ürəkli baş yoldaşına zəfər toxunmasın: «Arvad xaylağıyam, mənə əl qalxızan kimdi?»

İndi Səriyyə də eynilə anası kimi Əli dadaşın köməyinə çatmaq, onu öz nazik vücudu ilə qorumaq istəyirdi. Təki təhlükə onun başından sovuşsun. Sabir arıq əli ilə qızının kəlağayı altından çıxmış cığasını sığalladı. Gözləri, başının hərəkəti ilə əmisi qızını Quranı gətirməyə təhrik etdi. Gəlin içəri atılıb cəld taxçadakı mücrünün üstündən quranqabıya qoyulmuş Qurnı çıxardı və həyətə cumub dünyalarcan istədiyi əmoğlusuna verdi. Elə o özü də Sabiri gizlətmək, o canavarların caynağına vermək istəməzdi. Lakin... Gəlinin qanında elə bir qan var idi ki, bu qan Sabir Ələkbərin «arvad kölgəsində» gizlənməsinə qail olmurdu. «Kişi, düz deyir ki, razı olmur... Axı, mən də bilirəm ki, o babi deyil! Bu qarageymişləri allah hardan ona düçar eləyib?»

Elə Sabir özü də ilk anda, «Hophop» tələb olunduğu anda bunu düşünmüşdü. Daha doğrusu buna bənzər fikirlər qəlbinə dolmuşdu: «Hophopu istəyirlər.. Hardan biliblər ki, Hophop mənəm? Hardan biliblər? Hardan tanıyıblar? O da əmisi qızı kimi arvad kölgəsində» gizlənməyi, əmiqızının ərinə zəfər toxunmasını, təhqir olunmasını qeyrətinə, şəninə sığdıra bilmir, ürəyi götürmürdü.

Qəribədir! Bu ağır, bu çətin anda ilhamı gəlmişdi İlham onu bu qorxulu anda tərk etməmişdi İlham onun qəlbində zəfərli təbil səsi ilə, uğultu, qələbəli təbil vurğusu ilə deyirdi.

Əşhədübillahi Əliyyül-əzim,
Sahibi-imanəm, a şirvanlılar!
Yox yeni bir dinə yəqinim mənim,
Köhnə müsəlmanəm, a şirvanlılar!
Sünnüyəm — amma nə bu əmsaldən,
Şiəyəm — amma nə bu əşkaldən,
Sufiyəm — amma nə bu abdaldən,
Haqq sevən insanəm, a şirvanlılar.

Vəziyyətin gərginliynnə baxmayaraq az qala Sabiri gülmək tutmuşdu. İndi o çölə çıxıb əvvəlinci bəndi oxusa, düşmənləri geri çəkilər, ikinci bəndi eşitsələr qaragüruh birləşər — sünnü də, şiə də, sufi də, babi də birləşər, özünü «təhqir olunmuş» hesab edər və bu dinsiz şairi parça-parça eləyər. «Bax, əsl din, təriqət birliyi, islam birliyi onda olar ha! Dindarları onda birləşdirə bilərsən, Hophop! Parçalanmış Şirvanı, sünnü-şiə deyə, bir-birinin qanını içməyə hazır olan bu dili, dini, milliyyəti, qanı bir vətəndaşları onda birləşdirə bilərsən! Nə kəmtalesən? Şərəfli ölümünlə deyil, belə ölümünlə!»

Quranı gəlindən aldı. Zorla Səriyyənin ağuşundan çıxdı:

— Qorxma, qızım!

— Qorxuram, Əlidadaş! Qorxuram! Onlar səni...

— Qorxma, anaşım! Onlar mənə heç nə eləyə bilməzlər. Məgər siz bilmirsiz ki, mən babi deyiləm?

«Siz» həm də Bülurnisəyə aid idi. Ona da ürək verirdi bu sözlərlə. Onu da arxayınlaşdırmaq istəyirdi. Əmiqızının isə qəlbinə, mətanətinə arxayın idi.

Qapıya doğru irəlilədi. Qoltuğundakı Quranla birlikdə küçəyə çıxdı. Əmiqızının əri yana çəkildi. Gözlərində indi həqiqi qorxu var idi. Qohumu, dostu, həmyerlisi, həmməzhəbi, zəmanənin tanınmış şairi, xüsusilə qonağının

öz gözü qabağında, qapısının ağzında öldürülə biləcəyindən dəhşətə gəlmişdi.

Sabirin zəif vücudu isə elə bir mətanət, elə bir sükunət saçırdı ki! Kişi gözlərinə inana bilmirdi. Elə bil içəridən çıxan Sabir, o xəstə, nazik vücudlu Məşədi Ələkbər deyil, bir dağdır! Bir azman nəhəngdir. Gözlərindən mərhəmət, əzab, bədbəxt, nadan, cahil həmvətənlərinə qarşı rəhm yağırdı. Elə bil möcüzə baş verdi. Bayaqdan bəri boğazını yırtanlar bu əzəmət qarşısında bir addım geri çəkildilər. Qurbağa gölünə daş atıldı, sanki. Ağır, əzici bir sükut çökdü döngəyə. Bu ağır, bu əzici sükut içində Sabirin — Hophopun əzəmətli səsi eşidildi:

— Kimdi şübhə eləyən?

O, əlindəki Quranı başı üzərinə qaldırdı. Bir zamanlar həmin əmiqızının xahişi ilə Türküstanı gəzib qayıdarkən Buxarada almışdı bu Quranı. Haçansa dadına çatacağını, karına gələcəyini ağlına da gətirməmişdi.

— Bu Qurana and olsun ki, mən babi deyiləm.

Quranın görkəmi qaragüruhu qorxuya saldı. Qədim anlayışca Qurana and vermək, and almaq yalnız möhtərəm qazi qulluğunda, hamamda müəyyən «qüsl adabını»[1] yerinə yetirdikdən sonra tələb oluna bilər. Üzərinə Quran gətirilən adam, haqsızsa, allahın qəzəbinə «düçar ola» bilər. Yığılanların əksəriyyəti hay-küyə düşmüş adamlar idi. Onların Sabirlə, Hophopla heç bir qərəzləri yox idi. Sadəcə, onları Axund ağanın hökmü salmışdı bu yola. İndi qorxudan dilləri topuq vura-vura bir-birinə deyirdilər:

— Kişi Qurana and içdi...

— Səf içməz...

— Özü bilər, allahı...

— Quran sahibi...

---

[1] Təməzlənmə qaydası.

Axund ağanın əlaltıları hay-küyə düşüb yığılanların çəkildiyini, özlərinin meydanda tək qaldıqlarını, işin hökumətə düşsə, uzanacağını bildiklərindən onlar da deyinə-deyinə dağılaşmağa başladılar. Bəzisi qəlbində düşünürdü də: «Əşi, deyən gərək, ay Axund ağa, bizi neyşə salırsan bu cəncələ? And lazımdı, çağırtdır yanına, vaxtıynan qəbrinə qurban olduğum Ağaseyidəli ağa eləyən kimi... Hacı Seyid Əzimdən qəsəm alan kimi... Çağır məscidə, özün onun əlini basdır o oxuduğun Qurana...»

Dağılışdılar, xətər ötdü. Yalnız bu zaman Sabir zərif vücudunda bir az da artan zəiflik duydu. Taqətsizləşmişdi. Yeznəsinin ardınca həyətə girdi. Hələ də qorxusu keçməmiş arvadları gördü. Yenidən vücuduna sarılan Səriyyədən dayaq kimi istifadə eləyib gülümsəməyə çalışdı:

A yassarlar, nədən qorxurduz?

Quranı minnətdar gözlərlə ona yaxınlaşan əmiqızıya uzatdı, əlinin xəfif hərəkəti ilə Səriyyənin kəlağayı altıpdan çıxmış cığasını sığalladı:

— Nədən qorxurdun, anaşım?

O indi qəlbində Səriyyəyə minnətdar idi. Qız onun bədəninə sarılmasaydı, bəlkə də zəiflikdən yıxıla bilərdi. Bu hissini Bülurnisədən gizlətmək üçün bir də gülümsəməyə təşəbbüs göstərdi:

— Ay uşaq, dolma soyuyub tərk oldu ki!.. Keçin içəri...

* * *

Sabir bazaryuxarı Sarıtorpağa doğru irəliləyirdi. Səhhət onu Hacımövli bulağının yanında gözləyəcəkdi. Dünən yenə axund onu otağına çağırmışdı. Aralarında əməlli-başlı cəngücidal olmuşdu. Axund ağa dediyindən dönməmişdi, «Sən çəkmisən» demişdi. «Axund ağa, axı, özün yaxşı

bilirsən ki, xudavəndialəm mənə şeir istedadı verib, nəqqaşlıq istedadı verməyib. Filan şeiri sən yazmısan deyəndə, inkar edə bilmirəm. Çünki şairəm. Amma bu gün «Molla Nəsrəddin»də çıxan qəbir şəklini də sən çəkmisən — deyəndə cənabınıza məlum olan «yox, yox, yox, mən çəkməmişəm, mən nəqqaş deyiləm. Bu özünüzə də əyandı, məni çək-çövürə salmayın. And tələb eləməyin» deyirəm, genə inanmırsınız. And da içsəm — yenə də inanmayacaqsınız. Həqqi-həqiqəti deyim ki, əgər nəqqaşlıq qabiliyyətim olsaydı, onu da millətimin yolunda sərf etməkdən çəkinməzdim. Gördüklərimin ondan birini yazdığım kimi, gördüklərimin ondan birini də rəsm edərdim». «Deməli, sən susmayacaqsan, əl çəkməyəcəksən bu qəbahətli yoldan? Millətin üləmasını rüsvayi-cahan etməkdən usanmayacaqsan? Kor olan gözlərin dini-mübinin nurunu görməyəcək?» demişdi, Axund ağa. Sabirin qəlbində bu mükalimə indi də çevrilir, iki bir-birinə düşmən cəbhə kimi, iki bir-birini başa düşən, amma başa düşmək istəməyən, düşmən insan çarpışır, bir-birini ağlatmaq, susdurmaq istəyirdi. İlham isə elə bazarın ortasında Sabirə hökm edir, yazdırırdız

Görmə! Baş üstə yumaram gözlərim,
Dinmə! Mütiəm, kəsərəm sözlərim.
Bir söz eşitmə! Qulağım bağlaram!
Gülmə! Pəki, şamü səhər ağlaram.
Qanma! Bacarmam, məni məzur tut!
Böyləcə təklifi-məhali unut!
Qabili-imkanmı olur qanmamaq?
Məçməri-nar içrə olub yanmamaq?

«Axund ağa, sən də yaxşı bilirsən ki, mən qanmamağı bacarmayacağam. Hər təzə imzamı tanıyıb mənə «sus» deyə

əmr edəndə, imzamı dəyişəcəyəm, gah «Hophop», gah «Əbunəsr şeybani», gah «dəli», gah «çayda çapan», gah «nizədar», gah «ağlar güləyən» gah da... nə bilim kimlər-nələr olacağam. Amma susa bilməyəcəyəm! Qanmaya bilmədiyim üçün, susa da bilməyəcəyəm. Məni məzur tut və ya tutma! Nə fərqi?»

Yolunun üstündə yığnaq var idi, nəzərini cəlb elədi. Bazar avaraları, bekar baqqallar bir tərəkəməni dövrələmişdilər. Yanında xurcundan çıxardığı bir neçə sərnic var idi. Yumurtasatan idi.

Tərəkəmənin başına xeyli adam yığılmışdı. Kişi sərnicdən kəpək içindən çıxardığı yumurtaları nümayiş etdirdikcən hərənin ağzından bir avaz gəlirdi:

— Bıy gözüvü kəpək tutsun, kişi, bu necə qiymətdi? Bu qiymətə də yumurta olar? Qızıl satırsan? Ləl satırsan, nədi?

— Sən öləsən, meyidüvü görüm, əgəm toyuq biləydi ki, yumurtası bazarda bu qiymətə gedəcək, qaqqıltısı aləmi dağıdardı.

— Özü içməyib dadını nə bilir...

— A gədə, tərəkəmə! Qırt toyuq altından yığmısan nədi, laxlayır yumurtaların?!

— Sən imam, sən Həzrətabbas lağlağı eləməyin, əyşi! Qırttoyuq nədi, mən elə şey elərəm? Odieyy... Hacı Mənsim əmimdən soruş. Ömrümdə gör ona bir lax yumurta satmışam?

— Əşi, mənim Hacıynan neyşim var. Elə bircə-bircə çırpım sənin o buynuz burnuva, lax olmasa pulunu verim...

— Səni görüm duz dadı bilməyəsən, kişi... Qarnım cırıldı...

— Əyşi, ağa, başuva dolandır məni, almeyirsan alma! Qoy çıxım gedim, çöllü adamam...

— Aaadəəə... Çöllü haçandan adam olub, aadəə?

Ay gözüvü sənün çörək tutsun, itil get dayna! Nə

sallanıb durmusan bunların içində? Görmürsən dolayırlar səni? Onlar yumurta alandı? Apar genə Hacı Mənsim kişiyə ver, yarım köpük aşağı götürsə də Hacı kişidi, adam sərməknən işi yoxdu. Qutar, sat görək, heyvanlar ac-susuz, qalıb, çıxaq gedək obamıza... Şər vaxtına düşərik...

Bunu tərəkəmənin həmkəndlisi deyirdi. Kim isə sərniclərini xurcuna yığıb aradan çıxmaq, köhnə müştərisi Hacı Mənsimin yanına getmək istəyən kişinin başına ağır bir qapaz ilişdirdi. Sərnicin biri diyirlənəndə tərəkəmənnn yoldaşı atılıb tutdu. Gülüşmə, qaqqıltı bazarı başına götürmüşdü. Sabirin kəndlinin halına ürəyi ağrıyırdı: «Fağır kəndli. Balalarının boğazından kəsib gətirdiyin yumurtanı da rahat satmağa qoymurlar. Allah insaf versin bunlara». Onsuz da qanı qara idi. Kəndlinin vəziyyəti, bazar avaraları əlində sərgərdan qalması onum yadına nədənsə bir-iki il bundan əvvəl baş vermiş hadisəni saldı. O zaman hələ «Məktəbi-ümmid»i açmamışdı. Odey, həmin o kəndlinin burnuna yumurta çırpan qəssabdan quyruq alıb aparır, sabun bişirib satırdı. Bir gün qəssablardan biri də ona quyruq satmamışdı:

— Seyidəli ağa kimi bir cənnətlik kişinin də qəbrini qazıt-mazıta, o lənətə gəlmiş «Molla Nəsrəddin»ə vuran adama satılmalı quyruq yoxdu məndə.

— Atam balası, incimə məndən, sata bilmərəm sənə quyruğu, Hacı axund özü deyib ki, onuynan alver haramdı.

Bu kimi sözlərlə hərəsi bir cür qəlbinə dəyib, onu əliboş qaytarmışdı: «Bülurnisə fağır yəqin ki, indi dünəndən əridilmiş quyruqların büzdümlərini də qovurub çızdağ eləyib, yağını çıxardıb. Gün var idi ki, qonşudan qohumdan, könlü istəyən, ehtiyacı olan bu büzdümləri aparıb quyruq bozbaşı eləyirdi. İndi ehtiyacı olan da gəlmir, könlü çəkən də. Yaxşı ki, Kalvanın böyründəki Suraxanı kəndindən qonağım Meşədi Sadıq bizimçin kömür, satmağa da meyvə gətirib. Quyruq yağı, sabın alıb aparacaq. Bülurnisə kişinin

gəlməyinə elə sevindi ki, elə bil uzaq səfərdən itkin düşmüş qohumu tapılıb gəlib çıxdı. Yaxşı oldu. Həm uşaqlar meyvə üzü görər, həm alıcı olar, həm də sabından, quyruq yağından aparar o behiştin bir guşəsi olan dağ kəndinə. Elə kişi bizi hey qonaq çağırır. Bir yol özüm getmişəm. Ağırdı yolları... Amma arvad-uşaq apara bilməmişəm. Bizdə yaylağa çıxıb istirahət eləməli hal, vaxt, keyf hardadı?.. Kişinin gəlməyi yaxşı oldu. Amma bu yandan da bu zalım oğlanları mənə quyruq satmadılar. Bəs neyləyəcəyik? Mənə qalsa, cəhənnəmə satsınlar, bir də gora... Zəhləm gedib o tiyandan. Canım dincələr. Amma bəs külfət nəynən dolanacaq?»

Özü də dünən məcmuə gələndən bəri dilxor idi. «Molla Nəsrəddin»in 26 may 1908-ci il tarixli 21-ci nömrəsi Şamaxı qaragüruhunun əlinə bəhanə düşmüşdü. Burada rəssam Şilinq gözəl bir gəlini qəbiristanda bir qəbrə yalvaran vəziyyətdə rəsm etmişdi. Şəklin altında iki yazı vardı. Birinci beləydi: «Şamaxıda Hacı Ağa Seyidəli ağanın qəbri-şərifi». İkinci yazı nəzmlə gəlinin dilindən idi: «Qurban olum qəbir sənə. Bizə də bir uşaq versənə». Şamaxılılar özləriii təhqir olunmuş zənn etdilər. Qəbir onların müqəddəs saydığı bir ruhaninin idi. Altındakı nəzm... bəlkə elə təkcə iki misra Şamaxı qaragüruhunun əlinə bəhanə düşdü.

Hələ mart ayında Sabirin «Molla Nəsrəddin»də imzasız çap olunmuş «Barakallah» satirası şairin o günlərdə Şamaxı baqqalları, qaragüruhun içində vəziyyətini açıq-aydın göstərirdi:

Sən beləmişsən balam? Ay barakallah sənə!
Fisq imiş əmrin tamam? Ay barakallah sənə!
Dorru imiş şairin olmaz imiş məzhəbi!
Kafir olurmuş bütün mirzələrin əğləbi...
Şüğli qəzet, telqram, ay barakallah sənə!
Ay adama oxşamaz, bir üzünə baxsana!

Bom-boz olub saqqalın rəngü həna yaxsana!
Mömin olub bir üzük barmağına taxsana!
Ta ki desin xasü am, ay barakallah sənə!
Yox xəbərin, binəva, heç özündən sənin,
Lap malağanlıq yağır girdə gözündən sənin!
Doğrusu mən ürkmüşəm bəzi sözündən sənin
Vermərəm artıq salam, ay barakallah sənə!..
Ağzına olsun qadam, ay barakallah sənə!

Burada adı çəkilməsə də «şair», «mirzə» Sabirin özü idi və «məzhəbi olmayan», «kafir mirzə», «adama oxşamaz», «üzündən malağanlıq yağan» ifadələri bazar ağsaqqallarına və Şamaxı qaragüruhuna məxsus ifadələr idi. Onların içərisinə düşmüş yeganə adam Sabir idi ki, özləri kimi «bomboz olmuş saqqalına rəngü həna» yaxmırdı, «barmağına möminlik nişanəsi olan əqiq üzük taxmırdı». Bu satira düşmən cəbhənin dililə olsa da, böyük Sabirimizin o illərki dəqiq portretini verirdi. Doğrudan da bazarda, dükanda, küçədə, meydanda Sabir çox vaxt belə sözlər eşidirdi. Arxasınca lənət yağdıranlar, «kafir, babi» sözlərini qışqıranlar, salamını almayanlar, haqq-salamı, qohumluq əlaqəsini kəsənlər də var idi. Var yox, yox çox idi. Həm də bədbəxtçilikdən bu elə illər, aylar idi ki, Sabir məhz bu altı, yeddi, səkkizinci illərdə və azca sonra «Molla Nəsrəddin», «Bəhlul», «Zənbur» kimi güclü satira jurnallarında özünün dünya şöhrətli satiralarını bir-birinin ardınca yazırdı. «Molla Nəsrəddin»in bu dövrdə demək olar ki, bütün nömrələrində Sabirin satiraları çap olunurdu. Beynəlxalq mövzuda, İrana, Türkiyə irticasına qarşı... Məişətdəki geriliyə, avamlığa, cəhalətə qarşı, xırda qızlara, qadınlara edilən zülmə qarşı, islamiyyətin acı bəlalarına qarşı, bütün İslam dünyasının acı bəlalarına qarşı... Və bu satiralar hərəsi gündə başqa bir imza ilə və ümumiyyətlə imzasız çıxsa da, onları maarif, işıq, xalq dostları oxuyan kimi tanıyırdılar.

Sevinirdilər. Sabirin şöhrəti nəinki Şamaxı ziyalıları, hətta bütün Azərbaycan ziyalıları arasında artdıqca, Azərbaycan dilinin anlaşıldığı bütün məmləkətlərə yayıldıqca bu şöhrət doğma yurdunda, — Şamaxıda ona qarşı hücumlar, hədələr, qarğış və lənətləri çoxaldırdı. Bu gün də belə oldu. Dünəndən bəri Ağa Seyidəli ağanın qəbrinin şəklini görən və bir-birinə göstərib kini, qərəzi dərinləşdirən qaragüruh qəzəblənmişdi. «Qab qaba dəyən kimi» bütün Şamaxı bir-birinə dəymişdi. Bəlkə də 11-ci nömrədəki «Barakallah»dan Sabirin Şamaxıdakı vəziyyətini bilən «Mollanəsrəddinçilər» Şamaxı haqqında bu qədər açıq bir yazını, şəkli dərc etməməli, öz sevimli Hophopunu qorumalıydı. Kim bilir?

Hər halda, bu gün deyil, son həftələr, aylar ərzində Sabirin Şamaxıda yaşayışı özünün dostlarına yazdığı məktublardan aydın olduğu kimi cəhənnəm əzabı idi. Günorta naharına evə getmək istəyirdi. Suraxanılı qonağının iş-gücündən xəbər tutmalıydı. Görsün kişi gətirdiyi meyvəcatı qonum-qonşu arvad-uşağına satıb qurtarıbmı? Bülurnisə kişiyə gərək olan qədər ərinmiş quyruq yağı tədarük edib onun bərnilərini doldurubmu? Axı, sabah gün çırtmamış Məşədi Sadıq atını yükləyib Ağsu ilə Şamaxı arasındakı silsilə dağların lap uca yerlərindən birində yerləşən böyük Kalva kəndi yaxınlığındakı xırdaca Suraxanı kəndinə qayıtmalı idi ki, isti düşənəcən özünü kəndinə yetirsin. Sabir hərdənbir Məşədi Sadıqdan soruşardı: «O Bakı yanındakı Suraxanı sizdən köçmədi, ya siz oradan?» Kişi cavab verə bilməzdi. Sonra deyərdi: «Əyşi, Məşədi, şamaxılılarda bir söz var, birinə acığı tutanda arvadlar deyər: «ay sənin torpağın Suraxanıya daşınsın». Bilmirsən bunu neyşə deyiblər? Axı, Suraxanının yer-yurdu çox gözəldi, cənnətdi. Onu niyə qarğış yeri eləyiblər?» Məşədi Sadıq belə suallara cavab verə bilməz, məhəbbət dolu gözlərlə sevdiyi şairə baxardı. Kişi Sabirin dillər əzbəri olmuş satiralarının çoxunu əzbər bilirdi. Qəribə hafizəsi vardı bu bisavad kişinin. Bircə onu deyərdi ki: «Mirzə,

vallah nədi, necədi, bilmirəm. Ancaq onu bilirəm ki, bizimçün yazırsan hamısını. Bizimçün». «Bizimçün» deyəndə Məşədi Sadıq daxili bir hiss ilə Sabiri dərindən duyur və anlayırdı ki, Sabir fağırların tərəfin-dədir.

Həmin o gün Sabir dükanın qapısını bağlayıb evə tərəf yollananda yenə də ürəyində Məşədi Sadıq ilə danışır, deyirdi: «Kaş sənin anlağından Hacı axundda, baqqalbazarın baqqallarında da bircə misqal olaydı».

Yolu həmin bu baqqalbazarın içindən keçirdi. Şıxminasacan demək olar ki, yolun hər iki tərəfi dükanlar idi. Dəmirçilərin, nalbəndlərin, misgər-lərin, xarratların işlədikcə qopardığı gurultu Baqqalbazarın hay-küyünə qarışıb qəribə bir musiqi yaratmışdı. Heç baqqallar cərgəsi yarı olmamış bir neçə nəfər əli jurnallı, qırmızısaqqal, gözləri sürməli, dodağı zikirli kişi onun qənşərinə keçdi.

Sabir ayaq saxlamağa məcbur oldu. Elə Sabir ayaq saxlayan kimi də baqqalbazara sükut çökdü. Sanki gizli bir əmr ilə «qurbağa gölünə daş atdılar». Hamıya xəbərdarlıq elədilər. İlk söz, ilk hücum elənməmiş dükanını bağlayan da, bağlamayan da buraya cumdu. Adam çoxaldı. Sabir indi üzük qaşı kimi dövrəyə alınmışdı. Nəfəslər üzünü, boynunun ardını yandırır, ürəyini bulandırır, daxilində qəbul etmədiyi, edə bilmədiyi bir çevriliş, bir üsyan oyandırırdı.

— Aaadə, ay adama oxşamaz, bu nədiy-aaadəə?

— Bir bu qalmışdı? Hansı bir daxili hissin əmriləsə Sabir bircə cümlə dedi:

— Əşəhədənbillah mənim o şəkildən, o qəbir məsələsindən xəbərim yoxdu...

Sözü yarımçıq qaldı. Uğultu, atmacalar, lənətlər, qarğışlar, təhqirlər, hücumlar, dolu kimi böyük şairin üstünə yağmağa başladı:

— Əşhədənbillah sənə qənim olsun yalansa...

— Sən inanırsan ki?.. Bidin!

— Kafir!

— Babi oğlu babinin bir saqqalına bax...

— Sifətinə bax, malağandı durub...

— Şairsən, get şairliyuvə... Dinnən neyşün var?

— Özünü gəbərtmək lazımdı zındıq oğlunun... Qanı halaldı...

Halqa getdikcə daralırdı. Çürümüş dişlərin, üfunətli ağızların dərunundan qopan napak nəfəslər şairi alışdırıb yandırmaq əvəzinə, üfunətə qərq edirdi. Şair boğulurdu. Elə indicə ustadı — müəllimi Hacı Seyid Əzimin vücuduna daraşan əllər onun da boğazına ilişəcəkdi... Cüssəsiz Sabirin vücudu ölümündən üç il əvvəl ayaqlar altında didiləcəkdi...

— Çəkilin!..

— Xəbərdar... Aaadəə korsuz aadəəə? Görmürsüz Hacı ağa gəlir?

— Yol verün, yol verün!..

Bir neçə adam dürtmə, qamçı zərbəsi yedi. İnsanlar aralanıb canlı divar yaratdı. İmamlı məhəlləsinin ağsaqqalı Hacı İman kişi arxasınca da oğlanları dilmanc Ağalibəy, Cəmo bəy və bir neçə başqa ziyalı, tanınmış, qabaqcıl fikirli tacirlərdən Şeyxov, Səmədov, Səlamzadə, Mir Zeynal ağa ilə birlikdə genişlənməyə başlayan qaragüruhu geri basıb ortaya keçdilər. İndi Sabir maarif dostlarınım içindəydi. Bu dəfə onu ikinci canlı hasar dövrəyə almışdı. Əvvəlcə bu dəstənin də Sabirə lənət yağdıracağını güman etmişdilər. Lakin işin dəyişdiyini, Sabirin əllərindən çıxmaqda olduğunu görüncə, arxa cərgələrdən yenidən qara-qışqırıq qopdu:

— Aaadəə, bu babi uşağı babi onun tərəfindədiy — aadə?

— Bəs nə bilmişdin? Onların elə hamısının uşaqları orda-burda Ursetdə urusuycan oxuyur.

— Sən Sabir Ələkbər ol, biz də biz..

— Allah özü qənimin olacaq.

— Allah yolunda özüm tökəcəm qanını.

Sabiri əhatə edən dəstə bazardan çıxıb Şıxminasa tərəf uzaqlaşdı. Bu ağır dəqiqədə dostlardan heç biri onun yanında durub, üz-üzə qalmaq istəmirdi. Böyük insanın, böyük şairin, əvəzsiz vətəndaşın xəcalət çəkməsini, dərdli anda başıaşağı olmasını rəva bilmirdilər. Odur ki, dəstə təhlükəsiz yerə — məhəllənin başlanğıcına çatanda, bir-bir, xudahafizləşmədən, gəldikləri kimi səssizcə ayrılıb getdilər. Kim xəbər vermişdi? Kim toplayıb gətirmişdi onları? Bilmədi şair. Yanında bircə yaşca ondan çox-çox, lap babası Hacı Tahir qədər böyük olan Hacı İman qalmışdı. Bircə onun dədə-baba qaydasınca Sabirə söz demək, nəsihət eləmək hüququ var idi. Odur ki, yanınca gedən Sabirə bir ağsaqqal, ata qayğısı ilə deyir, sanki oğlunu qabağına qoyub nəsihət eləyirdi:

— Atam, qardaşım, sən şamaxılıları tanımırsan bəyəm? Bəyəm biz şair görməmişik? Şair yazar güldən, bülbüldən (Sabirin qəlbi deyirdi: «Bülbülə, eşqə, gülə dair yalan fırlatmışam»). Burda hansı daşa toxunsan, altında bir şair yatır. Bəyəm şamaxılılar şair görməyib? Görüblər. Bilirlər. Sən də yaz güldən, çiçəkdən, yardan, dilbərdən. «Şairsən — şairlüyüvü elə, — deyərlər adama, baqqalsan baqqallığuvu». Sat sabunuvu, saxla külfətüvü. Əvvəllər gül kimi mərsiyələr yazardın. Adam oxuyanda, eşidəndə gözündən bir yaylıqlıq yaş gedərdi. (Kaş yazmayaydım, mənsizdə Qumrisi, Dəxili, Racisi az ağlatmayıb milləti, bədbəxt milləti. Elə onlar deyil məgər evini yıxan camaatın, avamların? Onlar deyil məgər qəflət yuxusunda yatırdan el-obanı, xalqını, bütün islam dünyasını? İranı, Türkiyəni, Ərəbistanı» — düşünürdü şair).

Hacı İman deyirdi: Əvvəllər Ələkbər şəbehi olardın, yaxşıca da səsin vardı, təkyədə oxuyardın... Sənin mollada, axundda nə işin var? Bir çətən külfətin var. Gündə birinə dəyən söz qoşursan — verirsən qəzetə, jurnala. Düşmən qazanırsan özüvə. Söyülüb-döyülürsən. Bir gün axuruva

çıxarlar, balaların başsız qalmaz bəyəm?

Bəli! Şirvan öz oğulları ilə həmişə belə rəftar eləyib. Xaqanini tərki-vətəi elətdirən kim idi? Nəsiminin Hələbə gedib çıxmasına, dərisinin soyulmasına səbəb kim idi? Seyid Əzimin balalarını başsız qoyan kim idi? Özün hələm bir yana. Külfətinlə də özün bilərsən! Amma axı, sənin ucbatından qohum-əqrabanın da günü qara olub, əppəyi para. Bazara-tükana çıxa bilmirlər. Alverdən qalıblar. Anan bədbəxt hamamda, toyda, vayda arvadlar arasında başı sərkili olub. Bizim ev əhli o gün mənə nələr danışmayıb sizin zənən-uşağın çəkdiyindən. Elə öz külfətin də zənən-uşaq arasına çıxa bilmir. Başı sərkili olub. Üzü danlaqlı.

Sabirin dərdi böyük idi. Bir dünya boyda. Məgər o dərdin yanında Hacı İmanın öz anlağınca söylədiyi, sadaladığı dərdlər dərd idimi? Sabirin dərdi bütün islam dünyası boydaydı. Bütün islam dünyasında, islamiyyətin hökmülə köləyə çevrilmiş, müslimə təslim olmuş xalqların dərdiydi Sabirin dərdi. Onun gözü önündə əcnəbi avtomobil minirdi, seyrə təyyarələrlə, balonlarla gedirdi. Milləti isə xurafat aləmində, yuxuda göylərə uçur, «uyğu» ipilə cənnətə kəmənd atır, huriləri, qılmanları qucaqlayırdı». Ona göz açıb ətrafına baxmağa imkan vermirdilər. Xurafat ilə başını piyləyib on bir ay ağladır, bir Novruzunu da bəzən gah orucluğa, gah məhərrəmliyə qatıb göz yaşı tökdürür, öz əlilə öz başını yardırır, sinəsinə döydürür, zəncir vurdurur, təpəsinə yumruqlar çırpdırırdılar. Bu «sədaqət» anındaca əl salıb cibini soyur, özünü quru yurdda qoyurdular. Sabirin dərdi böyük idi! Dünya qədər... Məgər onun — bu böyük dərdin yanında ev, külfət, qohum-əqrəba sərkisi dərd idi?

Sabir əslində indi ona xeyirxahlıqla nəsihət verən, yaxşılıq arzulayan Hacı İmana üz tutsa da, demək istəyirdi: «Axı, mən şairəm!»

Şairəm çünki vəzifəm budur əşar yazım,
Gördüyüm nikü bədi eyləyim izhar, yazım,
Günü parlaq, günüzü ağ, gecəni tar yazım,
Bədi bəd, əyrini-əyri, düzü-həmvar yazım.
Niyə bəs böylə bərəldirsən, a qare, gözünü?
Yoxsa bu ayinədə əyri görürsən özünü?

Hələ mən dörddə birin yazmayıram, karına bax!
Üzümə gündə söyürsən bu qədər, arına bax!
Özün nnsaf elə, əfkarına, ətvarına bax!
İstəməzsən yazım — öz eybli girdarına bax!
Kişi! Sən eybini qan, mənlə əbəs cəng eləmə!
Özünü, həm məni bu barədə diltəng eləmə!

Necə mən dörddə birin yazmağa qadir degiləm,
Qorxur ondörddə birin yazmağa həm əhli-qələm,
Sən əgər söz verəsən: «Qorxma; qıl əhvalı-rəqəm!»
Vəz halın yazılarsa zili zilü bəmi bəm,
Eylə bir halə düşərsən ki, tükün biz-biz olar,
Əyninə geyməyə şey tapmasan, astar üz olar!

Sabir elə o gün bazardan, qəssab dükanlarından əliboş qayıdan vaxt baqqallığın, sabun bişirib satmağın daşını atdı. Bir neçə gün sərgərdən dolandı. Sonra da «Məktəbi-ümmid» meydana gəldi. Bir müddət bu ümid çiçəyinin açması ona ilham verdi, ürək verdi, can verdi. Gözləri işıqlandı... Ümidi çiçək açmışdı deyə ruhu da yüksəlmişdi.., Amma çox çəkmədi... Soldu o çiçək... Gülzara çevrilə bilmədi. Dükanından sabun almayanlar, məktəbinə uşaq verməyənlər bu gün onun Şirvandan didərgin düşməsinə elə bir şərait yaradıblar ki!.. O təzəcə dünyaya gəlmiş, səkkiz qız üstə tapdığı oğlundan, anaşım adlandırdığı Səriyyəsindən, övladlarını bir-birinin ardınca əlindən alan əzrayıldan

saldırdığı Səkinədən ayrılıb Bakıya getməyi qət etmişdi qəlbində. Bəlkə orada, o maarif ocağında arzusuna qovuşa biləcəkdi...

«QARIŞIQDIR HƏLƏLİK MİLLƏTİN İSDEDADI»

Daha cana doymuşdu. Tabı da qalmamışdı. «Ağladıqca kişi qeyrətsiz olur» bilsə də, az qalırdı ağlasın. Odur ki, uşaqlıq dostu və həmfikiri, Qori müəllimlər seminariyasında çalışan Soltanməcid Qənizadəyə bir məktub yazdı. Məktubun hər gəlməsi acı bir fəryad, bir nalə idi. Yorğun, tiyan tüstüsündən gözləri tutulmuş, lənətlərdən cana gəlmiş, hədələrdən ürəyi üzülmüş, ümid məktəbi bağlanmış, səbrin atası adlansa da, səbri tükənmiş Sabirin məktubunun hər gəlməsi ziyalının ürəyinə basılan göz idi!

Sabir Şirvandakı bu günlərini elə yanğılı bir dillə təsvir edirdi ki, izaha ehtiyac yoxdur. Bu məktubu oxuduqca o zamanın cahillərinə, nadanlarına, onlarla sabirləri məhv edən islamiyyətin amansız qanunlarına nifrətdən özünü saxlaya bilmirsən. Əsərlərindən cəsur, mübariz, qorxmaz «Qabili-imkanmı olur qanmamaq?», «Zatını Sabir tanırkəi qorxmaz ovhamat ilə» deyən dovtələb şairi, «qocaman dağa bənzəyən», cəhalət dəryasında «dağ kimi duran», «Seylitənə baxmayaraq cürətlə dayanan» Sabir, bu dəhşət gətirən məktubunda yalvarırdı:

> «Qoriyə, yanvarın əvvəli 1908 — S. M. Qənizadəyə.
> Ki dəsti təşnə migirəd bər abi
> Xudavəndi fəzl... axır səvabi[1]
> Davərim əfəndim!

---

[1] Hər kim susuzluqdan yananın əliidən tutsa, allah xatirinə savab iş görür.

Keçən sənə öz həmvətənlərimə hümmət bağladım, lakin bu xidmətlərə qarşı onlardan mükafat əvəzinə aldığım mücazatlara da pək ağladım. Daha taqətim, səbrim başa gəlibdir. Yusif kimi ixvan əlində əsir qalmışam. Birisi sillə ilə üzümə vurur, ağuşi-məhəbbət açıb o birisi tərəfə yönəldikdə yumruğun başıma zollayır. Ondan rugərdan olub başqasına mütəvəcceh olduqda döşümdən itələyir, ağzımdan vurur, ona dal çevirəndə digəri dalımdan vurur, ağzı üstə yıxılıram... Halım fəna, güzəranım bir qəmli faciə mənzərəsindədir. Bir daha Şamaxıda qalmağa tabü-təvanım yoxdur, yenə Sizə ümidvar olub da dərdi-sər verməyə cəsarət edirəm...

Baz amədəəm bədərgahi-to iltica konəm,
Gər hacətəm rəva nə koni, ru koca konəm?[1]

Acizanə istida edirəm, bundan artıq mənim burada katorqa cəzasına məhkum olub qalmağıma razı olmayasınız. Lütf və mərhəmət əlinizi mənim tərəfimə uzadıb, bu cəhənnəmdən məni xilas edəsiniz.

21 nömrəli «Zənbur» məcmuəsinin posta qutusunda «Rəhm qıl Sabir» ünvanlı bir beyt var idi. Şamaxılılar məni zənn etdilər və halonki, mən deyiləm. O dəxi məndən ötəri təsir-bəxş, suizənn oldu. Təvəkkül bərxuda.

Baqi ixlas və məhəbbət
Ələkbər Sabir Tahirzadə Şirvani».

Cavabı çox gözləməli olmadı. Soltanməcid Qənizadə ona ümid dolu bir məktub yazmışdı. Qoridə müəllimlik yeri boşalacağını, attestatı olarsa Sabirin bu yeri tuta biləcəyini

---

[1] Yenidən, dönüb sənə üz tutub gəlmişəm, əgər xahişimə dərdimə əlac etməsən hara üz tutaram?

yazmışdı. Oxucum, təəssüf ki, arxivi viran qalmış şairimizin aldığı o məktubu sizə eynilə çatdıra bilmirəm, amma Soltanməcid Qənizadənin xatirələrindən aldığımız Sabir məktubları göstərir ki, bu aylarda o, müəllimlik hüququ almaq üçün nə qədər səylə çalışmışdır. Ailəsinin yeganə ruzi mənbəyi olan sabun dükanını satmışdı. Bakıya gəlmişdi. Döymədiyi qapı qoymamışdı. Hophop dostlarının köməyi ilə nəhayət ki, imtahan verə bilmək üçün icazə ala bilmişdi. Axı, başqa cür ola da bilməzdi. Ruhanilər, köhnəpərəstlər, başı cənnət hurilərinə qarışmış dindarlar Sabiri yaxşı tanıyırdılar. Ona uşaq etibar etmək, onu məktəbə buraxmaq, balaların başını göz görə-görə üsyankar fikirlərlə doldurmaq olardı. Əlbəttə, bacardıqca bu işə mane olmaq lazım idi və mane olanlar az deyildi. Sabir düşmənləri burada — ruhani də, «ziyalı» da — birləşmişdi. Sabirə qarşı, tərəqqiyə qarşı. İnkişafa qarşı! Millətin oyanmasına qarşı!

Elə bu zaman Sabir hətta nifrət etdiyi ruhanilərin qapısını döyüb şəriət müəllimi olsa da, attestat almağa razı idi. Çalışır, çabalayırdı. Amma qələmi də əlindən yerə qoymurdu. Bu günlərdə, bu aylarda, bu illərdə «Molla Nəsrəddin»in demək olar ki, hər nömrəsində, başqa gülgü jurnallarında da Sabirin ölməz satiraları bir-birinin ardınca nəşr olunurdu. Amma əsas məsələ attestat idi. Şəriət müəllimliyinə imtahan verməyə «hazırlaşan» Sabirin Soltanməcid Qənizadəyə yazdığı məktubun ruhu, dili, canı, məzmunu da bu ziddiyyətli günlərin əhvali-ruhiyyəsini əks etdirirdi. «27 yanvar, 1908, Şamaxıdan, Qoridə dusti-dirin və bəradəri-sədaqətayinim Soltanməcid hüzuri-şəriflərinə.

Məktubi-müvəddət üslubunuzu ikinci dəfə olaraq dəsti-şükranəmə aldım. Həqqi-acizanəmdə buyurduq-ları təvəccühati-alilərinə qarşı təşəkkürdən acizəm.

Ümum əbnayi-vətən uğrunda bəslədikləri hissiyyatimillətpərvanələri ərzi-təşəkkürə mövcib ikən,

acizləri kiminin qələmi-şikəstərəqəmi o təşəkküratın ifadəsindən aciz olduğu təbiidir.

Asari-naçizanəm cəhətinə təşviq və təhsir babından tövsif və təmcidimdə yazdıqları bəyanati-alilərinə izhari-iminan edərək üdəba və şüərayi-əsrimizin rəhneyi-tədrisində feyz ifadələri ilə müstəfiz olmağa çox müştaqəm. Hissiyyati-sədaqət-pərvəranələri ilə acizlərini məarifə xidmət və müəllimlər sırasına cəlb etməyə iqdam buyurduqları dəvətnamələri bir səmimi məhəbbətdən nəşət etdiyini dərk edirəm. Yoxsa o rütbeyi-üzmayə ədəmi-ləyaqətimi kəndim gözəl hiss edirəm. Bəli!

Dideyi-pak incənin binəd,
Nazənin comle nazənin binəd.

(pak göz belə görər, nazənin də hər şeyi nazənin görər).

Bari şimdilik lazım olan şəhadətnamələri hazır-lamışam. Bir neçə gündən sonra Bakıya getmək xəya-lında varam. Həqiqətən Siz buyuran kimi sabun və cızdaq tiyanının qırağından qurtarıb bir neçə dəqiqə ömrümdə insan kimi asudə nəfəs çəkib ehtirasati-mohibeyi-vicdaniyyəmi sevgili millətimin tərəqqi vətəalisi yolunda ərzeyi-şühudə qoymaqlığımı barigahihəzrəti-qaziyülhacatdan müstəmədəndanə niyaz edirəm.

Hələlik imtahan məsələləri ilə dolaşmaqdayam, bu əqəbəyi keçdikdən sonra vaxtım müsaidə etdikcə rusca öyrənməyə səy edəcəyəm.

Baqi-ixlas və məhəbbət.

Ələkbər Sabir Tahirzadə Şirvani

* * *

Attestatı əlinə alıb baxırdı! Bu attestat ona icazə, imkan verirdi ki, uşaqlara məktəbdə şəriət dərsi deyə bilsin. Bəli,

şəriət dərsi! Yadına aprelin 11-də daxili bir çəkinkənliklə getdiyi came-şərif düşdü. O gün Quberniya qəzavət məclisində Sabir, Şeyxülislam hüzurunda imtahan verməliydi. Halbuki ustadının ardınca hələ gəncliyində «Adəm kimi danəyə, yəni cənnətrüxün xalına» adlanıb behiştdən çıxmağa hazır idi. Hələ onda demişdi:

Qoyma gələ, saqiya! Zahidi-meyxanəyə
Dönməyə meyxanəmiz məscidi-viranəyə
Urma gireh zülfünə, eylə həzər, ey sənəm!
Oxşamasın şəklidə səbheyi-səddanəyə.

O hətta gözəlinin saçlarını hörməklə təsbehə oxşatmasını belə istəmirdi. Sonralar daha da irəli getmişdi. Şamaxılılar demişkən «ağını çıxart-mışdı. Şitin-şorun çıxartmışdı». «İmana sütun olanları, xalqın nəzərində pak olanları, on arşın qurşaq bağlayıb, məkr işlədənləri» qoca «Molla Nəsrəddin»də hələ iki il bundan əvvəl rüsvay eləmişdi. Onda Hophop idi imzası. «Nəşeyi-qəlyan, kisəvü həmyan» üçün «ah edib ağlayanları» da Hophop biabır etmişdi. Bircə il keçməmiş, lap elə ötən il «Din dirəyi» olub «Oyanan millətin məktəblə bağrı badaş olan şairlərinə, ziyalılarına» hücum edən ruhaniləri xalqa göstərib onların iç üzünü açırdı. Hophopu artıq mollalar tanımışdı. Sabirə qarşı da, Hophopa qarşı da lənət bardağının ağzı açılmışdı. Odur ki, Sabir «Din dirəyi» adından bu qan soranların ürəyindən keçənləri aləmə bildirirdi; onların öz dili ilə deyirdi:

Kafir olub, vurun, vurun!
Rişteyn-ülfətin qırın!
Yazdığı şeirini cırın!
Dinə sataşdı, qoymayın!
Küfrə bulaşdı, qoymayın!

«Din dirəyi» də tanındı, bundan sonra az qala hər şeirinə bir imza uydurmalı oldu. «Çayda çapan», «Qabaqda gedən zəncirli», «fazil»... daha kim olmadı? 1907-ci ilin mart ayı ilə apreli arasında «Molla Nəsrəddin»in bütün nömrələrində bu müxtəlif imzalarla dinə, islamiyyətə toxunan, cəhaləti, xurafatı qamçılayan satiralar yazdı və elə ikinci ayın ortasında «Hörümçəyə» çevrilib 1905-ci il inqilabının təsiri ilə məktəblər açıldıqca, maarif geniş miqyasda yayıldıqca, «işi müşkülə düşənlərin» dilindən düşməyən «la hövlə vəla qüvvətə illah və billah» ayəsini belə satiraya salıb, inqilab, inkişaf qarşısında zağ-zağ əsib qorxuya düşənlərin dili ilə söylədi; «keçən günləri» arzulayanları 1905-ci il inqilabından keçən ikicə il dəhşətə gətirmişdi:

Ax, ay keçən illər, nola bir də dolaneydun,
Təzə yenə beş yüz il olunca dayaneydun.
Elmi, ədəbi, fəzli, kamalatı daneydun.
Ey bildir, inişil, nola odlara yaneydın!
Ta eyləməyəydin də bu qafilləri agah!

«Elin başqa havaya düşməyindən» diltəng olub «Dəxli mənə nə elm oxuya millət uşağı», «Bizlərdə yox idi belə adət yeni çıxdı! Övrətlərə tədrisi-kitabət yeni çıxdı» — deyib, Stolıpin irticasının başlanması ilə əlaqədar qəzet və jurnalların qapanmasına sevinənləri «Qoy köhnələrin daş ürəyi gül tək açılsın» deyə «bayramlaşanları», «Sərsüf-rədə səf çəkib» «Dərvazədə əhli-fəqrin «ya rəb!» nidasını eşitməyənləri, «İftar məclisi»nin təsvirini verən» xuruşunu, sər-səhmanını, qarın güdənləri, «şikəmpərvərləri», «Qəm qüssəni miskinlərə» tərk edənləri, gözüaçıqlara, ziyalılara, şairin özünə «Görmə, dinmə, eşitmə, gülmə! Qanma!» əmr edənləri rüsvayçılıq sütununa sökəyib «bəlayi fəqrə düşən

biçarələrə» tanıdırdı.

Əslində Sabir müəllifliyini heç cür gizləyə bilmirdi. Ailəsinin, əqrəbasının qulaq dincliyi xatirinə nə qədər çalışırdısa, imzalarını dəyipirdisə yenə də tanınırdı. Gizləyə bilmirdi müəllifliyini, bilməzdi də! O bütün varlığı ilə bu xurafat içində çürüməyə, ölümə gedən dünyanın düşməni idi. Bu böyük vətəndaş nifrətindən hansı imza ilə olur-olsun, hətta imzasız yazanda da onu tanıyırdılar. Toxunduğu mövzulardan, sərtliyindən, amansızlığından, barışmazlığından tanıyırdılar. Bilirdilər ki, Yalnız Sabir» yalnız Hophop, yalnız o belə amansızcasına hədəfini rüsvayi-cahan eləyə bilər. Dostlarından əvvəl, rüsvay edilən cəhalət dünyası onu daha tez tanıyırdı, lərzə ilə, titrətmə ilə gözləyirdilər: sabah növbət kimindir? Sabah kimi biabır eləyəcək? Sabah xalqa hansı düşmənini tanıtdıracaq? Əslində imzasını gizlətməyin heç mənası da yox idi. İmzasız da çap olunurdu — tanıyırdılar. Sabir nəfəsindən, Sabir yanğısından məhz, Sabirin güldürə-güldürə ağlada bilmək bacarı-ğından. Dərdləri, İslam dünyasının vərəmlərini, yaralarını, çibanlarını bir cərrah bıçağı ilə doğrayıb, lay-lay, qat-qat açа bilmək məharətindən dəhşətə gəlirdilər.

Dost tanıyır, əvvəlcə sevinir, sonra da şairin həyatı üçün qorxduğundan bu sevinci sönür, Sabiri tanıdığını gizlədir, qəlbində: «Allah səni millətə çox görməsin! Allah səni bəlalardan saxlasın!» deyə düşünürdü. Yalnız ən çox inandığı adamla, ziyalı ilə onun haqqında danışa bilirdi. O da xısın-xısın.

Düşmən tanıyır, dərhal haray çəkir, aləmə yayırdı, nifrət, qəzəb alovunu ətəkləyir, qafilləri ona qarşı qaldırmaq üçün lənət, küfr, qarğış sovurur, hədə yağdırırdı.

İndisə budur, həyat, məişət qayğıları, tiyan tüstüsü, şirvanlıların təqib və hədələri onu necə zinhara gətirmişdir ki, Sabir, Hophop, Qabaqdagedən zəncirli... Həmin

ruhanilərin qibləsindən — Şeyxülislamdan şəriət dərsi demək üçün attestat almağa məcbur olmuşdur. Doğrudur, o bilirdi ki, şəriət dərsini ustadı kimi Seyid Əzim sayaqda deyəcək. Aldatmayacaq, başları piyləmək, gözləri yumdurmaq, ağılları dumanlandırmaq üçün deməyəcək şəriət dərsini. «Əqli tut, ol gözəl rəfiq ilə get» deyəcək. Ustadı kimi şəriət dərsində də ədəb, insanlıq öyrədəcək, vətənin başına gətirilən bəlalardan danışacaq, şeir söyləyəcək, vaxt, yer tapdıqca ziyadan, maarifdən danışacaq. Seyid Əzim şəriət dərslərində onun özünə, nələrdən danışmamışdı? Ədəbiyyatdan, şeiriyyət tarixindən. O da müəlliminin yolu ilə gedəcəkdi. Buna söz yox! Amma hər halda əlində tutduğu, ona müəllimlik hüququ verən attestat əlimi yandırırdı. İndi onum qəlbi ümidlərlə dolmuşdu; güman edirdi ki, Qoridən Soltanməcid Qənizadədən aldığı məktubda göstərildiyi kimi, Sabir Qoriyə «müsəlman tələbələrə» — gələcəyin müəllimlərinə dərs deyə biləcək. Orada qoçuların, qolçomaq mollaların, «ağzı dualı qoca baqqalların», «sonyaları, annaları yannayıb, Fatmatükəzbanları» evlərin küncündə dustaq edənlərin, fağıra bir qəpik verəndə canı çıxan, amma kazinolarda, qumarxanalarda pulu eyş-işrətə, əxlaqsızlığa sərf edənlərin, üç-dörd, kəbinə yaşı çatmayan qızı bədbəxt edib «yan-yana düzən» qırmızısaqqalların... (saymaqla qurtarmaz ki, millətin evini yıxıb quru yurdda qoyanları...) bəylərin, xanların gözündən iraq olacaq, maarif dostları ilə birlikdə çalışacaq, «Molla Nəsrəddin», «Bəhlul», «Zənbur» kimi jurnallara, qəzetlərə xalqının inkişafı yolunda canından keçən ziyalılarla yanaşı durub şeir göndərəcək, mübarizə daha kəskin, daha güclü şəkil alıb davam edəcəkdir.

Gözün aydın, Sabir, tiyanın dibindən qurtardın! Sənə muştulut olsun, şair! Əlində müəllimlik attestatı var. Təhsil görmədən, cəmi bir neçə il molla məktəbində, ikicə il ustad

Seyid Əzimin məktəbində təhsil almaqla özünü necə yetirmisən? Sən şəxsi mütaliə yolu ilə özünü necə hazırlaya bilmisən ki, qəlbimdə, ürəyimii dərinliklərində sənə nifrət edən, bacarsa gözvlərinii qığılcımıyla, oduyla səni yaxıb-yandırmağa hazır olan ruhanilər belə» sənin elmini» biliyini təsdiq ediblər, sənə attestat veriblər?! Sənin nə böyük istedadım var imiş? Ana bətnində sənin bu zərif-zəif vücuduna nə böyük bir düha, bir istedad qoyulubmuş ki, sən onu tiyan tüstüsüylə havaya sovurmamısan, lənət oxları, təkfir seli altında itib batmamısan?

Darıxma, Sabir! Deyəsən dövran üzünə gülməyə başlayıb. Deyəsən «bəxti-mənhusun» sənə üz tutmağa meyl edir. Tələsmək lazımdır. Evə gedən kimi o əziz insana — o möhtərəm, unudulmaz dosta məktub yazıb bu şad xəbəri bildirmək lazımdır. Qoy o da sevinsin. Bilsin ki, müəllimliyinə daha heç bir maneə yoxdur. Sabir artıq baqqal deyil, müəllimdir. Gözün aydın, millət! Sevinin, ey maarif dostları! Sevinin, ey Sabiri, Hophopu sevənlər! Sabir artıq baqqal deyil, müəllimdir, əlində attestatı var!

«23 aprel, 1908.

Fəzilətli Soltanməcid Qənizadə hüzuri şəriflərinə ixtar.

Mənim imtahanım xüsusunda Bakı qubernski məclisin təyin etdiyi gün ki, həmin aprelin 11-ci günü idi, Bakıda olub cameyi-şərifdə imtahan verdim. Attestat isə ənqərib Şeyxülislam idarəsindən gələsidir.

Aprelin 8-də Tiflisdə idim. Çox istərdim ki, oradan xidmətlərinizə gəlib Sizi və qayibanə dost tutduğum Firidun bəy cənablarını ziyarət edəm. Bəxtimin ədəmi-müsaidəsindən, vaxtın təngliyindən Bakıya qayıtmağa məcbur oldum. Ona görə də çox təəssüf edirəm. Müşarileyh cənablarına müttəqanə salam edər, feyzi-ziyarətinə nail olmağımı dərgahi-həqdən niyaz edərəm. Baqi-ixlas və məhəbbət.

Şamaxıdan Ələkbər Sabir Tahirzadə.
23 aprel 1908-ci il».

Məktubu yazıb qurtardı. Ürəyi ümid ilə döyünürdü. Az sonra onu hələ Seyid Əzim məktəbindən sinif yoldaşı və ayrılmaz dostu, onu heç vaxt unutmayan maarifpərvər müəllim Soltanməcid Qənizadədən məktub alar, Sabir Qoriyə dəvət olunar. Gözəl bir niyyətlə Şamaxını tərk edər. «Viranə Şamaxıda tapmadığı gənci-xəzinəni» Qoridə tapar. O xəzinə onun tələbələri, gələcəyin müəllimləri olar.

Oxucum, amma bu gözəl xəyallarla Sabir cəmi bir neçə ay yaşadı. Məlum oldu ki, maarif və şeiriyyət dostları olan Soltanməcid Qənizadə və Firidun bəy Köçərlinin arzusu baş tutmadı. Sabir üçün düşündükləri yer açılmadı; açıldısa da başqasına qismət oldu. Və Sabir bu ağır xəbəri çox çətinliklə həzm etdi. Bununla belə, o xalqın fədakar şairi heç olmasa bir neçə ay xoş xəyallar, ümidlərlə yaşadı. O ağır illərdə bu da bir şeydi.

* * *

Sabirin Şamaxıdan köçməyə hazırlaşdığı günlərdə Bakıdan Şamaxıya cürbəcür xəbərlər gəlirdi. Hər gün malağan furqonu və ya Udulu dəvəçilərinin karvanı ilə Bakıdan məktub, mal, neft alır, əhvallaşır və qayıdanbaş da Qəbələ yeniliklərindən soruşurdular.

— Qəbələdə nə var, nə yox?.. Necədi Qəbələ?

Soruşanlar:

— Köhnə hamam, köhnə tasdı Qəbələ, «şükrlillah necə görmüşdüsə Nuh eyləcədi» Qəbələ! — cavabını alırdılar. Amma:

— Bakıda nə var, nə yox? Nə təhərdi Bakı? İndi hansı arabaçını, palçıqçını bay eləyib?—soruşanlar bu illərdə ən müxtəlif, bir-birindən maraqlı cavablar alırdılar. Bakıdan

gündə bir hava çıxıb gəlirdi. Gündə bir xəbər yayılırdı: «Filan kətçinin, filan palçıqçının, bəhmənkəs arabaçının dədə-baba xarman yerindən nöyüt fantan vurub. Bir gecənin içində kişi oldu filan milyonçu... Boynuna Kərbəla, Məkkə-Mədinə ziyarəti gəldi... Filan milyonçu Bakıda olmadığım bu üç ayın ərzində bir mülk tikdirib başı buluddan, ayağı dəryadan nəm çəkir. «Filan milyonçu mülklərini də, buruqlarını da Qazinoda qumara uduzub — olub müflis. Qabaq onun adına bir mülk alardın, indi heç qoluna da köpük manat verən yoxdu», «Filan milyonçu gedib Firəngistana bir dünya gözəli gətirib, görənlər deyir bu üzündən baxırsan o biri üzü görünür». «Filan milyonçu... xeyriyyə cəmiyyəti... bəhmədən milyonçu... Məkkə... Məkərə...»

Şamaxı kimi nağılbaz, əfsanələr həvəskarı, şair: mübaliğə aşiqi qəza şəhərinə çatan xəbərlər birə beş şişirdi... Heç vaxt Şamaxıdan çıxmayan şamaxılılar elə bilirdilər ki, Bakının küçələrinə, Xəzərin sahilindəki hurilər-pərilər yığnağı bulvara pul-qızıl xəzəl kimi tökülüb. Yığana minnət: «Get yığ — gəti». Bakıdan sovqat gətirməyəndən, gedib orada iş-güc sahibi ola bilməyəndən üz döndərir, dodaq büzür, gileylənir, deyirdilər:

—Əh, gülüm onun başına, maymağın biriymiş. Əlindən iş gəlmir. Sir-sifətin görmürsən? Allah eləsinə dövləti-hatəm kəramət elər? Onunku elə kol-kos dibidi.

—Bir də qardaş, axı, allah adamı istəyə gərək kəramət eləyə? Onu elə istəsəydi, day avaravətən neyşə olurdu?

—Əyşi, vallah bilmirəm sən nə qoyub nə axtarır-san? Nə danışırsan? Allah bəyəm: «Allahdan buyruq, ağzıma quyruq» deyib? Yoxsa: «Səndən hərəkət, məndən bərəkət» buyurub, hə?

— A balam neyşə öz çörəyüvüzü yeyib, özgənin dərdini çəkib çənə yorursuz? Sizə qalıb onun dərdi? Fağır kişinin Bakıda dədəsindən xarman yeri qalmışdı ki, gedəydi, orda

buruq vurduraydı, buruğu da fantan ataydı?

Bu möhkəm «dəlilin» qarşısında hamı susmağa məcbur olurdu. Çünki doğrudan da milyonçuların hamısı bakılı idi və Bakıda torpağı var idi. Qalan o Nobeldi nə zəhrimardı, diş sındıran, dildönməyən adları olan erməni, rus, firəng milyonçuları... Onların da öz yerlərində adı-sanı, pulu olub, sonra gəlib bakılıdan ucuzbəsər torpaq alıb, xamlayıblar bakılıları. İndi Bakıda torpaq çıxıb ceyran belinə. Hər qarışı od qiymətinə, qızıl, qaş-daş qiymətinədi». «Eh... — deyib xəyallanan da olurdu—Gedəsən bir qarış elə nöyütlü torpaq keçirəsən əlinə. Başdayasan özciyəzin qazmağa. Elə bir arşın qazan kimi buruğun fantan eləyə. Bircə saatın içində olasan on milyonçu kişinin biri... Hə... Onda bilər lələşin neynər...»

Şamaxının on iki məhəlləsində bu xəyallar, uydurmalar özünə baş alıb, ayaq tutub gedirdi. Nağıla həvəsli nəvələr üçün xəyalpərvər nənələr elə qəribə nağıllar uydurub danışırdı ki, bir şirinliyi on quyunun gəlirinə dəyərdi. Hər Bakıya köçənin dalınca müxtəlif, əslində müxtəlif yox, iki fikir söylənirdi:

— Bəxtəvər başına, nə var ey bu zəlzələlər dağıtmış bədbəxt Şamaxıda? Gedəcək özüyçün işinin cəmini tapacaq... Yerdən-zaddan əlinə keçirəcək, bir də görəcəksən, nə bilmək olar, allah irasta salacaq. Şamaxıda xəbər çıxacaq ki, filan şamaxılının da buruğu fantan elədi...

İkinci fikir mütləq bunun əksinə olurdu:

— Əh, qadam onun ürəyinə... Cəhənnəm oldu getdi. Elə bilir «Külək əsib, qoz tökülüb». Elə Bakıya kedən kimi olacaq milyonçu Hacının biri. Görmürsən nə təşəxxüslə baxırdı? Adama allah verəndi, elə doğmaca yerində verər. Qadam qürbətə də, onun qazancına da. O qürbət lap o Russarçayın o tayında da olsa, istəmirəm onu. Qoy itilib getsin! Bir babının, bir tərkəsalatın, namaz qılıb, oruc tutmayanın biri əskiləndə Şirvanın gözü yaşarmayacaq.,..

Eləsi elə getsə yaxşı dı. Yoxsa əlidəstəmazlı onun malağan gözü kimi girdə gözünə, bomboz hənasız-rəngsiz saqqalına baxanda adamın namazı, dəstəmazı batil olar.

Sabirin Bakıya köçmək, orada müəllimlik yeri alıb işləmək xəbəri çıxanda da belə oldu. Baqqalbazar iki bölündü. Deyirlər «Füzuli dərd əlindən dağa çıxdı, Dedilər bəxtəvər yaylağa çıxdı». Sabir gün ruzisi əlindən, nifrin, hədə-hədə, hərbə, ölüm qarşısındq Şamaxının çox sevdiyi büllur havasından, yazda-yayda gül ətri ilə dolan həyətlərindən, yamyaşıl məxmər xalıya bürünmüş çölündən-çəmənindən, lalələrdən al duvağ örtmüş dağ döşlərindən, saf, göz yaşı kimi duru gilələnən bulaqlarından, Nanəlidən, Minaxordan, Qozlubulaqdan, Hacı Mövli bulağından, hərəsi bir dərdin dərmanı olub, zümrüd yarğanlardan sızan giləli, kükürdlü şırnaqlardan ayrılıb od saçan günəş altında qızmış qumları lay-lay qaldırıb adamın gözünə, başına çırpan xəzri köhlənli Bakıya gedirdi.

Doğma yurdundan çıxanda Sabirin bütün bu sözsöhbətlərdən xəbəri var idi də, yox idi də. Bəlkə elə o da «Füzuli dərd əlindən dağa çıxdı. Dedilər bəxtəvər yaylağa çıxdı» — deyibmiş. Bilmirəm. Bu neçənci dəfə idi ki, o sevimli şəhərini böyük ürək ağrısı ilətərk edirdi? Neçənci dəfə idi? Biri lap onun demək olar ki, həyatın hələ isti-soyuğunu dadmayan vaxtında, amma dünyada ən çox sevdiyi, ona bütün insanlardan yaxın olan ata-anasından əziyyət gördüyü illər idi. Təzə-təzə şeir deməyə, onları dəftərinə yazmağa başlamışdı. Yox, yox... Yazmaq bir qədər sonra olmuşdu. Mollaxanada oxuduğu illərdə... Amma kağıza yazmaq ayrı şey idi. Onu heç kəsə dili ilə demirdi ki! Atası ilə düşünüşməyinin bir səbəbi də bu yazı marağından irəli gəldi. Hər dəfə onu əli qələmli, yazan görəndə, elə bil kişini cin atına mindirirdilər:

— Hə... Yaz, yaz! Görüm o cızmaqaraçılardan hansına

oxşayacaqsan? Mirzə olacaqsan mənimçün? Molla olub dua yazacaqsan yoxsa? Elə bir ağıl duası yazarsan özünçün. Yaz!

Sonra bu istehzalar, oğul böyüyüb həddi-büluğa çatdıqcan, əlini bazar-dükan işlərinə soyuq vurduqcan daha da artır, qəzəbə çevrilirdi. Elə bil ata özü cavanlığında Seyid Əzimin həmməclisi olmamışdı? Elə bil Mahmud ağa məclislərində şairləri, xanəndələri dinləməmişdi kişi? hardan əmələ gəlmişdi onda bu qəzəb, bu nifrət? Axı, körpə çağlarında oğlu Ələkbərə, Nəsiminin, Füzulinin Əli şənində söylədikləri mədhləri əzbərlətdirib, şeirə həvəsləndirən lə, əyninə «bala dərviş» libası geydirib, əlinə «təbərzin» verəndə bunları düşünməmişdi. Ona elə gəlmişdi ki, oğlu «Əli məddahı» dərviş, ruhani olar, Zeynalabdının şiə dostları içində daha da qayım «Əli şiəsi» kimi tanınmasına səbəb olar. Kişi də həm o «dünyasını qazanar», həm bu dünya şöhrəti qazanar... Ələkbərin cənab şahzadə Əliəkbər şəninə qoşduğu ilk mərsiyəni eşidəndə qanadlanmışdı. Lakin sonralar kişi oğlundan daha az mərsiyə yazdığını görəndə, arada-bərədə xanəndələrin Sabir qəzəllərini oxuduğunu eşidəndə odlandı. Yoxsa qorxdu? Hə.., Qorxmayıb neynəyə bilərdi. Şamaxı, lap elə bütün Azərbaycan mühitində təzə oxumuşları «babi» adlandırırdılar. Zeynalabdın da oğlunun adının bu babilər cərgəsində çəkilməyindən qorxdu. Neyləsin yazıq axı? Bu «müsəlmanların fikrini qan-qan» görüb qorxmamaq mümkün deyildi.

Bir tərəfdən də bazarda ticarəti yaxşı gətirmirdi. Quberniya Bakıya köçəndən sonra, 1872-ci il zəlzələsi vaxtı, 1873-cü il taunundan sonra Şamaxı əski təravətini büsbütün itirmişdi. Alış-veriş kasadlamışdı. Əhalinin bir qismi köçüb getmiş, alıcılar azalmışdı. Zeynalabdın dükan qonşuları ilə rəqabət aparmalı idi. Bunun üçün də onun oğlu dükan işlərinə can yandırmalı idi. Ələkbər isə dükanı xali görən kimi cumurdu ya oxumağa, ya da cızmaqara eləməyə... Bu

kimi hallarda dükanda cəld satıcı görməyən müştəri qonşuya keçir, Zeynalabdın da lap köhnə müştərilərinin belə bəzisini itirirdi.

Belə günlərdən birində Zeynalabdın uzaqdan dükana göz qoyub baxırdı. Müştərilərin gəlib qapıdan qayıtdığını görəndə dəli olmuş kimi tez özünü dükana saldı və Ələkbəri bir küncə çəkilib şeir yazan gördü. Özünü saxlaya bilmədi. Cumdu. Əvvəlcə əlinə onun dəftəri keçdi. Ələkbər cəld tərpənib kişinin böyründən küçəyə qaça bilmişdi. Dəftərin isə ayağı yox idi. Kişi bütün acığını bu şeir dəftərinə tökdü. Cırdı... rizə-rizə doğradı... Tikələrin göyə sovurdu, torpağa düşənini tapdaladı... Ürəyi soyumadı. İndi şeirin atası, onu ilk icad edən adam Zeynalabdının əlinə düşsəydi, yəqin ki, salamat qurtara bilməzdi. Atanın birinci əsl faciəsi bu andan başladı. Doğma, istəkli sonbeşiyi ilə arasında yaranan kəskin, heç bir vaxt keçilməsi mümkün olmayan uçurum əslində bu gün, oğlunun cavan, kövrək qəlbinin ən incə, ən dərin hissləri etibar etdiyi dəftər cırılanda yarandı. Bu dəftər cavan Ələkbərin sirdaşı idi. Utancaq gəncin sirr-söz yoldaşı, müsahibi, qəlbini açdığı dostu idi. Elə bil ki, dəftərin üzəriylə altına mıxlar çaxılmış qaba ayaqqabılı ayaq gəzdi. Elə bil ki, gizli, qənirsiz bir gözəlin üzündən baqqalbazarın ortasında rübəndini götürdülər. Bundan o yanası yox idi. O gün Ələkbər atasına düşmən kəsildi. O gün Ələkbər doğma atasını şikəst edən zəmanəyə nifrət elədi. Ustadının dilindən çox eşitdiyi «ustadi-şeir» Füzulinin bir beytini təkrarlaya-təkrarlaya bir guşəyə çəkildi, qəlbi: «Dust bipərva, fələk birəhm, dövran bisükun. Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun»—deyə-deyə acı-acı göz yaşları tökdü. Axırda da ilk dəfə həmdərdi olmayan vətəndən, ata evindən üz döndərdi. Özünü əsrin Xəlilullahına, atasını — Azərə bənzətdi. «O mənim şeir dəftərimi cırdısa, mən onu təbimin köməkliyilə yenidən işıqlandıracağam» deyə farsca həmin

məşhur rübaisini yaratdı:

Mən Xəlilullahi-əsrəm, pədərəm çon Azər.
Səfər əz Babile-Şirvan konəm inşallah!
Gərçi u dəftəri-əşari-məra pare nomud,
Vəsli-ba təbe-dorəfşan konəm inşallah![1]

Dedi və qəti qərarını verdi. Bu onun ilk müstəqil, qəti qərarı idi. Yerinə də yetirdi. Elə həmin gecə, sübhə yaxın Şamaxını tərk edib Bakıya tərəf yol alan karvana qoşuldu, ata yurdundan ayrıldı. Doğrudur, heç bir gün keçməmiş Zeynalabdın at bağrı çatladıb özünü ona yetirdi, yaşı hələ on beşə çatmamış oğlunu Şamaxının bir mənzilliyindən geri qaytardı... Amma qəlbləri barışmadı...

İkinci dəfə Sabir yenə də ata yurdundan sınıq könüllə ayrılanda artıq onun 23 yaşı var idi. İndi o, Seyid Əzim kimi bir ustadın bəyəndiyi Şamaxı zəriflərinin, incəsənətə, poeziyaya qiymət verən Şamaxı ziyalılarının bir şair kimi qəbul etdikləri Sabir təxəllüslü şair idi. Dövrün Hacı Seyid Əzim, Bixud, Qənnadi, Raqib kimi tanınmış qəzəl şairləri cərgəsində onun da adı çəkilirdi. Məclislərdə ona ədiblər, ziyalılar cərgəsində yer verilirdi. Amma Şamaxı mühiti öz «musiqi aləmi», «şeir dünyası , «Mahmud ağa məclisləri», «Seyid Əzim məktəbi» ilə belə Sabirin canına, ruhuna, ilhamına dar gəlirdi. Sabir dünyanı görmək, bütün yer üzünü gəzmək mümkün olmasa da, heç olmasa Şərqi dolaşmaq, görmək, götürmək, aşina olmaq, öyrənmək istəyirdi. Baqqalbazar ona quş qəfəsi kimi darlıq edirdi. O isə əngin göylərə uçmaq, ilham pərisi ilə qanad-qanada «masəvadan-

---

[1] Mən əsrin Xəlilullahıyam (İbrahim peyğəmbər) Şirvan Babilindən səfər etdim. O (atam) şeir dəftərimi cırdısa da, işıqlı ilhamımın (təbimin) köməyilə mən yenidən yaradaram.

ənginliklərdən, fəzanın dərinliklərin-dən ərzi-kürreyi-ərzi, ucsuz-bucaqsız kainatı seyr etmək istəyirdi. Ustadı Seyyid deyərdi: «Yüz eşitməkdən bir görmək yaxşıdı. Əsl həyat mədrəsəsidi səyahət».

Atası onu karvandan qaytaranda söz vermişdi ki, bir vaxt özü ona Xorasana — Məşhəd şəhərinə, vaxtilə özünün gedib ziyarət etdiyi «Qəriblər arası — qərib imam Rzanın» qəbrini ziyarət etmək, Məşədi Ələkbər ola bilmək üçün izin verəcəkdir. Belə bir gün gəlib çatdı. Sabirin dönə-dönə xahişlərini nəzərə alan atası icazə verdi və Sabir, gələcəyin Hophopu Şamaxıdan ayrılmasını bu dəfə də bir rübaidə «maddeyi-tarix» şəklində ifadə etdi; irəlidə bildiyimiz kimi 1884-cü ildə səyahətə çıxdığını başqa şeirində bildirdi.

Uzun çəkdi, səyahətə çevrildi bu səfər! «Yarım dünyanı» gəzdi, dolandı. Bir daha atası ilə görüşə bilməli. Elə atasının ölümü də onu yenidən Şirvana — Şamaxıya qayıtmağa məcbur elədi.

Sabir indiki kimi xatırlayır: «Bir dəfə də qardaşı və ailələri ilə birlikdə Şamaxını «əbədilik tərk eləyib Məşhədə getmişdi. Heç iki il çəkmədi, qürbət xəstəliyi, daimi düşmənləri olan ruhanilərin təqibi. Yox, yox, vətən həsrəti, vətən məhəbbəti qaytarıb gətirdi onu yenidən bu doğma yurda. Hər daşının dibində bir şair məzarı, torpağının hər zərrəsi bir şair xəyalı, yumruq boyda kəsəyə çevrilmiş qomalar bir şair ürəyi olan Şirvan... «Yeddigümbəz», «Şaxandan», «Lalazar»da yatanların, cismi ana torpağa, əsərləri əbədiyyətə, bir xalqın şöhrətinə çevrilmişlərin məzarı çəkdi gətirdi bura onu...

Budur bu gün o yenə də həmin istəkli torpağın yetirdiyi qanqalların, qaratikanların əlindən baş götürüb gedir. Səkkiz qız üstündə tapdığı oğlunun həsrətilə dağlanmış ürəyi çırpına-çırpına ayrıldı Şamaxıdan...

Bəlkə də Sabir heç bilmirdi ki, onun ardınca iki ürəkdən

xüsusilə qanlar axır. Bunların biri onun baş yoldaşı, balalarının anası Bülurnisə idi. «Anaşını», yeganə oğlunu tapşırıb getdiyi, bütün dindar hədələrinə, dedi-qodulara, valideynlərin tələbinə, təkfir qorxusuna baxmayaraq onun daşını atmayan ömürgün yoldaşı Bülurnisə. Tiyan dibində onunla birlikdə piy və quyruq əridən, sabın bişirən, eyni zamanda, ev-ailə qayğıları çəkən Bülurnisə. Ən acı, ən ağır dəqiqələrində belə mehriban üzünü zərif təbəssüm tərk etməyən ərindən ayrılmaq, üç uşaqla doğma da olsa düşmən mühit içində tək qalmaq zarafat deyildi. Bununla belə ayrılığa mərdanəliklə dözürdü. Sabirin orada — Bakıda qırmızısaqqal kablayılar kimi ikinci arvad ala və ya siğə edə biləcəyini ağlına belə gətirmirdi. Yalnız o xəstə vücudlu insanın qulaq dincliyini düşünürdü: «Get, get ay fağır... Get, bəlkə bu namərdlərin söz-sovundan qulağın bir az dincələ!.. Bizdən nigaran olma! Təki sən sağ ol! Təki nəfəsin gəlsin, sağ-salamatlıq sədan gəlsin! Təki balalarım atasız qalmasın. Burada, bu zəlzələlərin viran qoyduğu, amma allah bəlası gəldikcən ağıla gəlməyən Şamaxıda sənin axırına çıxmaqlarından qorxuram... Get, sağ get, səlamət yaşa, səlamət, üzü hörmətli qayıt yanımıza!»

Onun üçün qanlar axıdan ikinci ürək dostu, həmfikri, əməldaşı şair Abbas Səhhət idi. O da Sabirin Şamaxıdan getməli olduğu zərurətini bütün varlığı ilə duyur, dərk edir, ayrılıq ona əzab versə də, qaragüruh mühitində tək qalsa da, Sabirin dincliyini düşünüb, bu barışması labüd olan ayrılıq dərdi içərisini yeyirdi: «Get! Get! Get! Qardaşım. Yolun uğurlu, işin avand olsun. Qənşərinə ancaq və ancaq uğur çıxsın. Sən bu behişt təbiəti qansızlar, nadanlar tərəfindən cəhənnəmə döndərilmiş şəhərdə, bu mühitdə qala bilməzsən. Kimin qədrini bildilər ki, sənin qədrini bilələr? Get! Səni də Seyid Əzim Şirvani kimi, başqa calayvətən həmvətənlərimiz kimi diddi, parçaladı, sağalmaz dərdlərə saldı bu millət,

qədrini bilmədi... Vətən təkcə Şamaxı deyil ki!.. Bakı mühiti bəlkə yaralarını sağalda. Bədbəxt Şamaxı!!! Bədbəxt şəhər!!! Səni zəlzələlər, basqınlar dağıtdı... Gözəl, qabil oğulların diyarbədiyar düşdü. Hərəsi bir elin, bir səltənətin, bir hökmdarlığın sarayının bəzəyi olan övladlarını didərgin saldı... Xaqani kimi. Nəsimi kimi... Öldürüldü... Seyyid kimi... İndi də Sabir... Onların hamısının ruhunu, qəlbini, amalını, istedadını özündə birləşdirən Sabir gedir... Ağla dalınca ağlıya bildikcə!..»

«FƏHLƏ, ÖZÜNÜ SƏN DƏ BİR İNSANMI SANIRSAN?»

Qapandibi meydanına fasiləsiz olaraq qazalaq, fayton, kareta, yüklü at, dəvə, eşşək, gəl arabası, öküz arabası, furqon gəlirdi. Hamballar, xüsusilə «həmşəri hamballları» gündəlik ruzi qazanmaq üçün yük axtarır, bazarı girt vurur, baqqaldan ərzaq, bəzzazdan arşın malı, allafdan un, buğda, arpa alan, yükü çox olan müştərilərin böyrüncə düşüb gəzirdilər.

Malağan furqonlarının karvanı «Qapan meydanı»na yetişəndə gün günortadan xeyli keçmişdi. Meydan arakəsməylə bölünməsə də, açıq ticarət bazarlarına xas olan pərakəndəlik nəzərə çarpsa da, hər halda əsas satış mallarının yeri müəyyən idi. Meydanı dövrələmiş xırdaca dükanlarda bəzzaz, papaqçı, baqqal, əttar, allaf dükanları, çayxanalar, pitixanalar, cızbızxanalar yerləşmişdi. Sağ əldə qala divarının dibində qoyun-quzu, mal-heyvan, toyuq-cücə satanların yeri idi. Ondan bir az aralıdakı açıqlıqda Udulu dəvəçiləri yerləşirdi. Onlar Bakıdan qara neft, ağ neft götürüb tuluqlara doldurur, Şirvan qəzalarını, kəndbəkənd gəzib «ağ nöyüt, qara nöyüt, ay nöyüt alan!» deyə satır,

Qəbələyəcən gedirdilər. Sonra boş tuluqları bir çuvala yerləşdirib, Qəbələdən alyanaq, sulu şipşirin Qəbələ alması, fındıq, qoz, şabalıd alıb dəvəyə yükləyir və Bakıyacan yolüstü kəndlərdə sata bildiyincə satır, qalanını da gətirib bir yerdə baqqallara verirdilər. Yenidən duz və ya neft götürmək üçün Masazıra yollanırdılar. Günləri belə keçirdi. Aylarla ev üzü görməyən dəvəçilərdən bakılı demişkən: «motal iyi gəlirdi».

Meydanın orta hissəsi gəzəri, ayaqüstü alış-veriş eləyən arşınmalçı, xırdavatçı, tabaqçılarla dolu olurdu. Yerdə öz bağından gətirdiyi irili-xırdalı zənbil, dəskirə və səbətlərdə müxtəlif meyvələr, xüsusilə Bakı, Abşeiron bağlarının ən dadlı mətahı olan üzüm və əncir satılırdı.

Malağan furqonları toz qaldıra-qaldıra mal-heyvan satılan, dəvələr xırırdılmış açıqlığa yetişib dayandı. Furqonlardan qabırğaları bir-birinə «keçmiş»» tozdan nəfəsi tutulmuş, uzun yol boyu silkələnməkdən böyür-başı ağrıyan, tərdən üzündə zolaq-zolaq iz qalmış sərnişinlər yerə endilər. İlk anda səslərdən qulaq tutulan meydanın qırağında durub özlərinə gələnəcən heç bir şey ayırd eləyə bilmirdilər. İkinci furqondan Səhhətlə birlikdə Sabir də düşmüşdü. Elə bu anda furqonların gəlmək vaxtını təxmini də olsa bilib meydanın bir tərəfində onların intizarında olan şamaxılılar furqondan enənləri əhatə edib əhvallaşmağa başladılar. Evdən, qohum-əqrabadan xəbər bilən kim, göndərilən bağlamanı, sovqatı alan kim... Gətirilən malını təhvil götürən kim... Xeyli müddət beləcə keçdi, ara sakitləşməyə başladı... İndi artıq ticarətlə məşğul olanların çoxu günorta yeməyi yeyirdi. Gün təpəsini deşən ayaqçılar qala divarının kölgəsinə çəkilmişdi.

— Sərin su var, sərvəri... Ürəyi yanan, gəl bəri!

— Buuuuzzz... Ay buuuzzz... Həştarxan buzu... Həştarxan buzu...

— «Kaspi»... Nobel mədənlərində yanğın...

— Qukasov qardaşlarının mədənində iş dayanıb...

— «Günəş», «Həqiqət», «Molla Nəsrəddin», «Səda».

— İstiqraz... Milyonluq isiqraz, beş faiz gəlirinə...

— «Marselə», «Yeni Avropaya» gəlin... Mehmanxanaya buyurun...

— «Şəms», «İslamiyyə», «Novbahar», «Çikaqo» restoranları sizi gözləyir.

Bu səslər indi daha çox eşidilirdi. Və Sabirlə Səhhət həmin bu sədalar altında Qapandibi meydanını tərk edib onları qarşılayan Əlicabbarın müşayiətilə Bazar küçəsinə tərəf yönəldilir. Əvvəldən sözləşdikləri üçün Əlicabbar burada Bazar küçəsində dərzi Kərbəlayı Abduləlinin dükanı üstündə Sabir üçün xırdaca bir mənzil kirələmişdi. Mənzil deyəndə ki, əslində Kərbəlayı Abduləlinin evi Köhnə Poçt küçəsindəki 92 nömrəli binadaydı. Mənzili də Sabirə orada vermək istəmişdi, lakin Sabir Kərbəlayı Abduləlinin külfətinə əziyyət vermək istəməmiş, eləcə dərzi dükanının üst mərtəbəsində çardağabənzər otağı qəbul etmişdi.

Səhhət «Təbriz» mehmanxanasında bir neçə gün qaldıqdan, Sabirin iş məsələsi yoluna düşüb arxayınlaşandan sonra qayıdıb Şamaxıya getməli idi. Səhhət çox nigaran idi, dostunun səhhəti o qədər də xoşuna gəlmirdi. Bu bir il ərzində dönə-dönə Bakıya gəlmiş, müxtəlif çətinliklərlə imtahan vermiş olan Sabirin canı bir az da üzülmüşdü. İndi Sabir iş tapmasına, Balaxanı məktəbində müəllimlik edəcəyinə görə xeyli canlanmışdı, solğun, batıq yanaqlarına xəfif qızartı çökmüşdü. İri qara gözlərində qəribə bir parıltı əmələ gəlmişdi. Nüfuzedici, dərin düşüncəli gözlər indi sanki yenidən gəncləşmiş, təzədən gənclik atəşilə alışıb-yanmağa başlamışdı. Adətən az danışan, dalğın, heç vaxt ucadan gülməyən Sabir canlanmışdı, danışırdı, gülümsəyirdi. İş yerinə tez getmək, şagirdlərilə, onların valideynilə görüşmək, dərslərinə hazırlaşmaq... O qədər

qayğısı var idi ki!.. Bu qayğılar içində belə, qoca «Molla əmi»ni unutmur, elə bu günün özündə bazarda rastlaşdığı «məşhədilərə, kablayılara» diqqətini azaltmırdı. Nəzərini xüsusilə, onsuz da qıpqırmızı saqqalına təzəcə həna qoydurmuş, gözlərinə sürmə çəkmiş, xurmayı əbasının ətəklərini əlinə yığıb dayanmış bir «otaylı tacir» cəlb etmişdi. Arı xoruz kimi qırmızı və pırpız kişi dəstə ilə gedən məktəb uşaqlarına baxırdı. Yox baxmaq deyildi bu. O sanki şagirdləri gözləri ilə yeyirdi. Heyranlıqla elə tamaşa edirdi ki, ətrafında nələr baş verdiyini də unutmuşdu. Bir az aralıda Qasım bəy məscidinin minarəsində gözəl səsli azançının çəkdiyi əzanı eşidən baqqalların, əllafların, hamballarının belə təkbir deməyə, hardansa su tapıb namaz qılmaq üçün hazırlıq görməyə başladıqlarından bixəbər idi. Qızıllı kilsədən gələn zəng səsləri, məscidin minarəsindən ucalan əzan, yanından vıyıltı ilə keçən qazalağa qoşulmuş kürən atın fınxırtısı, fayton atlarının qəmbərlikdə qopardığı... Heç bir şey qırmızısaqqal «əmini» tamaşasından qopara bilmirdi. Sabir kədər içində başını bulayanda, Səhhət hər şeyi anladı. Yeni bir şeir, yeni bir satira, yeni bir möcüzə yaranırdı. İlham Sabiri əcəb yerdə yaxalamışdı.

* * *

Bu gün müsahibi Əlicabbar idi, Bazar küçəsilə gedirdilər.

— Yaxşı elədin atdın o dükanı. Şair babasan, səndən alış-verişçi çıxmaz, Baqqallıq qorxaq adamın işidi. O ürək ki, səndə var, səndən baqqal olmaz...

— Neynəyəsən, bizim bədbəxt islam aləmində bütün şairlər barqallığa, alış-verişə məcburdu. Məktəb yox — gedib dərs desin. Qəzetə alan yox — gedib qəzetə çıxardıb, kitab basdırıb satsın. Gərək dolana axı. Yaltaqlıq eləyib hər dövlətlidən, pulludan da əl açıb ruzi diləmək üz istər. Bütün şairlərdə o üz yoxdur. Bütün şairlər saray şairi olub ona-buna, hər yaramaza tərif yaza bilməz, bacarmaz da. Tərifli olmayana tərifnamə yazmaq da «xüsusi istedad» istər. Məndə yoxdur o istedaddan. Gözün görə-görə insanları aldadırlar, soyurlar, gözünü çıxardırlar... Kəndlilər mülkədar zülmündən əl-amandadır. Kargər karxana sahibinin quluna çevrilib. Quru çörəyə möhtacdır. Əhali üləmaların, molla, seyid, dərviş və rövzəxanların əlindən quru yurdda qalıb. Xurafat, cəhalət pəncəsində boğulurlar. Mən bu ağaları «tərif» üçün söz tapmıram, qələmim acizdir. Odu ki, biçizəm. İslam dünyasının bir çox ölkələrini gəzmişəm, hər yerdə yazıq, fağır millət qara gündə, qara ruzgardadı. İşıq ucu görünmür. Görünsə maarifdən gələr, onu da mollanümalar harda bircə iynə ucu işıq görsələr əmmamələrilə qanaqlayadrlar. Harda tərifçi şair var, buna göz yumur, ağalar dünyasını tərif eləyir — gəliri başdadan aşır, rütbəsi də var, adı da, pulu da. Qullar dünyasının dərdinə acıyanlar elə o bədbəxtlər kimicə ac-susuzdur. Bir çətən külfəti keçindirməkçin əllaflıqdan, bavqallıqdan bir işə qurşanır. O da qaydasıncan əlindən gəlmir. Peşəsi alıb-satmaq deyil axı. Nə milləti satır, nə malı...

Yol getdikcə Əlicabbar onlara «son xəbərləri», Bakıda

baş verən son hadisələri danışırdı. Xüsusilə bir şəy Əlicabbarı fərəhləndirirdi.

— Bilirsia, bu Qapandibi meydanının da axırı gəlib çatdı,

— Necə ki?

— Qapandibi meydanı xeyriyyə cəmiyyatinə qurban gedir. Bəs deyirdilər ki, bazarı bağlayıb yerində məscid tikdirəcəklər.

— Yox, canım! O məsələ baş tutmadı. Dumada bu yaxınlarda doktor Məmmədrza Vəkilov bir çıxış elədi ki, hamının saqqızını oğurlatdıra bildi. O çıxışdan sonra Duma qərara gəlib ki, yeri versinlər milyonçu Musa Nağıyevə. Hacı onun boynuna qoyub ki, dünyadan cavan gedən, əsl insanlıqda heç də atasına bənzəməyən oğlu İsmayılın xatirəsinə orada müsəlman cəmiyyəti-xeyriyyəsi üçün bir bina tikdirsin.

— Gerçəyindi, Əlicabbar?

— Cənab Sabir, məgər mən siz cənablara əsli olmayan söz deyərəm?

— Biz axı, eşitmişdik ki, Musa Nağıyev bədbəxt cavanın xilası, müalicəsi üçün doktor Vartapetovun istədiyi əlli mini verməmişdi.

— Elədi, doktor onu vaxtında Şvetsariyaya apara bilsəydi, bəlkə heç rəhmətə getməzdi cavan yaşında... Vermədi. Sonra Hacının təkidiynən pul verəndə, doktor Vəkilov apardı, xeyri olmadı, gec idi...

— Hər nədisə... Hayıf o cavana. Tərəqqi dostları yaman tərifləyirlər.

— Eləydi... Bacardığıycan kömək eləyirdi xeyriyyə işlərinə.

— Heç olmasa, onun adına olsa da, müsəlman cəmiyyəti — xeyriyyəsi bir yer qazana bəlkə... Allah atasının ürəyinə rəhm sala, dönməyə sözündən.

— Amma vallah, heç inanmağım gəlmir ki, pula görə o cür uşağı güdaza verən adam, cəmiyyəti-xeyriyyə binası tikdirə.

— Tikdirmir ey, qardaş, tikdirtdirirlər. Məşhur fars məsəlidi:

«Kafər becəhənnəm nə mirəvəd, kəşankəşan mibərənd».

— Hə... elədi, kafir cəhənnəmə getmir, çəkə-çəkə aparırlar...

Sabirin gözləri yaşarmışdı.

— Məni çox sevindirdin. İnanmağım gəlmirdi ki, müsəlman cəmiyyətinin də öz yeri-yurdu, yuvası olacaq. Ona görə verdim, sualı. Bağışla qardaş!

Onlar yavaş-yavaş Sabirin təzə mənzilinə — Abduləlinin dükanına doğru irəliləyirdilər. Bir neçə gündən sonra Kərbalayı Abduləli Sabir kimi nəcib insanın dükan üstündəki çardaqda yaşamasına razı olmayıb, zor-güc onu Köhnə poçt küçəsindəki öz mülkünə aparacaq, amma Sabir də öz növbəsində özündən, naməhrəm yad kişidən gizlənən arvad-uşağı narahat etməmək üçün Spasski küçəsindəki 9 nömrəli binada, ayrıca qapısı olan bir otaq kirayələyəcəkdi. Bu da Sabirə əl verməyəcəkdi, çünki hər gün dərsdən sonra Balaxanıdan Bakıya yorğun-arğın qayıtmaq ona çətin olacaqdı. Balaxanının o illərdə Sabirin sözü ilə desək, havası elə «hisli-dudalı idi ki, yəqin edin ki, qələm-çernil tapılmayan yerdə barmağımı dilimə sürtüb kağız üzərinə qoysam, yazı yazmaq mümkün olar və oxunar». Şamaxının dağ havasına öyrənmiş zərif vücudlu şair, tezliklə Balaxanıdakı məktəb nəzdində onun üçün ayrılmış mənzilə — xırdaca otağa köçüb orada qalmalı, azacıq yeməyini özü hazırlamalı, məktəbin daima sərxoş və qaba müdiri Əhməd Kamaldan olmazın əziyyətlər çəkməli olacaqdı. Bütün bunlar onun həm cismani, həm də mənəvi əzabına səbəb olduğundan tezliklə:

Arizi-qəmlər əlindən ürəyim şişmiş idi,
Zənn edirdim edəcəkdir ona çarə ciyərim.
Bəxti-mənhusuma bax, mən bu təmənnada ikən
Başladı şişməyə indi üzü qarə ciyərim.

— deyə xəstə yatağına düşən şair, artıq sevdiyi, həsrətlə, zorla-güclə əldə elədiyi müəllimlik yerindən imtina edib, canını xilas

etmək üçün həkimlərin qapısını döyəcək, şəhər-şəhər gəzib dərdinə əlac edə bilən bir dərman axtaracaqdı. Tapa bilməyəcəkdi... Cana doyduqda:

İstərəm ölməyi mən, leyk qaçır məndən əcəl,
Gör nə bədbəxtəm əcəldən də gərək naz çəkəm.

— deyə dostuna şikayət edəcəkdi. Lakin indi bu saat Bazar küçəsilə həmin dost—şair və həkim Səhhət onunla yanaşı gedirdi, dərin hörmət etdiyi Əlicabbar Orucovla birlikdə. Amma bilmirdi ki, Səhhət elə indidən onun canı, cansağlığı üçün narahatdır, hardasa qəlbinin dərinliklərində bir hiss oyanmışdı. «Dolana biləcəkmi? Bakının, Abşeironun istilərinə, Şamaxının büllur havasında böyüyüb tərbiyə tapmış vücud bu hisə, tozanaqa, istiyə dözəcəkdimi?»

* * *

Bir ay sonra, Bakıya gəldiyinin birinci günü, Səhhət, Sabirlə görüşə bilmədi. Əlicabbar ona dedi:

— Mirzə mənə söz verib, sabah bizə qonaqdı. Elə yerinə düşdü. Bir də zəhmət çəkib gedib axtarma, Balaxanıdadı. Bu günlük dincini al, sabah inşallah, görüşərsiniz. Mən də ikinizi bir yerdə görmək səadətindən feyziyab ollam.

Axşam Əlicabbar müəllimlə Səhhət ikilikdə oturub söhbət elədilər, Bakı və Şirvan yeniliklərindən danışdılar. Bu zaman balaca bir oğlan uşağı qapını aralayıb içəri girdi, kişilərə yanaşdı, «əmi... əmi...» deyib Səhhətin dizlərinə sarmaşdı. Səhhət körpəni qaldırıb qucağına aldı. Səhər aldığı xırdaca töhfəni elə bu görüş üçün saxlamışdı. Şirniyyatın içindən əlvan kağıza bügülmüş bir «saçaqlı konfet» ayırıb uşağa verdi, yanağından öpdü.

— Hə, Ədhəmcik — dedi — əmini çox istəyirsən?

— Çox...

— Nə qədər?

Uşaq tumbul əllərini bacardıqca geniş açıb, başı üzərindən qaldırmağa səy göstərdi.

— Bu bo-ooyda...

Mənzərəni seyr edən Əlicabbar müəllim, zahirdə gülümsəyir, amma Səhhətin övladı olmadığı üçün batində qəmlənir, büruzə vermir, «əmini incitmə», deyib uşağı ondan almağa da əli gəlmirdi. Bir neçə il keçəcək, Səhhət balaca Ruqiyyəsoltanı Bakıya, gəzməyə gətirəcək, onu Ədhəmlə birlikdə bağa gəzintiyə aparacaq, onlar üçün rəngarəng şar alacaq, şarı əlindən uçmuş Ədhəm, şairin ona ikinci şar almaq əhvalatını da ömrü boyu unutmayacaq. Bu sonra olacaq. İndi isə...

İkinci gecə Şaiqgildə toplanmağı qərarlaşdırmış-dılar. Səhhət və Sabirin Şaiqgildə olacağından xəbər tutan Əlicabbar da bu gecə buraya gəlmişdi. Şaiqin ayağı yerə dəymirdi. Tez-tez qonşu otağa keçib əziz qonaqları üçün yemək və çay gətirirdi.

Əvvəlcə Sabir, «Molla Nəsrəddin» üçün yazdığı yeni şeirlərini oxudu. Səhhət Lermontovdan tərcümələr etməyə başladığını söyləyib, onun gözəl «Mtsıri» poemasıidan danışdı:

— Bilmirəm necə çıxacaq, amma Lermontovun əşarına məftun olmuşam, tərcümə etdikcə elə bilirəm, başqa şairlərdən ruhuma o daha yaxındır.

Oxunan parçanı hamı bəyəndi. Şaiq özünəməxsus bir xəyalpərvərliklə dilləndi:

— Səhhət əfəndi, çox gözəl tərcümə etmisiniz. Məncə Lermontov bu əsəri bizim dildə yazsaydı, elə beləcə də səslənərdi.

Əlicabbar söylədi:

— Bəli, vəzni də, dili də rəvan, ürəyə yatımlıdı.

— İstəyirəm Avropa və rus şairlərindən tərcümə etdiyim bir sıra şeiri «Məqrib günəşləri» adı ilə çap etdirəm.

— Gözəl təşəbbüsdü... Uğur arzulayıram. Tezliklə kitabını görək.

— Cəmi bir neçə şeir tərcümə eləmişəm. Hələ qoy bir

seçdiklərimin hamısını qurtarım. Onda balalarımız üçün gözəl bir hədiyyə olar. Onlar Puşkin, Lermontov, Krılov, Hüqo kimi şairləri öz doğma dillərində oxuyub feyz alarlar.

— Məncə Krılovdan tərcümələr Sabir əfəndinin qələminə, ruhuna daha uyğun gələr...

Sabir kədərlə gülümsədi:

— Təəssüf ki, rus dilinə dostum kimi aşina deyiləm. Sonra üzünü gənc Şaiqə tutub ərklə davam etdi: — Yaxşı, bəs qonaqlara şeir oxutdurursan, mənim cavan dostum, amma bir demirsən, özün nə yazmısan?

Sabir və Səhhət qarşısında öz şeirini oxumağa utanan Şaiq dedi:

— Bilirsinizmi, Mirzə, uşaqlar üçün bir neçə yeni şeir üzərində çalışıram. Balalar üçün yazmağı Mahmud əmi də, cənab Köçərli də mənə məsləhət görürlər. Ana dilində dərsliyin çatışmazlığı, bu dərsliklərə daxil etmək üçün uşaq şeirinin azlığı, hamınız kimi, məni də narahat eləyir. Görək nə çıxar.

— Yaxşı olar, inşallah, yaxşı olar, sən bir şeir oxu görək... — deyə Sabir təşviq etdi. Səhhət də ona qoşuldu. Əlicabbar dedi:

— Elədi, oxuyun! Bir müəllim kimi «yazın» deyə tələb edirsiniz. Tələbinizdə də haqsınız. Amma öz yazdıqlarınızdan bir şey oxuyun, biz də zövq alaq.

Şaiq utanırdı, gülümsədi:

— Madam ki, təkid edirsiniz, icazənizlə bir şeir oxuyum.

O gecə başları şeirə, şeiriyyətə, dərslik məsələsinə elə qarışmışdı ki, səhərin açıldığını lampa işığının zəifləməyindən bildilər.

* * *

1910-cu il... Sahil elə gözəldi ki... Bahar özü ilə birlikdə Bakının qumlu, günəşli, daima küləkli təbiətinə bir təravət gətirmişdi. Külək də yox idi. Günəş yavaş-yavaş qüruba enməkdə idi. Qərbdə mis rənginə çalan buludlar arasından parça-parça firuzəyi səma

görünürdü. Lap bəridə, ağ-boz buludlar ərişəriş, arğac-arğac göy üzünü doğrayıb keçirdi. Tək-tək qağayılar uçuşur, hərdən rəngi tutqunlaşmağa başlayan suyun səthində, nə isə bir şey görüb, özünü dənizə çırpır, tapmayınca kəskin qəhqəhələrlə qalxır, havalanır və yenidən nə isə bir şey tapmaq üçün həmin yerdə qanad çalırdı, Bəzən qağayılar suya enir, erdək kimi çalxanır, üzürdü... Bakının təkraredilməz, gözəl axşamlarından biri başlanırdı.

Bulvarda qələbəlik idi. Adamlar Bakı iqlimində gec duyulan yaz havasını nəşə ilə, sevinclə sinələrinə çəkərək gəzişirdilər.

Sahildə gəzənlər içərisində həm zahiri, həm də batini ilə seçilən iki dost da var idi. Bunlar Sabirlə Səhhət idi. Onlar da bu gün sahilə, təmiz hava almağa gəlmişdilər. Sabir xeyli vaxt idi buradaydı. Səhhət isə dostu ilə görüşmək və kitabının nəşri ilə əlaqədar olaraq Bakıya gəlmişdi. Sabirin işdən azad olduğu vaxtları bir yerdə keçirirdilər. İndi də elə. Səhhət irəlilədikcə dostuna nəzər yetirir və düşünürdü: «Yaman düşmüsən, qardaşım! İçdiyin davalardan bir çarə olmur... Gecəni gündüzə qatıb çalışmağın... Gündüzlər dərs, gecələr mətbəə. Bu sənin səhhətinin tab gətirəcəyi şey deyildi, qardaşım! Üzüqara zəmanədə özünə bir gün ağlaya bilməyəcəksən, balalarını dolandırmaq üçün ayrı çarən də yoxdur. Neynəmək olar? Elə götürdüyün təxəllüs də mənalıdır: acı həyatına səbir üçün Sabirdir!»

Səhhət bütün bunları, dostunun həyatı üçün çəkdiyi əndişələri ona deyə bilmir, daxili bir iztirabla xəstəliyin getdikcə artmaqda olduğunu müşahidə edirdi. Doğrudan da, Sabir son aylarda lap yorğun görünürdü. Bakıya gəlməsi, çoxdan bəri arzusunda olduğu müəllimlik yerini ala bilməsi, onda fərəh yaratmışdı. Keyfi kök idi. Fərəhlə məktəb həyatından, şagirdlərindən, «Günəş» qəzeti üçün yazdığı və hələ yazmaq istədiyi taziyanələrindən danışırdı. Əllərini arxasında çataqlamışdı. Qara arxalıq üstündən geydiyi nimdaş çuxa əyninə gen kimi gəlirdi. Nazik çiyinləri, qara xətti, onsuz da bəstəboy olan Sabiri bir az da cansız, bir az da arıq göstərirdi. Səhhətin xəyallarından xəbərsiz şair, arabir dostunun böyrünü

dümsükləyib, bu, ya digər maraqlı bir mənzərəni ona göstərirdi. Onun nəzəri xanımları izləyən «kablayılar»da idi. Şairin qansız, zərif dodaqlarında istehza oynayırdı:

— Bəh-bəh, Mirzə Abbasqulu! Sən bir o qırmızısaqqala bax! Gör bir! Vird oxuyan dodaqlarındakı təbəssümü bir gör! Ac qurd da quzu görəndə dodağını belə yalar, mən biləni. Bir yaxşı bax, qardaş, gör nə qəribə bir aləmdəyik...

Şairin göstərdiyi qırmızısaqqallara baxan Səhhətin dodaqları qaçdı:

— Özün vaxtında elə yaxşı demisən, qardaş...

Sabir dostunun dilindən öz şeirini dinlədikcə ətrafına nəzər salır, dodaqlarındakı istehzalı təbəssümlə «barışnaları» izləyənləri seyr edirdi.

Aralıda palanını yerə royub oturmuş bir hambal da şairin gördüyü mənzərəni seyr edirdi. Onun da gözlərində qəribə bir maraq vardı. Belə şeyləri vətənində görməmişdi. Bədbəxt dərbədər bu yerlərə təzəmi gəlmişdi? Bir əlcə lavaşla, pendiri elə buradaca, palanın üstündəcə yemişdi. İndi də gəzişən xanımlara baxırdı: «İlahi, huridilər, pəridilər? Mən hara düşmüşəm, dədəm vay, nənəm vay? Hələ o matışqaya bax! Vallah, nağıllardakı pəri elə bucuğazdı... Gədə, deyirəm mollalar bə niyə o dünyada vəd eləyirlər bizə behişt hurisini? Ha... Budu ki, bu ağalar üçün allah elə bu dünyadaca yaradıb behişti də, hurini də.. Əstəğfurullah! Bi də deyirəm, görəsən, o libaslardan bizim Tükəzbana da geydirsən, görəsən tümbətün qızı elə fırranıb gəzə bili?» — deyə düşünürdü.

Şair diqqətini cəlb edən hambaldan göz çəkə bilmir və qarşıdakı mənzərəni dərk etməyə çalışırdı «Görəsən, nə duyur, nə düşünür?» Elə bu zaman kim isə hambalın başına yüngül bir qapaz saldı:

Gədə, gül olsun başuva! Burda nə qayıreysan? Sən işdəməyə, hamballığa gəlmisən, ya matışqalara baxmağa?

Bu, hambala nisbətən xeyli yaxşı geyinmiş bir otaylı həmşəri idi. Görünür, hambalı yaxşı tanıyırdı. Hambal isə yumurtavari börkünü başından alıb düzəltdi. Sonra da səliqə ilə tən ortadan

qırxılıb, yanlarında birçəklər saxlanmış başına qoydu və güldü:

— Bey... Məşə Məmi! Bəs sən özün niyə baxeysan? Sənə halaldı, mənə haram? Hələ, Qurban canı, öz gözümnən dünən gördüm. Birisiynən yaman mırtdaşamırtdaşa gedeydün. Yük altdaydım, day dillənmədim. Yoxsa bi atmaceynən keyfüvə soğan doğrayacaqdım...

Sabir də, Səhhət də gülümsədi... Hər ikisi də kinayə ilə. Sabirin gözləri qəribə idi; bunlarda nadinc bir təbəssüm çağlayırdı. Onun dodaqlarından çıxan hər misranı Səhhət eşidirdi:

Altmış illik ömrüm oldu səndə bərbad, Ərdəbil!
Bir də namərdəm əgər, etsəm səni yad, Ərdəbil!
Zənn edirdim mən bütün aləmdə İrandan səva,
Bir fərəhabad yer yoxdur o samandan səva,
Övrət olmaz hüsndə Fatma, Tükəzbandan səva.
Var imiş Rusiyyədə min-min pərizad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Səhhət də şair idi; incə qəlbli, rəvan təbli şair... O da öz vətənini, bu vətənin övladlarını sevir, bütün varlığı ilə sevirdi. Lakin Sabir... İndi Səhhətin gözləri önündə möcüzə baş verirdi. Onun gözləri önündə Sabirin, Əbu Nəsr Şeybaninin, Hophopun, Ağlar güləyənin... ecazkar incilərindən biri yaranırdı və bu incinin də öz rəngi, təsir gücü olacaqdı... Hər misrası, hər beyti, yox-yox, hər gəlməsi sərrast bir qamçı zərbəsi... «Yox, yox, qardaşım, sənin zərbələrində nə dərin ürək ağrısı var!.. Sən bədbəxt vətəninin bədbəxt vətəndaşlarını nə böyük məhəbbətlə sevirsən... Bu məhəbbətlə parçalanan qəlbinin bütün ağrı-acılarını misralara düzürsən, Sabirim! Sən daşını at, sahibi qaldıracaq...»

Şeir bülbülü susurdu.

— Amma gözəl şeir başlamışdın, qardaş...

— Allah kərimdi deyiblər. Gecə mətbəədə təshihdən macal tapsam, qurtarram.

Səhhət dostunun üzünə mehribanlıqla, diqqətlə, qəlbindən keçən əzab ağrısı ilə baxdı; duyğularını büruzə vermədən nəvazişlə dedi:

— Və ilk oxucun da mən ollam...

Yavaş-yavaş Sabirin rəngi üzünə qayıdırdı:

— Əvvəllərdəki kimi, — dedi.

Danışa-danışa Merkuri körpüsünü ötdülər, bul

vardan Olqinski[1] küçəsinə keçdilər. Xeyli müddət düşüncələrə dalmış halda irəlilədilər. Tarqovi[2] küçəsinə çıxdılar.

Sabirin görkəmi dostunu getdikcə daha çox narahat edirdi. Qayğılar içində yanpörtü ona nəzər salıb soruşdu:

— Günün necə keçir Balaxanıda, qardaş?

— Əhməd Kamalnan, bakılıların «duda» adlandır-dığı hava qoysa çox yaxşı... Yerli camaatdan çox razıyam.

Səhhət ürək vermək üçün inamla dedi:

— Axırı yaxşı olar...

Sabirin iri, qara, mənalar dolu iztirablı gözlərində təvəkkülə qarşı istehzalı bir təbəssüm doğdu, dilləndi:

— «Fələk əhli-dili dilşad edər. Amma nədən sonra?»

Onlar gəzə-gəzə gəlib Mayılov[3] teatrının qarşısına çıxdılar. Bu axşam Bakı ziyalıları Mayılov teatrını kirayə eləmişdilər. «Leyli və Məcnun»u göstərəcəkdilər.

Teatrın qənşərinə xeyli adam yığılmışdı, söhbət edirdilər:

— Cənab Sarabskinin oyununu görmüsən? Sən öləsən, keçən dəfə bir fığannıq elədi! O dəli olan yeri var ha, orda o qədər ağladım, iki yaylıq islatdım.

«—Ay balam» day ağlamaq nöşün! Ağlamağun var, get məscidə. Bura tiyatırdı. Gəl, oxuyana, çalana qulaq as, keyf elə özünçün.

Sabir nə düşündüsə, teatrın önünə ilk dəfə düşmüş adam kimi Səhhətdən soruşdu:

— Görəsən bu teatrın divarlarına niyə div başı həkk eləyiblər?

Səhhət dostuna mülayimliklə cavab verdi:

— Div deyil! Div insan xəyalında belədi. Bunlara maska deyərlər. Qədim Yunanıstanda artistlər üzlərinə maska geyib oynardılar. Sonralar bu maskalar İtaliya memarlarının təklifiylə

---

[1] Olqinski — indiki Caparidze küçəsi.

[2] Torqovi — indiki Nizami küçəsi.

[3] Opera teatrı.

teatr rəmzi kimi qəbul olunub qaldı.

— Görəsən bizlərdən də belə mühəndislər çıxıb ya elə o italyanlardı bunların memarı?

— Niyə ki? Şirvanşahlar sarayı... Qız qalası kimi tikililəri öz memarlarımız, öz ustalarımız tikməyib bəyəm? Onda ki, buralarda nə milyonçular var idi, nə də onların təzə dəbli evlərini tikmək üçün çağırılan memarlar. Elə indinin özündə də bizdən ilk Avropasayağı oxumuş təzə memar var. Həmyerlimiz Qasım bəy Hacıbababəyov, Zivər bəy Əhmədbəyov, Məhəmməd bəy Hacınski... Zivər bəy buyurub ki, «Bakı öz inkişaf sürətinə görə dünyada az qala yeganə şəhərdi». Çox sürətlə böyüyür Bakı. Elə hər gəlişimizdə nəysə təzə bir bina, bir neçə küçə salındığını görürük. Körpülər, banklar, şirkətlər, mehmanxanalar, restoranlar, mağazalar...

Hər bir yeni eşitdiyi gəlmənin adını, hadisənin mənasını Səhhətdən soruşub öyrənməyə adət etmişdi. Elə buna görə də onları yaxşı tanıyanlar Sabirdən soruşanda: «Mirzə, hansınız böyüksünüz, siz ya Səhhət?» — O da gözlərində nadinc bir təbəssüm oynadıb cavab verərdi:

— Yaşda mən, başda o...

Səhhət qayğılar içində bir də Sabirdən soruşdu:

— Balaxanı ilə şəhər arasında get-gəl... Necə keçinirsən, qardaş?

Sabirin görkəmi «necə keçindiyini» yaxşı bildirirdi. Bəlkə də heç suala ehtiyac yox idi. Sabir son ayların adətincə sol əlini sağ tərəfdən qabırğasının altında gəzdirə-gəzdirə dodaqucu gülümsədi, Əlinin hərarətilə «üzüqara ciyərini isindirir», «ağrını azaldırdı».

Dedi:

— Keçinirik də... Gah ciyər yola acıq verir, gah yol ciyərə. Mən də qalmışam ikisinin arasında, hansına yapışım, hansından üzülüşüm — bilmirəm.

O, dostunun fikrini, canının ağrılarından yayındırmaq istədi. Əlavə etdi:

— Gəlsənə biz də hər şeyi yaddan çıxardıb gedək «Leyli-

Məcnun»a...

— Gözəl olar...

Onlar kassaya tərəf yönəldilər. Səhhət yenə soruşdu:

— «Səda»da nə var nə yox?

— «Birisi»[1] boğaza yığıb məni. Haqqımı da vermir. Cəhənnəmə. Qoyub çıxıb gedəcəyəm. «Günəş»də yer var... Bir-birinizə taziyanələrinizi oxuyur, izləyirəm. Münaqişələriniz dərinə getmirmi? O çox qorxulu adamdır...

— Olsun» getsin. Simasız adamdır. Qaragüruhun ağzına dil verir. Milyonçuların zurnasını çalır...

Səhhət bileti alıb teatrın girişinə yollandıqca düşünürdü: «Bu zəif, xəstə vücudda nə barışmaz, ölçüsüz nifrət, qəzəb var xalqın qəvi düşmənlərinə qarşı?! Allah özü qorusun səni bəlalardan, Sabir!»

Teatrın başlanmasına az qalırdı.

«BƏNZƏRƏM BİR QOCAMAN DAĞA Kİ, DƏRYADA DURAR»

Axşam düşmüşdü. Yeddilik lampa otağa ölgün işıq saçırdı. Müəllim həmin bu ölgün işıq saçan çırağın dibində əyləşib şagirdlərinin dəftərlərini düzəldirdi. Bu gün o şagirdlərinə, qocaman müəllimi və ustadı Seyid Əzimin öz oğlu Mircəfərə xitabla yazsa da, bütün vətən gəncliyinə müraciət edərək söylədiyi məşhur şeirini diktə eləmişdi. Vətənə nə böyük məhəbbət var idi ustadın bu şeirində!

Lilləhülhəmd xütteyi-Şirvan,
Saniyi-İsfəhandır əlan.
Gərçi viranə oldu zəlzələdən,

---

[1] «Səda» qəzetinin redaktoru H. *B. Vəzirov.*

Çıxmayıb mərifət bu mərhələdən.
Vardır hər guşədə yüz əhli-kamal,
Hər biri əhli-elmü sahibi-hal,
Xassə kim abu xakinin əsəri,
Qabili-tərbiyət qılır həcəri.

Bu dövr üçün, xüsusilə ruhani tərbiyəsi görmüş, Nəcəfüləşrəfdə təhsil almış, Şərqin, İslam dünyasının ən müqəddəs məkanlarını: Məkkəni, Mədinəni, Kərbəlanı... gəzib ziyarət etmiş Seyid Əzim kimi seyid nəslindən olan bir adam üçün qeyri-adi dərəcədə açıqgözlülük idi. Təzəcə azərbaycanlıların həyatına daxil olan, qabaqcıl rus ziyalılarının gətirdiyi əhvali-ruhiyyəni nə gözəl başa düşmüşdü?! Başa düşmüşdü ki, öz doğma xalqının, millətinin gələcək inkişafı rus xalqının taleyi, inqilabi mübarizəsi ilə bağlıdır. Beynəlmiləlçilik Seyid Əzimin qanında, canında, ruhunda idi və bu xüsusiyyətini öz şagirdlərinə, o cümlədən sevgili şagirdi Sabir Ələk bərə də aşılaya bilmişdi. Bu böyük inkişaf arz su, bu böyük beynəlmiləlçi əqidə, Seyid Əzimə, hətta, marın Şərq müstəbidlərindən belə seçilməyən istibdadını görməyə qoymamışdı. Bəlkə də qəsdən görmək istəməmişdi. Çünki Seyid Əzim yaxşı bilirdi ki, çar bir nəfərdir, bir-birinə qovuşan isə xalqlardır. Şair həmin şeirdə yazırdı:

Xassə kim padişahi-kişvəri rus,
Eylədi təxti-ədlü dadə cülus.
Eləyib tərbiyət kəmal əhlin,
Gətirib halə hər məhal əhlin,
Hər vilayətdə açdı məktəblər,
Çatdılar feyzə əhli-mənsəblər.
Oxunur orda müxtəlif dillər,
Həll olur onda cümlə müşküllər.

Ustadı sevindirən məhz bu məktəblər idi. Orada insanların ta

uşaqlıqdan vahid bir bəşər övladı kimi tərbiyələnməsi idi. Ustad üçün insanın dini, milli mənsubiyyəti deyil, ağlı, biliyi, savadı, insanlığa xidmət dərəcəsi əsas şərt idi. Qarşısındakı şəxsdə millət deyil, insanlıq axtarırdı. Bu idi Seyid Əzimin birinci xüsusiyyəti. Bunun üçün də dillər öyrənmək, o dillərdə danışan insanların qazandığı nailiyyətlərə yiyələnmək, kamil olmaq, kamala çatmaq tələb edirdi şagirdlərindən.

Kim ki, bəs bir dil eyləsə hasil,
Olu bir nemətə o kəs vasil.
Cəhd qıl, neməti-kəmalə yetiş!
Elm təhsil qıl, məqamə yetiş!
Ey oğul, hər lisanə ol rağib!
Xassə ol rus elminə talib.
Onlara ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur.
Çatmayıb şəridən bizə bu xəbər
Ki, ərəbdən siva dil oldu hədər.
Nə ərəbdir xuda, nə rum, nə zəng,
Nə həbəşdir, nə zəngibarü firəng.
Xah boq, xah tanrı, xah xuda,
Birdi mənada, ey düri-yekta!

Sabir dəftərlərdə bu şeiri diqqətlə oxuduqca (əzbər bildiyi üçün səhvləri gözündən qaçıra biləcəyin dən ehtiyat edirdi) gözünün qabağında fədakar, maarifpərvər müəllimi və şeirdə ustadı Seyid Əzim Şirvaninin nur saçan gözləri, nurani siması canlanırdı. Onun şagirdlərinə münasibətini özündə yaşatmağa səy göstərirdi. İndi budur, qarşısında çox açıqgözlü, dərsə xüsusi maraqla davam edən şagirdlərindən Xudaverdi, İbrahim və Mikayılın dəftərlərini yoxladıqca yadına Şamaxıda Ümid məktəbində dərs verdiyi Hacıbaba düşürdü. Bir gün oğlan az qala onun ürəyini qopbacaya salmışdı. Sabir masa üzərindəki gülqabının altındakı yazının

əvvəlcə kim tərəfindən yazıldığını bilmədi. Götürüb oxudu, gülümsədi, amma sonra pərtləşdi. Deməli, bu uşaq da «Belə düşdü» satirasının Hophop tərəfindən yazıldığını başa düşmüşdü: Şeirin altında Əbunəsr Şeybani imzası qoyulsa da!

«Şeybaninin mən olduğumu heç kimə demə» dedi şagirdinə. Amma nə fayda! Onu tanıyırdılar. Ləfzindən, mövzusundan tanıyırdılar. Amansızlığından tanıyırdılar. Bəs atası öldüyüyçün qardaşları tərəfindən məktəbdən alınıb işə göndərilən balaca şagirdi Tağı... «Ey dərbədər gəzib ürəyi qan olan cocuq! Bir loqmə nan üçün gözü giryan olan cocuq»... Bir idimi, beş idimi?.. Elə Balaxalıda da, Bakının özündə də. az deyildi. İmam Rza zəvvarları, imam Rza dilənçiləri kimi... Kərbəla yolçuları kimi...

Sabir gənc nəslin halını düşündükcə, sonralar tələbələrinin xatırladığı kimi: «gözləri alov saçır və geniş alnında göy damarlar zahir olurdu». İndi də elə idi. Fikir onu götürmüşdü. Bir az sonra gecə kursunda savadsızlığını ləğv etməyə gələn fəhlələr yığışacaqdı. Sabir onlara məccani dərs deyirdi. Onların əksəri ilə «Nur» kitabxanasında tanış olmuşdu. Bəziləri də şagirdlərinin valideyni, neft sənaye fəhlələri idi. Hiss olunurdu ki, hansı bir gizli qüvvəsə bu adamları bir-birinə bağlayır. Hansı bir qüvvəsə oiların fəaliyyətinə istiqamət verir. Onları savadsızlığı ləğv edib öz haqqını dərk və tələb etməyə qadir insanlar olmağa sövq edirdi. Sabir bu qüvvənin nümayəndələrindən bəzisini tanıyırdı. Məşədi bəy kimi.., Amma deyəsən, onlar böyük şairi ictimai mühitin mümkün bəlalarından qoruyur, heç bir zahiri tanışlığa yol vermirdilər.

Qapı döyüldü. Sabirə elə gəldi ki, bu, ya axşamlar yanına söhbətə yığışan balaxanılılardan biri, ya da savadsızlığı ləğv kurslarına gələn müdavimlərdən idi. Erkən gəlib Hophop — Sabirlə bir qədər söhbət etmək, onun duzlu, məzəli müsahibələrindən zövq almaq istəyir. Lakin qapını məktəbin gecə gözətçisi açmışdı:

— Nə lazımdı, qardaş?

— Müdir çağırır səni, Mirzə!

— Neynir, bilmədin?

— Xeyr, bilmədim. Amma dedi tez gəlsin.

Dəvət heç də Sabiri açmırdı. Balaxanı məktəbinə gəldiyi ilk gündən məktəbin müdiri ilə aralarında məhəbbət yaranmamışdı. Dostluq, məhəbbət bir yana. Ən adi «salaməleyk» belə Sabirə əzab verirdi. Əhməd Kamal Sabiri «çoban-çoluq», dilini də «pozuq türkcə» adlandırır, yazdıqlarını bəyənmirdi.

Sabir yerindən qalxdı, araqçının üstündən qara buxara papağını başına qoydu. Qara pencəyini stulun söykənəcəyindən götürüb əyninə geydi. Sağ əlinin yüngül hərəkəti ilə saqqalını tumarladı. Xırdaca otaqdakı bir dəmir çarpayı, bir dolabça, bir neçə kitab və bir stulu güclə işıqlandıran yeddilik lampanın piltəsini aşağı çəkdi. Otaqdan çıxdı, qapını ardınca örtüb, müdirin yanına yollandı. Müdir və Sabir məktəbin nəzdindəki otaqlarda yanaşı yaşayırdılar. Sabir direktorun otağının qapısını döydü.

— Buyursunlar!

Səsdə elə bir mənfur ahəng var idi ki, Sabir heç içəri girmək istəmədi. Amma dinc buraxılmayacağını da bilirdi. Ona görə də çarəsiz içəri girdi. Əhməd Kamal sürtukunu çıxarmış, ağ köynəkdə əyləşmişdi, qalstuku yana əyilmişdi. Saçları pərakəndə, dağınıq idi. Qızıl sağanaqlı pensne nədənsə Sabirə bayquş gözlərinin ətrafındakı dəyirmi, sarımtıl cızığı xatırlatdı. Əhməd Kamal əməlli-başlı kefli idi. Geniş qoltuqlu kürsüyə yayxanmışdı.

— Buyursunlar, Sabir əfəndi, buyursunlar... Həmpiyalə yoxdur, Sabir əfəndi. Bir qaç qədəh benimlə nuş etsəniz, eyi olur, əfəndim!

Sabirin içki iyindən belə ürəyi bulanır, sərxoş adamların cahilliyində özü müqəssirmiş kimi həmişə məst adam görəndə xəcalət çəkərdi. İnsan oğlunun insanlıqdan çıxmasına hayıfsılanırdı. İnsanın öz pulu, öz əli ilə özünü gülünc eləməsinə, özünü heyvana döndərməsinə təəssüflənir, inana bilmirdi. Ona elə gəlirdi ki, haçansa, kim isə bu sərxoşun iradəsini qırıb, onu yazıq

günə salıb, məhv edib. Özünün isə bu gülünc haldan çıxmağa gücü çatmır, başqasını da öz halına salmağa cəhd göstərir. Sabir məhcubluqla qapının kandarındaca dayandı, içəri girə, təklif olunan kürsüdə əyləşə bilmədi.

— Cənabınıza məlumdur kk, mən içmirəm. İçə bilmirəm...

— Zövqünü anlamadınız da onun için...

— Nər nə isə, əsli budur ki, dedim...

Əhməd Kamal qəhqəhə ilə güldü:

— Onda... — o oturduğu yerdə belə səntirləyə-səntirləyə, əlləri əsə-əsə qarşısındakı boş qədəhə konyak süzdü, dili topuq vura-vura sözünə davam etdi: — Onda ya bu bir qədəhciyi içirsiz... ya da... ləğləviyyatınızdan bir qaç kəlmə söyləyirspniz...

Həsrətindəydi müəllimliyin. Bu yeri də dostlarının köməyilə güclə əldə etmişdi. Onsuz da Balaxanının ağır havası dağ adamına düşmürdü. Xəstəydi. Bu yerdən də məhrum olsaydı... Çətin olacaqdı, çətin. Uşaqlar, ailə indi-indi «ağ günə» çıxır, bir parça «zillətsiz» çörək tapırdı. Heç olmasa «fağır Bülurnisə» tiyanın dibindən, quyruq doğrayıb, yağ əritməkdən azad olmuşdu. Heç olmasa bir azacıq əyin-başları da düzəlmişdi. Qulaqları dincələn kimiydi. Sabir mətbəələrdə, redaksiyalarda işləyə bilməzdi, ziyan idi. Bu məktəbdəki müəllimlik işini heç itirmək istəmirdi, təmiz iş idi. Gənc nəslə demək istədiyinn deyə bilirdi, imkan tapırdı. Amma bu Əhməd Kamalın istehzaları onu cana gətirmişdi. Lap xeyriyyə cəmiyyətindəki dostlarının əliylə onu «kafir, dinsiz» adlandırıb, məktəbdən uzaqlaşdırsa da, bu gün Sabir düşünduklərini ona deməli idi. Bir az əvvəl, sanki həcv etdiklərinə meydan oxuyan ustadı, indi də ovul yardımına gəldi. Azacıq əvvəl o nə işlərlə, hansı xəyallarla məşğul idi, — müdir nəylə! Olsun. Onsuz da Sabir belə şeylərdən qorxan oğul deyildi. O kiçik çüssədə bu boyda əzm haradandı? Bilinməz ki! Nitqinə gələn, ilhamın təlqin etdiyi misraları Əhməd Kamalın gözünün içinə deməyə başladı:

Haləti-məstliyindən nə olur, ey əyyaş.

Baxıb ayinəyə görsən əcəba surətini?!
O kərahət, o səfalət, o rəzalat tökülən
Surətindən utanıb, anla nadir siyrətini!

Epiqrammı birnəfəsə dedi. Bircə dəfə də ilişmədi.

Əhməd Kamalın gözləri bərələ qalmışdı. Penseesi sürüşüb yaxasına doğru enmiş, qulağının ardına

keçirdiyi sapdan sallanırdı. İndi onun kipriklərinin dövrəsi qıp-qırmızı qızarmış, sulanmış, şişkinləş-miş, domba gözləri doğrudan da bayquş gözlərinə bənzəyirdi. Sabir bu gözlərdəki bənzəyişə indi heyrətlə baxırdı...

Əhməd Kamal elə bil birdən-birə ayıldı, özünə gəldi. Sabirdəki nifrət oyatmışdı onu. Qırıq, kəskin səslə bağırdı:

— Burada ya sən qalacaqsan, ya mən...

— Ya lazım deyil əfəndi! Mən özüm gedəcəyəm... Onsuz da...

Sözünün dalını, səbəbi deməyi lazım bilmədi. Əhməd Kamalın nəyinə lazım idi ki, Sabirin gündən-günə pisləşən vəziyyətini bilsin? Nəyinə lazım idi ki, «bu çoban-çoluq şairi son ilini, bəlkə də son aylarını yaşayır?». Nə dərdinə qalmışdı Əhməd Kamalın və onun kimilərin? Sabir onsuz da Əhməd Kamal kimi bir şəxslə bir dam altında yaşaya bilməyəcəkdi!..

Sabir dönmədən, kürəyinin təkanı ilə qapını açdı və çıxdı. Düşmən onun qorxub qaçdığını, üz çevirdiyini zənn etməməli idi. Düşmən ilə üz-üzə çıxmalıydı qapıdan. Göz-gözə!

Balaca, yeddilik çıraqla güclə işıqlanmış otağına qayıtdı. Dəftərləri yoxlayıb qurtarmışdı. Qarşısına bir vərəq ağ kağız qoydu. Lampanın piltəsini qaldırdı, işıq artdı. Pencəyini çıxarıb stulun söykənəcəyinə keçirdi. Qələmini götürüb əyləşdi və dostlarından, həmfikir-lərindən birinə məktub yazmağa başladı. Dərdini kiminləsə bölüşməliydi. Qəzəbini söndürəcək sözləri deməliydi:

«Bəradəri-mehribanım Əliskəndər!

Məlumunuz olduğu üzrə, Balaxanı məktəbində təd risi-ətfal ilə məşğulam. Zənn edirdim ki, Şamaxıda çəkdiyim əzabi-əlimdən bir qədər uzaqlaşıb burada bir növ rahat keçinərəm. Bəradər, deyə bilməm ki, Hafiz demişkən: «Kövkəbi-bəxti-məra hiç monəccim nə şonaxt. Ya rəb! Əz madəri-keyti bə çe tale zadəm?»[1]

---

[1] Baxtımın ulduzunu heç bir münəccim tanımadı,
İlahi, anadan hansı talehlə doğulmuşam?

İndi burada da mənim üçün əngəllər törəmişdir. Müdirimizin məst olub, məni təhqir etdiyindən cana gəlmişəm. Onun bədrəftarlığı Şamaxıda başıma gələnləri yadımdan çıxarmışdır! Bundan başqa Balaxanının ab-havası mənə düşməyir, özünüz xəstə oldu ğumu bilirsiniz. Buranın hisli-dudalı havası xəstəliyimi daha da şiddətləndirir. Yəqin edin ki, qələm, çernil tapılmayan yerdə barmarımı dilimə sürtüb kağız üzərinə qoysam, yazı yazmaq mümkün olar və oxunar. Artıq əziyyət vermək istəmirəm. Ricam budur ki, məni bu cəhənnəmdən qurtar!

Müxlisiniz Ə. *Sabir*».

Sabir doğru deyirdi: Bir cəhənnəmdən qurtarıb ikincisinə düşmüşdü. Hafiz şeirində deyildiyi kimi şairin bəxt ulduzunu heç bir münəccim tapa bilməmişdi. Ana təbiətin ona hansı taleyi hazırladığı bilinmirdi. Dostlar onu dərin, intəhasız bir məhəbbətlə sevirdi, hamısı da elə ilk harayından ona kömək əlini uzatmağa hazır idi. Amma... Zaman elə, şərait elə, mühit eləydi ki, Sabirə kömək əlini uzatmaq istəyənlərin özlərinin əlində elə bir imkan yox idi. Onlar Sabirə Şərqdə bəlkə də ilk hadisə idi ki, əsərinə görə qonorar verirdilər. Amma neyləsiilər ki, bu qonorar nəinki ailəsini, öz gündəlik həyatını da təmin etməyə çatmırdı. Onlar ona mətbəələrdə iş də verməyə hazır idilər. Amma Sabirin səhhəti bu ağır işləri görməyə imkan vermirdi. Sabir tez-tez redaksiyalara gedirdi. «İrşad», «Bəhlul», «Zənbur» kimi qəzet və məcmuələrin redaksiyalarında Sabir az qala redkollegiya üzvü kimi, redaksiyanın «öz adamı» idi. Müasirləri xatirələrində yazırlar ki, Sabir gülgü jurnallarının şəkilləri üçün mövzu verilində belə iştirak edir, ağıllı, düşünüşlü, sərrast məsləhətlərilə rəssama, redaksiya işçilərinə yaxından kömək göstərirdi. Bəzi gülgü məcmuələrində Sabirin mövzuları ilə çəkilən şəkillər var idi. Bəzən də əksinə, buradakı şəkillər Sabirə bu və ya başqa satirasını yazmaq üçün mövzu verirdi. Sabir böyük ictimai aləmdə dolaşa bilən, böyük ictimai hadisələri dərhal, dürüst dərk edib cavab verə bilən

şəxsiyyət idi. Böyük hadisələr üçün doğulmuşdu. Amma qaragüruh arasında çırpınırdı. Qaragüruh gözünü açmağa qoymurdu Sabirin. Sevggili millətin cəhaləti, geriliyi, ikili, üçlü istismara məruz qalması dərdi, bu millətə qəbir qazanların, quyu hazırlayanların qarşısında durmaq, onları ifşa etmək, qaranlıqlardan, zülmətlərdən çəkib gün işığına çıxartmaq, aləmə tanıtmaq, birinci növbədə düşməni millətin özünə tanıtmaq vəzifəsi Sabirin öhdəsinə düşmüş nəhəng vətəndaşlıq borcu
idi. Bu borc yaşadırdı Sabiri. Bu borc ilhamlandırırdı Sabiri. Bu vəzifə, bu deyin, bu borc yazdırırdı Sabirə milli, ifşaedicn, bəşəri satiraları:

Əlhəzər! Qoyma baxa əksimə zahid ki, onun
Nuri-həq dideyi-xudbininə zülmət görünür!
Qoy bu ayinəyə ol paknəzər baxsın ki,
Bütün əşyada ona nuri-həqiqət görünür!

Bütün bəşəriyyət Sabir üçün əzənlərə və əzilənlərə, işığa və zülmətə, aldadanlara və aldananlara, soyğunçulara və soyulanlara bölünmüşdü. Sabir işıq, həqiqət, azadlıq, füqəra tərəfdarı idi. Yalnız və yalnız işıq cəbhəsində dayanmışdı. Yalnız və yalnız həqiqətpərəstlər, azadlıqsevənlər cərgəsində dayanmışdı. Onun adı namüəyyən, ümumiləşdirilmiş «zahid»ə müraciətlə söylədikləri: «Zahid ölməkdən qabaq məqsuduna çatmaq dilər», «Aç dilini, yum gözünü, zahida!», «Aldanmaram ki, doğrudur ayinin, ey əmu!» və onlarla başqa satira, taziyanə və sairəsindən başqa «Zahidə təklif» şeiri öz kəskinliyi, məqsəd aydınlığı ilə dünya ədəbiyyatında misli, nümunəsi olmayan əsərlərdir ki, hər sözündə, hər zərbəsində Sabir amansızlığı, Sabir barışmazlığı, Sabir sərrastlığı aydın görünür:

Zahida! Gəl soyunaq bir kərə paltarımızı!
Çıxaraq zahirə batindəki əfkarımızı!
Pişgahi-nəzəri-xəlqə tutaq varımızı!

Görüb onlar dəxi təhqiq eləsin karımızı,
Hər kimin ağı qara isə utansın, a balam!
Bəlkə illərcə yatanlar bir oyansın, a balam!

İzaha ehtiyacı olmayan bu misralar Sabir yaradıcılığının leytmotivi idi. Gəlin açıq danışaq! Gəlin gizlindəki əməllərimizi ortaya qoyaq! Xalq da, illərcə yatanlar da bizim hər ikimizin əsl simasını görüb, dostu ilə düşmənini tanısın. Əlbəttə Sabir: «Şairəm, çünki vəzifəm budur əşar yazım» misrası ilə başlanan məşhur proqram satirasında da:

Niyə bəs böylə bərəldirsən, a qare, gözünü?
Yoxsa bu ayinədə əyri görürsən özünü!

— deyə soruşurdu.

Başqa satiralarında da, epiqramlarında da Sabir bu sərrast sualı dönə-dönə verirdi. Elə bu aydın sual dan qorxan, elə bu gün işığına çıxmaqdan qorxanlar Sabiri amansızlıqla sıxır, əzablarından sevinir, nəinki onu, ona əl uzadanları da kafir elan edir, lənətləyir, təkfir oxu yağdırırdılar. Əhməd Kamal kimilər da həmin qaragühun, həmin cəbhənin «ziyalı» donuna girmiş nümayəndələrindən biri idi.

Qürbət hissi bu gecə ona daha da ağır gəlmişdi. Əslində bu vətəndə vətənsizlik, öz xalqı içində qəriblik hissi ailəsindən, istəkli balalarından ayrı — uzaqda, Balaxanı kəndində məktəbin nəzdindəki xırdaca otaqda tək-tənha qalmasından irəli gəlirdi. Balalarının güzəranından, cansağlığından arxayın idi. Hələ iki gün irəli cavan dostu Abdulla Şaiq ilə söhbətində demişdi: «Əgər Səhhət Şamaxıda olmasaydı, mən bircə gün burada davam gətirə bilməzdim. Mən arxayınam ki, Səhhətin gözü mənim ailəmin üstündədir. O mənim ilk oxucum, məsləhətçim, müəllimim, dostum və qardaşımdır».

Bircə il keçməmiş bu sözləri təsdiq edən məktubu Sabir,

Tiflisdəki xəstə yatağından Şamaxıya yazacaqdı: «Qardaşım Səhhət! Məktubun yetişdi. Evdən, uşaqlardan bir əndazəyə qədər nigarançılığım rəf oldu»...

Həmişə belə idi, Səhhət İrandan təhsildən qayıdandan sonra onlar bir-birindən bir gün də ayrılmamışdılar. Bir-biri üçün qardaş olmuş, əsl dostluq mücəssəməsinə çevrilmişdilər. Bütün Azərbaycan ziyalıları bu dostluğu əsl dostluq rəmzi kimi qiymətləndirmişdilər. Həmişə xəstə yatağında həkim kimi, səfərlərdə yoldaş kimi, şeir məclislərində dost kimi Səhhət Sabirin yanında olmuş, o, Şamaxıda olmayanda, elə indiki kimi onun ailəsinin pərəstarı, öləndən sonra ilk bioqrafı, ilk naşiri olmuşdu.

İndisə bu əvəzsiz dost Sabirin yanında yox idi. Onun əvəzində Əhməd Kamal kimi bir şəxs var idi ki, onunla ara-sıra qarşılaşmaq belə Sabirə mənəvi əzab verirdi...

...Bununla belə sinifə girdimi, şagirdlərinin maraq dolu qara gözlərini gördümü — dünyası dəyişirdi. Hər şeyi unudurdu. Düşmənlərini də, xəstəliyini də, hədə-qorxuları da, lənətləri də. Bircə sinif, bircə dərsi qalırdı.

Dərsləri olduqca maraqlı keçirdi. Sabir böyük bir şövq ilə danışırdı. O biri otaqda əyləşib qapının dalından müəllimin sözlərini diiləyənlər dərsin, fənnin predmetini bilmirdilər. Nədən nə üçün bu gün, bu saatda Sabir şagirdləri üçün məhz bu sözləri deyir? Səbəb nə olub? Bilmirdilər. Amma eşitdikləri hər birinin qəlbindən idi. Sabir elə bil insaniyyət dərsi keçirdi. Həmişəki mülayim səsində qəribə bir coşğunluq, ahəng var idi:

— Öz millətinə xidmət elə! Bu—bəşəriyyətə xidmət deməkdir. Çünki, sənin millətin bəşəriyyətin kiçik bir hissəsidir. Öz vətəninin, doğma torpağının, ata yurdunun gözəlləşməsinə çalış! Bu — anamız Kürreyi-ərzin gözəlləşməsi deməkdir. Çünki, vətənin, yurdun Kürreyi-ərzin kiçik bir parçasıdır, Əsl insan ol! Bu da öz növbəsində İnsanlığa xidmət deməkdir. Axı, sən İnsanlığın bir zərrəsi — bir fərdisən.

Gecəni səhərəcən redaksiyanın balaca, havasız otağında qəzetin

materiallarını yoxlamışdı. Yuxusuzluqdan qovuşan kirpikləri ikibir, üçbir kollaşmış, tikana dönmüşdü. Yol boyu bir az yuxulayıb gözünün acısını almışdı. Bu gün cüməydi. Məktəbdə dərs yox idi. Otağının qapısını açıb içəri girdi. Stansiyadan buracan toz-torpaq, neftli-mazutlu hava ciyərlərinə, gözlərinə əməlli-başlı dolmuşdu. Özü üçün sadə şam yeməyini hazırlamadan, hətta üst geyimini belə soyunmadan əvvəl pəncərəyə yaxınlaşdı, azacıq təmiz pambığı gülabla islatdı və gözlərini silməyə başladı. Bunu dostu Məşədi Qulamrzanın arvadı Məşədi Əyyub qızı məxsusi onun üçün çəkib «kitabi şüşəyə» doldurmuş və əri Məşədi Qulamrza ilə göndərmişdi. Gülab onun gözlərinin Məşədi demişkən «hovunu alır, yorğunluğunu çıxarırdı». Sonra kişi əlavə etmişdi:

— Görmürsən, Mirzə, hələ keçmişdən hüzür yerlərində adam ağlayıb, gözü qızaranda hamıya gülab paylayırlar ki, gözünə, alnına vursun. Neyçün ki, qızıl gülün ətri, ətri-peyğəmbərdi. Ondan çəkilən gülab şəfa verir zəif gözə.

Sabir gözlərinin tozunu gülab ilə silib qurtarmağa macal tapmamışdı ki, qapının dalında öskürək səsi eşitdi. Döndü. Öskürəkdən tanıdı: «Nə təmiz ürəyi var, Məşədinin? Ürəyimdən keçən kimi gəlib çıxdı. Yaxşı oldu. Axşamı tək darıxmaram», — fikri sürətlə beynindən keçdi. Elə «buyur» deməyi ilə Məşədi Qulamrzanın içəri girməyi bir oldu.

— Əssalaməleyküm, Mirzə, axşamın xeyir!

Bay əleykümsalam. Aqibətin xeyir, qardaş. Xoş gəlib, səfa gətirmisən. Buyur əyləş.

Kişi həmişəki qaydası ilə keçib göstərilən yerdə oturmadı. Qapının ağzında, necə girmişdi eləcə də dayandı.

— Yoox...

Sabir onun məqsədini bilmədiyi üçün tələsdi:

— Qardaş, yox nədi? Keç əyləş, bu axşamı da sənin söhbətinlə başa verək. Yoxsa təklik adama əl vermir...

Məşədi Qulamrza hörmətlə dostunun sözünü kəsdi, gülümsəyərək dedi:

Mirzə, məni bəlaya toxuma. Lap axşamdan Meşədi Əyyub qızı istaniskədə uşaq qoyub, sən düşən kimi qaçıb gəlib xəbər eləsin. Mən də gəlim səni aparım bizə. Məşədi Əyyub qızı bir yaxşı düşbərə-qutab bişirib.

Sabir bərk sıxıldı. O, Məşədi Əyyub qızının əri, uşaqları ilə məktəbə göndərdiyi xörəkləri az dadmamişdı. Evlərində də olmuşdu. Doğrusu utanır, amma bu səmimi, sadə, fağır süfrəsində «padşah qonaqlığı» verə bilən insanların dəvətindən boyun qaçıra da bilmirdi, Getməyə bilmirdi. Ev, külfət hərarəti, oğul uşat səsi, süfrə, qab-qacaq cikiltisi üçün darıxırdı. Tək, kimsəsiz, yarımqaranlıq məktəb otağında, sərxoş müdirin təhqiramiz səslərini eşidə-eşidə boğulurdu. Amma Məşədigilin evlərində şam eləmək nə qədər xoş olsa da, orada da ürəyi oycalanır, evini, külfətini, balalarını yadına salıb qəhərlənirdi. Onu da bilirdi ki, əgər Məşədi Qulamrza öz ayağı ilə onun dalınca gəlibsə, aparmamış getməyəcək:

Mirzə, əlli-ayaqlı tərpən. Məşədi Əyyub qızı ölə mən qapıdan çıxanda düşbərəni qazana tökdü. Əli abkərdənli dalımca qolaylandı ki, baaax... tez gəlin haaa... Yoxsa düşbərə əzilib zay olar. Dönər xəşilə.

Hər ikisi gülə-gülə qapınıi cəftəsini keçirib, məktəbdən çıxdılar. Qonşu otaqdan Əhməd Kamalın sərxoş zümzüməsi gəlirdi. Məşədi bir an qulaq verib dedi:

— Vallah, billah. Mirzə, hər axşam kənd camaatı, ağsaqqal-qarasaqqal, səni tək qoymarıq darıxasan. Amma bu Əhməd Kamaldı nədi, o allah kəsmişin, o çaxır içən namüsəlmanın sifətini görməməkçün heç birimiz məktəbə gəlmək istəmirik. Qapıpı açıb içəri girən kimi, öz qapısını çırpır, qulağımız eşidə-eşidə «kətçi-kütçü», day nə bilim nə deyir qaramıza.

— Mən də siz gündə, neynəmək olar. Nə qədər ki, öz içinizdən uşaqlarınız oxuyub müəllim, incinar, doktor olmayıb qulaqınız gəldi-gedərlərdən çox söz eşidəcək.

— Düz deyirsən, Mirzə, düz deyirsən. Biz bilirik sən nə

çəkirsən. Qaldı oxutmaq... Allah pulsuzluğun, kasıblığın üzünü qara eləsin...

Süfrə həyətdə, çarhovuzun böyründə Məşədi Qulamrzanın öz səliqəsi ilə düzəltdiyi iri dördkünc taxtın üstündə açılmışdı. Onlar həyətə girəndə Məşədi Əyyub qızı son hazırlıqlarını görürdü. Yaşmağını bir az da yuxarı qaldırıb qonağın salamına yavaş bir mızıltı ilə cavab verdi. Yaşlı bakılı qadınlara xas olai ikibalaq tuman geymişdi. Yaxası, düz qollarının ağzı, «qaragöz hərəmi» ilə haşiyələnmiş qara sətin arxalıq əyninə kip oturur, sahibinin gənclikdəki mütənasib bədənini hələ də yaraşıqlı göstərirdi.

Məşədi Qulamrza qonağı süfrə başına dəvət elədi. Xırda dördkünc, qələmkar süfrənin dörd tərəfinə farsca «Nuşi-can» yazılmışdı. Üstünə Məşədi Əyyub qızının az əvvəl təndirdən çıxardığı isti ətirli çörək, sirkəli sarımsaq, ayrıca sirkə, darçın, istiot, duz, qaşıqlar qoyulmuşdu.

— Mirzə, sən əyləş...

— İşində ol, Məşədi... — deyə Sabir ələrini yudu, tanış həyətdə tut ağacının budağına atılmış dəsmalla sildi. Taxtın yanına gəldi. «Ştiblet»lərini çıxardı, keçib palazın üzərinə qoyulmuş nazik döşəkçənin üstündə bardaş qurub əyləşdi.

Məşədi Əyyub qızı əlindəki mis məcməyi ilə təndirxananın qapısında görünəndə Məşədi Qulamrza yaxınlaşdı, məcməini alıb gətirdi. Düşbərə doğrudan da gözəl idi və Sabir Məşədi Əyyub qızının hazırladığı düşbərəni birinci dəfə yemirdi. Bununla belə qaşığı kasanın içində dolandırıb qaldırdı və elə lap bu evə ilk dəfə «düşbərə-qutab qonaqlığına» gəldiyi gündə etdiyi kimi yenə də təəccübünü gizləyə bilməyib saydı. Qaşığında on dörd xırdaca düşbərə var idi. Hamısı da «sağ-sağlam, biri də açılmamış»dı. Gülümsündü.

— Maşallah bu barmaqlara. Maşallah bu barmaqların sahibindəki ustalıqa, hövsələyə.

Məşədi Qulamrza da dostunun könlü xoş olsun deyə zarafatla, bığaltı qımışa-qımışa dedi:

— Həri-ya... hələ onuynən girləyib başını. Tovlayıb məni dəəə...

— Yoxsa sən də ayrı məşədilər kimi birini-ikisini alardın üstünə, hə?

Məşədi Qulamrza qəh-qəh çəkdi:

Ay Mirzə, ay Mirzə, hanı bizdə o var-dövlət ki, sən demişkən:

Bir qocayam çağ nər kimi yaşaram
Dörd arvadı bir-birinə qoşaram
Bir ildə üç-dördün alıb boşaram.

Sabir şeiri dillər əzbəri olan sənətkar xoşbəxtliyi ilə daxilən sevindi, amma utandı, qıpqırmızı qızardı. Məşədi isə sözünə davam edirdi:

— Vallah əladan da əla demisən:

Axirətim, imanım var, dinim var,
Ariflərnən ədavətim, kinim var,
Bir xoruzam, əlli yerdə hinim var.

Süfrəyə qutab gəldi. Sabir bu dəfə qutabları tərifləməyə utandı. «Xəmiri-kalağayı nazikliyindədi, bunları təndirdə necə bişirirlər?» — deyə düşündüsə də sual verə bilmədi. Adətə görə başqasının arvadını tərifləmək qəbahət sayılırdı. Aralarına sumaq səpilmiş ət, balqabaq, cincilim qutablarının hərəsindən birini ötürüb önündəki nimçəyə qoydu. Məşədi Qulamrza qatıq piyaləsini şairin qarşısına çəkib dedi:

— Mirzə, qatıqnan, qatıqnan yaxşıdı göy qutabı. Qatıqnan ki, bir xörəyi yedün-aa... heç zərər eləməz.

Süfrə yığılmamış Məşədi Qulamrzanın curlarından, Sabirin şeirini əzbərdən bilən, onun istedadına pərəstiş edən qocalardan bir neçəsi bir-bir, iki-bir həyətə daxil oldular. Təndirxanadan yeni, isti

qutablar gətirildi. Qocalardan kim isə zarafat etdi:

— Qonaq qonağı istəməz, ev yiyəsi hər ikisini.

Məşədi Qulamrza cavab verdi:

Yooxaa... hələ nöşün? Mirzənin xətrinə dəyər. Tərsinə. Qutabki vardur, — qonaq çağıran xörəkdür. Mən hələ tək oturub qutab yeyən görməmişəm.

Əşi, ay allah saxlamış, Mirzənii nöş keyfinə dəyir? Tanımır bizi?

Bilmir ki, o harda olsa, iyini alıb ora yığışaceyük?

— Yığışın, yığışın babam ocağına.

Həyətə yeni girən cavanlardan biri gəlib Sabirin arxa tərəfində taxtın kənarında əyləşdi. Stulda oturmuş kimi ayaqlarını yerə salladı. Nəyi isə bəhanə edib Sabirin qulağına tərəf əyildi:

— Mirzə, Məşədi bəy də bu gecə gələsidi. Xəbər eləyib.

Məclis Sabirdən yeni şeir gözləyirdi. Amma Sabirdən əvvəl bayaq «qonaq qonağı» deyən qoca üzünü qapıya tərəf tutub ucadan səsləndi:

— Alləə... Balaobba, Balaobba,.. Bura gəl görüm. Utanma.

Darvazadan ayaqyalın, boz qədək arxalıqlı bir oğlan girib yavaş-yavaş, yanpörtü babasına tərəf gəldi. Qoca dedi:

— Həəə... Oxu görüm o fəhləni.

Hamı qulaq kəsildi. Şair də maraqla uşağa baxırdı. Oğlan gözlərini yerə, bir nöqtəyə zilləyib sürətlə oxumağa başladı:

Fəhlə! Özünü sən də bir insanmı sanırsan?
Pulsuz kişi! İnsanlığı asanmı sanırsan?

Qoca onun sözünü kəsdi:

— Qaydaynan oxu, Balaobba, tələsmə, hüdüləmə! Öydə oxuduğun kimi...

Oğlan yanakı babasına baxdı, sanki qocanın baxışlarından güc, qüvvət alırdı. Və bizdən gözlənməyən halda hündürdən, daxili bir yanğı ilə, hər sözün vurğusunu dürüst vura-vura, yaxşı rejissor əli

görmüş əsl artist istedadı ilə oxumağa başladı.

İnsan olanın cahü cəlalı gərək olsun,
İnsan olanın dövləti, malı gərək olsun,
Himmət demərəm, evləri ali gərək olsun
Alçaq, ufacıq daxmanı samanmı sanırsan?
Axmaq kişi insanlığı asanmı sanırsan?

Dövlətliyiz, əlbəttə şərafət də bizimdir,
Əmlak bizimdirsə, əyalət də bizimdir,
Divan bizim, ərbabi-hökumət də bizimdir,
Ölkə dərəbəylik deyə xan-xanmı sanırsan?
Axmaq kişi! İnsanlığı asanmı sanırsan?

Oğlan oxuduqca gülən də var idi, təəssüflə, yana-yaxıla dinləyən də. Balobba isə sözlərinə həmahəng «dövləti-malı» deyəndə qollarını yana açır, «evləri ali» deyəndə əllərinn yuxarı qaldırır, gah barmaqlarını «buğlarına» çəkir, gah əllərini arxasına qoyub, guya təsbeh şaqqıldada-şaqqıldada «şişman qarnını» qabağa qabardıb gəzinirdi.

Hərənin ağzından bir söz eşidilirdi:

— Alə, bu lap, sən öl, Nəğiyodu.

— Yooox... Sən ölmiyəsən Quluyodu...

— Özüdü ki, durub...

— Ay sənin allah bobovun ömrünü uzun eləsin işaq.

Dinləyicilərin reaksiyası Sabiri də öz qoynuna alıb «sənətkar aktyorun söz və ifa» dünyasına — tamaşaçı dünyasına aparmışdı.

Şeir qurtardı. Qoca nəvazişlə əlini nəvəsinin çiyninə sürtdü:

— Rəhmətlik atamın — bobasının adını qoymuşam, deməyə ürəyim gəlmir. Balobba deyirəm...

Kişi bu sözləri şeirin təsirindən donub susmuş adamlara deyir, sanki nə isə gözləyirdi. Müxtəlif səslər eşidildi:

— Ay torpağı sanı yaşasın.

— Göz dəyməsin, lap o artistlər kimi oxuyur.

— Ay sağ ol, oğlum.

Sabir elə kövrəlmişdi ki... Onun əsərlərini təkcə yaşlılar deyil, gənc nəsil, gələcəyin vətəndaşları əzbərləyir. Gözləri dolmuşdu. Əlini nədənsə ağrımağa başlayan ürəyinin üstünə qoyub yavaşca dilləndi:

— Sağ ol, babası, sən bu gün mənə elə bir mükafat verdin ki... — sonunu deyə bilmədi, qəhər qoymadı. «Təkcə bunun üçün yaşamaq əzabına dözməyə dəyər» — deyə düşündü — «Əhməd Kamal əfəndinin də, üzüqara ciyərin də».

Baba fərəhlə, iftixar hissilə nəvəsinin kürəyini şappıldatdı:

— Hə... yaxşı... Day get istəyirsən oynamağuva.

...O gün söhbət xeyli çəkdi. Lap dar axşam macalı Sabiri evə yola salanda kiçik bir bağlama da Məşədi Əyyub qızının səliqəsilə bişirilmiş qutabları Balobbanın əlinə verdikdə Məşədi Qulamrza Sabirin etirazlarına əhəmiyyət vermədən deyirdi:

— Ay Mirzə, başuva dönüm, məni bəlaya salma! İstəyirsən Məşədi Əyyub qızı məni qutaba tamarzı qoysun? Deyir: bu, Məşədi Mirzənin axşam payıdı. Deyirəm: «Ay kişinin qızı, bu Mirzə — Mirzədi, bəs Məşədi nədi?» Deyir: «Aaaaa... Kişi zəhmət çəkib, ziyarətə gedib, Məşədi deməsəm günaha bataram. Özü də inciyər məndən».

Sabir başa düşürdü ki, Məşədi Qulamrza bu sözləri Sabirin ürəyini almaq üçün bəlkə də uydurub deyir.

* * *

Poçtalyonun oğlu balaca Əlinin qoyub getdiyi qəzet və məktubu təzəcə almışdı. Əvvəlcə məktubun Şamaxıdan, qızı Səriyyədən və ya dostu Abbas Səhhətdən olduğunu zənn etmiş, üstünə baxmadan zərfi açmışdı. Nəzəri ilk sözlərə ilişincə, yad dəst-xətti görüncə heyrətlənmişdi. Səriyyə ilə ərəb əlifbası hərflərini yan-yana düzməklə yazışırdılar. Səhhətin xətti isə... Yox! Bu, Səhhət,

Məhəmməd Hadi və ya yaxın tanışlarından heç birinin xətti deyildi. Kiçik məktubun imzasına baxmışdı «Qanlı-köynək»... Qanlıköynək... Bu nə idi? Ad deyildi. İmzasız məktubun «imzası» idi. Sabir ömründə imzasız məktub almamışdı. Gizli imza ilə şeir yazmaq olardı — bunu bilirdi. Amma tanışa yazılan məktubun da gizli imza ilə imzalanacağını düşünmürdü. Ağlına da gətirmirdi. Maraq onu götürmüşdü, oxumağa başladı. «...üç nəfərik. Balaxanılıyıq... O məktəbdən get, get, get! Yoxsa sənin üçün yaxşı keçməz, başın bəlalar çəkər; bədbəxt olarsan!..» Heyrət onun vücudunu elə qapamışdı ki, yerindən qımıldanıb durmağa, haraya isə getməyə, nəysə bir iş görməyə, birindən məsləhət almağa gücü qalmamışdı. Elə oturduğu yerdəcə oturub qalmışdı. İçərisində qəribə, bir-biri ilə zidd fikirlər yürüdən iki səs çarpışırdı. Birinci deyirdi: hər kimdisə qatı düşməndi. «Qanlı köynək» imzasını ona görə qoyub ki, desin: mən din yolunda, imam yolunda şəhid olmağa hazıram, xəncər vurub baş yaranlar kimi. «Haqq» uğrunda qanlı köynək geyinmişəm, səni öldürəcəyəm, millətin yaxasını əlindən qurtaracağam. Məktəb görməmisən, bisavadsan. Ali təhsilin yoxdur, dərs deyə bilmirsən! Öz doğma dilini də bilmirsən! Özün də keçmisən millətin boğazına. Gündə bir gizli imza ilə gülgü məcmuələrinə qara-qura yazırsan, şeirə də oxşamayan həcvlərinlə mollaları, axundları, bəyi, xanı, dövlətli, hörmətli kişiləri rüsvayi-cahan eləyirsən. Gərək səni öldürəm, balalarını yetim qoyam... Mətbuat, maarif aləmindən adını siləm ki, o hörmətli kişilər, o pullu əğniyalar məndən razı qalsın, mənə afərin desinlər!»

İkinci səs deyirdi: Aldanma... Aldanma, Sabir! Sən ki, səbr edənsən, Sabirsən! Aldanma. O, qorxağın, avaranın biridi. Qeyrəti olsaydı, gəlib səniilə üz-üzə dayanardı, sözünü deyərdi: ya da eləcə mətbuatda açıq-açığına səni «kəmsavadlıqda» taxsırlandırardı. Əlindən gəlsəydi səni el içində rüsvay eləyərdi. Bacardığını eləyərdi. Odey, haşım bəy kimi!.. Gündə birini yazır sənin əleyhinə. Əlindən gələn də odu, sən də cavab verirsən!.. Bu biqeyrətin, görünür sənə gücü çatmır, bata bilmir, açıq çıxış eləməyə bacarığı

yoxdur. Odu ki, səni qorxuzur. Analar ağlağan, nadinc uşaqlarını xortdanla, damdabacayla, quleybanıyla qorxuzan kimi. Deyir: bəlkə buradan, bu hisli-paslı Balaxanıda olsa da, məktəbdən, maarifdən, sevimli şagirdlərindən, dostlarından əziz-girami işindən ayrılasan. Təzədən tiyanın dibində can çürüdəsən. Təzədən baqqal olasan... Baqqal! O adam kimdisə, sənin ürəyini necə yerindən çıxartmağı, ciyərini neçə yandırmağı yaxşı bilir. Səbr elə Sabir! O adam rəzildir, özü qorxacağın biridir. Bilir ki, sənə mətbuat aləmində bata bilməyəcək. Bu cür vasitələrə əl atır— Səbr elə, Sabir, səbr elə. Sən tək deyilsən...» Məktubda deyilirdi:

«Sənə ayın başına kimi vaxt veririk... O məktəbdən get, get, get!» Sözlər beynində nəbz kimi, gürz kimi vurulduqca, eyni zamanda, düşünürdü: Ayın başına nə qalıb? Tarix qoymayıb zalım...» deyə Sabir özünə məxsus eyhamla düşündü: «Tarix qoymayıb. Görəsən miladi tarixlə vaxt verib mənə? Onda bu gün oktyabrın 27-sidi, ayın başına üç gün qalıb. Yox, əgər müsəlman ayıynan vaxt verilibsə, genə də elə bir şey qalmayıb. Bu gün şavval ayının 22-sidi, ya igirmi üçüdü? Deməli, genə də bu hesabla 5—6 gün vaxtımız var...» Sabirin nazik, avazımış dodaqları səyridi... Acı-acı gülümsədi... «Hələ ki, getməyimizə, ya da qanlıköynəyin əlində şəhid olmağımıza bir neçə gün var. Duraq yeməkdən-zaddan bir şey ataq ağzımıza». Bu fikirlə də Sabir yerindən qalxdı, pəncərəyə yanaşdı, burada qazançaya qoyduğu çörəyi götürüb süfrə hazırlamağa başladı.

Doğrudan da Sabir tək deyildi. Elə həmin ildə, həmin gündə və həmin saatda Bakıdakı «Nəşri-maarif» cəmiyyətinin tapşırığı ilə Balaxanı məktəbinin maliyyə və başqa gündəlik işlərnnə baxan, maarifpərvər ziyalı Baxış Əhmədov da «Qanlıköynək»dən Sabir haqqında yazılmış bir məktub almışdı. Burada Sabir savadsızlıqda, verdiyi hesab, coğrafiya, ana dili fənlərini bilməməkdə təqsirləndirilir, açıq-aşkar təhdid olunurdu,

Baxış Əhmədov məktubu oxuyub bitirən kimi, dəhşət içində yerindən qalxdı: «İlahi! Gecikərik, gecikə bilərik! Dəli

qudurmuşun biri olar — dediyini elər. Ya da pula tovlanıb qoçuluq eşqinə düşənlərdən biri olar — tamahsılanar, evimizi yıxar. Sabir kimi bir peyğəmbərə əl qaldırmaq kimin ağlına gəlib?» Suallar ona bir anlıq hər şeyi unutdurdu və qəfil yerindən qalxdı: «Allah eləməmiş, kişinin başına bir iş gələr. Üzümüzə qiyamət qarası çəkilər».

Bu fikirlərlə də həyətə çıxdı. Heç kəsə bir söz demədən getdi. Əvvəlcə Məşədi Qulamrzanın böyük oğlunu tapıb xüsusi tapşırıqla məktəbə göndərdi: «O tərəflərdə dolan, gözünü Sabir müəllimin otağından çəkmə! Mən bu saat gəlirəm». Sonra da Balaxanıda tərəqqipərvər ziyalılar və ağsaqqallarla görüşüb lazımi məsləhətdən sonra düz-doğru Sabirin mənzilinə gəldi. Oğlan müəllimin keşiyində dayanmışdı.

— Gəlib-eləyən olmayıb ki?

— Xeyr, heç kim gəlməyib.

— Müəllim özü evdədi?

— İşığı da gəlir. Bayaqdan bayıra-zada çıxmayıb. Mən biləni təkcədi, evdədi.

Baxış Sabirin xırdaca mənzilinin qapısını tıqqıldadıb içəri girəndə, Sabir bir şey olmamış kimi kiçik süfrəsini yığışdırmaqdaydı. Şam yeməyini bitirmişdi, çay içməyə hazırlaşırdı.

— Salaməleyk.

— Bay əleykümməssalam. Xoş gəlmisiz.

— Fikirləşdim ki, bəlkə təksən, darıxırsan, dedim bir gedim görüm bizim Sabir əfəndi necədi? Təklik mənə də əl vermişdi yaman...

Baxış sanki söz tapa bilmir, neyçün bu dar axşamçağı gəlməyinə səbəb axtarırdı.

— Lap əcəb eləmisiz. Elə mən də...

Sabir də sözünü bitirə bilmədi. «Məktubu verimmi? Göstərimmi? Məni rüsvay eləyən məktubu... Birdən o da razılaşdı... Onda məktəbdən gedəm gərək. Axı, onun sözü Cəmiyyət üçün

əsas olacaq... Yox! Bu düz iş olmaz. Göstərməliyəm...»

Ucadan qəlbindəki fikirlərə cavab verirmiş kimi əlavə etdi:

— Elə mən özüm də cənabınızın yanına gələcəkdim. Bu gün poçtnan bir kağız almışam... — bu sözlərlə də Sabir pəncərənin qənşərinə yığılmış kitab və dəftərlər üstündə atılıb qalmış məktubu nişan verdi.

Baxış əlavə təklif gözləmədən cəld məktubu götürüb sürətlə oxudu. Məzmunu onunkuyla eyniydi. Təkcə bilavasitə Sabirə qarşı yazılmış hədələr çox idi. Baxışın ürəyi ürpərdi. Düzlüyünə, səmimiyyətinə, istedadına pərəstiş etdiyi bu nəcib insana qıyan kim idi? Elə məktubu qurtaran kimi dilindən qopan ilk sual da bu oldu:

— Siz bilən kim olar bu nanəcib, müəllim?

Sabir xəfifcə gülümsədi:

— Nə deyim? Heç özüm də bilmirəm...

Son bir-iki ildə Bakıda məktubat aləmində baş verən bütün dedi-qodulara bələd olan Baxışı fikir götürmüşdü. Əslində Sabir üçün düşmən axtarmaq fikri öz-özlüyündə doğru deyildi. Bütün islam dünyası «Molla Nəsrəddin»i, «Zənbur»u, «Günəş»i oxuyanlar bilirdi ki, bu məcmuə və qəzetlərdə ağalar — qullar dünyasına qarşı, bütün və hər növ istismarçılara qarşı, şişqarınlara, canlılara, mirhaşımlara, məmdəlilərə, həmidlərə qarşı müxtəlif imzalarla nə yazılmışdısa, onların ən kəskini, ən tutarlısı Sabir qələminə məxsus idi. Bu qədər, bütün Yaxın Şərq dolusu düşməni olan adama ayrıca bir düşmən axtarmaq olardımı? Şah saraylarından, vəzir-vüzəradan tutmuş, milyonçulardan başlamış, xırda-para, küçədə cövlan edib «ürək bulandıran» qoçulara qədər bütün bir ictimai quruluş Sabirin düşməni idi. Belə bir adam üçün ayrıca bir düşmən — bir fərd axtarmaq nəyə gərək idi ki? Bu aləmin hər bir fərdi təkbətəklikdə Sabirin düşməni idi, onun qanını diri-diri içməyə hazır idi və hər anda bu qətli yerinə yetirə bilərdi. Bu dəhşətli dərəcədə böyük düşmən müqabilində Baxışın qarşısında xırdaca, nazik vücudlu, çəlimsiz bir adam dayanmışdı... Baxışı qorxu bir az artıq bürüdü. Amma qorxusunu Sabirə keçirmək istəmədiyindən, zərbəni yumşaltmaq arzusu ilə o onun əleyhinə bir neçə mənzum və mənsur yazılar cızmaqaralamış mühərrirləri

fikrindən keçirdi, soruşdu:

— Əhməd Kamal olmasın?

Sabir üz-gözünə fikir çökmüş halda onunla qarşı-qarşıya əyləşmişdi:

— Cənabınıza da məlumdu, ondan hər şey gözləmək olar... Amma mən biləni nə qədər olsa, o gənə qələm sahibidi. İstədiyini qəzetində — «Səda»da yaza bilər. Haqqımı kəsdi. Mətbəəsində eylə müddət müsəhhih işləyəndən sonra, əliboş buraxdı məni, çıxdım getdim. Amma bunu...

Baxış özünün də «Qanlıköynək»dən məktub aldığını Sabirə deməmişdi. Demək istəmirdi də. Qərarlaşmışdılar ki, deməsin, Amma indi özünü unutdu. Sabir heyrətlə onun üzünə baxa-baxa qalmışdı:

— Siz...

Baxış cinayət üstündə tutulmuş uşaq kimi qıpqırmızı qızardı. Başını aşağı dikdi:

— Cənab müəllim! Demək istəmirdim, sizin də bu məzmunda məktub aldığınızı bilmədən özümə gələn başqa bir kağızla...

— Sizə də yazıblar?..

— Bəli...

— Elə o Qanlıköynək?

— Bəli... özüdür ki, var... Siz heç fikir eləməyin... Nə olsun? Alan kimi də gedib ağsaqqallarla götür-qoy elədik ki, bu kim olar? Bizimkilərdən bəzisi bu fikrə gəlib ki, bəlkə bu elə Əhməd Kamalın özüdü. O yazıb. Xətti onunkuna oxşadanlar var. Özü də buralı deyil. Ondan da nə desən çıxar...

Sabir fikirli-fikirli gülümsədisə də, səsində ciddiyyət vardı:

— Yooox... Bilmək olmaz. Atalar sözüdü, deyərlər: «Mal bir yerə gedər, güman min yerə». Mən heç kimdən ayrılıqda şübhələnmirəm...

Baxış onun təmiz qəlbinə ürəyində bir dəfə də «afərin» dedi: «Sağ ol, o adamlar ki, göz görə-görə sənin başına min oyun açıb, səni təhqir eləyib, indi də hədələyirlər belə, sən onların da üstünə

şübhə gümanı gətirmirsən. Afərin bu qəlbinə, bu ağlına». Ucadan isə müəllimi arxayınlaşdırmaq üçün dedi:

— Kəndin bütün ağsaqqalları deyir ki, Məşədi Ələkbər Sabir müəllim narahat olmasın. Onun başından bir tük də düşməyə qoymarıq. Onun düşmənləriylə necə müamilə eləmək bizim borcumuzdu...

Sabir sol əlini sağ tərəfdən qabırğası üstündə gəzdirirdi, heç kəsin onun nələr çəkdiyindən xəbəri yox idi. Təkcə özü bilirdi ki, «üzüqara ciyər» onun başına nələr gətirir. Ona nə sitəmlər eləyir. Eyhamla gülümsədi:

— Mənimlə də düşmənlərimin arasında çox qalmayıb...

Baxış bu sözün mənasını dərin dərk eləmədi, yeni bir felyetonla düşmənlərinə şairin cavab verəcəyini düşünüb dedi:

— Cənab müəllim! Mən də, elə camaatımız da, böyüklərimiz də istəyirik bircə şeyi yəqindən-yəqin biləsən: bizim kəndin adamları sizdən yerdən göyəcən razıdı. Müəllimliyinizdən də, insaniyyətinizdən də. Arxayın olun. Belə cəfənkiyatlar bizim fikrimizi sizin haqqınızda dəyişə bilməz. Amma bu «cənabı» da cavabsız qoymaq olmaz. Qoymamalıyıq da. Siz nə yazacaqsınız, — bilmirəm. Amma mən «Günəş»də ona layiqli cavab hazırlayacağam, verəcəyəm. Sağ olun! Bu gündən bütün kəndimizin nəzarəti məktəbin üstündə olacaq. Arın-arxayın yatın.

— Zəhmət...

Baxış onu sözünü bitirməyə qoymadı:

— Heç bir zəhməti yoxdur. Bu bizim vicdan borcumuzdur.

Baxış vidalaşıb getdi. O gündən başlayaraq Sabirin işlədiyi məktəb doğrudan da böyüklü-kiçikli bütün kəndin nəzarəti altında idi.

«Günəş»in 1910-cu il 3 noyabr tarixində çıxan nömrəsində Sabir öz düşmənlərinə, birinci növbədə «Qanlıköynəy»ə bu taziyanəsi ilə cavab vermişdi

Saxta bir xətti-xam ilə mənə kağız yazıb,

Ey məni təhdid edən min dürlü təkidat ilə!
Veylə «Xortdan gəldi, dur qaç!» sözlərin get tiflə de! Zatını Sabir tanırkən — qorxmaz ovhamat ilə.

«Qanlıköynəy»in məktubu oktyabrın 27-sində, Sabirin taziyanəsi noyabrın 3-də çap olunmuşdu. Noyabrın 5-də, yəni hədə məktubunun alınmasından düz doqquzca gün sonra Azərbaycanın maarif dostu ziyalılarından, Sabir istedadının pərəstişkarlarındai biri olan Baxış Əhmədovun «Günəş» qəzetində belə bir məqaləsi dərc olunmuşdu. İlk «Müdiri-möhtərəm! Şu zeyldəki məktubun dərcinə minnətdaram» sözləri «Günəş» qəzetinin müdirinə müraciət idi. Bundan sonra «Qanlıköynəy»ə cavab verilirdi:

«Cənab... Saxta xətt ilə mənə və məktəbimizin şəriət müəllimi Sabir Tahirzadə cənablarına poçta vasitəsilə göndərmiş olduğun birər məktubun oktyabr ayının 27-ci günündə vüsulumuz olmuşdur.

Mənə yazmış olduğun məktubda müəllimi — müşarileyhii coğrafiya, hesab, hətta türk dili tədrisində də iqtidarsız olduğunu yazıyorsan. Onun məktəbdən çıxarılmasını tələb edib, əvəzində müqtədir bir müəllim nəsb olunmasını bizə məsləhət görüyorsan (?). Əks surətdə məktəbə xəyanət etmiş olacağını da anladıyorsan. Cənabın dəxi, guya balaxanılı imişsən, şəhərə gedib, məktubları da bizə oradan yazmış olduğunu ixtar ediyorsan (?), hətta özünüz də üç nəfər imişsiniz (?).

Əfv et, əfəndim, əfv et! Sən nə qədər yazsan da ki, «...özümüz də balaxanılıyıq, bu kağızı da gəlib şəhərdən sənə yazırıq», lakin sənin balaxanılı olmayıb, bakılı olmayıb, üç nəfər də olmayıb, — nərəli, nəkarə və kim olduğunu min dəfə görüb tanımış olduğumuz xəttin bizə anlatdı, həm də doğru olaraq anlatdı.

Sənin xəttini tanıyanlar, məktubları görər-görməz, bedunitəhəmmül»in xəttidir» deyə, hər yerdə buna şəhadət verəcəklərinə müqərrər oldular.

Əfəndim! Bildiyin kimi, Sabiri biz ülumi-riyaziyyə müəllimi deyə məktəbimizə almamışız. Məktəbimizin türk dilindəki hesab və coğrafiya təlimi Əlimişanın vəzifəsidir.

Sabirdən bizim istəyəcəyimiz şəriət, sərf, bir də türk və fars lisanları təlimidir ki, onları da kamalınca ifa ediyor və edəcək də!

Qaldı ki, onun haqqında «türk dili təlimini də bilmiyor» — kimi dediyin sözlərinin iftirayi-məhz olduğunu kəndin daha eyi biliyorsan, yəqin edirəm.

Sən onu təhqir etsən də, bizcə onun həvəsli, çalışqan, müqtədir, həm də dindar bir müəllim olduğu sabitdir.

Bildir üç-dörd ay müddətində məktəbimizdə göstərdiyi hünəri sayəsində idi ki, bu il üçün iyirmi manat da hər ayda məvacibinə əlavə etdik.

Sabirin kəndisinə yazdığın imzasız məktubunda dəxi onu təhdid edərək yazıyorsan ki, «o məktəbdən get, get, get! Yoxsa sənin üçün yaxşı keçməz, başın bəlalar çəkər, bədbəxt olarsan».

Əcəba, nə demək istəyorsan? Yəni necə yaxşı keçməz?

Yavrum, bilmiş ol ki, Sabir, yaxud məktəbimizdə olan sair müəllimlər bizim övladımızın ruhani pədərləri olduğu kimi bizim də həqiqi bəradərlərimizdir. Biz hər vaxt allahın övcü ilə onların mühafizəkarlarıyız. Halbuki sənin də kim olduğunu bilmişiz.

Və bir də Sabir əfəndiyə, yazdığın təhdidiaməndə ona Balaxanıda qalmağa ancaq ayın başına qədər vaxt veriyorsan. Vaxt bitdiyi kimi, getməz isə, işlərin də yaxşı keçməyəcəyini anladıyorsan (?).

Əfəndi, ay başa gəldi, vaxt da bitdi. Lakin Sabir getməli olmadı.

İndi, bununla bərabər, biz də sənə bir həftə vaxt verib, iki işin birini əmələ gətirməyi cənabına təklif edərək deyiyoruz ki, bu bir həftə daxilində ya qəzetə vasitəsilə təhrirən, lakin açıq imza ilə olmaq şərtilə, yaxud Sabirin özündən şifapən bu xüsusda üzr istəyəsən. Və illa, təhdidiaməni hökumət suduna verəcəyimizi ixtar ilə xətmi-kəlam ediyorum».

Baxış Əhmədov deyəsən iki məsələyə xüsusi diqqətlə vurğu vurmuşdu: bunlardan birincisi «Qanlıköynəy»in Balaxanılı olmaması, onun dili, xətti haqqında işarələr idi. İkinci əsas məsələ bu idi ki, Balaxanı cəmiyyətinin nümayəndəsi əhalinin və xeyriyyə cəmiyyətinin M. Ə. Sabirdən bir müəllim və əsl insan kimi razılığını xüsusilə bildirirdi. Onun az müddət ərzindəki xidmətini qiymətləndirib hər ay maaşının iyirmi manat artırıldığını da sanki acıqla «Qanlıköynəy»ə meydan oxuyaraq ayrıca qeyd edirdi. Sözarası, Sabirin dindar olduğunu da bildirib qaragüruhun ağzını irəlicədən qapayırdı.

Sabir «Günəş»də Baxış Əhmədovun şair və müəllimə böyük ehtiram və məhəbbət hissilə yazılmış məktubunu oxuyanda qara ciyər tutması keçirirdi. Qara ciyərindən də betər ürəyi ağrıyırdı. Mənəvi əzab çəkirdi Sabir. Şərqin o böyük istedadı, bir ziyalını, kiçik bir qəzetin balaca bir məqalənin onu müdafiə etməsinəmi möhtac idi? Oxuduqca onu xəcalət təri basırdı. Bu məqaləni onun şagirdləri də, dostu da, düşməni də, həmvətənləri də, qələm yoldaşları, məsləkdaşları da oxuyacaqdı... Oxuyurdu... Ona atılan

böhtan oxlarına inanan da olacaqdı, inanmayan da... Doğrudanmı Sabir kimi bir şair möhtac idi? Doğrudanmı dərs, məktəb, ali təhsil görməmişdi? Doğrudanmı şagirdlərinə öz doğma dilini də «təlim edə bilmirdi?» Bu sualları bir-birinə verən də olacaqdı, verməyən də. Onun dərin-dərin köksünün dərinliklərinə kömülmüş dərdləri çiban kimi şişmişdi bu gün, deşilmişdi, irin-qan verirdi bu dərdlər... Bağrını bişirən sirri «xəlqə əyan olmuşdu». Sən beləmişsən balam, ay bərəkallah sənə!» deyəilər şənlənə çəkdi. «Biz deyən oldu, olmadı?»

Qara ciyər tutmasına ürək ağrıları, mənəvi ağrı lar elə qarışmışdı ki, Sabiri elə silahla öldürə bilməyənlər kamına çata bilərdi ki, belə xəstəliyin şiddəti öldürə bilərdi. Öz «əliylə», öz «vücudunun əliylə», özünü sarsıtmaq yoluyla. Bax belə!

Bu ağır ağrılar getdikcə çoxalırdı. Əvvəllər ayda, iki ayda bir tuturdusa, indi həftədə bir-iki dəfə tutmağa başladı. Sonra da az fasilə vermədən onun onsuz da cansız, nazik vücudunu üzməyə üz qoydu, yatağa yıxdı Sabiri.

Hadisədən iki aya yaxın keçdi, xəstə yatağında ağır yatan Sabir çox sevdiyi müəllimlik vəzifəsinə, candan bağlandığı təzə dostlarına, Balaxanı məktəbindəki sevimli şagirdlərinə əbədilik vida edib Şamaxıya, ailəsinə qayıtdı.

Buradan da «Molla Nəsrəddin»in redaktoru, böyük ədib və vətəndaş Cəlil Məmmədquluzadənin, eləcə də onun rəfiqəsi — Cavanşir nəslinin maarifpərvər qızı Həmidə xanımın təkidi ilə müalicə üçün Tiflisə yollandı.

«ARİZİ-QƏMLƏR ƏLİNDƏN ÜRƏYİM ŞİŞMİŞ İDİ...»

«Şeytanbazar» dörd tərəfdən irili-xırdalı dükanlarla əhatə olunsa da, buraya elə dörd səmtdən də enli, amma basırıq yol gəlirdi. Bu yollarla yüklü at, qatır, eşşək, dəvə... avtomobillər axıb

gəlirdi. İnsanların sayı-hesabını aparmaq mümkün deyildi. Ruslar, gürcülər, ermənilər, azərbaycanlılar, tatarlar, acarlar, abxazlar, cərgəzlər, çeçenlər, inquşlar, az qala hər kəndində bir başqa dildə danışan müxtəlif geyimli Dağıstan xalqları, yunanlar, Krım türkləri, minqrellər... bir-birinə qarışmışdı. Amma «Şeytanbazar»da çoxluğu azərbaycanlılar təşkil eləyirdi. Bunların da içərisində Tiflis, Bakı, Şamaxı, Təbriz tacirləri xüsusi yer tuturdu.

— Qatso... Sən bunun nəyinə yaman deyirsən?

— Ay axber, məssəb haqqı elə olan qiyməti budu, ha!..

— Can qardaş... Belə xançarı heç yerdə görməyə var...

— Şirvan ipəyi... Qəşət, Lahıc xalçası... Gəl ha!..

— Gülbəsər! Başında gülü əsər... Yerpələngi-dərya nəhəngi... Gülbəsər evivə dirək, gülbəsər!

— Yaxşı Şiraz qəlyanı... Əl yanı...

Bu gün səhər tezdən Sabir də cavan dostu, oğlu yerində ola bilən İsmayılla bura gəlmişdi.

Dünən axşamkı hadisələri xəyalında canlandırdıqca gözlərinin önündə dahi Şekspirin ölməz «Otello» faciəsi sanki yenidən oynanırdı. Hələ gündüzdən həmyerlisi, gizli inqilabçı Əşrəf Yüzbaşov ona demişdi ki, «Mirzə, axşam teatra gəl, səninçün yer saxlayacağıq», O da Bakı mühərrirlərindən Haşım bəy Vəzirovun tərcümə etdiyi bu «Otello»ya tamaşa etmək istədi. Əsəri ona çox tərifləmişdilər. Görmək istəyirdi. Lakin bu axşam Mirzə Cəlilin evində — «Molla Nəsrəddin» redaksiyasında demək olar ki, onunla teatra gedəsi adam yox idi. Bircə İsmayıl idi. Sabir bu mütənasib əndamlı, nazik qara bığlı, geniş alınlı, qaraqaş, qaragöz oğlanı çox sevirdi. Mirzə Cəlilin dostu Qurbanəlinin oğlu Əziz ilə İsmayıl arasında həmişə ona qulluq etmək hüququ üstündə mübahisə gedirdi. Bir yana çıxmaq istəyəndə biri əsasını, biri paltosunu tutur, mübahisə edirdilər. Axşam şair, İsmayıla dedi:

— Hazırlaş, məni teatra apar. Əşrəf dedi: bizimkilər Şekspirin «Otello»sunu oynayacaqlar». Görmüsən?

— Görmüşəm, Mirzə! hər dəfə bizimkilər nə oynasa gedirik. Mən də, Əziz də.

— Bir dəfə də məniynən görsən, sənə ziyan olmaz ki?

İsmayılın azca qalın dodaqları sevincindən qulaqlarının dibinəcən aralandı. O, Mirzə Ələkbər Sabirlə teatrda yanaşı oturacaq, Hophopa müsahib olacaqdı. Bundan böyük bəxtiyarlıq təsəvvür eləmirdi, Sabirin sualına uyğun cavab verdi:

— Yox, Mirzə, zərəri olmaz... Mən biləni xeyri çok olar...

— Onda hazırlaş... Mən ki, hazıram... Adaxlım burda yolumu azmağımın qorxusundan məniyçin ayrı pal-paltar qoymayıb... Toyluq, bayramlıq... Elə taxçadakı qarnımda, boğçadakı

əynimdədi...

Oğlan güldü. Mirzənin səsində elə bir xəfif nəvaziş var idi ki! Kimə aid idi bu nəvaziş? Onamı, «adaxlım» adlandırdığı baş yoldaşınamı? Oğlan ilə Mirzənin arasında bir zarafat binası qoyulmuşdu. Nə qədər ki, Cəlil Məmmədquluzadənin ailəsi kənddən Tiflisə qayıtmamışdı, Sabir redaksiyada darıxır, tək qala bilmirdi. Odur ki, axşamlar ara-sıra evlərinə getmək istəyən İsmayıldan soruşurdu:

— Aadə, hara gedirsən? Evlisən? — Sabir əlbəttə İsmayılın evli olmadığını yaxşı bilirdi. İsmayıl da məzəli bir söz eşidəcəyi ümidilə Sabirə həmahəng cavab verirdi:

— Yox, Mirzə, evli deyiləm? Nişanlıyam. Hələ evimizə gətirməmişəm.

Sabir gülə-gülə zarafatını davam etdirirdi.

— Onda evə getməyin neyçündü, balam? Nişanlıbazlığa getsən vurarlar əngin əzilər. Yaxşısı budu nə get, nə də başın qalmaqala düşsün. Bax, mən də indi subayam. Adaxlımı Şamaxıda qoyub buralarda keyfə baxıram...

İsmayıl bu «keyfə baxmağın» nə olduğunu yaxşı bilirdi. Sabirin böyrünə dərman sürtdükcə, davalarını içirtdikcə, xəstəliyin tutmaları vaxtında çəkdiyi əzabı yaxşı görürdü. Arada Sabir xəstəxanada yatmalı olanda dedi:

— Mirzə, kaş mən də azarrayaydım, siziilə birlikdə yataydım.

Sabir acıqlandı. İsmayıl onu birinci dəfə belə acıqlı gördü. Dedi:

— Oğul, bu sözü bir dedin, bir də dilinə gətirmə. Cansağlığı ələ düşməz. Sən cavansan, indi başının ağrısını bilmirsən. Əyilməsin — əyildi cansağlığı, sonra yüz təbib yığıla əlacı olmur. Görmədin qarnımı yarıb içinə baxmaq istəyirdilər... Elə bil sandıqdı açalar, bir şey yoxdursa bağlayalar. Yox... Cansağlığının qədrini gərək cavanlığında biləsən. Loğman deyəsən deyibdi ki: Cansağlığı elə bir tacdır sağlam adamın başında ki, onu yalnız xəstələr görə bilər. Mən indi yaxşı görürəm o tacı sağlamların başında... Çünki

xəstəyəm...

Bu gecə də teatra getmək üçün hazırlıqlarını zarafatla başladılar. Amma qapıdan çıxanda Sabir ağrıdığını hiss etdi; bildi ki, piyada gedə bilməyəçək. Oğlanı fayton dalınca göndərdi. Mindilər:

— Lap bəydadaşlar kimi buyururuq teatra... Faytonda... Dəm-dəstgah...

Faytondan düşəndə Sabirin rəngi qaçmışdı. İsmayıl nə isə duyub onun qoluna girdi. Faytondan enməsinə yardım göstərdi. Tiflis «Dvoryan teatrı»nın qabağı adamla dolu idi. Əksəri Tiflisdə yaşayan və ya ticarətə gələn, işləyən azərbaycanlılar olsa da, içlərində azərbaycanca bilən gürcü, erməni ziyalılarından, tatar və Dağıstan xalqlarından da nəzərə çarpırdı. Əziz də buradaydı. Onları görən kimi yanlarına cumdu:

— Nə yaxşı, nə yaxşı, artistlər elə sevinəcək ki, Mirzə!

Onlar səhnənin arxasına keçdilər. Tiflis dram həvəskarları içində ən yaxşıları bu gecəki teatrda oynamaq üçün geyinməkdəydilər: Mirzəli Abbasov — Otello, Həbib Köçərlinski — Yaqo, Əşrəf Yüzbaşov — Barabanso, Kirmanşahlı — Rodriqo, Tərlan xanım — Dezdemona rolunu ifa üçün hazırlaşırdılar. Artistlər və onların səhnə arxasına keçmək hüququ olan dostları, Sabiri elə bir sevinclə qarşıladılar ki, xəstə şair bir müddət üçün ağrılarını da sanki unutdu. Elə bil xəstə vücudu da bu atəşin gəncliyin bayramını pozmaq istəmirdi.

Zəng vuruldu, keçib yerlərində əyləşdilər. Cavan dostları Sabiri əhatə edib, sağını-solunu tutmuşdular. Artistlər gözəl oynayırdılar. Amma tərcümənin dili elə qəliz idi ki, artistlərin danışdığını başa düşmək üçün savadsızlığına göz yumsan da gərək azərbaycancadan başqa, bir də ərəb və fars dillərinə dərindən aşina olaydın. Sabir xeyli əsəbiləşdi. Elə orada bədahətən ürəyinə bu taziyanə gəldi:

Öylə bir tərcümə ki, ruhi-Şekspir görcək,
Ağladi ruhi-Otelloyla bərabər özünə,
«Ax, mütərcim!» deyə bir odlu tüfürcək atdı,
Şübhəsiz düşdü o da tərcümakarın gözünə.

Teatrdan qayıdan kimi taziyanəni kağıza köçürüb İsmayıla verdi ki, növbəti 9 mart 1911-ci il nömrəsinə yığılmaq üçün mətbəəyə göndərsin.

İndi budur, «Şeytanbazar»ı gəzdikcə Tiflis kablayılarını,

məşədilərini, «Şeytanbazar»ın əsnafını: baqqal, bəzzaz, əttar, əllaf, nüsxəbənd, ayaqçılarını seyr etdikcə düşünürdü:

— Mən Şamaxıda olanda, «Molla Nəsrəddin»ə baxdıqca Səhhətnən hey fikirləşib söhbətləşirdik ki, bu nəqqaşımız Rotternən Şillinq Şamaxı, Bakı baqqallarını, qırmızısaqqal kablayılarını, məşədi-ləriii hardan belə yaxşı tanıyır? Sən demə necə deyərlər: «hit-mit — bizim it» imiş. Necə deyərlər? «Tula itdən murdarmış». Atalar demişkən: «Bu it də onun cinsidi», — heç bir-birlərindən uzağa getməyiblərmiş... Mən deyirdim burdakılar mədəniyyətə bizimkilərdən yaxın olallar... Sən demə, yoooxx!!! Elə bunlar da onların tayıymış. Keçənlərdə Tiflisə gələndə macalım olmurdu; az qalırdım, bu qədər yaxşı bələd ola bilmirdim «Şeytanbazar»a... Elə əsl Şeytan bazarı imiş. Ad qoyanın atası cənnətlik olsun. Yaxşı tanıyıb nə matahdı bu bazar!

Onlar irəlilədikcə Sabir yanınca gedən cavan oğlanın sanki varlığını unudub bütün huşu-kuşu ilə «Şeytanbazar» sakinlərini diqqətlə gözdən keçirir, elə bil ki, yeni-yeni satiraları üçün yeni-yeni «müştərilər» axtarırdı: «Heç axtarmaq lazım da deyil. Hər biri elə «müştəridi ki, durub».

Bir neçə gün idi ki, o, gəlişinin əvvəllərində «Molla Nəsrəddin»in redaktoru Cəlil Məmmədquluzadəni əvəz edən Məhəmmədəli Sidqiyə söz verdiyi satiraları hazırla-maqdaydı. Həm redaksiya nəzdində yaşayır, jurnalın nömrələrinin hazırlanmasında gənc dostları ilə birlikdə iştirak edir, həm müalicə olunur, həm də sözləşdikləri kimi «Novruz bayramı» nömrəsini bütünlüklə Sabir satiraları əsasında şeirlə, nəzmlə, mənzum tərtib etmək üçün satiralar, epiqramlar, taziyanələr, qitələr yazırdı. «Şeytanbazara səyahət» və müşahidələrn də bunun üçün idi. Doğrudur, xəstə şairin vəziyyətini nəzərə alan Sidqi «Özünüzü zəhmətə salmayın» deyib onu qorumuşdu və jurnalıi bayram nömrəsi üçün Sabirin «Ey pulluların səfası Novruz», «Ey tökən mollaların kamına şərbət, Novruz!», «Oylə bir tərcümə ki, ruhi-Şekspir görcək» misraları ilə başlayan parçaları və bir də «Vaqieyi-

yubileykaranə» adlı uzunca bir satirası hazır olmuşdu. Jurnalı bütünlüklə mənzum tərtib etmək məsələsi şairin səhhətinə görə baş tutmamışdı.

Amma indi, bax, «Şeytanbazar» başdan-başa «Molla Nəsrəddin»in müştəriləri ilə doludur. Bircə bu sağ tərəfdən sağ döşünün altını doğrayan ağrılar azalsaydı... «Yoxxx!... Azalmağa ümid yoxdur. Heç olmasa çoxalmasaydı... Nə yaman dərd imiş... Bu qara ciyər şişməsi... Az qala hamilə arvada dönmüşəm. Deyəsək daha bir şey yaza bilməyəcəm axı... Yaman ağrınıram. Qayıdaq...»

— Qayıdaq, oğul! Yeriyə bilmirəm. Deyəsən bu namərdin, üzüqara ciyərin tutması başlayır..,

İsmayıl sevimli şairin üzünə baxan kimi mətləbi anladı. Gecələr tutmalar vaxtı onunla bir otaqda yatırdı. Cavanlıq yuxusu nə qədər ağır olsa da, hər dəfə saxlamağa çalışdığı iniltisini, yuxuda zarıyarkən «anaşımı» çağırıb oğlunu soruşmağını eşidirdi. Ağrıların şiddətini qara xətt altından girəc kimi ağaran rəngindən bilirdi. Cəld boş fayton tapdı, xəstə şairin qoluna girdi. Min əziyyətlə onun çiyninə yaslanan xəstəni faytona mindirdi.

— Bu saat, Mirzə, bu saat!.. — deyə faytonçuya redaksiyanın ünvanını verdi:—Davıdovskaya küçəsi, №24.

Faytonçu avərbaycanca bilməsə də, xəstənin vəziyyətini görüncə, atları addım-addım sürməyə başladı. «Atasıdı... Yazıq qoca... Deyəsən ölür axı...»

Faytonçu «yazıq qoca» deyib acıdığı bu adamın böyük beynəlmiləlçi şair Sabir olduğunu, yaşının da heç əlliyə çatmadığını, dünyada qırx doqquz il belə yaşamadığını, hələ qırx doqquz yaşının tamamına iki aydan da çox qaldığını hardan biləydi?

Tiflisdə Cəlil Məmmədquluzadə və Həmidə xanımın yaxın köməyi və maddi yardımı ilə Sabiri o dövrün məşhur həkimlərindən Rudnikov, Kasparyants, Qantemirov və daha kimlərsə müalicə edirdilər. Mirzə Cəlil və Həmidə xanım ümid gələn bütün həkimlərə müraciət etmək, ağır xəstə, sevimli şairi heç

olmasa azacıq əzablardan xilas etmək, əziyyətlərini yüngülləşdirmək istəyirdilər. Elə bu ümidlə də kim məsləhət görülür, kim tərifənirdisə, ona da müraciət edib, müayinə etdirir və məsləhət alırdılar. Səhhət, Qurbanəli Şərifzadə və başqa ən yaxın dostlarına yazdığı məktublarında Sabir, Cəlil Məmmədquluzadə və Həmidə xanım Cavanşirin ağır xəstə şairimiz üçün çəkdikləri zəhmətləri xüsusilə qeyd edirdi.

Sabirin Tiflisdən 1911-ci il iyunun 15-də Şamaxıya yazdığı bu xırdaca məktub onun Tiflis dövrü həyatını aydın işıqlandırır:

«Mirzə Cəlil və Həmidə xanım cənablarından çox razıyam. Bilmirsən mənə nə qədər ehtiram edirlər. Bu neçə müddətdə tamam məxaricimi və zəhəmatımı mütəhəmmil olmuşlar. Mənə mehmanxana, ya xəstəxanada yatmağa razı olmadılar, öz evlərində mənzil vermişlər. Xülasə bilmirəm nə dil ilə təşəkkür edim... bu qədər bil ki, öz evimdən artıq mənə pərəstriş edirlər».

Bu ağır günlər haqqında professor Əziz Şərifin xatirələri xüsusi maraq təşkil edir:

«O vaxtdan az qala yarım əsr keçmişdir, lakin bu günə kimi sevgili şairimizi xatırlayanda o vaxt gördüyüm Sabir əminin canlı surəti gəlib gözümün qabağında durur. Biz, redaksiyadakı gənclər (Əziz Şərif, İsmayıl Həqqi, Əhməd Pepinov və başqaları — Ə. C.) onu nə qədər sevirdik, onun hər bir hərəkətini necə dərin hörmətlə izləyir, onun hər bir sözünü o qədər qızğın maraq və diqqətlə diiləyirdik. (O dövrdə Sabirin redaksiyadakı bir çox hadisələrə bədahətən söz qoşması «Molla samavarından dərda həzardərda. Bir istəkanı indi, bir istəkanı fərda», zəng haqqında və sair məlum idi). Onun dərin mənalı, iri qara gözləri bizə nə qədər mehriban, nə qədər məhrəm idi və daim,a gülən bu nurani gözlərdə bəzən nə qədər dərin kədər görünürdü. Bu kədər gündən-günə artırdı və son günlərdə, Sabir xəstəxanaya qoyulandan qabaq, baxışlarında təbəssüm, nadinc bir gülüş görməyə adət etdiyimiz bu cazibədar gözlərdə biz yalnız iztirab, qüssə görürük ki, bu da bizim qəlbimizi parçalayırdı. Sabirin çox yaşamayacağını duyur kimi, çox vaxt biz

gizlin bir guşə tapıb, orada hıçqırtı ilə ağlayar, göz yaşımızı axıdardıq.

Bizim üçün Sabir yalnız sevə-sevə oxuduğumuz ehtiraslı satiraların müəllifi deyil, eyni zamanda, sevgili, mehriban, əziz, doğma Sabir əmi idi. Buna görə də onun xəstəliyi bizə ikiqat təsir edirdi.

Sabir xəstəxanadan çıxıb yenidən redaksiyaya qayıdanda, onun halı lap xarab olmuşdu. Dostum Əhməd Pepinov bəzən gecələr xəstənin yanında oturardı ki, lazım olsa ona qulluq etsin. O zaman Əhməd, şairin gecələr bəzən sayıqladığını, tez-tez «Səriyyə» deyə öz qızını çağırdığını, hətta şeirlə danışdığını söyləyirdi. Yadıma gəlir ki, o zaman Sabirin sayıqlayarkən dediyi sözləri Əhməd bir dəftərə yazmışdı. Sonra bu dəftərcə yəqin ki, itib-batmışdı».

Xatirələr onun Tiflisdə ağır xəstəykən belə «Molla Nəsrəddin»də yaxından iştirak etdiyi, jurnalın və onun əməkdaşlarının bütün həyatı, iş-kücü, gündə lik qayğıları ilə yaxından, ürəklə əlaqələndiyini göstərir.

«ÖLMƏYİMLƏ SEVİNMƏSİN ƏĞYAR!»

Səhhət Şirvanda, demək olar ki, tamamilə tək idi. Ağaəli bəy Nasehdən başqa dostlarından ətrafında heç kəs qalmamışdı. Mirzə Ələkbər Sabir ağır dərdə düçar olmuş, Mirzə Cəlil və Həmidə xanımın dəvətilə Tiflisdə müalicədə idi. Bəlkə də... bəlkə də... deyə son ümidlə yaşayır, ölkənin hər yerindən ziyalılar Sabirin xilası üçün əllərindən gələni etməyə hazır olduqlarını bildirirdilər. Amma Səhhət dostunun son günlərini yaşamaqda olduğunu duyur, dərk edirdi. Buna görə də qüssəsi birə on artmışdı. Hadi İstambulda idi. Bu günlər Səhhət ondan şikayətlər dolu məktub almışdı. Böyük ümidlərlə Türkiyəyə yollanan Hadinin həyatı orada çox ağır keçirdi. Nə gördüklərindən, nə duyduqlarından, nə də yazdıqlarından mənəvi qida ala bilmədiyini yazırdı. Belə

görünürdü ki, əməlli bir işin də qulpundan yapışa bilməyib, maddi vəziyyəti də ağırdır.

Cəmo Cəbrayılbəyli də köçüb getmiş, Bakıda müəllim-liyə başlamışdı. İndi şair ondan, onun söhbətlərindən də məhrum olmuşdu. Arabir gecələr gah Ağaəli bəygildə, gah da Səhhətgildə yığışır, dərdləşirdilər. Köçərlidən, Əlicabbardan aldıqları məktublar bu tənha günləri nisbətən doldururdu.

Tez-tez də olmasa, ara-sıra Əliheydər onlara gəlir, özü ilə birlikdə yeni kitablar, qəzet və məcmuələr gətirirdi. O, Əliheydərin gizli işlə məşğul olduğunu bilirdi. Amma bu işin nədən ibarət olduğunu, Əliheydərin tez-tez haralara, nə üçün getdiyini soruşmur, Əliheydər də deyəsən şairin dincliyini qorumaq məqsədilə onu öz işlərinə qarışdırmaqdan çəkinirdi.

Bir gün Tiflisdən aldığı teleqramdan Sabirin qayıtmalı olduğu xəbərini öyrəndi. Necə gəlir, vəziyyəti necədir? Nigarançılıqdan üzülürdü.

O ağır günlərdə nə etmədi Səhhət? Son bir ümidlə, ən dəhşətli ağrıları belə ayaq üstündə keçirən və hər şeyi zarafata salmağa çalışan dostunu bir daha Bakıya apardı. Ona demədilər, amma sözün sağını Səhhətə dedilər: «Yaşamayacaq... son günləridir». Xəstəni min bir əziyyətlə, yenidən Şamaxıya — doğulduğu torpağa qaytardı. Sabir dostunun gözləri önündə hər gün bir parçacıq ölürdü, çıraq kimi sönürdü. Bazardan keçib Şıxminasa — Sabirin evinə gələnəcən Səhhət nələr çəkirdi, nələr eşitmirdi?

— Belə olar ha!.. Qurban olum allaha! Dinə, müsəl mançılığa sataşanların hamısının axırı belədi...

«Məgər yerdə qalanların hamısının axırı ölüm deyildi? Məgər dinin əsasını qoyan peyğəmbər özü həyatdan köçməmişdi? Peyğəmbərlər, imamlar, bütün müqəddəs donu daşıyanlar hamısı ölməmişdimi? Onlara kimin qəzəbi keçmişdi? Hamının sonu, son günü var, olub və olacaq. Bu, son ucu ölümlü dünyadır. Əbədi qalmaq, bu gözəl kainatda heç bir canlıya cismani əbədiyyət nəsib olmayıb. Ölən cismidir şairin! Ondan sonra heç olmasa əsərləri,

əməllərinin tərcümanı olan, xalqına xidmət naminə yazdığı əşarı durur və duracaq. Bəs sizdən nə baqi qalacaq, ağalar?»

Səhhət düşünürdü, yana-yana, qıvrılaraq Sabir düşmənlərinə, işıq düşmənlərinə deyirdi:

«Adam var evdən gedər, adam var eldən gedər». O, dünyadan, bütün dünyamızdan gedir. Bir evin oğlu, əri, atası idi. Bir millətin qəm çəkəni, bir xalqın cəngavəri, deyən dili, görən gözü, sevən qəlbi idi. Təkcə evdən, təkcə eldən getmir, bütün aclar, bütün füqəra, bütün istibdad pəncəsində inləyən, əzilənlərin ömründən gedir. Dünyanın əcayib dövründə gəlmişdi dünyaya. Dünyadan gedir, Sabir!»

Səhhətin qayğıları çox idi. Bu üç gün, üç ağır il qədər uzun keçdi. Bu üç ağır gündə xəstənin başı üstündə Səriyyə çıraq kimi yandı. Səhhətin bütün əmr və tapşırıqlarını bir quş çevikliyi ilə yerinə yetirdi O nəyə inanırdı, nəyə ümid edirdi? Bunu demək çətin idi. Amma Səhhət bilirdi ki, Səriyyədə bu sonsuz ümid çırağını yandıran Sabirin mətanətidir. Sabir bir dəfə də qızın yanında inildəmədi; ağrılardan əzab içində qovrularkən belə, gülümsəməyə çalışdı. Hərdən nəysə duyub göz yaşlarını uda-uda: Əli dadaş!

Qarşımızda odu zağ,
O qarğadı, odu zağ,
Qoy dərdin mənə gəlsin
Tək olsun səndən uzağ.

— deyəndə «Bir də elə desən, səndən küsüb lap gedərəm uzaqlara, Səriyyə» deməyə özündə qüvvət tapırdı. Səriyyə arabir balaca qardaşını qucağına alıb otağa gətirir, Səhhətə göstərir, amma atasını qaralayıb deyirdi:

— Bir bax, əmisi, bu gün bir söz də öyrənib... de daaa, de əmiyə...

Səhhət uşağı qucağına alıb xəstənin sönməkdə olan gözləri önünə gətirir, son saatlarını bir azacıq işıqlandırmaq istəyirdi. Bu

barədə o, Səriyyə ilə həmfikir idi. Amma bir dəfə Səriyyə uşağı bayıra çıxaranda, xəstənin vücudundan acı bir titrəyiş keçdi. Elə bil inlədi və bu inilti ömrünün sonunacan dostunun qulaqlarından getmədi:

— Necə olacaq?

Onu narahat edən balasının gələcək taleyi idi...

Tək oturmuşdular. Sabirin ağır günləri idi. Artıq dostunun dərmanlarını da könülsüz, həvəssiz içirdi. Səhhətə elə gəlirdi Sabir onun həkimliyinə olan inam və etiqadını da itirir. Halbuki Sabir özü də anlayırdı, xəstənin ümid etməsi, onu müalicə eləyən həkimə inanması, müalicədə zəruri şərtdir. Bu gün Səhhət duyurdu ki, Sabir ona nə isə demək istəyir. «Haran ağrıyır? Nədən şikayət edəcəksən? Dostum, soruşmağa da dilim gəlmir» — düşünürdü. Dedi:

— Qardaş, dərdini gizlədən dərman tapmaz, deyiblər... De, ürəyində nə dərdin var? Bəlkə bir əlac eləyim...

Xəstə kədərlə gülümsədi, pıçıldadı:

— Mənimki dərmandan keçib, dostum! Bunu özün də bilirsən. Qardaşım, gəl bir-birimizi aldatmayaq. Hamısını özün yaxşı bilirsən... İndi zəhmət də olsa, dur bir gör, qapının dalında uşaqlardan yoxdu ki?..

Səhhət durub baxdı, qadınların başı həyətdə qarışıq idi. Qayıtdı, həmişə, hər şeyi Sabir onun gözlərindən oxuyardı. İndi də kimsənin onları diiləmədiyini dostunun simasından anladı. Səhhət ona demək istəyirdi. Qorxurdu, qorxurdu ki, Sabir məşhur «vəsiyyət yüngüllükdür» məsəlini çəkib, Səhhətin qəlbini parçalayan vəsiyyətə başlaya bilər. Amma Sabir o məşum sözü dilinə gətirmədi. Əl işarəsi ilə dostunu oturmağa dəvət etdi. Səhhət üç gündən bəri kəsdirdiyi yastığın kənarına çökdü. Sabir dinməzcə, ufuldamadan çevrikdi. Səhhət bilirdi ki, hər bir hərəkət ona dözülməsi mümkün olmayan ağrılar hesabına başa gə lir, çətinlik çəkir, amma ağrılara mərdanəliklə dözür. «Tənü lən oxlarına» dözdüyü mətanətlə!»

— Mirzə Abbasqulu, — dedi, — özün yəqin ki, yaxşı bilirsən.

Misir sultanı məşhur Səlahəddin xəstəydi. Ölümünün yaxınlaşdığını duyanda, əsgərlərindən birini çağırtdırdı, özü üçün hazırlatdığı kəfəni mizraqın başına keçirtdi, əmr elədi ki, bütün şəhəri gəzdirsinlər, carçı da bağırsın, hamıya elan etsin: «Ey insanlar, bilin: dünyalara hökm edən Səlahəddin ölür, ölmək üzrədir. Bu dünyadan axirətə bu kəfəndən başqa heç nə aparmır».

Sonra da şair titrək əlini yastığının altına apardı. Başı bağlı qalın bir qovluq çıxardı:

— Saxla, «Molla Nəsrəddin»də çıxan və çıxmayan əşarımın əlyazmasıdır.

Elə bil ki, irəlicədən deyilməli olan bütün sözlər deyilmişdi. Elə bil ki, Sabir artıq qəlbində, Səhhətə bütün vəsiyyətlərini söyləmişdi, sözünü deyib qurtarmışdı: artıq balalarını, külfətini, illərcə tamarzısı olduğu bircə oğlunu ona tapşırmışdı. Bir də axı, bütün bunlara ehtiyac var idi ki? Özü bilirdi, qardaşının sədaqətinə əmin idi, bilirdi: nə lazımsa edəcək, əlindən gələni... Bir insanın qadir olduğu hər şeyi!.. Hətta qadir olmadığını da etməyə çalışacaq... Hə, elə bil bütün bu söhbətlər edilmişdir.

Səhhətin gözləri yaşla doldu, amma yaşlar qəlbinin içərisinə gilələndi. Sabir öz «saray həkiminin» gözlərində yaş görməməli idi. Bu, insanın son ümidini də məhv edə bilərdi. Ümid... Yox, yox, Sabir artıq yaşamağa ümid etmirdi. O, artıq bu 1911-ci ildən çıxmayacağına, hətta bəlkə bu son gecədən belə çıxmayacağına əmin idi. Səhhət əyildi, qovluğu almaq üçün elə əyildi ki, dodaqları Sabirin müqəddəs əlinə toxunsun və amma o, bunun vida busəsi olduğunu duymasın... Duydumu nədir, tez-tələsik dedi:

— Mirzə Abbasqulu, sənə «get» deməyə dilim gəlmir, amma zəhmət olmasa bu qovluğu evinizə apar. Özün bildiyin etibarlı yerdə gizlət. On ildən sonra açarsan!

Səhhətin daxilinə gilələnən göz yaşlarını saxlamağa qüdrəti çatmırdı. Evdən çıxdı, yenidən qayıtmaq üçün çıxdı. Səhhət öz dostunun son vəsiyyətini, ən mütəddəs tapşırığını yerinə yetirməyə gedirdi. Küçələrdən necə keçdiyini, Şıxminasdan Sarıtorpağacan

kedən dikdiri necə çıxdığını, yolda kimə rast gəldiyini, kiminlə salamlaşdığını bilmədi. Bircə onu bilirdi ki, özünü evə çatdıranda anası onu qəribə bir həyəcanla qarşıladı. O, anasının həyəcanlarının səbəbini bilmək istədi:

— Nə olub məmə?

— Sənə nə olub, məmən ölsün, bala? Niyə belə təngnəfəssən?

— Mənə heç nə olmayıb, yolu tələsik çıxmışam, Mirzə ağırdı...

— Sabir Ələkbər?

— Bəli...

— Anası ölsün, fağırın... Yazıq Bülurnisə... bir çətən külfətnən...

— Məmə, indi o sözlərin yeri deyil, kim bilir...

— Hə, hə, ay bala! Çıxmayan cana ümid çoxdu... Fikir eləmə...

— Məmə, sənə sözüm var...

Ana ilə oğul üz-üzə dayanmışdı. Bütün dünyada anasından etibarlı yer bilmirdi. Sabirin müqəddəs yadigarını da ona tapşıra bilərdi:

— Ana, — dedi, — bü bağlamanı etibarlı bir yerdə gizlət, heç kəs harda, nə olduğunu bilməsin. Heç kəs açıb içinə baxmasın...

Ana dinməzcə əlini arxalığının qoltut cibinə apardı, cehiz gətirdiyi qədim sandığın açarını çıxardı. Diz üstə çöküb, qapağı açdı və gəlinlik paltarı, tütünə qoyulmuş qədim əşyası — cehizdənqalma xırda-para şeyləri, ağ qələmkar boğçaya bağlanmış kəfənləri (Hacı Əlabbas bunları Məkkədə müqəddəslərin qəbri başına dolandırmış, təbərrük elətdirib gətirmişdi) qaldırdı, yer sahmanladı. Və qovluğu alıb, sandığın küncündə, atanın tütünə qoyulmuş bəylik yun çuxasının altında gizlətdi. Sonra yenə də sandığı bağladı. Sağ əlini yerə təkan verib qalxdı. Oğlunun hər bir cüzi xahişini dərhal yerinə yetirməyə hazır — müntəzir kimi qabağında dimdik dayandı. Amma indilik Səhhətin ona deyiləcək sözü yox idi. Lazım gələn izahatı sonraya qoyub tələsdi:

— Sağ ol, məmə! — deyib çıxdı. Sabirin yanına can atırdı...
—

* * *

Sonralar hey öz-özünü danlayar, ürəyində deyərdi: O gecə, o məşum gecə mən nə üçün sənin sözünə baxıb yatağından ayrıldım? Niyə getdim? Mən onsuz da yata bilmədim». Anası sübh namazına duranda, o da artıq ayaq üstündəydi. Arvad nigarançılıqla soruşdu:

— Hara belə tezdərəkdən, ay bala?

— Mirzədən nigaranam...

— Allah özü köməyi olsun, şəfasını versin...

— Şəfadan keçib, məmə...

— Üzülməyibsə...

Sarıtorpağın təzə məscidinin minarəsində azan çəkilirdi. Azançının səsi qulaqlarına salat kimi gəlirdi. Elə bilirdi ki... ürəyi ona Sabirin matəmini bütün dəhşətilə, ağırlığı ilə xəbər verirdi. Sabirgilin qapılarına çatanda oxşama səsimi də eşitdi!.. Keçinmişdi. Sabir onu məngənə təki sıxan bu dünyadan köçmüşdü. Haçansa eşitdiyi ağının iki son misrası bir mərsiyə kimi qulaqlarında səsləndi: «Düşmənə xəbər olsun, hasil oldu diləklər». Bəli, Sabirin dövrəsini almış qaragüruh bu gün bayram edə bilərdi. Millətin çırağını yandırmağa çalışan düha milləti tərk edib gedirdi. Qaranlıqlar, yarasalar sevinişə bilərdi.

Qadın ağlar — adətdir; Amma Səhhət içəri girəndə, Sabirin ölüm yatağının dövrəsində balaları, ömürgün yoldaşı, qardaşı oğlu ilə birlikdə evə yaxın olan bütün kişilər ağlayırdı. Kim isə bayatı deyirdi, ağı çəkirdi. Kişi ağlarsa, dəhşətdi. Kişi ağlayanda matəmin dərinliyini daha çox hiss edirsən. Ağının təkcə son misralarındakı mənanı ifadə etmək üçün cild-cild kitablar yazmaq olardı: «Ahım dağlara düşdü, qaçın ellər, yanarsız». Səhhət heç özü də bilmədən ağı deyən kişiyə bayatı ilə cavab verdi:

Əziziyəm qəmdə gül,

Qəmdə danış, qəmdə gül,
Ağ gündə gülən könlüm,
Mərd igidsən, qəmdə gül!

Ölən Sabirdi, Hophopdu, düşməni sevindirməyin, qardaşlar, mərdliklə götürək yerdən mərd oğlunu dünyanın.

Səhhət heç bilmədi bu sözlər dilinə necə gəldi? Məgər özünün göz yaşları qəlbinə tökülmürdümü? Cənazəyə yanaşdı, dünən bu yatacaqda Sabir ona son sözlərini demiş, vəsiyyətini eləmişdi. Ona iki bala tapşırmışdı: bir cismani, bir ruhani... Səhhət onların hər ikisindən muğayat olmalı idi. Külfətinə göz yetirməli, oğlunu böyütməli, əşarını çap elətdirməli idi. Səhhət öz dostuna vəd eləmiş, söz vermişdi. İndi isə deyirdi: bil ki, nə qədər canımda can var, vəfalı ömür yoldaşına — Bülurnisə bacıma qardaş olub, əhdimi yerinə yetirəcəyəm. Bu qara örtüyün altında yatan sənin cismindir. O cism ki, son illərdə dözülməz ağrılara mübtəla idi. Xəyalın, amalın bizə hər zaman rəhbər olacaq. Uğrunda çalışdığın vətən balaları səni unutmayacaq, sənə heykəl qoyacaqlar! İndi heykəlin qəlblərdədir. Zaman gələcək sənə bağlarda, meydanlarda da heykəl qoyulacaq! Rahat yat, qardaşım!»

Yox, yox əsla, sən ölmədin — dirisən,
Ən böyük qəhrəmanların birisən.

Artıq avamların tənələrini, söyüşlərini qulaqların eşitməyəcək. O böyük istedadınla sən:

Süngülər açmayan yolu açdın,
Qələmindən cəvahirat saçdın.

Sən bizim ədəbiyyatımıza bir inqilab gətirdin, mükafat görmədin!

Ağladın millət üçün illərlə.
Acı gülməklə, dadlı dillərlə.
Göstərib çarəyi-nicatımızı,
Nəzm qıldın nəvaqisatımızı.

Qüsurlarımızı məhz bir təbib yaranı yaran kimi açıb göstərdin! Rahat yat, qardaşım, istəkli dostum, canım mənim! «Molla Nəsrəddin» səhifələrində xalqına beşcə il ərzində, bütün bir ömürdən ziyadə xidmət etmisən. Haqqında söhbətlərimi və etdiyim tərcümələri həvəslə dinlədiyim böyük alman ədibi Höte deyir: «Böyük idrak qarşısında mən başımı əyirəm, böyük ürək qarşısında isə dizlərimi bükürəm». O böyük idrak və ürək—hər işsi səndə var idi. Səni yaradan təbiət, sənə bunların hər ikisini bəxş etmişdi. Özü də böyük bir lütf ilə, bol-bol! Sən də o böyük idrakını və qəlbini millətin yolunda qoydun. Sənin böyük idrakın önündə başımı əyirəm, sənin böyük ürəyin qarşısında diz çökürəm, qardaşım! Adam qəribə olur. Gündə, yanında yaşayan, söhbətlərini eşitdiyin, yeyib-içdiyini gördüyün insanın böyüklük və qüdsiyyətini dərk eləmir, yalnız bu insan onlardan uzaqlaşanda, onu əbədi itirəndə qüdsiyyəti dərk edilir...»

Səhhət bunları düşünə-düşünə kişilərlə birlikdə həyətə çıxdı. Sabirin qardaşı oğlu Zeynalabdın və kürəkəni Əşrəf də onları müşayiət etdi. Səhhət soruşdu:

— Nə var, Zeynalabdın, nə olub? Sözlüsən?

Zeynalabdından əvvəl Əşrəf, səsini alçaldıb cavab verdi:

— Məhəllə mollası Hacı axund guya deyib ki, «kim Sabir Ələkbərin meyiti üstünə getsə kafirdi». İndi heç bilmirəm necə eləyək? Qorxuruq gələn olmaya...

Kişilər Səhhətlə baxışdılar. Şamaxının yaşlı xəlifəsi elə bu vaxt həyətə yetişdi, son sözləri eşitcək dedi:

— Uşaqlar, siz narahat olmayın. Öz işinizdə olun. Qapının ağzında özüm duracağam. Gülabpuşu da hazırladın, verin mənə. Mən elə köhnənin xəlifəsiyəm...

Səhhət də ağır-ağır dilləndi:

— Hacı düz deyir, siz öz işinizdə, hazırlığınızda olun. Gedin qəbri qazdırın. Qalanı bizim üstümüzə...

Zeynalabdın və Əşrəf Yeddigümbəz tərəfə yollandılar.

Aradan iki saat keçmiş hazırlıq görüb evə qayıdanda, heyrətlərindən donub qaldılar. Şıxminas elə tünlük idi, tərpənmək olmurdu. Şəhər məktəblərinin şagirdləri də müəllimləri ilə burada idi. Cərgə ilə durmuş, qəmli simalarına torpaq rəngi çökmüşdü. Yay tətilində Şamaxıya gələn ziyalılar da burada idi, Soltanməcid Qənizadə ilə Nasehin başına toplaşmışdılar. Onlardan bir çoxu açıq-aşkar yaylığını gözünə basıb ağlayırdı. Camaat meyit namazı qılacaq idi. Hacı axundun imtinasını eşidən tacir Səmədağa deyirdi:

— Gəlmir, qoy heç gəlməsin, lazım da deyil! Onsuz da Məşədi Ələkbərin bu qisim mollalardan zəhləsi gedirdi. Dinimizə görə hər bir pak qəlbli müsəlman cənazə namazı qıla bilər. Mən özüm qılaram, cərgə durun.

— Səbr eləyin bir az da...

Zeynalabdın və Əşrəf qorxu və təşviş içində baxışırdılar. Şirvanın dəyişilməz xəlifəsi, gülabzənli əli ilə qapıda durmuş, fatihə və başsağlığı verənlərə dil-ağız eləyirdi. Zeynalabdının üzündəki ifadəni görüncə xəlifə gözləri ilə Şıxminasa gələn səmtə işarə elədi. Gördülər ki, Səhhət, Ağa Mirmehdi ağanın qoluna girib, pirani qocanı ağır-ağır cənazə
alayına tərəf gətirir. Cavanların qəlbinə bir rahatlıq gəldi:

«Şükür sənə ilahi, deməli, əmimin namazını Mirmehdi ağa özü qılacaq. Day heç kəs namazını qılan da olmadı deyib bizə tənə vura bilməyəcək» — Zeynalabdın düşündü. «Qoy indi Hacı Axund nə deyir desin öz əlaltılarıynan».

Şıxminasdan Yeddigünbəzə gedən uzun yol boyu mafəyə qoyulmuş tabut çiyinlərdə getdi. Ardınca Şirvanın və Bakının həmin günlərdə Şamaxıda olan ziyalıları, məktəb uşaqları, şəhərdə mədəniyyətə, maarifə rəğbət bəsləyən tacirlər, qulluqçular və digər bazar əsnafı, qohum-əqraba, dostlar gedirdi. Onlar bu gün

Hophopla vidalaşır, əbədi ayrılırdılar...

Cənazə alayında, bu günlərdə Şamaxıda olan başqa millətlərin ziyalıları; rus, erməni və gürcü müəllimlər də iştirak edir, tabut arxasınca gedənləri dərin bir kədər içində izləyirdilər. Səhhətin dərdinin hüdudu yox idi. Qəlbində bu günlərdə Sabirə təsəlli üçün düzdüyü misralar kəlmə-kəlmə, misra-misra dillənir, xalqa üz vermiş bu ağır itkini, qara xəbəri dünyaya yaymaq üçün dodaqlarından qopub, acı ruzgara qoşulmaq istəyirdi:

Ey mücəssəm duyğu, ey ülvi bəşər,
Ey çamurluq içrə düşmüş saf zər!
Tənü lən eylərsə hər nadan sənə,
Ya müsaid olmasa dövran sənə.
Qəm yemə, təxfif var alamına,
Az çəkər, heykəl yaparlar namına!

İndi isə cənazə alayı ardınca gedənlərin qəlbində ucalmağa başlayal bu heykəl, onlara özünəməxsus bir təmkiilə təsəlli verir, deyirdi: «Əsərlərim yadigarım və heykəlimdir, dostlar! Sizə arxayın olub gedirəm! Onları bir kitab halında nəşr etdirsəniz, mənə ən layiqli heykəl qoymuş olarsınız».

Hərdən mənə elə gəlir ki, dostlarının xatirələrində söylədiyi o ağlar şeirləri «Hophopnamə şairi Sabir yazmayıb. Onları kim isə başqa birisi onun adından qoşub. Xatirələrin bəzisindəki miskin, düşgün, bədbin cümlələr də heç onun deyil. Amma «Ölməyimlə sevinməsin əğyar», «Mən ölərəmsə məramım yenə dünyada durar», «Bənzərəm bir qocaman dağa ki dəryada durar» — bax bunlar Sabirindir. Bu hökm, bu əzəmət o zahirində xırdaca, batinində dağlardan: Baba dağından, Şah dağından belə uca, möhtəşəm sənətkarındır. Öz ruhuna müraciətlə söylədiyi bu misralara diqqət edin:

Hara getsən sənlə mən də varam,

Şu bədəndə fəqət əsirsiz — zar!
Ölməyimlə sevinməsin əğyar,
Aləm olduqca mən dəxi duraram!

Bax bu, Sabirdir! Sabir ruhu məhz bu kimi misralarda təzahür edir.

Sabir satiraları nəylə seçilirdi? Sərrastlığı, hədəfin aydınlığı, dərinliyi, zərbələrinin öldürücülüyü ilə. Bütün başqa vətəndaş — şairlərimiz yavaş-yavaş fitillə şam kimi yanıb — Sabir isə partlayışla, üzərinə benzin atılmış tonqal kimi şölələnib, çatırtıyla, alovla yanıb.

...Bir neçə gün Səhhətin ağlı üstünə gəlmədi, qəlbi sükunət tapmadı. Seyid Ruqiyyə ananın çəkdiyi bir bayatı nəqərata dönüb ürəyində səsləndi: «Həmişə cüt gəzardiz, hanı yoldaşın, durna?» Bu misralar ona dinclik, yazmaq imkanı vermədi. Nəhayət, özünü ələ alıb bu matəm xəbərini Sabirin sevgili millətinə çatdırmağı özünə borc bildi:

«Qara xəbər!

Ey qare![1] Məqaləmin sərlövhəsi nəzərinə çarpdıqda, bir müsibət xəbəri olduğunu yəqin ki, biləcəksən. Və ilkin hansı bir nemətin millətdən fövtə getdiyini duymamış isən qoy deyim: qəzetləri, jurnalları oxuduqda, o həvəslə oxuduğun gözəl-gözəl şeirlər, şirin-şirin mənzumələr, duzlu-duzlu sözləri ki, bir anda səni həm ağladıb, həm güldürürdü, — onları bir də görməzsən. Zira onların nazimi, onların mübdii, onların müxtərei olan sevgili, əziz şairimiz Sabir əfəndi əlimizdən getdi!..

Yalnız istəkli rəfiq, mehriban dost itirdiyimdən bu qədər mütəəssir deyiləm: bir böyük millət bir qiymətli şair itirdiyindən kədərim bilmüzaəfdir. Sabirin vəfatı millət üçün bir ziyani-əbədidir, bir zərbeyi-fəlakətdir ki, onun ağrısını millət, vücudunda hələ sonralar dərk edəcəkdir.

---

[1] Oxucu

Sabir! Alimlər, ədiblər, şairlər öləndə, sən onlar üçün mərsiyə yazardın, nitqlər söylərdin. İndi sənin üçün mərsiyə oxuyan yoxmu, əcəba? Xeyr, nə qədər ölməmişəm, səni yaddan çıxartmaram. Sən yaddan çıxmazsan, sən ölməmişsən, sən aləmi-mənada dirisən. Bir milləti diriltməyə çalışan özü ölərmi? Yox, ölməz!

Sabir, az vaxtda millətimizə çox xidmət etdin. Sənin xədəmatına dair nitqlər oxunmalı, əyyami-həyatına dair məqalələr dinlənməli, qırx səkkiz sənəlik bir ömründə sabun tiyanının kənarında, odlar-alovlar içində taqətfərsa zəhmətlərlə millətin üçün çalışdın, dövreyi-həyatın qayət mərarətli keçdi, yaşadığın mühitdən cismən, ruhən, bədənən cəfadan qeyri bir şey görmədin...

Sabir, ey şairi — dühapərvər,
Eylədin ərşi-kibriyayə səfər:
Can kimi eevdiyin yazıq millət
Hələ səndən umardı çox xidmət.
Təngiayi-cahanı tərk etdin,
Əndəlibim, nə tez susub getdin?
Müqtədir, binəzir şair idin,
Hər bəla gəlsə idi — sabir idin.
Yoxsa səbrin tükəndimn, Sabir?
Bizə könlün gücəndimi, Sabir?
Dəmbədəm qəm çəkər ikən ruhin,
Dözmədi yoxsa, qəlbi-məcruhin?
Millətin dərdi ilə qəmləndin,
Bulmadınmı dəva, vərəmləndin?»

Qələm ağlar, kağız ağlar, göz ağlar... Səhhət ağlar, millət ağlar, söz ağlar... Seyid Ruqiyyə ana o biri otaqda, miz arxasında oturub, lampa işığında nə isə yazan oğlu Səhhətin indi doğrudan da, heç kəs görmədiyi bu guşədə, həzin-həzin, ağladığını görsəydi, məhz belə deyərdi və sonra da əlavə edərdi: «Sən ağlama, qadasın aldığım, oğul itkisinə ana ağlar... Qoy mən ağlayım»...

...Bir neçə gün, hələ bir neçə ay Səhhət, poçtçu Həsənin gətirdiyi qəzet və jurnallarda Azərbaycanın ən adlı ziyalılarının — Köçərlinin, Mirzə Cəlilin, Şaiqin, Üzeyir bəyin, Hadinin, Qəmküsarın, Müznibin, Mehdi bəyin, Qafur Rəşadın, Hacı İbrahimin, Əli Fəhminin və onlarla başqalarının Azərbaycan və rus dillərində dərc olunmuş məqalələrini, kədərli yazılarını oxuyur, bağrı şan-şan olurdu. Bundan sonra Səhhətin həyatında yeni bir məqsəd meydana çıxdı. İndiyəcən o yazır və xalqına səhhət, maarif gətirmək istəyirdi. «İndən belə tək bircə «Hophopnamə»ni nəşr eləyə bilsəm, bircə bunun üçün yaşamağa dəyər» — düşünürdü. Bunun üçün tez-tez Bakı səfərlərinə başladı. O, tez-tez Bakıya, Bülurnisə xanımın vəkalətiylə gəlir, Sabirin əsərlərini tərtibə salıb, onun nəşri uğrunda çalışan ziyalılara, xüsusilə təşkil olunmuş komissiyaya — yazıçı Seyid Hüseyn, müəllim Mahmud bəy Mahmudbəyov və mühərrir Mehdi bəy Hacinskiyə baş çəkir, onlarla görüşürdü.

Sabirin sevgili xalqının ən yaxşı oğul və qızları ianə dəftəri açıb, əsərlərinin nəşrinə yardım etdiyini görəndə, qəlbi tel-tel olan Səhhət təsəlli tapır və düşünürdü: «Əziz dostum, ruhun şad olsun, millət və xalqının balaları səni unutmur, unutmayacaq da! Sənin düşmənlərin elə xalqın da düşmənləridir. Arxayın ol, vətən övladı, sənin asarını nəşr etdirməklə sənə heykəl ucaldacaq. Əşarın yenə də, ölümündən sonra da və həmişə sevimli xalqına xidmətdə davam edəcəkdir».

...İnqilaba qədərki Şirvanın keşməkeşli illərində «İblisin Şamaxıda rəqs elədiyi» günlərdə bütün şairlərin, ziyalıların olduğu kimi Sabirin də əlyazmaları Səhhətin özününkülərlə birlikdə yanan evdə məhv oldusa da, inqilabdan sonra xalqın oğul və qızları böyük Sabirin əsərlərini əski jurnal və qəzet səhifələrindən də toplayıb 1912 və 1914-cü illərdə böyük zəhmətlərlə nəşr edilmiş «Hophopnamə»yə əlavə etdilər. Yaradıcılığı tədqiq olundu. Ona qəlblərdə ucalan heykəl Sabir bağında, Balaxanıda işlədiyi məktəb önündə, doğma Şamaxıda və adını daşıyan onlarla kənd, kolxoz,

məktəb və s. qranitdən, mərmərdən, tuncdan «dağ kimi» ucaldıldı. Əsərləri bir çox dillərə tərcümə olunub nəşr edildi. Xalq böyük əvəzsiz oğluna layiqli qiymətini verdi.

Bakı —1983—1986

MÜNDƏRİCAT

«Tutdum orucu irəmazanda» . . . .

«Gördüm neçə dəstə tazə güllər» . . . .

«Sabira! Torpağa saldı sayə rəna dilbərim» . . . .

«Viranə Şamaxıda mənə gənc tapılmaz» . . . .

«Sabira! Beynəlmiləl tədbiri-ülfət etməli» . . . .

«Molla dayı! Etmə şərarət belə!» . . . .

«Eylə bilirdim ki, dəxi sübh olub» . . . .

«Aldanmaram ki, doğrudur ayinin, ey əmu!» . . . .

«Osmanlılar! Aldanmayın, allahı sevərsiz!» . . . .

«Seyli-tən eylə təməvvüclə alıb dövrü bərim» . . . .

«Qarışıqdır hələlik millətin istedadı» . . . .

«Fəhlə, özünü sən də bir insanmı sanırsan?» . . . .

«Bənzərəm bir qocaman dağa ki, dəryada durar» . . . .

«Arizi-qəmlər əlindən ürəyim şişmiş idi» . . . .

«Ölməyimlə sevinməsin əğyar» . . . .

Rəssamı *X. Mirzəyev*

Məşələ dönmüş ömür

Nə qəm, uğratsa da bir gün məni ifnayə zaman,
Mən gedərsəmsə məramim yenə dünyada durar!

M. ***Ə. Sabir***



Sabirin Türkiyədə prof. Məçid Doqru tərəfindən çap olunmuş «Hophopnamə» kitabında verilmiş şəkli

Sabir Balaxanıda şairlər arasında.

Şamaxı rayonu Leninabad kənd orta məktəbi qarşısında Sabirin heykəli

M.Ə. Sabirin Şamaxıda xatirə muzeyi

«Əşhədü billahi-əliyyül-əzim, Sahibi-imanəm, a şirvanlılar!»

„Хопъ-Хопъ Намэ".

ПОЛНОЕ СОБРАНІЕ

СТИХОТВОРЕНІЙ

Кавказско-тюркскаго народнаго поэта

Сабира Таиръ-Заде.

Издательница

ХАНУМА ТАИР-ЗАДЕ.

2-ое полное изданіе

Цѣна 1 руб. 50 коп.

БАКУ.

1914 г.

«ЬопҺопнамэ», Бакы, 1914

«Hophopnamə», Bakı, 1914



KOLLIAT HOUP HOUP NAMEH

THE COMPILED PROSE
OF
A.A. SABER TAHERZADEH

P.O. Box A Belleville Ill. 62222

۱۲۵۶ خرداد بها برابر ۱۲۰ ریال

«Күллиjjаты—ҺопҺопнамə», АБШ,
1977-чи ил, Белвил

«Külliyyatı – Hophopnamə», ABŞ, 1977-ci il, Belvil



Sabirin 1977-ci ildə ABŞ-da çap olunmuş «Hophopnamə» əsərində verilmiş şəkli